www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxana

“Azərbaycan multikulturalizmi” N 25 (08 - 2016)

İdris Hacızadı

“Dünyamızın bəzəyidir insanlar”

Mənsur şeirlər və poetik əsərlər toplusu

YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2017

03.05.2017
Yeni Yazarlar və Sənətçilər Qurumu
www.yysq.org

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

Bu elektron nəşr Yeni Yazarlar və Sənətçilər Qurumunun hazırladığı, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən bir qismi maliyyələşdirilən, http://www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın "Multikultural Azərbaycan" kulturoloji-innovativ layihəsi çərçivəsində e-nəşrə hazırlanaraq yayımlanır.

Layihə çərçivəsində hazırlanan digər elektron nəşrlərimiz və e-kitablarımız burada:

http://kitabxana.net/?oper=e_kitabxana&cat=176

Kulturoloji layihənin bu hissəsini maliyyələşdirən qurum:

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi: http://mys.gov.az

Kulturoloji layihənin dəstəkləyən qurum:

Yeni Yazarlar və Sənətçilər Qurumu - http://www.yysq.kitabxana.net

Sosial şəbəkə resursumuz:
https://www.facebook.com/groups/yenikreativ/

İdris Hacızadə

“Dünyamızın bəzəyidir insanlar”

Publisitik əsərlər və araşdırmalar toplusu

Redaktə və bütün hüquqlar müəllifə məxsusdur

Kitab YYSQ tərəfindən e-nəşrə hazırlanıb

Virtual redaktoru, e-nəşrə hazırlayanı:

Aydın Xan Əbilov, yazıçı-kulturoloq

Milli Virtual-Elektron Kitabxananın e-nəşri. **Bakı – 2017**

“Dünyanın bəzəyi insanlar” kitabı əslən Lənkərandan olan müəllifin ömrünün (75 ilin) yarıdan çoxunu ünsiyyətdə olduğu müxtəlif peşə sahibləri haqqında qələmə aldığı yazılar toplusundan ibarətdir. Bura oçerk və zarisovkalar, maraqlı müsahibələr, işıq üzü görmüş bədii kitablar haqqında rəylər, publisistik düşüncələrin məhsulu olan materiallar daxildir. Qələmə alınan yazıların əksəriyyəti yazıçının xüsusi tədqiqatların və şəxsi düşüncələrindən yaranmışdır. Bütün bunlar isə kitab müəllifinin dərin müşahidə qabiliyyətindən və dünyanın bəzəyi olan insanları yaxşı tanımasından xəbər verir.

DİQQƏT

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsin şamil olunmur.

İdris Hacızadə

“Dünyamızın bəzəyidir insanlar”

Publisitik əsərlər və araşdırmalar toplusu

“Ecoprint” nəşriyyatı. Bakı - 2016

Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2017

İDRİS HACIZADƏ

“DÜNYANIN BƏZƏYİ İNSANLAR”

BAKI-2012

Rəyçi: Yasif Nəsirli, filologiya elmləri doktoru,

“Azərbaycan Dünyası” Beynəlxalq Əlaqələr

Mərkəzinin prezidenti

Redaktor: Dağbəyi İsmayılov, Respublikanın

Əməkdar jurnalisti, AzərTAcın direktor müavini

Rəssam: Rafiq Azəritürk

Operator: Elnarə

Korrektor: Tünzalə

Kompüter tərtibatçısı: Qorxmaz

İdris Hacızadə

Müəllifdən

Yer üzünün əşrəfi – dünyanın bəzəyidir insanlar! Bu qoca dünyanın bəzəyi və yaraşığı, dayağı və bünövrəsi – təməl daşıdır insanlar. Dediyim bu qoca dünya da elə o insanların çiynində qərar tutub. Yoxsa məhvərindən çıxardı Yer kürəsi.

Mən 50 ildən artıqdır ki, yaşından və vəzifəsindən asılı olmayaraq belə insanlarla ya yaxından ünsiyyətdə olmuş, ya da barələrində, fəaliyyətləri haqqında geniş məlumat toplamış, zəngin və nümunəvi həyat tarixçələrinə yaxından bələd olmuş, sonra da müxtəlif qəzet və jurnallarda onları necə deyərlər vəsf etmişəm. Onların arasında Böyük Vətən müharibəsində dəfələrlə ölüm-dirimlə üzləşsə də Allahın qüdrətilə salamat özünü anasına yetirməyə nail olan şair Fətəli Sahib (Allah rəhmət eləsin), ömrü boyu yaşaya-yaşaya yanan, yana-yana yaşayan, Türk dünyasının unudulmaz şairi, Azərbaycanın Bəxtiyarı Bəxtiyar Vahabzadə, onun saf əqidə dostu, kristalloqraf alim, Qarabağ dərdinə dözməyib

dünyasını vaxtsız dəyişən əsl ziyalı, paklıq və saflıq mücəssəməsi olan Xudu Məmmədov, 36 ay erməni əsirliyində qalan, indi də yarıcan olan beyləqanlı Fariz Şükürov, dəfələrlə ölüm kabusu ilə qabaq-qənşər olan, Qarabağ döyüşlərində neçə-neçə yaralını ölümün pəncəsindən xilas edən hərbi xidmət polkovnik-leytenantı Şahlar Quliyev, uzun illər DTK-da fəaliyyət göstərən, ehtiyatda olan general-mayor, yazıçı və publisist, əməkdar incəsənət xadimi Yasif Nəsirli, Azərbaycanın neft maqnatlarından biri kimi tarixə düşmüş Bakı milyonçusu, şəhərimizdə öz milyonlar hesabına tikdirdiyi əzəmətli binaları, o cümlədən nakam oğlu İsmayılın şərəfinə ucaltdığı «İsmailiyə» binası və sair əzəmətli tikililəri ilə bu gün də qürur hissi ilə yad edilən Ağa Musa Nağıyev, akademik Budaq Budaqov, Azərbaycanda caz sənəti ilə muğamın sintezinə nail olan Vaqif Mustafazadə, görkəmli teatr və kino xadimləri, tanınmış müğənnilər, diktorlar (Möhsün Sənani, onun gəlini Ofeliya Sənani, Şövkət Ələkbərova, Rübabə Muradova, Gülxar Həsənova, Flora Kərimova, Baloğlan Əşrəfov, Yaşar Səfərov, Oqtay Ağayev, Züleyxa Hacıyeva), ingilis dili sahəsində ilk azərbaycanlı görkəmli mütəxəssis, AMEA-nın müxbir üzvü Zemfira Verdiyeva, tanınmış yazıçı və publisist, Milli Məclisin üzvü Hüseynbala Mirələmov, Qarabağ seyidlərindən olan Seyid İsmayıl, xalq yazıçısı, həyatı,

ömür yolu gənclərə örnək olan, 37-ci ilin ağır represiyasına tuş gələn, 7 il Sibirdə sürgün həyatı yaşayan, Azərbaycan mənsur şeirinin banisi Gülhüseyn Hüseynoğlu, görkəmli neftçi-alim, «Şöhrət» ordeni və «Tərəqqi» medalına layiq görülmüş Nuru Nuriyev, İslam dinini qəbul edərək, həcc ziyarətində olmuş və Hacı Məhəmməd soyadını daşıyan Vitali Opuşkin və başqaları vardır. Bundan başqa görkəmli adamlarla apardığım müsahibələr, işıq üzü görmüş yeni nəşrlər barədə rəylər də kitaba daxil edilmişdir.

«Dünyanın bəzəyi insanlar» kitabında yer alan insanların əksəriyyəti bu gün aramızda yoxdur. Amma işıqlı simaları daim gözlərimiz önündə, adları isə yaddaşımızda əbədiləşib. Onlara "Ruhları şad olsun", - söyləyir, bu gün sıralarımızda olub, fəaliyyətlərini davam etdirənlərə isə cansağlığı arzulayırıq!

ÖYÜNÜRƏM Kİ, MƏN DƏ AZƏRBAYCANLIYAM

«Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm:

Mən Azərbaycanlıyam»

Heydər Əliyev

Doğma diyarım, dövlətim-varım - Azərbaycanım mənim. Sənindədir səadətim, bəxtiyarlığım. Fəxr edirəm adınla, ey Odlar ölkəsi! Bu gün adın sivil dövlətlər arasında hörmətlə çəkilir. Bu, bizə böyük fəxarətdir, Azərbaycanım! Dünyanın iki qitəsi -Asiya ilə Avropanın qovşağında qərar tutmusan. Qoca Şərqin qapısında sönməz mayaksan sən! Deməli, Şərqə də, Asiya və Avropaya da qapıların açılır sənin. Ona görə də bu gün dünyanın nəzərləri sənədir, qüdrətli Vətənim mənim! Tanrı səndən heç nəyi əsirgəməyib. İlk öncə sənə bərəkətli və münbit torpaq bəxş edib. O torpaq ki altı da, üstü də

qızıldır. O torpaq ki orada ildə iki dəfə məhsul əkib-becərmək mümkündür. Çünki dünyanın 11 iqlim qurşağının düz doqquzu təkcə sənin payına düşüb. Bundan böyük xoşbəxtlik ola bilərmi?! Ən böyük və tükənməz yeraltı sərvətin "qara qızıl"dır, yəni neftdir.

Doğrudan da, neft mövcudluq, yaşayış, həyat deməkdir. Bu gün dünya, Yer kürəsi enerji ehtiyatları üzərində nəfəs alır, yaşayır. Hansı ölkə ki neft ehtiyatı ilə zəngindir, hansı ölkə ki "qara qızıl" istehsalı ilə məşğuldur, həmin ölkə iqtisadi cəhətdən güclü məmləkət sayılır. Sən də belə məmləkətlər cərgəsindəsən, Azərbaycanım mənim. Az qala iki əsrdir ki, sənin torpaqlarının dərin qatlarından "qara qızıl çıxarılır, neft diyarı kimi dünyada tanınırsan. Amma hasilə gətirdiyin o "qara qızıl" həmişə xalqına xoşbəxtlik gətirməyib, bu müdrik və qədim xalqın üzünü həmişə ağ eləməyib. Çünki adını çəkdiyim "qara qızıl"ın sorağı ölkə-ölkə, diyar-diyar dolaşdıqca, əcnəbilərin, yadların da qoynuna axını çoxalmış, neftinə göz dikənlər Azərbaycana gələrək burada qaz vurub qazan doldurmuşlar. Təkcə milliyyətcə alman olan Nobel qardaşlarının Bakı nefti hesabına dünyanın ən varlı milyonçularına çevrilməsi, yəqin ki insaf və mürvət, vicdan və ədalət sahiblərinə yaxşı məlumdur. Uzun illər Beynəlxalq Nobel mükafatı kimi fəaliyyət göstərən bu aksiya da məhz Azərbaycan neftinin

gəlirləri hesabına həyata keçirilir ki, hər il Yer kürəsinin bir neçə xoşbəxt bəndəsi müxtəlif sahələr üzrə bu möhtəşəm mükafata layiq görülür. Amma təəssüflər olsun ki, dünyanın bir çox nəsnələri, bəlkə də elə həmin mükafat alanların özləri də həmin mükafatın mənbəyi, yəni o mükafatın haradan qaynaqlandığının fərqinə varmır. Eybi yoxdur, doğma diyar, səxavətli Azərbaycanım mənim. Madam ki Ulu Tanrı öz səxavətini səndən əsirgəməyib, sənə min cür yeraltı və yerüstü sərvət bəxş edib, sən də öz səxavətini heç kimdən əsirgəmə. Elə bir müdrik atalar sözündə deyildiyi kimi, "Yaxşılığı elə, at dənizə, balıq bilməsə, Xaliq bilər".

Sənin uzün illər ərzində hasilə gətirdiyin "qara qızıl"ın Böyük Vətən müharibəsində almanlara qarşı amansız, ölüm-dirim mübarizəsində oynadığı danılmaz, cahanşümul rolunu hansı nankor inkar edə bilər? "İkinci Ural adlandırılan Azərbaycan məhz həmin ağır illərdə hasil etdiyi benzini ilə müharibənin taleyini bizim xeyrimizə həll etmişdir. Deməli, məhz Azərbaycan nefti İkinci cahan savaşında müstəsna rol oynamışdır. Axı o illərdə SSRİ-də çıxarılan "qara qızıl"ın 75 faizi respublikanın payına düşürdü. Amma nə yazıqlar ki, SSRİ-nin alman faşizmi üzərində qələbəsində xidmətləri olan xeyli şəhərə "Qəhrəman şəhər" adı verildiyi halda, müharibədən sonra Bakı "unuduldu". Halbuki onun bu adı

almağa daha çox hüququ var idi. Görünür, rusların yedəyində gedən, Moskvanın rəhbərliyində yaltaqlıqları və Azərbaycana qarşı paxıllıq və həsəd hissi ilə alışıb-yanan əbədi düşmənlərimiz olan (halbuki bunu heç vaxt yadda şaxlamamışıq, elə bu unutqanlığa görə nankor və məkrli qonşularımız tərəfindən zaman-zaman hücumlara məruz qalmışıq) ermənilərin, o cümlədən "ellər atası" Stalinin nökərinə çevrilmiş, onun hüzurunda ən alçaq hərəkətlərə hazır olan Mikoyanların barmağı olmuşdur. Necə ki elə həmin müharibədə misilsiz şücaətlər göstərmiş tank qoşunları general-mayoru Həzi Aslanov ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülsə də, erməni mənşəli sərkərdənin paxıllığı və düşmənçiliyi üzündən bu məsələ üstüörtülü qalmış, lakin haqq-ədalət öz yerini tutandan sonra qüdrətli sərkərdə general-mayor Həzi Aslanovun şücaətinə verilən qiymət - ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı özünə qaytarılmışdır.

Bəli, doğma Vətənim, Azərbaycanım mənim, yuxarıda qeyd etdiyim kimi "qara qızıl"ın sənin üzünü həmişə "ağ" etməyib. 70 il - rus imperiyasının təzyiq və təsiri altında yaşadığın müddətdə neftinə sahib duran imperiya qədrini bilmədi sənin. SSRİ kimi dünyanın altıda birini təşkil edən bir nəhəng ölkəyə dayaq olan respublikalardan biri də sən idin, daha doğrusu, özünü hər cəhətdən təmin edən birinci respublika idin. Təkcə

neftinləmi? Əsla yox. Bəs "ağ qızıl"ın, yəni pambığın, üzümün, tərəvəzin, ətirli çayın, sitrus meyvələrin, bostan bitkilərin? Ümumittifaq bostanı - Azərbaycanım, sən bu adla tanınırdın. Uzaq Sibirin tundrasında yaşayan xalqlar payızda qışda, elə İl boyu Azərbaycandan göndərilən tərəvəz, pomidor və xiyardan gen-bol istifadə edirdilər. Əvəzində nə qazanırdm, Azərbaycanım mənim? Hər il təsərrüfatın bütün sahələrində qazandığın rekord miqdarda nailiyyətlərə görə quruca təşəkkürlər göndərilirdi ünvanına. "Şiroko şaqaet Azerbaydjan" kimi şüarlarla, şərəfimizə təsis etdikləri bayraqlarla qoltuğumuza qarpız verir, başımızı sığallayır, fəhlə və kəndlilərimizin az qala dərisini soyurdular. Halbuki həmin illərdə Azərbaycanın əldə etdiyi rekord miqdarda nailiyyətə görə hər bir azərbaycanlı milyonçu olmalı idi. Əfsus ki, bütün bunlara imperiya rəhbərliyi adi hal kimi baxırdı. Elə buna görə də zülm və zorakılıq, əzab və işgəncə üzərində qurulmuş dayaqları çökdü, uydurma "Sosializmdən kommunizmə keçidin bir addımlığında" parçalandı. Əli bu dinc millətin qanına batmış (bu yerdə bir anlığa "20 Yanvar" faciəsini, Bakıda qanı axıdılan dinc sakinlərin güllələbaran edilməsini yada salın və şəhid olmuş soydaşlarımızın ruhlarına dualar oxuyun!) M.S.Qorbaçovun "yenidənqurma"sından sonra Sovetlər

İttifaqı necə deyərlər, yerlə-yeksan oldu. Elə nə yaxşı da oldu!

SSRİ-ni birləşdirmiş 15 respublikanın hər biri əsarət zəncirindən xilas oldu, öz müstəqil dövlətini qurdu. O cümlədən də sənin özün, əzabkeş Azərbaycanım mənim! İndi başının üstündə üçrəngli bayrağın dalğalanır. Müstəqillik yollarında irəliləyirsən. Düzdür, müstəqilliyə çatana kimi başına olmazın fəlakətlər gəldi, qısa zaman kəsiyində neçə əsr yol keçdin, müdrikləşdin, Vətənim mənim. Nə qədər qurbanlar verdin! Qələbə qurbansız olmaz, -deyiblər.

Müstəqil bir dövlət kimi dünya ölkələri cərgəsində addımladıqca, bu illər ərzində qazandığım uğurlara nəzər yetirdikdə, inana bilmirsən ki, tarixin bu qısa kəsiyində bu qədər nailiyyətə imza atmaq mümkün olarmış! Bütün bu uğurlar, bu az vaxtda əldə olunan müvəffəqiyyətlər 70 il sovet imperiyasında qazanılanlardan qat-qat çoxdur, sanballıdır, möhtəşəmdir.

Doğma diyarım Azərbaycanım! Özündən xəbərin varmı ki, kosmik sürətlə irəliləyirsən?! İqtisadi sahədə qazandığın uğurlara dünyanın ən çox inkişaf etmiş ölkələri belə həsəd aparır. Onları qınamaq olmaz. Sənin götürdüyün istiqamət əsl kosmik eranın -XXI əsrin

sürətilə düz mütənasibdir. Çünki sənin sükanın etibarlı əllərdədir. Bu etibarlı əllər ölkə başçısı cənab İlham Əliyevə məxsusdur. Bu müstəqil dövlətin beşiyi başında məhz İiham Əliyev durur. O da bu estafeti atası - XX əsrdə ikinci dəfə müstəqilliyə nail olmuş Azərbaycan Respublikasının banisi, ümumilikdə, 1969-cu ildə ölkənin sükanı arxasında dayanmış ümummilli və əbədi liderimiz, dünya şöhrətli siyasətçi, Türk dünyasında Atatürklə müqayisə olunan dahi bir şəxsiyyət Heydər Əlirza oğlu Əliyevdən qəbul etmişdir. O Heydər Əliyev ki hələ Moskvada Siyasi Büronun üzvü olarkən, Bakıda törədilmiş 20 yanvar faciəsindən sonra Kommunist Partiyasına "əlvida" demiş, Rusiyadakı fəaliyyətinə xitam vermiş, Azərbaycanda törədilmiş "20 Yanvar" faciəsi barədə dünya ictimaiyyətinə məlumat vermiş, Azərbaycana - doğulduğu Naxçıvan Respublikasına gəlmiş, ölkədə baş verən siyasi hadisələrin axınına qoşulmuşdur. O Heydər Əliyev ki Azərbaycanda məcrasından çıxan vəziyyətin qardaş qırğınına, vətəndaş qarşıdurmasına tuş gəldiyi bir məqamda 91 azərbaycanlı ziyalının xahiş və tələbilə Bakıya gəlir. Zəngin təcrübəsi, dünyagörüşü və təmkini sayəsində tədricən gərgin vəziyyət səngiyir, alovlanan alov söndürülür. Beləliklə, Azərbaycan və onun paytaxtı, eləcə də bölgələrimiz rahat nəfəs alır.

Budur, o vaxtdan keçən illər ərzində, eləcə də cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər ərzində Azərbaycanım, necə də dəyişmisən, tanınmaz olmusan. Bu gözəllik elə bil boyuna biçilib. Regionların sosial inkişafı barədə Dövlət Proqramına əsasən respublikamızın hər yerində möhtəşəm tərəqqi və inkişaf uzaqdan nəzəri cəlb edir. Paytaxtımız nəinki gündən-günə, hətta saatdan-saata böyüyür, gözəlləşir, genişlənir. Şəhərdə tikilib istifadəyə verilən körpülər, keçidlər Bakıya xüsusi gözəllik verir, göz oxşayır. Bakıda körpülərin və keçidlərin inşası davam etdirilir, bir ildən sonra respublikanın baş şəhəri dünyanın ən gözəl yaşayış məskənləri ilə yarışa girəcək.

Hə, gözəlim mənim Azərbaycanım. Bu gün hər bir soydaşın-qoynunda böyüyüb-boy atan hər bir vətəndaşın uğurlarına sevinir, qürur hissi keçirir, sevinci sinəsinə sığmır. Gözəlliyinə heyran qalır. İnanır ki, gələcəyin daha uğurludur. Hansı əcnəbi ölkəyə yolu düşsə, həmin yad diyarlarda sənin vətəndaşından soruşsalar ki, haradan gəlmisən, hansı məmləkətin vətəndaşısan, o da tərəddüd etmədən fəxrlə dərhal belə cavab verər: Mən Azərbaycanlıyam!

Gəncliyini yaşayan qədim şəhər

Ölkə başçısının Bakı şəhərinə diqqət və qayğısı göz önündədir

Bir dön bizim Bakıya bax,

Sahilləri çıraq-çıraq.

Buruqları hayqıraraq

Nərə çəkir boz çöllərə,

Yaşıllaşır hər dağ-dərə...

Səməd Vurğun

Azərbaycanın paytaxtı əzəmətli Bakı dünyanın ən gözəl və yaraşıqlı şəhərlərindən biridir. Bəzən həzin, bəzən dalğaları şahə qalxan mavi gözlü Xəzərin qoynuna sığınmış şəhərə gecələr dəniz ana kimi layla çalır - həzin pıçıltılı dalğaları vasitəsilə. Əsrlərin yadigarı olan Qız

Qalası Xəzərə keşik çəkir, Qız Qalası əfşanəsini ona nəql edir. Sinəsində minbir möcüzə yatan Qız Qalası bəlkə də öz əsl sirrini söyləcəyi bələdçisini gözləyir. Sirli, müəmmalı, neçə şahlar görmüş ulu Şirvanşahlar sarayı, özünəməxsus unikal iqlimə, gözəlliyə malik, tin və döngələri ilə nəzəri cəlb edən qədim İçərişəhər!

Bakı sadaladığım ətrafdakı möcüzələri ilə bu yerlərə güzarı düşən məşhur səyyahları, müsafirləri məftun etmişdir. Bu gözəlliklər mücəssəməsi olan şəhəri İtaliyanın Neapoluna bənzətmişlər. Amma Bakı özünə bənzəyir. O, Şərqin qapısında qərar tutmuş bir mayakdır. Avropa və Asiyanın qovşağında yerləşən Bakı Şərq üslubunda inşa edilmiş, Avropa və İtaliya memarlıq elementlərini də özündə ehtiva edən qeyri-adi bir yaşayış məskənidir. Neft şəhəri kimi də dünyada tanınan Bakını (Badi-Kubə) «Küləklər şəhəri» də adlandırırlar. Bu ad ona təsadüfən verilməyib. Vaxtilə Bakıya səyahət etmiş hansısa coğrafiyaşünas məhz bu məskəni «küləklər şəhəri» adlandırmışdır. Çünki o, bu şəhərə gəldiyi gündən gedənə qədər güclü küləklə rastlaşmışdır.

Bəli, biz Bakını küləyi ilə, giləvarı, güclü xəzrisi ilə sevirik. Çünki o, beləcə özünəməxsus bir şəhərdir.

Qoynuna sığındığı Xəzər də Bakının özünə bənzəyir. Dalğaları gah kükrəyib, şahə qalxır, gah da sakitləşib, məsum körpəyə bənzəyir. Onlar bir-birini tamamlayır, biri digərinə yaraşıq verir. Bakı və Xəzər!

Bakı, respublikamızın baş şəhəri! Ümummilli liderimiz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 35 ildən artıq bir müddətdə öz dairəsi ətrafında böyümüş, genişlənmİş, gözəlləşmiş, qüdrətli nəhəng bir sənaye şəhərinə çevrilmişdir. Məhz Ulu öndərimizin təşəbbüsü ilə respublika paytaxtında bir sıra sənaye obyektləri, nəhəng mədəni-maarif və sağlamlıq ocaqları yaradıldı. Bakı Məişət Kondisionerləri Zavodu; «Azərelektroterm» Elmi-Istehsalat Birliyi, bir neçə neft emalı zavodları, Ana və Uşaq Sağlamlıq Mərkəzi, şəhərin mərkəzində Ulu öndərin adını daşıyan Saray və başqa nəhəng tikililər məhz Heydər Əliyevin bizə yadigarıdır. Hazırkı Musiqili Komediya Teatrı, Bakı İdman Sarayı və Konsert Kompleksi, «Bakı», «Abşeron», «Azərbaycan», «Moskva» mehmanxanaları, Dəniz vağzalı da bu sıraya daxildir.

Tez-tez Bakının seyrinə çıxan ümummilil lider küçə və meydanlarda, park və xiyabanlarda şəhər əhalisi ilə mehribancasına və xoş təbəssümlə görüşür, onların əhvali-ruhiyyəsi ilə ;maraqlanır, hamının qəlbində xoş duyğular

oyada bilirdi. Hər kəsi öz ovqatında, öz ruhunda, öz dilində danışdırmaq qabiliyyətinə malik olan Heydər Əliyev alimlə alim, mühəndislə mühəndis, memarla memar, aktyorla aktyor, rejissorla rejissor səviyyəsində söhbətlər aparır, özünün universal bir insan, sadə bir ölkə başçısı olduğunu nümayiş etdirirdi.

Ümummilli liderin ölkəyə rəhbərlik etdiyi illərdə paytaxtın bir sıra prospektləri genişləndirilmiş, yeraltı keçidlər yaradılmşdır.

Azərbaycan müstəqillik qazanandan sonra respublikamızın hər yerində olduğu kimi, paytaxt Baki şəhərində də abadlıq, tikinti-quraşdırma işləri, yenidənqurma geniş vüsət almağa başladı. Ölkənin iqtisadiyyatı artdıqca şəhər və kəndlərimizin siması da gözəllik donuna büründü. Ö cümlədən də, Bakı şəhəri. Bu gün əbədiyaşar liderimizin, şüurlu və şərəfli ömrünü canından artıq sevdiyi Azərbaycana, onun müdrik və qədirbilən xalqına həsr etmiş bu fenomen dahi insanın əməllərini layiqincə davam etdirən Azərbaycan prezidenti cənab İlham Əliyev məmləkətimizin, o cümlədən onun paytaxtı Bakı şəhərinin infrastruktunun yenidən qurulmasında bütün bilik və bacarığını sərf edir. Xüsusilə ölkəyə rəhbərlik etdiyi illər ərzində şəhərimiz necə də tanınmaz dərəcədə dəyişilmiş, yeniləşmiş, əzəmətli bir

paytaxta çevrilmişdir. Bu gün Bakı nəhəng tikinti meydanını xatırladır. Şərq və Qərb memarlıq üslubunun sintezi şəraitində cərgə ilə inşa edilmiş yaraşıqlı çoxmərtəbəli yaşayış və inzibati binalar, yeni təhsil korpusları şəhərin hüsnünə başqa bir gözəllik verir.

Azərbaycanın hər yerində olduğu kimi, Bakıda və onun ətraf kənd və qəsəbələrində ölkə prezidenti cənab İlham Əliyev və YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın böyük qayğısı və təşəbbüsü sayəsində yeni, dünya standartlarına cavab verən mədəni-maarif və səhiyyə ocaqlarının inşa edilməsi hər bir azərbaycanlının ürəyindən xəbər verir. Şəhər, qəsəbə və kəndlərimizi qarış-qarış gəzən bu vətənpərvər xanım, el qızı tikintisi başa çatmış yeni məktəb binaları və uşaq bağçalarının təntənəli açılışında fərəhlə iştirak edir, öz xeyir-duasını verir və söyləyir ki, ehtiyacı olan bütün yaşayış sahələrində belə məktəb binaları və sağlamlıq ocaqları inşa edilib uşaqların ixtiyarına veriləcək, lazım gələn təhsil ocaqlarında əsaslı təmir və yenidənqurma işləri həyata keçiriləcək ki, gələcəyimiz olan uşaqlarımız təhsillə hərtərəfli əhatə olunsunlar, fidan balalarımız isə təmiz və yaraşıqlı, müasir tələblərə cavab verən uşaq bağçalarında tərbiyə alıb, şən və firavan böyüsünlər.

Sirr deyil ki, Azərbaycanın iqtisadiyyatı yüksəldikcə, insanların maddi durumu yaxşılaşdıqca, istər respublikamızın ayrı-ayrı şəhər və kəndlərində, istərsə də paytaxtda nəqliyyatda sıxlıq yaranır, yəni tıxaclar əmələ gəlirdi. Biz xüsusən Bakı şəhərində bunun daha çox şahidi olurduq. Doğrudan da hazırda şəhərin küçələrində maşınların yaratdığı tıxaclar nəqliyyatın normal hərəkətinə xələl gətirir, əhali arasında narazılıq yaradırdı. Bunu nəzərə alan ölkə prezidentinin sərəncamı ilə şəhərin daha çox tıxac yaranan hissələrində körpülər və keçidlər salınıb. Artıq həmin körpülər və keçidlərin əksəriyyəti istifadəyə verilməklə yaranmış xoşagəlməz vəziyyət əsaslı aradan qaldırılmış, şəhərdə nəqliyyatın ahəngdarlığı bərpa olunmuş, tıxacların qarşısı alınmışdır.

Düzdür, həm də bəzi sürücülər ya öyrəşmədiklərindən, ya da cürət etmədiklərindən yeni salınmış körpülərdən istifadə edə bilmirlər. Əlbəttə, bu hal da uzun sürməz.

Bu məqamda hər bir bakılını narahat edən bir məsələni də xatırlatmaq yerinə düşər. Bəllidir ki, torpaq fondu təzədən doğmur, yəni artmır. Odur ki, mövcud torpaq fonundan qənaətlə və səmərəli istifadə etmək lazımdır. Ələlxüsus Bakının torpaq fondundan. Amma biz bu gün bunu deyə bilmərik. Torpağın od qiymətinə

qalxdığından istifadə edən iş adamları, sahibkarlar Bakı şəhərində torpaqları insafsızcasına istismar edirlər. Belə ki onlar məqsədlərinə çatmaq üçün hətta şəhərə gözəllik verən qol-budaqlı, uzun illərin nadir ağaclarını belə kəsib tökür, yerində çoxmərtəbəli göydələnlər ucaldırlar. Bu isə yaşıllıqlara divan tutmaq deməkdir. Halbuki vaxtilə ulu öndər demişdir: «Hər bir ağac kəsiləndə, elə bil mənim bir qolumu kəsirlər». Bizə belə gəlir ki, MİS rəhbərləri, bələdiyyələrin sədrləri, Bakı şəhər Memarlıq İdarəsi, Bakı şəhər İcra Hakimiyyəti SOS kimi səslənən bu mühüm məsələyə ya biganə qalır, ya göz yumur, ya da bütün bu xoşagəlməz işlər onların xeyir-duası ilə həyata keçirilir. Əks halda, bu biabırçılığın qarşısı alınardı. Bakının gözəlliyinə balta çalmaq olmaz!

Bütün bunlara baxmayaraq, respublikanın pataxtı getdikcə böyüyür, genişlənir. Bir neçə ildən sonra isə Bakı tanınmaz dərəcədə gözəlləşəcək. Bu isə ölkə rəhbərinin paytaxta göstərdiyi diqqət və qayğıdan xəbər verir.

Ona görə də hər bir bakılı, bu şəhəri sevib onun gözəlliyi ilə fəxr edən hər bir Bakı sakini doğma paytaxta böyük qayğı və diqqət yetirən cənab İlham Əliyevə birmənalı şəkildə səs verdi. Çünki hər bir Bakı sakini yaxşı bilir ki, İlham Əliyev Azərbaycanın uğurlu gələcəyinin qarantıdır.

DÖVLƏT STRATEGİYASI HƏYATA KEÇİRİLİR

Ölkə Prezidenti ümummilli liderimiz fenomenal şəxsiyyət, dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin övladı, varisi olduğu kimi, həm də öncə xalqımızın qiymətli sərvətidir. Heydər Əliyev kimi yüksək vəzifə sahibinin ailəsində boyüyüb, tərbiyə alsa da, Zərifə Əliyeva kimi dünya şöhrətli oftalmoloq, akademik, mehriban, analar anası olan xanım-xatın bir qadının isti nəfəsi ilə isinsə də, həmişə sadə həyat tərzinə üstünfük verib. Böyüyün, ağsaqqal və ağbirçəyin sözünə, fikrinə, tövsiyə və məsləhətlərinə daim hörmət və ehliramla yanaşıb. Bunu prezidentin ölkənin əyalət səfərləri zamanı sadə xalqla, müxtəlif peşə adamları ilə səmimi söhbətlərində də aydın görmüşük. İkinci dəfə hakıtıiyyətə gəlməklə, Azərbaycanı qardaş qırğınından, vətəndaş müharibəsi təhlükəsindən sovuşduran Ulu Öndərin xalqımıza, millətimizə bəxş etdiyi ən böyük töhfələrdən biri İlham Əliyevi dövlət işinə, siyasət meydanına cəlb etməsi oldu.

Gənc İlhamın çiynini ağır və məsuliyyətli vəzifələrin altına verməsi onun tükənməz enerjiyə malik olmasından, Heydər Əliyevin siyasi məktəbini layiqincə davam etdirəcəyindən xəbər verirdi. Belə ki Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin I vitse-prezident kimi fəaliyyətə başlayan İlham Əliyev nəinki təkcə bu sahədə, eləcə də prezidenti olduğu Milli Olimpiya Komitəsinin yaradılmasında, fəaliyyətinin qurulmasında, millət vəkili kimi Avropa Şurası Parlament Assambleyasının fəaliyyətinin canlandırılmasında, Azərbaycan həqiqətlərini, Ermənistanın işğalçı dövlət olduğunu dünyaya bəyan etməklə xalqımızın şərəfli tarixində rolunu oynaya bildi, gənc olmasına baxmayaraq tanınmış beynəlxalq siyasətçilərin nəzərini cəlb etdi, barəsində qibtəedici fikirlər söylənildi. Qürur hissi və iftixarla deyə bilərik ki, o dövrdən başlanan düzgün xətt bu gün ölkə prezidenti səviyyəsində uğurla davam etdirilir və arxada qalan 5 il müddətində ilham Əliyevin ölkənin beşiyi başında görkəmli bir dövlət xadiminin dayandığı özünü təsdiqləyib.

Uzun müddət Azərbaycan siyasətinin mərkəzində olan İlham Əliyev ümummilli liderimizin düzgün seçiminə hörmət və məhəbbətlə yanaşaraq, xalqın etibar, inam və ümidlərini qazanaraq 2003-çü İldən başlanan prezident

vəzifəsini ləyaqətlə yerinə yetirir. Ölkə prezidentinə olan böyük marağı bir neçə amillə bağlamaq olar:

Birincisi, onun bir mahir siyasətçi kimi şəxsi keyfiyyətləri arxada qalıb tarixə çevrilmiş və 5 il ərzində daha qabarıq şəkildə goz önündədir. İlham Əliyev gəncdir və tükənməz gənçlik enerjisi ilə fəaliyyət göstərir. Cənc prezidentlərə şəxsi nümunə olan bu böyük siyasətçi çox savadlıdır, yüksək təşkilatçılıq bacarığına malikdir, böyük diplomatdır, nadir natiqlik qabiliyyəti var. O, öz yaşında olan siyasətçiləri kölgədə qoyub, bu vaxta qədər həmişə ana Vətəni Azərbaycan barədə yüksək rəy formalaşdırmağa nail olub, düşmənlərimiz olan ermənilərlə danışıqlarda, eləcə də dünyanın siyasi xadimləri və dövlət başçıları ilə görüşlərdə çoxlu sayda uğur qazanıb. Elə buna görə də qədirbilən xalqımız onu çox sevir, ona inanır, tapşırıq və tövsiyələrini can-başla yerinə yetirir, onun ardınca gedib iqtisadi və siyasi kursunu dəstəkləyir. Ona daha çox sevinirik ki, dünyanın özü perspektivli siyasətçi kimi İlham Əliyevi qəbul edir, onunla hesablaşır, fikirlərinə hörmətlə yanaşırlar.

Bu böyük şəxsiyyətin ən mühüm insani keyfiyyətləri onun son dərəcə təvazökar, mehriban, millətini ürəkdən sevən, onun xoşbəxt gələcəyi naminə əlindən gələni əsirgəməyən, insanların müsbət keyfiyyətlərini görən və

layiqincə qiymətləndirən siyasi liderdir. Onunla təmasda olan hər bir kəs İlham Əliyevə ən yaxın adamı kimi ürəyini açır, o da ehtiyacı olanlardan köməyini əsirgəmir. Ölkəmizin inkişafının davam etdirilməsini, xalqın sosial rifah halının yaxşılaşdırılması, həyatın bütün sahələrində yeniliklərə nail olunması, misilsiz uğurların qazanılması və sair tədbirlərin həyata keçirilməsi məhz İlham Əliyevin əvəzsiz xidmətlərinin, onun hərtərəfli və məqsədyönlü fəaliyyətinin bəhrəsidir:

İlham Əliyev müasir dünyamızdakı qoballaşma, yeni geosiyasi reallıqlardan irəli gələn tələblərə cavab verən siyasi xadimdir. İntellektuallığa, səviyyəli proseslərə təmkinli münasibət, demokratik prinsiplərə, insan hüquqlarına hədsiz diqqət, universal bilik, möhkəm iradə - cənab prezidenti xarakterizə edən başlıca keyfiyyətlərdir.

İlham Əliyev xalqa ona görə lazımdır ki, o, həqiqətən prezident olduğu beş il ərzində bir çox uğurun əsasını qoyub, bununla da xalqının inamını doğrultmaqla hörmət və məhəbbətini qazanıb. İdman, təhsil və mədəniyyət, hüquq-mühafizə, iqtisadiyyat və sair sahələrdə əldə olunan uğurlar bizə bunu deməyə əsas verir ki, ölkəmizin başçısı İlham Əliyev ümummilli liderimizin həqiqətən layiqli davamçısıdır. Ona görə də xalqımız tam əmindir ki, Heydər Əliyevin siyasi varisi olan İlham Əliyevin

dövlətçilik təcrübəsi və müasir təfəkkür tərzi ölkəmizdə formalaşmış sivil idarəçilik sisteminin inkişafına təkan verəcək və Azərbaycan yaxın gələcəkdə dünyanın ən yüksək inkişaf etmiş ölkələr sırasının önündə addımlayacaq. Onsuz da ölkəmiz hazırda iqtisadi cəhətdən ən yüksək tempə malik olan dövlətlər cərgəsindədir. Axı Azərbaycan zəngin resurslara - yeraltı və yerüstü sərvətlərə malikdir. İqtisadi-siyasi, intellektual və elmi-texniki potensial da göz qabağındadır.

Biz bu gün fəxrlə deyə bilərik ki, Azərbaycan və Qərb ictimaiyyətinin əksəriyyəti cənab İlham Əliyevi Heydər Əliyevin yaratdığı sivil dövlətçilik məktəbinin və siyasi kursunun ən ləyaqətli davamçısı kimi qəbul edir və onu dəstəkləyir.

Tarixi inkişaf baxımından beş il böyük müddət deyil. Amma Prezident İlham Əliyevin bu müddətdə gördüyü və həyata keçirdiyi genişmiqyaslı işlər baxımından çox uzun bir zaman təsiri bağışlayır. Adıçəkilən dövr ərzində ölkəmizdə çox layihələr həyata vəsiqə qazandırmış, müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzu daha da artmış, dövlətimiz Avropa birliyi və bütövlükdə, Qərb üçün regionun mühüm səviyyəsi xeyli yüksəlmiş, sosial-iqtisadi sahədə vaxtilə əlçatmaz görünən bir çox dövlət proqramları gerçəkliyə çevrilmişdir. Ən

önəmlisi isə odur ki, bu dinamika artan sürətlə davam etməkdədir.

Iqtisadiyyatımızın dinamik inkişafını təsdiqləyən əsas amillərdən biri ölkənin dövlət büdcəsidir. İqtisadçılar haqlı olaraq büdcəni iqtisadiyyatın aynası hesab edirlər.

Azərbaycanın Dövlət büdcəsi on dəfə artmışdır. Bu artıma imkan verən əsas amil isə ümumi daxili məhsulun artımıdır.

Möhtərəm Prezidentin işsizliyin tədricən ləğvi ilə bağlı həyata keçirdiyi tədbirlər xüsusilə təqdirəlayiqdir. Belə ki son beş ildə 700 mindən çox yeni iş yeri açılmışdır. Bu isə öz növbəsində əhalinin pul gəlirlərinin artmasına, yoxsulluğun sürətlə azalmasına imkan verəcək.

Prezident Ilham Əliyevin uğurlu daxili və xarici siyasəti Azərbaycana investisiya axınını daha da artırmışdır. Bu isə ondan xəbər verir ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artır və ölkəmizdə hökm sürən siyasi sabitlik əlverişli investisiya şəraitinin yaranmasında mühüm rol oynayır. Halbuki iki Zaqafqaziya ölkəsindəki qeyri-sabitlik dünya ictimaiyyətinin narahatlığına səbəb olub.

Qədirbilən xalqımız ağı qaradan seçməyi bacarır, cənab prezidenti dövlətimizin qarantı sayır və 15 oktyabrda öz yeganə liderinə səs verəcək.

1998-ci il

ŞUŞA HƏM DƏ SAĞLAMLIQ MƏRKƏZİ İDİ

BU CƏNNƏTMƏKAN GUŞƏDƏ OLDUĞUM GÜNLƏRİ YAD EDƏRKƏN…

Azərbaycanın hər bir guşəsi - kəndı, rayonu, şəhəri də, dağı, aranı, düzü də, bəndi, bərəsi, cığırı da, torpağı, daşı, çınqılı da əzizdir, müqəddəsdir. Çünkı sadaladıqlarım və sadalamadıqlarımın hamısı bu müqəddəs Vətənimizin bir parçası, bir qismi, bir hissəsidir. Vətən isə Vətəndir. Damarlarında bu muqəddəs Vətənin qanı axan mərhum xalq şairi Bəxtiyar Vahabzadənin aforizmi kimi səslənən "Vətən ona görə Vətən deyil ki, o əzizdir, Vətən ona görə əzizdir ki, o Vətəndir". Bəli, Vətən Vətən olduğu üçün əzizdir. Biz də bu əziz Vətənin hər daşını belə qorumalı, yəni Vətənin daşı olmalıyıq. Xalq şairi Məmməd Araz əbəs yerə "Vətən daşı olmayandan

olmaz ölkə vətəndaşı" şöyləməyib. Mərhuın söz üstası, söz xiridarı başqa bir şeirində isə:

"Vətən mənə oğul desə nə dərdim!

Mamır olub qayasında bitərdım" -

söyləməklə Vətənin qoynunda məskən saldığı hər kəsi oğul adlandırmamasını dilə gətirir. Vətən isə oğul adlandırdığı igid və mərd, qorxmaz və qəhrəman, ölümün gözünə dik baxan oğulları ilə daim fəxr edir. O oğullar ki, onların 30 min nəfəri Qarabağ uğrunda döyüşlərdə həlak olub, şəhidlik zirvəsinə yüksəldi. Bu 30 min rəqəmin içində Şuşamızın nicatı yolunda ölümə gedən oğullar da var. Təəssüflər olsun ki, Qarabağ uğrunda döyüşlərdə bu qədər say-seçmə oğullarımız canlarından keçsə də, Qarabağı xilas edə bilmədik. Qızıldan qiymətli torpaqlarımız məkrli qonşularımız tərəfindən zəbt olundu – düşmən çoxdankı arzusuna çatdı, Azərbaycanın cənnətməkan ərazisi işğala məruz qaldı. Üstəlik Qarabağın başının tacı, alınmaz qala olan Suşa - zaman-zaman şahlara, fatehlərə baş əyməyən, dunyanın bakirə gözəli, «Qafqazın konservatoriyası» adlandırılan, ilahinin qüdrətilə sığal çəkilmiş bu quşqonmaz təbiətin əsrarəngiz guşəsi Şuşa

da düşmən əlinə keçdi. Özü də 8 mayda - SSRI-nin alman faşizmi üzərində tarixi qələbə çalması tarixindən 1 gün əvvəl! Bu, məkrli naməd ermənilərin qabaqcadan bütün təfərrüatı ilə düzüb-qoşduqları, zərgər dəqiqliyi ilə həyata keçirdikləri plan əsasında mümkün olmuşdu.

Həmin günü heç vaxt unuda bilmərəm. "Bilgəh" sanatoriyasında dincəlir, müalicə olunurdum. Ondan qabaq isə 3 il dalbadal Şuşada yollayışla (putyovka) ürəyimcə dincəlmiş, müalicə almışdım. 80-ci ildə bir neçə yaxınımı-əzizimi itirdiyimə, üstəlik də, ailədə üzləşdiyim xoşagəlməz vəziyyət sağlamlığıma ağır zərbə vurmuş, əsəblərim də yerindən oynamışdı. Ürək sözümə baxmır, gecə-gündüz ağrayır, iynə olub köksümə sancılır, rahatlığımı əlimdən almışdı. Güclü müalicələr, yatdığım xəstəxanalar, qəbul etdiyim güclü dava-dərman da kömək eləmirdi. Hətta iş qabiliyyətimi də itirmişdim. Nəhayət, Bakıda yaşayan bir şuşalı həkimlə görüşdüm. Mərəzimi ona söylədim. Gülümsünüb söylədi: Dərdindən hali olan şuşalı, həm də həkim kimi sənə məsləhətim budur: bütün dava-dərmanların qəbuluna son qoy. Şuşaya get. "Şuşa" kurortunda 24 gün dincəl, lazım olan müalicəni orada qəbul et. Ən böyük müalicə mənbəyi isə Şuşanın təmiz havasıdır. Bütün ürək ağrıların bıçaq pendiri kəsən kimi kəsib gedəcək. Şuşalı həkim deyən kimi də etdim.

Bu da Şuşa şəhəri. Haqqında eşitdiyim, ancaq özünü görmədiyim möcüzəli, əfsanəvi bir şəhər! İlahi, sənin qüdrətinə min şükür!

Ana təbiətin min bir möcüzəsi olan əsrarəngiz gözəllik mücəssəməsi! İlk gəlişim qızılı payızın əvvəlinə təsadüf edirdi. Şuşanın qızılı payızı! Şuşa qızılı dona bürünmüşdü. Topxana meşəsi. Xışıltı ilə tökülüb torpağa səpələnmiş qızılı yarpaqlar! Axşamlar Şuşanın təmiz, saf və quru havasını ağızdolusu udduqca içində yüngüllük, rahatlıq hiss edirsən. Ürəyinə təpər, gözlərinə isıq gəlir, həzin meh üz-gözünə, saçlarına sığal çəkir. Dillər əzbəri İsa bulağı. Bu ecazkar bulağın yan-yörəsində bardaş qurub oturan, çalıb-oxuyan musiqiçilər buralarda dincələnlərə müxtəlif musiqi çələngi bəxş edirlər. Qonaqlar ürək sərinlədən bulağın suyundan içə-içə həzin musiqini dinlədikcə, bütün ağrı-acılara son qoyur, mənən saflaşır, büllurlaşır, daxillərinə rahatlıq, həzinlik hopur, özlərini cənnətdə hiss edirlər. Axı bu yerlər həqiqətən cənnətin bir guşəsidir.

Bəli, mən sonuncu dəfə 27 il əvvəl gördüyüm Şuşa beləcə yaddaşıma əbədi həkk olub. Bütün təbii gözəllikləri ilə. Bu gün də Şuşaya getsək (kaş bu arzum çin olaydıl), onun əl içi kimi təmiz, yaraşıqlı və yaşıl küçələrini, park və xiyabanlarını, tarixi abidələrini, dağ və meşələrini

bələdçi olmadan gəzib dolaşar, İsa bulağından, Turş sudan doyunca içər, havasını çiyərlərimə çəkər, çəkərdim...

Yuxarıda xatırlatdığım kimi, mən Şuşada ardıcıl 3 il olmuşdum və məhz orada olduğum həmin illər ərzində udduğum Şuşanın təmiz və saf havası, iqlim şəraiti bütün ürək ağrılarıma son qoydu, məni infarktdan xilas etdi, əvvəlki sağlamlığım bərpa olundu, şağlam əmək fəaliyyətimi davam etdirməyə başladım. Şuşada hər dəfə dincələn müddətdə xeyli dost tapdım özümə. Həm azərbaycanlılardan, həm də postsovet məkanından Şuşaya-dincəlməyə gələn başqa millətlərdən. Həmyerlilərimiz öz yerində, başqa yerlərdən gəlmiş iki nəfərlə tanışlığım və onların sağlamlığının bərpa olunmasında Şuşanın təbiətinin misilsiz rolundan söhbət açmaq istəyirəm.

Zöhrə adlı qız uzaq Tacikistanın paytaxtı Düşənbədən təşrif buyurmuşdu. Ucaboy, qənirsiz gözəl idi Zöhrə – bu tacik qızı. Orada olduğum hər 3 ildə sanki bir-birimizə söz veribmiş kimi, eyni vaxtda dincəlirdik. Üzdən baxanda heç deməzdin ki, o qız xəstə ola bilər. Amma əslində, o, anadan ürək qüsuru ilə doğuImuşdu. Varlı-karlı ailədən idi. Lakin dərdinə əlac olunmurdu. Yaşı 30-u ötsə də, ailə qurmamışdı. Dediyinə görə, həkimlər icazə verməyiblər. Zöhrə də bir həkimin tövsiyəsilə Şuşaya ürəyinə müalicə etdirmək üçün gəlmişdi. Elə ilk günlərdən Zöhrə Şuşanın

iqliminə, təmiz havasına heyran qaldı, daxilində yüngüllük hiss etdi, ürək ağrıları azalmağa başladı. Hər gün şad xəbər barədə ailəsinə telefon vasitəsilə məlumat çatdırırdı. Çox şən və gülərüz qız olan Zöhrənin gözəl səsi də var idi. Rusdilli olan bu dilavər qız rus və tacik mahnıları ilə dincələnləri feyziyab edirdi. Axşamlar onun zil səsi Topxana meşəsini titrədir, uzaqlara yayılırdı. Ovqatı xoş olan Zöhrəni dincələnənlərin demək olar ki, hamısı tanıyır və hörmət edirdi.

Növbəti il mən Zöhrəni "Şuşa" kurortunda anası ilə qoşa gördüm. Xanım-xatın, kübar anasını hamımızla tanış etdi. Bizim öz qrupumuz var idi. Qrupa 3 azərbaycanlı, Zöhrə ilə anası, bir də Uzaq Sibirdən gəlmiş Yevdokiya adli bir rus qadını daxil idi. Biz müalicə qəbul edəndən sonra Şuşanı qarış-qarış gəzir, gecələrsə demək olar ki, yatmır, meşədə təmiz havada gəzib dolaşır, Zöhrənin gur və şaqraq səslə oxuduğu mahnıları dinləyirdik. Zöhrənin anası Məmləkət xanım bir dəfə bizim "qrup üzvlərini" yaşadıqları otağa qonaq çağırdı. Qonaqlıq adi çay dəstgahından ibarət idi. Bu tacik qadının məqsədi bizimlə yaxından tanış olmaq, bizim mehribançılığımız və qonaqpərvərliyimizdən söhbət açmaq idi. Söhbət zamanı Məmləkət xanım söylədi ki, həyat yoldaşı nazir müavinidir, Zöhrə xanım evin yeganə qızıdır, ürək qüsuru ilə dünyaya gəlib, çox təbibə müraciət ediblər, külli

miqdarda pul xərcləsələr də, qıza əlac olmayab. Keçən il ümidlə yola saldıqları Azərbaycanın dilbər guşəsi və sağlamlıq mənbəyi olan Şuşanın havası Zöhrənin sağlamlığında möcüzə yaradıb, ona görə də bu il ikinci dəfə qızı ilə birlikdə bu diyara gəlməyə qərar verib. Allah eləsin gələn il öz həyat yoldaşı ilə Şuşanın tamaşasına gəlsin. Xanım əlavə etdi ki, SSRİ-nin, eləcə də dünyanın müxtəlıf sağlamlıq ocaqlarında olsalar da, Zöhrənin sağlamlığına müsbət təsiri olmamışdı. Üçüncü il (mənim üçün də) Məmləkət xanımın dediyi kimi oldu - Zöhrə xanımı bu dəfə bir cütlük kimi gördüm Şuşada. Bəxtəvər cütlük necə də bir-birinə yaraşırdı?! Hər ikisi ucaboy idi. İlk baxışda bacı-qardaş təsiri bağışlayırdı. Zöhrə həyat yoldaşına bizi köhnə tanışlar kimi təqdim etdi. Tahir (adı) uzun illərin tanışı kimi hər birimizlə mehribancasına görüşdü. Hər ikisinin çöhrəsinə xoşbəxtlik qonmuşdu. Şuşanın ab-havası, Şuşanın iqlimi uzaq ölkənin - Tacikistanın iki gəncinə sağlam ruh, xoşbəxtlik bəxş etmişdi!

Haqqında söhbət açmaq istədiyim rus qadın Permdən gəlmişdi. İxtisasca müəllimə olan Yevdokiya Trofimovanın dediyinə görə Azərbaycanın müxtəiif sağlamlıq ocaqlarında olub, dincəlib, müalicə qəbul edib. Bir neçə xarici ölkədə də dincəlib. Amma Şuşaya bənzər heç bir sağlamlıq ocağına rast gəlmədiyini etiraf edən

Yevdokiya Timofeyevna Şuşanı misli-bərabəri olmayan gözəllik mücəssəməsi, təbiətin möcüzəli şəhəri adlandırırdı. Musiqi həvəskarı olan permli qadın Şuşanın Azərbaycanın musiqi beşiyi olduğunu da yaxşı bilirdi. Rəşid Behbudov və Müslüm Maqomayevin pərəstişkarı idi. Eşidəndə ki, Rəşidin atası Məcid Behbudov da Şuşanın musiqi korifeylərindən biridir, gülə-gülə, özündən razı halda söylədi ki, məhz Şuşanın havası ilə böyüyən bir kişidən Rəşid Behbudov kimi dünyaşöhrətli müğənni olacağını zənn etmişdim. Bayatılarımıza böyük maraq göstərən bu rus qadınına bir neçə bayatımızı sətri tərcümə ilə yazıb verdim. O cümlədən də Əzizinəm Qarabağ, Şəki, Şirvan, Qarabağ, Aləm cənnətə dönsə -Yaddan çıxmaz Qarabağ kimi məşhur bayatını... Onu da bildirim ki, Azərbaycanın klassik qadın şairlərinin, o cümlədən incə ruhlu şair, musiqiçi, rəssam olan Xurşud Banu Natəvan haqqında, onun Şuşaya uca dağlardan su çəkdirməsi, fransız yazıçısı A.Dümanın Qafqaza səfəri zamanı Natəvanın ailəsinin qonağı olması, onun Natəvan haqqında xoş sözlər söyləməsi, şairəyə nəfis fiqurlu şahmat, Natəvanın isə qonağa öz əl işlərindən ibarət hədiyyə verməsi, hədiyyənin fransız yazıçısının çox xoşuna gəlməsi barədə müfəssəl məlumatı olduğunu söylədi permli qadın.

Gül-çiçəyə, yaşıllıqlara qərq olmuş Şuşa şəhəri permli müəllimi məftun etmişdi. Xüsusilə dünyanın nadir möcüzəsi olan Xarı bülbül gülü onu heyran qoymuşdu. Gül-çiçək vurğunu olan müəllimə Şuşadan gedərkən özü ilə həmin gülü aparıb Sibirdə becərmək istəyində oldu. Eşidəndə ki, Xarı bülbülün yeganə vətəni Şuşadır və başqa heç bir yerdə qərar tutub bitmir, həm pərt olmuş, həm də təəccübünü gizlədə bilməmişdi.

Mən Yevdokiya Timofeyevna ilə uzun illər yazışır, telefon əlaqəsi saxlayırdım. Şuşa işğal olunan gün mənə telefon açdı, kədərləndiyini bildirdi. Telefonda qırıq-qırıq danışırdı, qüssə-kədər boğazını tıxamışdı.

Bu yaxınlarda bu xeyirxah qadının vəfat etdiyi xəbərini eşitdim. Arzusu ürəyində qaldı. Şuşa azad olandan sonra yenidən bu möcüzəli şəhərə təşrif gətirmək arzusu...

3 il dalbadal Şuşada olduğum günlər barədə xatirələr yada düşərkən, oradakı görüşlər, tanış olduğum ziyaiılar, yazıçı və şairlər gəlib kinolent kimi göz önündən keçir. Nəğməkar şair, incəsənət xadimi Nüsrət Kəsəmənli ilə eyni vaxtda dincəlirdik. Eyni otaqda qalırdıq. Bir dəfə Şuşada dincələnlərlə istedadlı gənc şairin görüşünü keçirdik. Görüşün aparıcısı kimi şairin həyat və

yaradıcılığı barədə məlumat verdim, işıq üzü görmüş kitablarından söz açdım, bəzi şeirlərindən nümunələr göstərdim. Sonra da şairə söz verdim. Azərbaycanın və SSRİ-nin müxtəlif guşələrindən gəlmiş qonaqlar qarşısında çıxış edən N.Kəsəmənlinin hər şeiri hərarətlə qarşılanırdı. Şair Həmid Abbasla görüş də belə maraqlı keçdi. Tanınmış musiqişünas, Qarabağın, o cümlədən Şuşanın musiqi dünyasının canlı ensiklopediyası Firudin Şuşinski tez-tez doğulub boya-başa çatdığı doğma Şuşaya gələr, buradakı ahıl adamlarla görüşər, Şuşanın tanınmış xalq sənətkarlarından söhbət açar, şirmayı kəhrəbalı təsbehini qoluna keçirərək xəyalları yaxın-uzaq illərə qanadlanardı. Onun Şuşada dincələnlərlə hər bir görüşü maraqla qarşılanardı. Qarabağın, eləcə də Şuşanın müxtəlif illərdə fəaliyyət göstərmiş sazəndələri və xanəndələri barədə yerli-yataqlı məlumat verir, onların ifa etdikləri muğamlardan bəhs etdikcə, yerli musiqiçilər də (üçlük) həmin musiqi nömrələrini ifa edirdi.

O illərdə respublika rəhbərliyi, əlaqədar təşkilatların nümayəndələri xüsusən yay mövsümü ərzində tez-tez Şuşaya gəlir, Şuşa kurortunda dincələnlərə göstərilən qayğı və onlar üçün yaradılmış şəraitlə maraqlanır, bura gəlmiş qonaqların xoş təəssüratla geri qayıtmaları üçün əllərindən gələni əsirgəmirdilər. Onların arasında o vaxtkı Azərbaycan Həmkarlar İttifaqının sədri Lidiya Rəsulova

Şuşaya daha tez-tez gedərdi. Yaxşı yadımdadır, Şuşada dincələnlərə göstərilən iaşə xidmətinə daha çox diqqət yetirən L.Rəsulova yeməkxanaya gəlir, dincələnlərə göstərilən xidmətin səviyyəsi barədə onları sorğu-suala tuturdu.

Lakin ermənilər uzun illərdən bəri hazırladıqları məkrli planları 1988-ci ildən etibarən tədricən həyata keçirməyə başladılar. Əsgəranda iki azərbaycanlı uşağın qətlə yetiriməsilə barıt çəlləyinə benzin tökülmüş oldu. İnsanlıq simasını itirən harınlaşmış ermənilər Qarabağı Ermənistana birləşdirmək iddiası ilə yaşayaraq, bu ərazini ələ keçirmək üçün rusların köməyindən istifadə etməklə torpaqlarımızı bir-bir işğal etməyə başladılar. Buna səbəb bir tərəfdən, milli ordunun formalaşmaması, ayrı-ayrı könüllü batalyonların pərakəndə hərəkəti, o biri yandan da və başlıcası, ölkənin başında duran səriştəsiz rəhbərlər idi. Bundan bacarıqla istifadə edən ermənilər Qarabağı və onun ətrafında olan rayonları bir-bir işğal etdi. Kəlbəcər kimi strateji cəhətdən misilsiz əhəmiyyət kəsb edən rayonu düşmən ələ keçirməklə onun min bir dərdin dərmanı olan məşhur isti suyuna, Zond qızıl mədənlərinə, mesələrinə sahib çıxdılar. Laçın dəhlizini ələ keçirməklə Ermənistandan maneəsiz gediş-gəlişə nail oldular.

Sonra da quşqonmaz Şuşamız əldən getdi. Təbii müalicə ocağı (başqa səbəblər bir yana qalsın) olan Şuşa zaman-zaman yuxularına haram qatmış yağılara qismət oldu. Görkəmli musiqiçilər ordusu yetirmiş Şuşada murdar xislətli ermənilər indi at oynadır. Bu bədnam millətin insanlığa sığmayan son dərəcə vəhşi bir hərəkəti - Xan qızı Natəvanın, Milli musiqimizin banisi dahi Üzeyir bəyin, vokal sənətimizin 1 nömrəli ifaçısı Bülbülün heykəllərinin güllələnməsi hər bir bəşər övladını şok vəziyyətinə salır. Deməli, bu şəxsiyyətlərin heykəlləri belə erməni vandallarını rahat buraxmayıb və onlar heykəllərdən "intiqam almaqla" öz xəbis xislətlərini dünya ictimaiyyəti qarşısında nümayiş etdirmişlər.

Bəli, artıq işğalçı ermənilərin iç üzü mütərəqqi bəşəriyyətə aşkarlanıb. Beynəlxalq ictimai təşkilatlar Azərbaycanın haqq səsini eşidir. Ölkə başçısı cənab İlam Əliyev torpaqlarımızın yalnız sülh yolu ilə geri qaytarılmasının tərəfdarıdır. Söhbət gedir ki, Azərbaycanın işğal altında olan 5 rayonu dərhal, 5 ildən sonra isə daha 2 rayonu geri qaytarılmalıdır. Amma təəssüf ki, Şuşa haqqında heç bir söhbət getmir. Şübhəsiz ki, sonrakı mərhələdə Şuşanın taleyi barədə danışıqlar gündəmə gələcək. Başqa cür də ola bilməz. Çünki Şuşa Qarabağımızın tacı, Azərbaycanımızın qeyrət qalasıdır, dünyanın gözəllik mücəssəməsidir, təbii sağlamlıq

mərkəzidir. Ömrümün ahıl çağını yaşasam da, bir də Şuşaya gedib onun saf və təmiz havasını ciyərlərimə çəkməyə ümid edirəm.

29.04.2010-cu il

Sözü ilə əməli vəhdət təşkil edən alim

O, hazırda ömrünün ahıl çağını yaşayır. Cari il mayın 20-də 76 yaşını qeyd edəcək. Arxada qoyduğu illər onun mənalı ömür kitabına acılı-şirinli xatirələrlə dolu ibrətamiz səhifələr yazıb. Həmin xatirələr gözü önündə səhifələndikcə, Böyük Vətən müharibəsinin onun uşaqlığını necə udduğunu yada salır, o illərin üzgün mərhumiyyətlər içərisində çapaladığı illəri ürək ağrısı ilə yad edir, bir daha təsdiqlənmiş bir fikri – müharibə heç kəsə uğur qazandırmır, yalnız və yalnız müsibətlərə, qanlı faciələrə yol açır, anaları dul, qızları bədbəxt, uşaqları atasız qoyur – qənaətini təsdiqləyir. Doğulduğu Masallının Xıl kəndi də boşalmışdı, başıpapaqlılar 15 respublikanı birləşdirən SSRİ adlı vahid Vətənin müdafiəsinə səfərbər olmuşdular. Aclıq, səfalət, qıtlıq insanların nəsibi olmuşdu. Amma xıllılar da dəyanətini itirmir, «hər şey müharibə üçün, hər şey qələbə naminə» şüarı altında gecəni gündüzə qataraq çalışır, döyüşən

əsgərlərimiz üçün arxa cəbhədə köməkliklərini əsirgəmir, analar yun corab, əlcək və başqa isti köynəklər toxuyaraq cəbhəyə yola salırdılar. Bütün bunların şahidi olan balaca Musa da evdə bir işin qulpundan yapışır, müharibənin başa çatmasını səbirsizliklə gözləyirdi.

Müharibə Sovet ordusunun qələbəsi ilə başa çatanda, Musa artıq I sinif şagirdi idi. Xıl kənd orta məktəbini əla qiymətlərlə başa vuran Musa qonşu Lənkərandakı Kənd Təsərrüfatı Texnikumuna daxil olur, 20 yaşında həmin məktəbi də ali qiymətlərlə qurtarır. Bununla kifayətlənməyən gənc Musa ali savad almaq, dərin elmi biliklərə yiyələnmək üçün Bakıya gəlir, çoxdan arzusunda olduğu və adı hörmətlə çəkilən Azərbaycan Dövlət Universitetinə (hazırkı BDU) qəbul olunur. Özünü dünyanın ən bəxtəvəri hesab edən tələbə Musanın qayğılı tələbəlik illəri başlayır. Tarix fakültəsinin tələbəsi daha çox bilik əldə etmək üçün kitablardan ayrılmır, müxtəlif elmi məxəzlərə baş vurur, vaxtının çox hissəsini kitabxanalarda keçirir, yüksək səviyyəli tələbə gənc kimi müəllimlərin diqqətini cəlb edir. Tariximizin qaranlıq səhifələrini aşkara çıxarmaq üçün yaradıcılıq axtarışlarını əzmlə və inadla davam etdirir, tarix elmi sahəsində gələcək uğurlarının əsasını qoyur. BDU-nun məzunu olan gənc tarixçi o vaxtkı Lenin muzeyində (hazırda Dövlət Tarix Muzeyi) elmi işçi kimi fəaliyyətə başlayır. Zəngin

bilik mənbəyi olan tarix muzeyi gənc Musanın axtarışlarına impuls verir. Gecə-gündüz axtarışlarını davam etdirir, eyni zamanda muzeydə səriştəli mütəxəssis kimi şöbə müdiri, daha sonra elmi işlər üzrə direktor müavini vəzifəsində çalışır. Muzeydə işlədiyi müddət ərzində məzunu olduğu ali məktəblə də sıx əlaqələrini davam etdirir. Belə ki burada Azərbaycan tarixi fənnindən tələbələrə mühazirələr oxuyur və getdikcə tarixçi alim kimi yetişməyə başlayır. Ümumilikdə, sonrakı ömrünü doğma tariximizdən ali məktəb tələbələrinə dərs deməyə həsr edir.

Beləcə uzun illərdir ki, Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan dövlətçiliyi tarixindən dərs deyir. Bu gün respublikamızın tanınmış tarixçi alimlərindən sayılan Musa Quluzadə tarix elmləri doktoru, professordur. Bu mərhələyə çatmaq üçün o, uzun illəri gecəni-gündüzə qatmış, zəhmət dünyasında necə deyərlər, külüng çalmış, heç vaxt uğurları ilə kifayətlənməmiş, hey axtarışda olmuşdur. Çünki Musa müəllim yaxşı bilir ki, insan həyatının mənası onun qədirbilən müdrik xalqına, övladı olduğu doğma Vətəninə təmənnasız xidməti ilə ölçülür. Bu cəhətdən görkəmli elm adamı ondan təsəlli tapır ki, ölkəsinin tərəqqisinə, konkret tarix elminə, onun inkişafına xidmət edə biləcək mühüm bir iş görmüşdür. Deməli, onun illərə calanmış ömrü

fənaya getməmiş, Vətənin tərəqqisinə, inkişafına sərf olunmuşdur. Çünki Musa müəllimdə cəmlənmiş bir ümdə keyfiyyət ondan ibarətdir ki, onun sözü ilə əməli vəhdət təşkil edir, yəni alim nəzəriyyə ilə təcrübəni vəhdətdə görür. Bu məqamda ümummilli lider, ziyalıların yaradıcılığına yüksək qiymət verən Heydər Əliyevin bir dəqiq fikrini xatırlamaq yerinə düşər: «Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə görə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar. «Bəli, Musa müəllim məhz belə alimlərdəndir. O, görkəmli tarixçi kimi, həm Heydər Əliyevə, həm də onun siyasi məktəbinin layiqli davamçısı İlham Əliyevə həsr etdiyi onlarca sanballı məqaləyə imza atmışdır. Ümumiyyətlə, onun qələmindən dəyərli tarixçi mütəxəssis, alim kimi 200-dən artıq elmi məqalə çıxmışdır. 50 ildən çox bir müddətdə ali məktəb auditoriyalarında tələbələr qarşısında mühazirə oxuyan tarixçi alim bu işdən «yoruldum» demir, yaşının ahıl çağında da böyük bir şövqlə övladları qədər sevdiyi tələbələrə mühazirələr oxuyur, onların bütün suallarını cavablandırır, tələbələrinin gələcəkdə tanınmış mütəxəssis kimi yetişmələri üçün onlardan heç nəyi əsirgəmir. Vaxtilə dərs dediyi tələbələrinin bu gün müxtəlif sahələrdə uğurla

fəaliyyət göstərmələrinin şahidi olan Musa müəllimin qəlbi dağa dönür. Bu cür həssas ürəkli, zərif duyğulu, əsl ziyalı təbiətə malik müəllimdən təkcə elmi bilik dərsi yox, həm də həyat dərsi olan tələbələr özlərini xoşbəxt hesab etməlidirlər. Onun Azərbaycan dövlətçilik tarixinə həsr etdiyi hələlik sonuncu kitabı respublikanın ali tədris müəssisələrində təhsil alanlar üçün nəzərdə tutulmuş ilk belə sanballı tədris vasitəsi olacaq.

Musa müəllimi oxucular istedadlı və məhsuldar yazıçı-publisist kimi də tanıyırlar. Belə ki o, 1960-cı illərdən dövrü mətbuatda həm də bədii yaradıcılıqla məşğuldur. Fidan balalarımız üçün yazdığı kiçik hekayə, nağıl və povestlər uşaqların dünyagörüşünün formalaşmasında, onların Vətənə, xalqa məhəbbət ruhunda böyümələrində mühüm rol oynayır.

«Püstə», «Onu hamı görmək istəyir», «Meşədən səs gəlir» kimi işıq üzü görmüş kitablar uşaqların zövqünü oxşayır. «Ötən günlərin sorağında», «Dünya yoxsullarındır» və sair kitablar böyüklər üçün nəzərdə tutulmuşdur. Müəllifin pyesləri televiziyada nümayiş etdirilib, radio dalğalarında səsləndirilib. M.Quluzadənin Qafqaz Müsəlmanları İdarəsinin şeyxi Hacı Allahşükür Paşazadə haqqında yazdığı, onun geniş fəaliyyətinə həsr etdiyi «Mərhəmətli və şəfqətli qəlb» əsəri yazıçı-publisistə

geniş şöhrət qazandırmış, 50 min tirajla çap olunmuş kitab Şərq aləmində geniş yayılmışdır. Onun dinşünaslıq sahəsinə aid olan 3 monoqrafiya və 1 kitabı oxuculara yaxşı tanışdır. Təsadüfi deyil ki, Musa müəllim doktorluq işi üçün də dini mövzu götürmüş və «Azərbaycanda dövlət və din münasibətləri» mövzunu müvəffəqiyyətlə müdafiə etmişdir. Onun ərsəyə gətirdiyi əsərləri üçün xarakterik cəhət səmimiyyət, orijinallıq, fəlsəfi düşüncə, hadisələrə yaxından bədəlçilik, qısa və lakoniklikdir. Yazıçının başqa bir yaradıcılıq cəhətini də xatırlatmaq olar. Bu da müəllifin Vətəni, ana təbiəti, onun min bir gözəlliyini zərgər dəqiqliyi ilə, böyük sevgi ilə tərənnüm etməsidir.

2014-cü il Musa müəllimin ömrünə ən yaddaqalan uğurlu il kimi daxil oldu. Belə ki anadan olmasının şərəfli 75 ili təntənə ilə qeyd olundu, həm də uzun illər Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Respublika Prezidentinin Sərəncamı ilə «Əməkdar müəllim» fəxri adına layiq görüldü.

Təntənəli tədbir Musa Quluzadənin uzun illər çalışdığı Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında qeyd olundu. Akademiyanın rektoru, akademik Urxan Əkbərov yubiley mərasimini açaraq yubilyara ünvanladığı məktubu oxudu, ona möhkəm

cansağlığı, növbəti yaradıcılıq uğurları arzuladı. Musa müəllimin uzun illərin dostu, xalq şairi Nəriman Həsənzadə bu səmimi dostluqdan söhbət açdı, çoxcəhətli yaradıcılığından bəhs etdi, MM-in üzvü, professor Fəzail İbrahimli, Milli Aviasiya Akademiyasının professoru İbrahim Quliyev, professor Əsədulla Cəfərov, siyasi elmlər doktoru Elman Nəsirov, dosent Rüfət Quliyev, dekan Zaur Bağırov, kafedra müdiri Firdovsiyyə Əhmədova və başqaları çıxış etdilər. Şairlər Ramiz Məmmədzadə və Oqtay Rza yubilyara həsr etdikləri şeirlərini oxudular. Masallı RİH başçısının müavini Nəsir Muxtarlı rayon icra başçısı Rafil Hüseynov və bütün rayon ziyalılarının salamlarını bu torpağın yetirməsi Musa Quluzadə və akademiyanın rəhbərliyinə çatdırdı. Mərasimdə MM-in deputatları Hadı Rəcəbli və Elmira Axundova iştirak edirdilər. Axırda Musa müəllimin 75 illik ömür yolunun bəzi məqamlarını əks etdirən «Bəyaz yolun yolçusu» videoçarx nümayiş etdirildi.

Musa Quluzadə həm də gözəl ailə başçısı, 3 övlad atası, sevimli və müdrik babadır. İki qızı atalarının yolunu davam etdirir, oğlu Elçin Musaoğlu istedadlı kinorejissordur. Təkcə bir faktı vurğulayaq ki, onun lentə aldığı «40-cı qapı» kinoəsəri keçən il Amerikada «Qızıl mükafat»a layiq görüldü.

Musa müəllimin 2013-cü ildə «Mütərcim» nəşriyyatında işıq üzü görmüş «Xatirələrdən boylanan ömür» kitabı onun mənalı həyat yolunun salnaməsi də adlandırmaq olar. Kitaba müəllifin müxtəlif illərdə qələmə aldığı povestlər, hekayələr, mənsur şeirlər, pyeslər və fəlsəfi düşüncələr daxildir.

Musa müəllimin müsahibələrinin birində müxbirin ona verdiyi: «Özünüzdən və keçmiş olduğunuz tale yolunuzdan razısınızmı?» sualına verdiyi cavabı oxuculara xatırlatmaq istəyirəm: «Dönüb arxaya baxmağa, ömür yolunu vərəqləməyə dəyər. Mən həyatda daim alnıaçıq yaşamışam və taleyimdən razıyam».

Mən də sonda səmimi və xeyirxah insan, nümunəvi ailə başçısı, qədirbilən dost kimi tanıdığım Musa müəllimə həsr etdiyim şeirlə ona olan səmimi duyğularımı bildirirəm.

Alim-bəxtəvər

(Professor Musa Quluzadə üçün)

Gecə-gündüz elm yolunda çalışdın,

Çox uğur qazandın, zirvələr aşdın.

Haqq yolunda daim yandın, alışdın –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

Çəkdiyin zəhmət də getmədi hədər,

Ərsəyə gətirdin çox elmi əsər.

Hamı deyir sənə alim-bəxtəvər,

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

Xidmət göstərirsən Azərbaycana,

Professor adı yaraşır sana.

Şöhrətin sığmayır heç bir dastana –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

El-oba yanında üzün ağdır-ağ,

Asan deyil əsil ağsaqqal olmaq,

Elmi əsərlərin hey yaşayacaq –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

40 ildən çox müəllim işləmisən,

İlham alırsan müqəddəs peşəndən.

Əlindən su içib neçə tələbən,

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

«Əməkdar müəllim» adın mübarək,

Köksündə döyünür odlu bir ürək.

O gün olsun biz Şuşada görüşək -

Enib, «İsa bulağı»ndan su içək,

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

Üç övlad bəxş edib sənə Yaradan,

Onları hifz etsin özü Yaradan.

Səndən uzaq olsun yaramaz, nadan –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

Hələ təpərlidir o saf ürəyin,

Hasil olsun hər bir arzu-diləyin.

Halal olsun dostla kəsən çörəyin –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

Sənin lə fəxr edir eloğlun İdris,

Qoymusan həyatda bir əbədi iz.

Ahıl yaşda xoş keçsin günlərimiz –

Ey elmin qapısı, Musa müəllim,

Ədalət carçısı, Musa müəllim!

İdris Hacızadə

Azərbaycanın Bəxtiyarı

O yana-yana yaşadı, yaşaya-yaşaya yandı...

Yaşamaq yanmaqdır, yanasan gərək,

Həyatın mənası yalnız ondadır.

Şam əgər yanmırsa, yaşamır demək,

Onun da həyatı yanmağındadır.

Çağdaş Azərbaycan şeirinin ağsaqqalı, sevimli xalq şairi Bəxtiyar Vahabzadənin bu gün müdriklik zirvəsində qərar tutmuş poeziyasının saysız-hesabsız pərəstişkarlarının dilinin əzbəri olan bu qanadlı misraları xalqımızın həyatında «sovet dövrü» adlandırılan ictimai-siyasi, sosial-mənəvi sarsıntı və sıxıntılarla dolu olan keşməkeşli, məşəqqətli zaman miqyasında dəyişilməz, mərdanə həyat, yarım əsrdən çox sənət-ömrünün məhək daşı, estetik meyarı, amalı olmuşdur.

Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci ildə Azərbaycanın axar-baxarlı, dilbər guşələrindən biri sayılan qədim və müasir Şəki şəhərində doğulmuşdur. O, 1934-cü ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçür və orta təhsilini də respublika paytaxtında alır. Sonra da orta məktəb məzunu olaraq Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində oxuyur. Daha sonra aspiranturada təhsilini davam etdirir, filologiya elmləri namizədi və doktoru adına layiq görülür. AMEA-nın müxbir üzvü seçilən Bəxtiyar Vahabzadə ali təhsil aldığı universitetin həmin fakültəsinin professoru olaraq uzun illər orada müəllim kimi fəaliyyət göstərir. 1944-cü ildən etibarən ilk şeirləri respublika mətbuatında işıq üzü görür. İlk şeirləri Səməd Vurğunun nəzərini cəlb edir və o, gənc şairə təşviq və tövsiyələrini verir. Bütün bunlar zaman kəsiyində Azərbaycanda Bəxtiyar Vahabzadə adlı qüdrətli bir şairin

yetişdiyini təsdiqlədi. Getdikcə şöhrəti artdı, sərhədlər aşdı bu şöhrət, müxtəlif məzmunlu şeirləri dünya dillərinə tərcürnə olundu, şeir kitabları dünyanın kitabsevər oxucularının rəğbətini qazandı, barəsində xoş sözlər, rəylər söyləndi, tədqiqatçılar bu ilhamlı şairin yaradıcılığını araşdırmağa başladılar.

B.Vahabzadə təkcə şeirləri ilə yox, dram əsərləri, publisistik yazıları, elmi araşdırmaları, monoqrafiyaları ilə də geniş oxucu kütləsinə tanışdır. Dünyanın görkəmli söz sərrafları Bəxtiyar Vahabzadə barədə ürək sözlərini söyləmişlər. Onlardan biri də dünya şöhrətli romançı, Azərbaycan xalqını böyük məhəbbətlə sevən, dəfələrlə respublikamızda olmuş mərhum Çingiz Aytmatovdur. Bu tanınmış qırğız yazıçısı B.Vahabzadənin şeirlərini hətta rus dilində də çox heyranlıqla, sevə-sevə oxuduğunu söyləyir, "həmin şeirlərdə zaman yaşayır",- qənaətinə gəlir.

Bəxtiyar poeziyasında şairin şirin-şəkər dilimiz, pakdan pak dinimiz, keçmişdən boy götürən tariximiz, adət-ənənələrimiz, müdrik dünya görüşümüz, qədim söz sənətimiz, bir sözlə, bizi özümüzə qaytaran, yüzilliklərdən yıxılmağa qoymayan, yox olmaqdan hifz edən, yatmış, uyğuda olan başları qəflət yuxusundan oyadan mümtaz dəyərlər yaşayır.

B.Vahabzadə "Allah" kəlməsinin dilə gətirilməsi yasaq olunan, insanı insan, milləti millət mərtəbəsinə yüksəldən dəyərləri bütünlüklə inkar edən qanlı diktatorluğun hökm sürdüyü bir ölkədə və dövrdə yetişmişdi. Lakin həmin ağır şərtlər altında belə, həqiqəti və təbii gözəlliyi tərənnüm etməyi məharət və cəsarətlə bacardı Bəxtiyar müəllim.

Bəxtiyar Vahabzadə 50-ci ildə "Gülüstan" adlı məşhur poemasını yazdı. Bu mövzu şairin ən yaralı yeri idi. Uzun axtarışdan sonra qələminə güc verdi, əsəri yazıb başa çatdırdı. Amma heç bir respublika qəzeti curət edib "Gülüstan"ı çap etmədi. Onları qınamaq da olmazdı. O zaman belə bir əsəri çap etmək, bir növ, odla oynamaq kimi bir şey idi. Bəs nə etməli? Çarların, şahların qılıncıyla ikiyə bölünmüş bir xalqın acı fəryadını, bu fəryadı ürək yanğısı ilə əks etdirən "Gülüstan"ı arxivəmi verməli? Yox, bu mümkün deyildi. Bəs nə etməli?

Şair üçün faciə olan belə bir vaxtda bir cürətli və qeyrətli vətən oğlu peyda oldu. O, "Nuxa fəhləsi" (hazırda "Şəkinin səsi") qəzetinin redaktoru Məhyəddin Abbasov idi. İkinci Cahan savaşının odundan-alovundan çıxmış, dəfələrlə ölümlə üz-üzə dayanmış müharibə əlili fiziki cəhətdən şikəst olsa da, mənəyi cəhətdən sağlam olan bu şəxs şəraitin, zamanın, dövranın qəddarlığına məhəl

qoymadan, tərəddüd etmədən "Cülüstan"ı redaktoru olduğu "Nuxa fəhləsi"ndə çap etdi. İşıq üzü görən qəzetin həmin nömrəsi əl-əl gəzdi, səs-sorağı ətrafa yayıldı, sərhədlərimizi aşdı. Bu hadisə respublikada bomba kimi partladı. Möcüzə baş vermişdi Azərbaycanda - əsl möcüzə!

B.Vahabzadənin şeirləri oxucu qəlbini həyəcanlı hisslərlə, pak və təmiz duyğularla ovsunlayan həyat, insan və zaman barədə dərin düşüncələrə sövq edən coşğun ilhamın məhsuludur. Bütövlükdə götürdükdə, onun əsərlərində müasir insanın hissləri, mənəvi-əxlaqı keyfiyyətləri, ideal və arzuları müxtəlif bədii boyalarla əks olunmuşdur. Oxucu B.Vahabzadənin əsərlərində, o cümlədən potezşyasında ən çox lirik qəhrəmanlarla görüşür, onların səmimiliyinə inanır.

Bəxtiyar Vahabzadə milli azadlıq hərəkatının öncülü idi, qeyrət rəmzi idi, el ağsaqqalı idi, elə agsaqqallıq edərdi. Sovet ordusu Bakını işğal edərkən, Respublika paytaxtında komendant saatı tətbiq olunan vaxtda Bəxtiyar Vahabzadə çəkinib eləmədən şəhərin komendantı Dubinyakla üz-üzə dayandı, rus ordusunun işğalçı hərəkətini pislədi. Bəxtiyar müəllim təcrübəli pedaqoq kimi düz 40 il Azərbaycan Dövlət Universitetində dərs demişdi. Mənə də onun tələbəsi

olmaq şərəfi nəsib olmuşdu. Biz onun hər bir dərsini səbirsizliklə gözləyərdik. Ona 45 dəqiqə akademik vaxt azlıq edərdi, dəhlizdə də tələbələrlə söhbətini davam etdirərdi Bəxtiyar müəllim. O, əsl ziyalı, ata kimi tələbələrin qayğıları ilə maraqlanar, yaradıcılıqlarına istiqamət verərdi.

Bu günə qədər onun çoxlu sayda nəsr, publisistik məqalələri, 40-dan çox kitabı nəşr olunub. Vaxtilə Azərbaycanda şeir kitabları:100 min tirajla işıq üzü görən və bir ay ərzində satılıb qurtaran yeganə çağdaş şair Bəxtiyar Vahabzadə idi. O, Azərbaycan Cümhuriyyətinin ən qabaqcıl mütəfəkkir şairlərindən və elm adamlarından biri idi. Bəxtiyar müəllim Azərbaycanda olduğu kimi qardaş Türkiyədə və ümumən Türk dünyasında da sevilə-sevilə oxunan və yaradıcılığı araşdırılan güclü bir qələm sahibi kimi tanınırdı. Bu böyük insan bütün Türk dünyasının ortaq səsi, sevən ürəyi, aydınlıq üzü və gözəllik cizgisi, bir növ rəmzi idi. Türk araşdırıcılarından Əhməd Bican Ercilasun, Əli Yavuz Akpınar, Fatih Bağçıoğlu, Hüsniyə Mayadağlı, eləcə də, rus yazıçı və şairlərindən Rimma Kazakova, Yevgeni Yevtuşenko, Yeqor İsayev, Stanislav Kunyayev və başqaları B. Vahabzadə yaradıcılığı barədə ürək dolusu xoş sözlər söyləmişlər.

Bu böyük şəxsiyyətin sadəliyi və təvazökarlığı onda idi ki, həmişə özünə qarşı tələbkar olmuş və yaradıcılığına tənqidi yanaşmışdır. Onun "Təkcə ondan razıyam ki, özümdən narazıyam" fikri də dediklərimizi təsdiqləyir. Bu vətənpərvər, ülvi insanın "Vətən ona görə gözəl deyil ki, o gözəldir, Vətən ona görə gözəldir ki, o Vətəndir" devizi onun bütün varlığı ilə Vətənə bağlılığının təzahürüdür.

Bəxtiyar müəllim yana-yana yaşadı və yaşaya-yaşaya yandı, yandı və... 84 yaşında bu qoca -gəlimli-gedimli, bir ucu ölümlü dünyaya əlvida edib ulu Tanrının dərgahına qovuşdu və hələ sağ ikən Azərbaycan xalqının, onun qədirbilən övladlarının qəlbində əbədi heykələ çevrildi. Ruhun şad olsun, böyük insan! Başın sağ olsun, ulu xalqım!...

2009

İZİ QALDI…

ONUN ÖMRÜNƏ QARABAĞ DƏRDİ BALTA ÇALDI…

Bu işıqlı, nurlu, pak-büllur, xeyirxah-humanist... şəxsiyyət haqqında söhbət açmaq mənim üçün həm xoşdur, həm də çətin. Ona görə xoşdur ki, onun haqqında ürək sözlərimi, unudulmaz xatirələrimi, sözün həqiqi mənasında, bu böyiik insanla ünsiyyətdə olduğum qiymətli dəqiqələri Xudu Məmmədovu tanıyanlara çatdırmaqla qəlbimdə rahatlıq duyuram, ona görə çətindir ki, nurdan xəlq olmuş, mayası paklıqdan yoğrulmuş bu qeyri-adi bəşər övladına layiq söz tapmaq jurnalistdən böylik məsuliyyət tələb edir.

1976-cı il idi. O vaxt mən "Kino" qəzetində çalışırdım. Xudu müəllimin ssenarisi əsasında "Azərbaycanfilm"in sənədli film ustaları "Naxışların yaddaşı" adlı sənədli ekran əsəri çəkirdilər. Redaksiya bu film barədə qəzetdə yazı dərc etməyi planlaşdırmışdı. Müəlliflə mən görüşməli idim. Bilirdim ki, Xudu müəllim Akademiyada işləyir. Birbaşa ora yollandım. Tapa bilmədim onu. Hansı bir görüşəsə dəvət olunduğunu bildirdilər. Ev telefonunu aldım. Ertəsi gün evlərinə zəng çaldım. Bir gün əvvəl onu görmək üçün iş yerinə getdiyimi bildirdim. Yaman qayğılandı, zəhmət çəkdiyimi söylədi bu humanist insan. Söhbətimin məğzini ona bəyan etdim. Ertəsi günə görüş yeri təyin etdi. İş ünvanımı bildirdim. Qonşu olduğumuzu biləndə xoşlandı. Sadəcə,

mən Xudu müəllimə zəhmət vermək istəmirdim. Söylədi ki, onsuz da sabah bizim iş yerinin yanından keçməlidir.

Bir gün sonra redaksiyada görüşdük. İlk dəfə idi ki, onunla üzbəsurət oturub söhbət edirdim. Bu kristalloqraf alimin yüksək mədəniyyətinə, danışıq tərzinə, sadəliyinə, məhrəmliyinə, mənəvi zənginliyinə, ensiklopedik biliyinə heyran kəsildim. Söhbətimiz iki saat çəkdi. Halbuki 45 dəqiqə nəzərdə tutulmuşdu. İlk görüşdən məni məftun eləmişdi rəhmətlik. Elə onun özü də bu görüşdən məmnunluğunu bildirdi.

"Naxışların yaddaşı" sənədli filmi barədə yazdığım məqalə "Kino" qəzetində işıq üzü gördü. Özü zəng çaldı Xudu müəllim. Xoşuna gəlmişdi material. Onunla tanışlığım belə başladı. Arabir görüşürdük. Ya onun iş yerinə gedirdim - Akademiyaya, ya da evlərində görüşürdük. Bir gün zəng çaldım. Evdə idi. Ovqatını soruşdum. Həmişəki kimi, - cavab verdi. Əlavə etdi ki, vaxtın varsa, indi gəl. Fürsəti fövtə vermədim. Getdim. Ancaq xahiş etdim ki, söhbətimizə heç kim mane olmasın. Doğrusu, onun sözünün kəsilməsinə qıymırdım. İstəyirdim ki, elə hey dinləyim onu.

Bu, həyatımda Xudu müəllimlə bağlı ən yaddaqalan, heç vaxt unudulmayan bir görüş oldu. 3 saat ərzində

həyatın müxtəlif sahələrinə, müxtəlif məsələlərə, mövzulara toxunduq. Nə deyim, mən hələ o vaxta qədər (elə indiyəcən də) - bu qədər dərin müşahidə qabiliyyətli, bir-birinə uyğun gəlməyən müxtəlif elm sahələrindən xəbər verən, mülayim, asta, şirin danışığı ilə müsahibini ovsunlayan, həmsöhbətini axıracan dinləməyi bacaran, heç vaxt səsini qaldırmayan bir insana rast gəlməmişəm. Necə də rəvan, məntiqli danışığı vardı onun?! Elə bil danışdığı sözləri qabaqcadan əzbərləyib, sapa düzmüşdü.

O gün biz nələrdən danışmadıq: ədəbiyyatımızdan, teatr və kinomuzun indiki vəziyyətindən, elm və mədəniyyət xadimlərimizdən. Yaxşı yadımdadır: Sarabski barədəki fikrini belə tamamladı: Azərbaycan səhnəsində cəfakeş, eşq divanəsi Məcnun rolunun çoxlu ifaçısı olub və olacaq da. Ancaq Sarabski qiyafəsində, Sarabski yanğısında ikinci bir Məcnun ola bilməz. Üzeyir bəyi əvəzsiz bəstəkar, xeyirxah insan, onun "Arşın mal alan"ını isə dünya komediya janrının zirvəsi adlandırdı. Təəssüfləndi ki, bu dünya şohrətli əsər Nobel mükafatına layiq görülməyib. Unikal fırça ustası Səttarı dünyanın 1 nömrəli mənzərə ustası kimi qeyd etdi. Söhbətimiz Füzuli üzərində qərarlaşanda, fəxrlə bildirdi ki, Füzuii ruhda, Füzuli dərinliyində ikinci bir lirik şair doğulmayıb, çətin ki doğulsun da. Bu yerdə onun "Vətənimdir, vətənimdir,

vətənimdir, vətənim" adlı qəzəlindən iki misranı misal göstərdi:

"Pənbəyi - dağı –cünun icrə nihandır bədənim,

Diri olduqca libasım budur, ölsəm - kəfənim".

Və həmin misraları mənim üçün elə açıqladı, elə incələdi, elə aydınlaşdırdı ki, həm şair, həm də Xudu müəllim qarşısında səcdəyə gəldim.

Sonra da bayatılarımıza səyahətə çıxdıq. Xudu müəllim 4 misradan ibarət olan hər bir bayatıda necə dərin məna gizləndiyini söylədi. Bu arada əvvəlcə mən bir bayatı dedim:

Əzizim baxtı yarım,

Baxtımın taxtı yarım,

Üzündə göz izi var –

Sənə kim baxdı, yarım?...

Aşağıdakı bayatını da o söylədi:

Təbriz üstü Marağa,

Zülfün gəlməz darağa,

Gecə-gündüz ardınca

Gəzdim soraq-sorağa...

Dedim: "Gələcək gün" romanındandır. Firidun Gülnazı soraqlayanda deyir bu bayatını.

Təsdiqlədi. Yenə gülümsədi. İlahi, gülüş, təbəssüm onun nurlu simasını necə də işıq selinə qərq edirdi?!

Ardını özü davam etdirdi:

Bu qala bizim qala,

Həmişə bizim qala,

Tikmədim özüm qalam –

Tikdim ki, izim qala...

Bayatı sərrafı idim. Amma beləsini eşitməmişdim. Fikrimi Xudu müəllimə bildirdim. Simasına parlaq bir nur çiləndi. Astaca söylədi:

- Sonradan eşidərsən.

Bir şey anlamadım. Dərinə də getmədim. Yalnız illər keçəndən sonra bildim ki, ilk dəfə onun ağzından eşitdiyim bu bayatını onun özü yazıbmış, o vaxt isə təvazökarlıq edib, bunu məndən gizləmişdi.

Bəli, Xudu müəllim kimi mənəvi zənginliyi heç bir ölçüyə sığmayanlar həmişə həyatda təvazökar yaşayır: özünüreklamdan uzaq dolanırlar. İndi o bayatı respublikamızda, eləcə də Türk dünyasında geniş yayılmış, bir növ, zərb-məsələ çevrilmişdir. Elə mən də yazılarımda o əbədi xəzinədən faydalanıram.

Xudu müəllim, siz yalnız dünyanızı dəyişdiniz, fəqət candan əziz sandığınız bu torpaqda, bu torpağa bağlı adamların qəlbində dərin iziniz qaldı. Bayatınızda dediyiniz kimi. Elə mənim də...

Allah sizə qənı-qəni rəhmət eləsin, məzarmız nurla dolsun!

P.S.Onlar 3 dost idi - 3 əqidə və məslək dostu: xalq şairi Bəxtiyar Vahabzadə; kristalloqraf alim, professor Xudu Məmmədov və həkim, tibb elmləri doktoru, professor Hurəddin Rzayev.

Bəli Qarabağ problemi baş qaldırıb tüğyan edəndə, əqidə dostlarının yuxusuna haram qatıldı, daha sıx-sıx bir yerdə olurdular, Qarabağ düyününün açılması üzərində baş sındırırdılar. Amma əllərindən nə gələrdi? Məsələ çox qəlizləşmişdi, yun suya verilmişdi. Unutqanlıq, biganəlik işini görmüşdü. Başlıcası isə, ölkəni idarə edən sərişтəsiz rəhbərlər Azərbaycanın başının üstünü almış tufanın qarşısını ala bilmədi və ala bilməzdi də! Beləcə, rayonlarımız bir-bir əldən gedirdi. Ağdam fəryad qoparırdı. Bu torpağın qeyrətli, ziyalı oğlunun qəlbini Qarabağ boyda qübar, dərd çulğamışdı. Yumruq boyda ürəyi dözmədi bu dərdə. Qətrə-qətrə əridi, əridi. Əqida və məslək dostları da onu qoruya bilmədilər. Vətənə qurban getdi, şəhid oldu Xudu müəllim.

Şair-publisist Famil Mehdi ölkə rəhbərliyinə SOS siqnalı verdı: "Ağdam əldən gedir!» Eşitmədilər. Beləcə, Ağdam əldən getdi, Xudunun doğma kəndi Mərzili işğal oldu. Bu dərdə dözmədi millətin müdrik, qeyrətli alim oğlu...

Щяйатыны халгына щяср едян ясл сийасятчи тцрк гызы

Миллят вякили Гяниря Пашайевайа

Ачыг мяктуб

Салам, щюрмятли Гяниря ханым! Мян юнъядян Мящяммяд Пейьямбярдян башлайараг диэяр мяшщур шяхслярин гадынлар щаггында цряк сюзляри иля мятлябя кечмяк истяйирям.

«Гадын – йурдун юзцлцдцр, гадынын хошбяхтлийи – вятянин хошбяхтлийидир, гадынын тяряггиси – юлкянин тяряггисидир…»

Бу явязсиз фикирляр 124 мин пейьямбярин ахырынъысы Мящяммяд пейьямбяря мяхсусдур. Бяли, Гяниря ханым, кечдийимиз бцтцн иътимаи-сийаси формасийаларда гадынын щяйатда ойнадыьы мцстясна рол заман-заман тясдигини тапмышдыр. Ъямиййятин тяхминян йарысыны тяшкил едян зяриф ъинсин нцмайяндяси олан гадына щямишя бюйцк щюрмят вя дярин ещтирам бяслянилмиш, ону мцгяддяс саймышлар. Еля бу мцгяддяслик, бу цлвиййят ана Вятян, ана Торпаг тимсалында ябядиляшдирилмишдир. Азярбайъан наьыл вя дастанларына, о ъцмлядян гядим мяняви абидямиз олан «Дядя Горгуд» дастанына, еляъя дя башга тарихи мяхязляря баш вурдугда, улу нянялярimизин мятанят вя вятянпярвярлийи, щцняр вя гочаглыьы, сядагят вя вяфасы эюз юнцндя сящифялянир. Бялкя еля бу сябябдян аталарын «асланын еркяйи, дишиси олмаз» мцдрик кяламы йараныб. Еля бу мягамдаъа гядим йунан шаири Есхилин «Мидийада вя Гафгазда йашайан гадынлар горхмаздыр» - дейя сюйлядийи фикир нянялярimизин мярдлийиндян вя шцъаятиндян хябяр верир. Тарихин солмаз сящифялярини чевирдикъя ня гядяр иэид вя гящряман гадынларымызын мцбаряк адлары иля растлашырыг! Эютцряк еля ады гящряманлыг рямзиня чеврилмиш

Томрис нянямизи. Сонра да «Дядя Горгуд» дастанындакы инъябелли Бурла хатуну, Селъан хатуну, Бану Чичяйи. Бяс Аьгойунлу Узун Щясянин анасы Сара Хатун? Шярг аляминдя эюркямли дипломат кими танынан бу гочаг гадынын тяшяббцсц вя сяйи нятиъясиндя бир сыра мцщцм сийаси мясяляляр юз мцсбят щяллини тапмышды. Губа щакими Фятяли ханын гадыны Туту Бикя Азярбайъанда ващид бир дювлят йаратмаг уьрунда мцбаризядя яри Фятяли ханын щям дя йахын силащдашы олмушдур. Беля ки о да яйниня киши либасы эейяряк дцшмянля вурушмуш, щятта бюйцк идейа йолунда гардашы Ямир Щямзяйя гаршы чыхмышдыр.

Бу мягамда даща бир гящряманлыг вя гейрят рямзиня чеврилмиш Гачаг Нябинин юмцр-эцн йолдашы Щяъяр йада дцшцр. Гядим Эянъядя Шейх Низами иля ейни ясрдя йашамыш, сюз йарадыб, няьмя гошан, Шяргдя илк рцбаи йазан гадын Мящсяти Эянъявини – ХЫЫ яср поезийа чялянэиндя ян райищяли чичяк кими севилян классик рцбаи устасыны, лирик дуйьулар шаири вя ряссамы Хан гызы ады иля ел-обада бюйцк щюрмят газанан Хуршуд бану Натяваны хатырлайаг.

XX ясрдя онларын лайигли давамчылары олан халг шаирляри Мирварид Дилбази вя Ниэар Ряфибяйлини йада салаг, чаьдаш дюврцмцздя Азярбайъанда офталмолоэийа сащясиня мисилсиз тющфяляр вермиш академик, ейни заманда дцнйа шющрятли сийасятчи, мцстягил Азярбайъан дювлятинин йарадыъысы вя мемары, цмуммилли лидер Щейдяр Ялийевин вяфалы юмцр-эцн йолдашы, онун мцдрик сийасятинин лайигли давамчысы Илщам Ялийевин сядагятли анасы Зярифя ханым Ялийеваны хатырлайыб мцгяддяс рущуна дуалар охуйаг, УНЕСКО вя ИСЕСКО-нун хошмярамлы сяфири, Щейдяр Ялийев Фондунун президенти, миллят вякили, гоъа Шяргин вя бюйцк Тцрк дцнйасынын бяйянилмиш сийасятчиси вя дювлят хадими, юз мцгяддяс вя хейирхащ ямялляри иля Азярбайъаны бцтцн дцнйада таныдан Мещрибан ханым Ялийеванын титаник фяалиййятини гейд едяк.

Щцрмятли Гяниря ханым! Сизи дя адлары бюйцк щярфлярля йазылан бу мцгяддяс гадынларын ардыъылы щесаб едирям! Сизин Азярбайъанымызын буэцнкц гайнар щяйатында ойнадыьыныз ролу, эюстярдийиниз эенишмигйаслы фяалиййятинизи бир анлыьа нязярдян кечирдикдя, дцнйаэюрмцш ащыл бир вятяндаш кими бюйцк гцрур щисси дуйурам. Амма

билмирям, фяалиййятинизин щансындан башлайым. Доьрусуну дейим ки, баряниздя ад эцнцнцз ярямясиндя - бу ил мартын яввялиндя (ад эцнцнцз мартын 7-ня тясадцф едир) йазмаьы гярарлашдырмышдым. Амма 50 ил гялямля ат ойнатсам да, маса архасында яйляшиб фикрими ифа едя билмядим. Йалныз КИВ-лярдя, телеканалларда, радио дальаларында чыхышларынызы ардыъыл излямякдя давам едирдим. Нящайят, «бисмиллащ» дейиб гялямя эцъ вердим вя узун мцддят щаггынызда ичимдя эяздирдийим цряк сюзлярими Сизя цнванламаьа гярар вердим.

Гяниря ханым! Сиз илкин олараг халгын елчиси кими, 2010-ъу илдя икинъи дяфя 205 сайлы Товуз сечки даирясиндян миллят вякили чечилдиниз. Бу, сизин щалалыныздыр. Чцнки Гяниря ханым миллят вякили олараг тякъя сечилдийи бюлэянин дейил, бцтювлцкдя, юлкя вятяндашларынын истяк вя арзуларынын, гайьы вя ещтийаъларынын тямин олунан цмид йеридир. Цмидля гапынызы дюйян, цнваныныза цз тутан щяр бир вятяндашы мярщямятля гябул едир, кюнцл хошлуьу иля йола салырсыныз. Чцнки вязифя боръунузун гайясини Азярбайъана, онун щяр бир ювладына хидмятдя эюрцрсцнцз. Беля ки щям Милли Мяълисин иъласларында, щям дя

бцтювлцкдя сечиъилярля эюрцшляриниздя адамларын, о ъцмлядян ящалинин азтяминатлы тябягясинин проблемляринин щяллини юзцнцз цчцн ян ваъиб приоритет щесаб едирсиниз. Сизин парламент иъласларындакы щяр чыхышынызы бюйцк марагла излядикъя дедикляримин тясдигини тапырам. Сиз парламентдя адамларын йаралы йерини тапыр, она неъя дейярляр, мялщям гойуласы мягамлары эюстярирсиниз. Бура биринъи нювбядя шящид аиляляринин мянзилля тямин олунмасы мясяляси, ящалинин азтяминатлы аиляляринин цнванлы сосиал йардымлар алмасы иля баьлы проблем вя с. дахилдир.

Аьрылы йеримиз олан Гарабаь проблеми Сизи ян чох наращат едян мясялядир. Бу сащядя Сиз бир миллят вякили, бу миллятин ювлады кими ишьал алтында галан торпагларымызын азад едилмяси цчцн нечя иллярдир ки, щагг сясинизи дцнйайа чатдырыр, бязян дя сялащиййятляринизин имкан вермядийиндян дя артыг сявиййядя йорулмадан мцбаризя апарыр, еляъя дя эянъляря вятянпярвярлик щиссляринин ашыланмасында сон дяряъядя йцксяк фяаллыг эюстярир, милли мяълисдяки чыхышларынызда бцтцн ъямиййяти Гарабаьын мцдафиясиня сяфярбярлийя сясляйир, торпагларымызын йад яллярдя олмасынын бир ан да унудулмамасыны юня чякирсиниз. Биз щям

дя Сизин сярщядляриниздя айыг-сайыг дайанмыш Вятян ясэярляринин йахын досту олдуьунузун ъанлы шащидийик. Сиз ъябщянин мцхтялиф истигамятляриндя хидмят едян Вятян кечикчиляринин йанында олур, ордумузун ъямиййятимизин щяйатында ойнадыьы мцщцм ролуну габардыр, ясэярляримиздя бюйцк рущ йцксяклийи, никбин овгат йарадырсыныз.

Сон вахтлар ермяни вандаллары даща чох гудузлашараг атяшкяс режимини кобуд шякилдя поздуглары цчцн ордумузун ясэярляри арасында иткиляр баш вермиш, бир нечя ясэяримиз ися йараланмышдыр. Сизин йаралы ясэяримиз Йашара щоспиталда баш чякмяйиниз, онун вязиййяти иля таныш олмаьыныз, йаралы ясэярдяки никбинлик, «йарам саьалан кими йенидян ясэяр йолдашларымын йанына гайыдаъаьам» кими гяти фикирляри Сизи сон дяряъя севиндирмиш, беля оьулларла фяхр етмяйинизи диля эятирмисиниз. Ону да гейд едирсиниз ки, дцшмян гудузлашса да мяьлуб олаъаг. Бяли, Гяниря ханым, дцшмян артыг мяьлуб олаъаьына яминдир. Она эюря дя ермяниляр неъя дейярляр, эюзя кцл цфцрмяк, бизя хох эялмяк истяйирляр. Амма сящв едирляр, бизим реэионда ян эцълц ордумуз вя Илщам

Ялийев кими тяърцбяли, узагэюрян вя мцдрик Али Баш Командамыз вар.

Сиз йорулмаг ня олдуьуну билмяйян, мцтящяррик, мятин, чалышганлыьыныз вя фяалиййятиниздян илщам алан мярд ел гызысыныз. Сясиниз эащ Авропа Шурасы Парламент Ассамблейасындан, эащ Милли Мяълисин Азярбайъан-Эцръцстан Парламентлярарасы Достлуг Групунун рящбяри кими (Эцръцстанда йашайан 500 минлик сойдашларымызын чохсайлы проблемляри иля мяшьул олмаьа вахт айырырсыныз) гоншу юлкядян, эащ да «бир миллят, ики дювлят» олан (цмуммилли лидер Щейдяр Ялийев) гардаш Тцркийядян эялир. Бу сябябдяндир ки, Сиз бу эцн Тцркийядя ян чох танынан вя севилян миллят вякилляримиздянсиниз. Сиз дяфялярля Тцркийядя сяфярдя олан миллят вякили кими щям гардаш юлкянин рясмиляри иля эюрцшлярдя, щям дя бу юлкянин телеканалларында вердийиниз ачыгламаларда Ермянистанын ишьалчылыг щярякятляри барядя дяфялярля гяти ыя ъясарятли фикирляринизи билдирмисиниз. Цмумиййятля, сизин Азярбайъанла Тцркийя арасында мцнасибятлярин даща да йахшылашмасына хидмят едян фяалиййятиниз айрыъа бир сющбятин мювзусудур. Сизин ики юлкя арасында

эюстярдийиниз хидмятляр гардаш Тцркийя рясмиляри тяряфиндян лайигинъя гиймятляндирилмишдир. Беля ки щяля 2010-ъу илдя Сизя Тцркийя иля Азярбайъан арасында мядяни ялагялярин мющкямляндирилмяси сащясиндя эюстярдийиниз хидмятлярля ялагядар Аврасийа Игтисади Ялагяляр Дярняйинин мцкафаты тягдим едилмишдир.

Гяниря ханым, Сиз зяриф ъинсин нцмайяндяси олараг депутат фяалиййятиниздя гадын щцгугларынын мцдафияси сащясиня дя хцсуси йер айырырсыныз. Беля ки Азярбайъанын юндя эедян, лидер гадынларымыздан бири олараг гадынларымыза юз лайигли гиймятинин верилмяси тяряфдары кими чыхыш едир, бир гайда олараг истядийинизя наил ола билирсиниз. Сиз щяля телевизийада мцхбир кими чалышдыьыныз вахтдан ъясарятимиз вя ишэцзарлыьыныз, обйективлийиниз вя вятянпярвярлик бахымдан диггятими ъялб етмисиниз. Еля инди дя журналист щямкарларыныза щямкар лцтфкарлыьы эюстярмяниз мяним кими бир ащыл журналистин дя цряйиня мялщям олур. Шяхсян мян дя журналист щямкарларым кими Сизи журналистлярин парламент тямсилчиси кими эюрцр вя фяалиййятинизля юйцнцрям. Бир дя ондан гцрур дуйурам ки, Сиз щяр ил парламент журналистляринин

кечирдийи сорьуда ян фяал миллят вякилляри сырасына дахил едилирсиниз.

Язиз ювладым, бязян мян щейрятя далырам ки, сизин о зяриф чийинляриниз бу гядяр чохсайлы аьыр йцкя неъя таб эятирир? Сонра да юзцм юз суалыма ъаваб верирям: црякдя тяпяр, Вятян вя халг мящяббяти, милли гейрят, йурд тяяссцбкешлийи, мярщямят щисси, ягидя бцтювлцйц эцълц оларса, даьы даь цстцня ашырмаг олар. Бах, еля Сизин кими. Амма Гяниря ханым, юз саьламлыьынызы да унутмайын. Гыш айларында ефирдя бир чыхышынызы динляйирдим. Боьазынызда няся проблем олдуьуну щисс етдим. Доьрусу, наращатлыг кечирдим. Аллаща шцкцр ки, щяр шей йахшылыьа доьру эетди. Нювбяти дяфя ефирдя чыхышыныз заманы боьазынызын саьалмасы наращатлыьыма сон гойду.

Фяалиййятинизин бир щиссяси дя йарадыъылыьынызла баьлыдыр. Беля ки депутатлыгла йанашы, йарадыъылыгла да ардыъыл мяшьул олурсунуз. Бу да Сизя йарашыр, чцнки бу, фяалиййятинизя тякан вя юзцнцзя зювг верир. Сизин кими эениш ерудисийайа малик инсан йарадыъылыгдан кянарда гала билмяз. Бир нечя илдир

ки, Тцркийя Ъцмщурииййятинин гуруъусу Мустафа Камал Паша Ататцркя щяср етдийиниз «Дцнйанын итирдийи бюйцк инсан» адлы китабынызын тягдимат мярасими кечирилди. Йени китаб Сизин эцълц тяхяййцлцн, тарихи щадисяляря кифайят гядяр бяляд олмаьынызын бариз нцмуняси иди. Тарихи щадисялярля зянэин олан бу китаб али вя орта мяктябляря, китабханалара, щярби щиссяляря пулсуз пайланды. Башга бир гиймятли китабыныз «Хоъалы сойгырымы»: «Шащидлярин дили иля» (мцштяряк) юз санбалы иля диггят мяркязиндя дайаныр. Адычякилян няшр XX ясрин ян бюйцк фаъияси олан Хоъалы щягигятляри щаггында эениш мялуматларын дцнйа иътимаиййятиня чатдырылмасы бахымындан хцсуси юням дашыйыр.

Бцтювлцкдя, сизин бцтцн фяалиййятинизя йекун вуруркян, щям Азярбайъанын милли дювлятчилик марагларына хидмят едян, щям дя Азярбайъан-Тцркийя гардашлыг мцнасибятляринин инкишафы цчцн чалышан бир тцрк гызынын кюксцндя Вятяня баьлы бир одлу цряк дюйцндцйц гянаятиня эялирсян.

Гяниря ханым! Сизин мятбуат сящифяляриндя дяръ олунан кюшя йазыларынызы да диггятля изляйирям. Щяр бир гялям мящсулунузда бир

проблемя тохунурсунуз. «Юзцнц дилянчи йериндя эюрдцнмц щеч?» сярлювщяли кюшя йазынызда башга бир инъя мятляб чюзялянир. Доьрусу, йазы мяни йаман дуйьуландырды. Ону охудугдан сонра йазы мцяллифинин майасынын мярщямтдян йоьрулдуьу, хейирхащ дуйьулардан су ичдийи гянаятиня эялдим.

Сиз щям дя инъя дуйьулу, никбин овгатлы, еляъя дя вятянпярвярлик рущлу шаир кими дя танынырсыныз. Щямин овгата кюклянмиш шеирляринизя хейли сайда мусиги бястяляниб. Бу да сизин чохсащяли фяалиййятинизи тясдигляйир. Йахын вахтларда Сизин бирайлыг ямякщаггынызы Ираг тцркманларына – бу юлкядя йашайан сойдашларымыза баьышламаьыныз барядя хябяр Сизин щуманизминизи вя хейирхащлыьынызы бир даща тцрк дцнйасына бяйан етди.

Гяниря ханым! Сизин кцлл щалында фяалиййятинизи бир гязет мягалясиня сыьышдырмаг гейри-мцмкцндцр. Мян садяъя олараг Сизин дярйа гядяр фяалиййятинизя бир дамла нцфуз етмяйя чалышдым. Чцнки сизин бцтцн фяалиййятиниз китаблара сыьмаз.

Сонда демяк истяйирям: Гяниря ханым, Улу Танры Сизи йаман эюздян горусун! Сиз бу гядирбилян мцдрик халга, чох, лап чох лазымсыныз. Мян ися юз нювбямдя 77 йашлы ащыл журналист кими сизин гейрятиниз вя ишэцзарлыьыныз, вятянпярвярлийиниз вя мярщямятиниз гаршысында баш яйирям!

Щюрмятля,

Идрис Щаъызадя,

«Тящсил» журналынын шюбя редактору

ZƏMANƏMİZİN UNİKAL ADAMI

Onun zəngin və maraqlı bioqrafiyası, həyat amalı, zamana sığmayan fəal həyat mövqeyi, xeyirxahlığı və nəcibliyi, əsl ziyalılığı, qibtəedici çoxşaxəli bədii yaradıcılığı və ictimai fəaliyyəti barədə kifayət qədər məlumatım var və dəfələrlə onun çoxcəhətli fəaliyyəti barədə mətbuatda çıxış etmək istəmişəm. Amma nədənsə

indiyə kimi istəyimi reallaşdıra bilməmişdim. Görünür, ataların «saxla samanı, gələr zamanı» məsəli əbəs yerə söylənilməyibmiş. Məhz uzun illərdən sonra Hüseynbala Mirələmov haqqında söz söyləməyimin vaxtı, məqamı indi gəlib yetişibmiş. Düzdür, Hüseynbala müəllim barədə çox qələm sahibi, söz xiridarları kifayət qədər deyib, yazıblar, onun zəngin bədii yaradıcılığını lazımınca təhlil edib, yazıçı, dramaturq kimi qiymət veriblər. Mən də öz prizmamdan çıxış edib, Hüseynbala müəllim haqqında fikirlərimi söyləmək istəyirəm.

Onunla ilk tanışlığım 1964-cü ilə təsadüf edirdi. 1963-çü ildə BDU-nun (hazırda ADU) filologiya fakültəsinin jurnalistika şöbəsinə qəbul olunmuşdum. Özü də əyaniyə. Bəxtimiz onda gətirmişdi ki, bizə adını eşitdiyimiz, lakin üzünü görmədiyimiz görkəmli şəxslər - Mir Cəlal, Nəsir İmanquliyev, Nurəddin Babayev, Bəxtiyar Vahabzadə, Ağamusa Axundov, Famil Mehdi, İnayət Bəktaşi, Əlövsət Abdullayev, Əkbər Ağayev, Tofiq Rüstəmov kimi əsl ziyalılar dərs deyirdi. II kursda - 1964-cü ildə öz xahişimlə Lənkəranda çıxan «Leninçi» qəzetinə 3 həftəlik təcrübə keçməyə getdim. Redaksiyada Yaşar Rzayev, istedadlı şair Şəkər Aslan, Hüseynağa Qəniyev, Ramiz Hüseynov kimi səriştəli qələm sahibləri çalışırdı. Gənc Hüseynbala da (o vaxt onun 17 yaşı vardı) qəzetdə əməkdaşlıq edirdi. İlk dəfə onunla elə «Leninçi»də tanış

oldum. Gənc qələm sahibi kimi o, qəzetdə maraqli məqalə və kiçik həcmli bədii yazıları ilə çıxış edirdi. Təcrübə müddətində mənim «Leninçi»də jurnalistikanın müxtəlif janrlarında xeyli yazım dərc olunmuşdu. Hüseynbala müəllim də maraqlı yazılarıma görə məni tərifləyir, jurnalistliyə həvəsimi artırırdı.

Hüseynbala müəllimlə mən bir də bir neçə il sonra onun Bakıda «Azərbaycan pioneri» qəzetində işlədiyi vaxt görüşdüm. Onun həmin qəzetin əməkdaşı olduğuna görə (Hüseynbala müəllim «Azərbaycan pioneri»ndə əvvəlcə ədəbi işçi, sonra isə baş ədəbi işçi vəzifələrində işləmişdir), tez-tez redaksiyada görüşər, onun qəzetdə çıxan yazılarına görə pionerin hər sayını əldə edib oxuyardım.

H. Mirələmov ömrünün ahıl çağını yaşayır. Onun arxada qalan mənalı illər ərzində ömür kitabının səhifələri gözlərim önündə vərəqlənir. Doğrudan da, Hüseynbala müəllimin ömrünə calanan illər bir-birindən uğurlu, mənalı keçmiş illəri yaddaqalandır. Hərtərəfli geniş fəaliyyəti bəzilərinə hətta inanılmaz görünər. Amma çoxcəhətli və məhsuldar yaradıcılığı, coşğun fəaliyyəti qədirbilən insanlar, mütəxəssislər tərəfindən həmişə təqdir olunmuş, müxtəlif mətbu orqanlarında öz əksini tapmışdır.

Qeyd edək ki, H.Mirələmov bədii yaradıcılığa lap erkən yaşlarından-məktəb skamyası arxasında oturarkən başlamışdır. Belə ki 14 yaşlı yeniyetmənin ilk qələm təcrübəsinin məhsulu olan «Bir tikə çörək» adlı hekayəsi işıq üzü görmüşdü. Bu, yeniyetmə Hüseynbalanın özünə olan inamını artırır və o özünü sonradan bədii yaradıcılığa həsr etməyi qərara alır. Belə ki mütəmadi olaraq dövrü mətbuatda çıxış edir, bədii yazıları ictimaiyyətin nəzərini cəlb edir. 1986-cı ildə gənc nasir ilk kitabını oxucuların müzakirəsinə verir. «Tənha durna» adlı ilk əsəri maraqla qarşılanır. Bundan ilhamlanan gənc nasir sonralar bir-birinin ardınca bir neçə kitabı ilə özünü istedadlı yazıçı kimi təsdiqləyir. «Qayada çiçək», «Xəcalət», «Simuzər», «Daha bir ümid sabahı», «Gəlinlik paltarı», «Vicdan qəzası», «Həyat eşqi», «Bir gecənin sehri», «Yanan qar», «Cəza» kimi nəsr kitabları H.Mirələmovun məhsuldar bir yazıçı olduğunu təsdiqləyir. Mövzu rəngarəngliyi ilə bir-birindən seçilən həmin əsərlər bir sıra xarici dillərə də tərcümə olunub.

Hüseynbala müəllimin bədii publisistika sahəsində uğurları da diqqəti cəlb edir; Bu sahədə məhsuldar çalışan istedadlı publisist ulu öndərimiz Heydər Əliyevin zəngin və mənalı həyat və fəaliyyətinə həsr etdiyi «Amalın işığında», «Həqiqət», «Millətin atası», «Bir günəş var», «İşığın izi ilə» kitabları ictimaiyyət tərəfindən marağa,

geniş rezonans yaratmışdır. Onun başqa bir publisist əsərini də qeyd etməmək olmaz. Bu, «Görkəmli adamların həyatı» seriyasından olan «Heydər Əliyev» kitabıdır ki, (Viktor Andriyanovla birlikdə) Rusiya Federasiyasının paytaxtında iki dəfə rus, ingilis və fars dillərində çapdan çıxmış və müəlliflərinə uğur qazandırmışdır. Əgər H.Mirələmov siyasi cəhətdən yetkin bir publisist olmasaydı, şübhəsiz ki, Azərbaycanın memarı, bütün şüurlu həyatını canından artıq sevdiyi Azərbaycana, bu ölkənin müdrik xalqına həsr etmiş Heydər Əliyev kimi dünyaşöhrətli bir siyasi xadimin mübarizələrlə dolu həyatından bəhs edən belə monumental əsərlər yarada bilməzdi.

Onu da açıqlamağa dəyər ki, Hüseynbala Mirələmov indiki Azərbaycan Dövlət Texniki Universitetinin məzunudur. 1970-ci ildə həmin ali məktəbi mühəndis ixtisası ilə bitirmişdir. Gənc mühəndis kimi əmək meydanına atılan M.Mirələmov müxtəlif ünvanlarda müxtəlif mötəbər vəzifələrdə fəaliyyət göstərmiş, harada işləməsindən asılı olmayaraq üzərinə düşən vəzifədə məsuliyyətlə çalışmış, işlədiyi müəssisəni qabaqcıllar sırasına çıxarmışdır. Buraya Lənkəran şəhər Qaz Tikinti-Quraşdırma İdarəsi, Azərbaycan Dövlət Yanacaq Komitəsi, «Azəriqaz» Təmir-Tikinti Tresti, «Maye Qaz» İstehsalat Birliyi, «Bakqaz» İstehsalat İdarəsi, Azərbaycan

Qaz Emalı zavodu daxildir. Hüseynbala Mirələmov adıçəkilən sənaye müəssisələrində şərəfiə çalışmış, işlədiyi kollektivlərin dərin hörmət və məhəbbətini qazanmışdır. Sonuncu nəhəng sənaye müəssisəsi olan Azərbaycan Qaz Emalı zavoduna uzun illər rəhbərlik etməsi Hüseynbala müəllimin böyük təşkilatçılıq bacarığından, texnikaya dərindən bələdçiliyindən, adamlar arasında dərin hörmət sahibi olmasından xəbər verir. Axı onun yüksək elmi fəaliyyəti də diqqət mərkəzindədir. Belə ki Hüseynbala müəllim 6 elmi kitabını və dərs vəsaitini araya-ərsəyə gətirmişdir, başlıcası isə texnika elmləri doktorudur.

Bax, H.Mirələmov belə çoxcəhətli, bir-birindən fərqli peşələrin sahibidir. Onun əmək fəaliyyəti, elmi və əbədi xidmətləri ölkəmiziin və xarici dövlətlərin mükafatlarına layiq görülmüş, müəllifinə başucalığı gətirmişdir. O, eyni zamanda bu gün ictimai xadim kimi də səmərəli fəaliyyət göstərir, milli məclisin üzvüdür. Bu isə deputat kimi onun Xətai rayon ictimaiyyəti -doğma seçiciləri ilə mütəmadi görüşlərinə, onların qayğı və problemləri ilə yaxından tanış olmağa imkan verir.

Hüseynbala Mirələmovun çoxsahəli fəaliyyəti, zəngin yaradıcılığı barədə qələm sahibləri çox söz deyilib. Onlardan biri də istedadlı şair və publisist, məhsuldar

qələm əhli, «Kredo» qəzetinin baş redaktoru Əli Rza Xələflidir. Onun «Dünyanın söz üzü» adlı kitabında tanınmış yazıçı-dramaturq, ictimai-siyasi xadim Hüseynbala Mirələmovun həyatı və yaradıcılığı ilə bağlı ayrı-ayrı vaxtlarda qələmə aldığı ədəbi-publisist qeydləri toplanmışdır. «Dünyanın söz üzü» kitabındakı yazılar ədəbi-bədii-fəlsəfi fikir tutumu, ilhamlı və poetik ruhu ilə diqqəti cəlb edir. Kitabdan aşağıdakı parçaya diqqət kəsilək:

«Hüseynbala Mirələmov oxunan yazıçıdır, sözü ədəbi aləmdə müzakirədə olan yazıçıdır. Professional ədəbi tənqid onun haqqında dəfələrlə tutarlı söz deyib, yaradıcılığına obyektiv münasibət bildirilib. Əlbəttə, subyektiv münasibətlər də var və bunu da təbii qəbul etmək lazımdır. Bu kitabda Hüseynbala Mirələmovun həyatının və yaradıcılığının görünən və görünməyən tərəflərinə bir daha işıq tutulur, əsərləri, obrazları təhlilə çəkilir, ədəbi publisistikanın imkanları daxilində yazıçının qaldırdığı problemlər şərh olunur, müasirlərimizi düşündürən məsələlərə münasibət bildirilir».

Hüseynbala Mirələmov bu gün yaradıcılığının ən məhsuldar dövrünü yaşayır, yazıb-yaradır, ictimai fəaliyyətini davam etdirir. O hazırda **YAP Xətai rayon**

təşkilatının sədridir. Hüseynbala Mirələmov bu məsul vəzifənin də öhdəsindən layiqincə gəlir, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan, bu gün isə onun siyasi məktəbinin davamçısı İlham Əliyev tərəfindən irəliyə doğru aparılan Yeni Azəbaycan Partiyası Xətai rayon təşkilatının sədri kimi hakim partiyanın nüfuzunun daha da artmasına, sıralarının yeni savadlı və işgüzar üzvlər hesabına genişlənməsinə səy göstərir.

P.S. Mən bir qəzet səhifəsinə sığan bu yazıda Hüseynbala Mirələmov barədə olsa-olsa, onun haqqında bildiklərimin, gördüklərimin və eşitdiklərimin bəzi məqamlarına toxundum. Bu isə, dəryada damlaya bərabərdir. Axı Hüseynbala müəllim bir məktəbdir. Onun zəngin bədii yaradıcılığı, həyat və ictimai fəaliyyəti barədə tənqidçilər, analitiklər hələ çox danışacaq, çox yazacaqlar. Çünki Hüseynbala Mirələmov hər kəsə nəcib olmayan istedadlı və məhsuldar yazıçı, publisist, dramaturq, texniki elmlər doktoru, professor, ictimai xadim, millət vəkilidir. Doğrudan da o, zəmanəmizin unikal adamıdır!

İdris Hacızadə

SÜLH, DOSTLUQ VƏ HUMANİZM BAYRAMI

Müsahibimiz tanınmış fölklorşünas alim, folklorumuzun inkişafında və dünyaya tanınmasında misilsiz xidmətlari olan, bu sahədə çoxlu kitabların müəllifi, professor, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü Azad Nəbiyevdir.

- Hörmətli professor, Şərq xalqları sırasında geniş yayılmış böyük bayramlardan biri də Novruz bayramıdır. Bu gün böyük Türk dünyasında milyonlarla insan bu bayramı qeyd edir. Dünyəvi yaz bayramı kimi keçirilən Novruzun yaranması, xalqımızın məişətinə daxil olması barədə çoxlu mif, əfsanə, tarixi fakt, mənbə bəllidir. Ömrünü bu sahəyə həsr etmiş bir alim kimi müqəddəs Novruz bayramının tarixi, əhəmiyyəti, mənəvi-əxlaqi dəyərləri, rəmzləri barədə məlumat verərdiniz.

- Şərq xalqları içərisində yayılmış böyük bayramlardan biri də Novruz bayramıdır. Azərbaycan

xalqı bu bayramı hər il mart ayının 20-21-22-də keçirir. Novruzun bayram edilməsi yaddaşa əski təsəvvürlərin mirası kimi həkk edilmişdir:

Azərbaycan xalqının erkən əkinçilik, maldarlıq görüşlərini geniş çevrədə özündə əks etdirən Novruz bayramı zaman-zaman yüksək mədəni dəyərləri, qabaqcıl bəşəri idealları, dostluq, qardaşlıq, həmrəylik kimi humanist duyğuları əhatə edərək sərhəd bilmədən yaxın və uzaq ellərə yayılmış, özünün əzəmətli əxlaqi dəyərləri ilə şöhrətlənmişdir.

Bu gün böyük türk dünyasında, eləcə də Şərq ellərində üç yüz milyondan artıq insan içərisində doğma bayram kimi qeyd edilən, yeni-yeni insan toplumlarının dünyəvi yaz bayramı kimi keçirdiyi Novruzun yaranması, xalqımızın məişətinə nüfuz etməsi barədə çoxsaylı miflər, əfsanələr, tarixi faktlar, mənbələr mövcuddur. Novruz Şərqin qədim yaz bayramlarından biri kimi xalqımızın təbiət hadisələri barədə əski görüşlərini, onun erkən əmək və məişət həyatını geniş bədii-fəlsəfi lövhələrdə əks etdirməkdədir. O da inkaredilməzdir ki, xalqımızın ən qədim mədəni dəyərləri Novruzun erkən kulturoloji düşüncəsinin başlıca məzmununu və ana qaynağını təşkil edir. Bunları təsdiq eləyən əsaslı və mühüm faktlar isə təbii ki, Azərbaycan xalqı içərisində bayrama məxsus

ənənə və rituallar, dünyanın yaranması barədə erkən təsəvvürlər, miflər və rəvayətlər, inanclar, tapınmalar, dünyanın və insanın törənişi və yüksəlişi ilə bağlı bəlli dörd müqəddəs ünsür – Su, Od, Yel və Torpaqla bağlı etiqadlar, eləcə də bayram məcmuunun tam və pozulmaz qəliblərdə yetgin formatda xalq içərisində yaşamaqda olan el variantıdır.

Xalqımız Novruzla bağlı elə silsilə rituallar və nəğmələr yaratmışdır ki, milli əmək və məişət həyatının bütün etnoqrafik görüntüləri onlarda öz bədii əksini tapmışdır. Holavar və sayaçı sözləri, "Qodu-qodu", "Səməni", Əkin və biçin, Günəşi, Yağışı və Küləyi çağırış nəğmələri, çoban nəğmələri, nehrə və cəhrə nəğmələri, toxuculuq və boyaqçılıq həyatını əks etdirən bədii nümunələr və başqaları bu cəhətdən diqqət çəkəndir. Novruz nəğmələrinin bir çoxunda erkən simvolik, fetişist, animist, magik görüşlər öz əksini tapmışdır. Bayram mərasimlərində Yaz və Qış rəmzlərinin qarşılaşması, şaxtanın, dumanın obrazlaşdırılması, böyük və kiçik çillənin özünəməxsusluqlarını əks etdirən bədii detallar güclüdür. Novruzun ən mühüm estetik dəyərləri mərasimlərin böyük əksəriyyətini söz, musiqi və nəğmə ilə elə zinətlənmişdir ki, bütün bunlar adamın könlünü, zövqünü oxşayır.

Bayram ideallarında insanların bolluğa, firavan və əmin-aman həyata coşğun çağırış istəyi dayandığı kimi, torpağı əkib-becərməyə, onu dirçəltməyə sonsuz məhəbbətdə əks edilir. Onlarda belə bir əxlaqi dəyər güclüdür ki, insan firavan və xoşbəxt həyatı yalnız öz əlinin zəhməti, alnının təri ilə qazana bilər.

Novruz bayramı etiqadlarında insanlara qayğı, diqqət, ədalət idealları başlıca yer tutur. Cəmiyyətdə bərabər, rahat yaşam tərzi formalaşdırmağa, xəstələrə, qocalara, kimsəsizlərə əl tutmağa çağırış ifadə olunur. Bu məqsədlə də bayram günlərində min bir nemətlə zəngin xonçalar bəzədilir, xəstələrə, qocalara, kimsəsizlərə, el ağsaqqallarına bayram xonçalarında müxtəlif bayrampayı, bayram şirniyyatı və başqa Novruz nemətləri göndərilər, ehtiyacı olanlara bayram yardımları göstərilər və beləliklə, bütün el-oba tam şəkildə bayram şənliklərinə qatılar, Novruz günlərində cəmiyyətdə bir növ maddi tarazlıq yaranırdı.

Novruzun başlıca simvollarından olan bayram xonçaları bir-birindən fərqli olardı. Nişanlı qızlara göndərilən xonçalarla ağsaqqal və ağbirçəklərə göndərilənlər öz tərtibinə görə fərqlənərdi. Qız-gəlin üçün bəzədilən xonçalar daha dəbdəbəli olar, bayrampayları və gənclərə verilən hədiyyələrlə zənginliyi ilə seçilərdi. Yaşlı

insanlara göndərilənlər də səliqəli tərtibi və hədiyyələri ilə daha xoşagələn olardı.

Bayramın humanist dəyərləri təkcə bunlarla yekunlaşmazdı. Bayram günlərində el arasında daha səmimi münasibətlər yaranar, insanlar bir-birinin evinə bayramlaşmağa, qohumgördüyə gedər, nişanlı qızlara bayram xonçaları aparılardı. Küsülülər barışar, evlərdə şadlıq, xoş əhval, mehribanlıq hökm sürərdi. Dövlət də ölkədə bayramı rövnəqləndirər, meydanlarda şənliklər təşkil edilər, tamaşalar göstərilərdi. Təqsirkarların cəzası bağışlanar, günahkarların cəzaları yüngülləşdirilər, bir sıra hallarda isə ökədə geniş əfvetmə fərmanları verilərdi. El-obada bir-birindən incik düşənlər bayramlaşıb kinə, ədavətə, qan davalarına son qoyardı. Eldən ayrı düşənlər evinə qayıdar, əsirlər əfv edilib bağışlanar, illərlə doğmalarından ayrı düşənlər yenidən öz yurdlarına qayıdardılar.

Göründüyü kimi, Novruz həm də yüksək mənəvi-əxlaqi dəyərləri ilə cəmiyyəti irəli aparan, onu saflaşdıran, insanları sülhə, dostluğa səfərbər edən böyük tərbiyə məktəbi idi.

Novruzda demək olar ki, bütün ritual, mərasim silsiləsi və yüksək etik-estetik dəyərləri bərpa edilmişdir.

Bayram yüzilliklər ərzində türk, eləcə də Şərq xalqları içərisində geniş şəkildə yayılmış, yeni-yeni tayfalar, xalqlar arasında şöhrətli kütləvi şənliklərlə zəngin yaz bayramı kimi tanınmışdır.

Xalqımızın XIX yüzillikdəki Türkmənçay tarixi faciəsindən sonra imperiya ideoloqları müxtəlif yollarla Novruzu milli yaddaşdan silib ilhaq etdikləri ərazilərdə yeni-yeni bayramları dəbə mindirməklə onu gözdən salmasına, Sovetlər dönəmində Novruz üzərinə qadağa və yasaqlar qoyulmasına baxmayaraq, xalq öz məişətində və yaddaşında onu qoruyub-saxlaya bilmişdir.

Fərəhli haldır ki, cəmiyyətimiz dədə-babadan miras qalmış Novruz əxlaqi dəyərlərini bu gün də yaşadıb davam və inkişaf etdirməkdədir. Azərbaycan xalqı öz Müstəqilliyini yenidən bərpa etdikdən sonra – 1993-cü ildə Novruz bayramı prezident Heydər Əliyevin sərəncamı ilə ümumxalq bayramı elan edilmiş, onun üzərindən bütün qadağalar götürülmüş, xalq Novruzu hər yerdə özünün böyük bayramı kimi kütləvi şənliklərdə qeyd etməyə başlamış, Novruz beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilərək dünyaya sürətlə yayılmağa başlamışdır.

Novruz bayramının xalqımıza məxsusluğunu, onun Azərbaycan xalqının arxaik düşüncəsilə bağlılığını

müəyyənləşdirmək üçün uzağa getmək lazım deyildir. İlk növbədə, bayramın özünə, onun adət-ənənələrinə, rəmzlərinə, şirniyyat süfrəsinə nəzər salmaq kifayətdir. Onlardan bir neçəsini xatırlatmaq yerinə düşərdi. Əcdadlarımızın törənişi ilə bağlı dörd müqəddəs ünsürünə tapınmalara söykənən Novruz bayramının bu ilk simvollarının vəhdəti, əslində, əbədi və gözəl dünyanın məna və məzmununun ifadəsi olub, onun əbədiyaşarlığını əks etdirir. Bayramda bu dünyanı vəsf eləyən babalarımız onu dairəvi şəkildə təsəvvür etdiyindən, dünyanın ilk simvolunu dairəvi sini məcməidə bəzədilmiş xonça kimi vəsf edir. Xonçanı dünya nemətlərinin sonsuzluq rəmzini ifadə edən yeddi simvol bəzəyir. Bunlar Günəşin rəmzi olan Şam, törənişin sonrakı Su, Hava və Torpaq rəmzlərinin məcmuunu ifadə edən Alma (yaxud meyvə qurusu), ilin ilk yaşıllıq rəmzi olan Səməni göyərtisi, törənişin fasiləsizliyi və əbədiliyini tamamlayan rəngli bəzədilmiş yumurta, dünyanın şirin nemət olduğunu əks etdirən şirniyyatdır. Tipindən, növündən asılı olmayaraq bütün Novruz xonçaları bu yeddiliklə bəzədilməlidir. Bunlardan sonra xonçaya istənilən bəxşiş, hədiyyə və sovqat qoyula bilər.

Belə bir faktı da xatırlatmaq istərdim ki, ötən əsrin səksəninci illərinin əvvəllərində məşhur antropoloq Tur Heyerdal Bakıya birinci dəfə gələndə ona Qobustanda

Novruz xonçası təqdim edilərkən o, xonçanın önündə dizlərini yerə qoyaraq «Əcaba bu, dünyanın bəzədilmiş simvoludur, siz nə qədim xalqsınız?» deyə heyrətini gizlədə bilməmişdi.

Novruz bayramı münasibətilə bişirilən şirniyyat növlərinə gəldikdə isə onlar da xalqımızın şirniyyat yeməkləri üzərinə köçürülmüş əski astroloji düşüncəsinin məcmuudur.

Novruz süfrəsinin bəzəyi olan Şor qoğalı (Şora) Günəşin, Şəkərbura yenicə çıxmış onbeşgünlük Ayın, üçbucaq şəkilli Paxlava Səmanın, uzun ağ Bükmə (Quba Bükməsi) Kəhkəşanın, rəngarəng Noğullar səmadakı Ulduzların simvollarıdır.

Maraqlıdır ki, Novruz bayramı münasibətilə bişirilən bayram şirniyyatı yeddi növlüdür. Suman halvası, Şor qoğalı (Şora), Şəkərbura, Paxlava, Bükmə, Süd çörəyi (Südlü çörək), Tıxma (Kətə).

Diqqət yetirilməli məsələlərdən biri də Novruz süfrəsinin yeddiliklə əlaqəsidir. İlk öncə demək lazımdır ki, bütün mənbələrdə Novruz süfrəsi şirni süfrəsi hesab edilir. Bir sıra qədim Şərq tibb kitablarında bu süfrədəki nemətlərin insana ecazkar qüdrət, uzunömürlülük, sağlamlıq bəxş etdiyi qeyd olunur. Novruz süfrəsində «s»

hərfi ilə başlayan yeddi yaz nemətinin – "Yeddi ləvin»in olması vacib hesab edilir. Bunlar aşağıdakılardır: "İl təhvil edilən vaxt evə gətirilən Su (al su), Səməni halvası, Südlü aş, Süzmə, Süd (qaynadılmış), Səməni şorbası, onun üzərinə səpmək üçün Sumaq".

Mənbələrdə göstərilir ki, bunlar Novruzun müqəddəs yeməkləridir, hər bir bayram süfrəsində qoyulan bu nemətlərin düzümü il ərzində insanın sağlamlığını və uğurlarını təzimləyir. Başqa bir mənbədə isə göstərilir ki, Novruz bayramı günlərində çeşidli ət yeməkləri, sirkə, soğan və sarımsaq yemək tövsiyə olunmur. «Bunlar Novruzdan sonrakı bayramın yeməkləridir".

Bütün bunlar isə Novruz bayramının əcdadlarımızın qədim dünyəvi yaz bayramlarından biri olduğunu, onun xalqımızın təbiətin oyanıb həyatvericilik funksiyalarını bərpa etməsi barədəki əski görüş və etiqadlarını özündə əks etdirdiyini bir daha təsdiqləyir.

Təsadüfi deyildir ki, bayramın YUNESKO tərəfindən dünya xalqlarının qorunan mədəni irsi siyahısına daxil edilməsi, Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 21 Martı Beynəlxalq Novruz günü elan etməsi bayramın dünya xalqları içərisində daha geniş yayılmasına, xalqımızın yüksək mədəni dəyərləri ilə xalqların tanış

olmasına öz təsirini göstərəcəkdir. Bu isə Novruz bayramının universal məzmununun indiki narahat dünyada tolerantlığa, ölkələr, dövlətlər və sivilizasiyalararası dialoqa, eləcə də Yer üzündə sülhün qorunub saxlanmasına və möhkəmləndirilməsinə, azərbaycançılığın humanist mahiyyətinin dünyada daha geniş yayılmasına kömək edəcəyinə ümidləri artırır. Bütün bunlara daha yaxın zamanda nail olmaq üçün insanlar arasında anlaşılmazlıqları aradan qaldırmağa, onları sülhə, həmrəyliyə və humanizmə çağıran Novruz dəyərlərini qloballaşmaqda olan dünyaya öz yetgin formatında yüksək etik-estetik və əxlaqi dəyərləri ilə birlikdə çatdırmaq gərəkdir.

- Hörmətli professor, dəyərli fikirlərinizə görə çox sağ olun.

- Siz də sağ olun.

HƏMİŞƏ BİZİMLƏ OLANLAR

CAZI RAM EDƏN MUSİQİÇİ, YAXUD "2002-Cİ GECƏNİN NAĞILI"

YAŞASAYDI 69 YAŞI OLARDI

O, İçərişəhərdə musiqiçi ailəsində doğulmuş, ömrü boyu Bakının bu unikal guşəsinin dolanbac küçələrində gəzib dolaşmış, hamının yadında yaraşıqlı və mehriban, sadə, gülərüz və təvazökar bir oğlan kimi qalmışdı. Öz sənətinə vurğunluğuna görə mənəvi cəhətdən şöhrətin içərisində azmışdı. Amma şöhrət qazana bilmişdimi? Əlbəttə, kifayət qədər. Lakin Vaqif Mustafazadəni xatırlayarkən onun taleyi ilə bağlı iki hiss keçirirsən – qürur hissi və ağrı-acı! Qürur hissini onu bəstəkar, eksperimentator-pianoçu, şedevr musiqiçi olduğuna görə keçirirsən. Çünki o, elə bir musiqiçi idi ki, tənqidçilər onun adını prinsipcə yeni, Azərbaycan lad sistemi əsasında cəza istiqamətlənən sənətkarlar sırasına daxil edirdilər. Ağrı-acıya gəldikdə, onu açmaq tələb olunmur.

V.Mustafazadə cəmi 40 il yaşadı. Həyatı yarımçıq kəsildi. Ölümü haqqında xəbər isə ildırım sürətilə yayıldı. Doğrudanmı bu xoş təbəssümlü, daim dəri gödəkçədə olan, bakılıların televiziya axşamlarını bəzəyən (o vaxtlar çox populyar olan "Sevil" vokal ansamblının bədii rəhbəri kimi) Vaqif vəfat etdi!

Mərkəzi qəzetlərin birində dərc edilmiş bir yazı da ildırım sürətilə bütün ölkəyə səs salmışdı. Yazı "Nekroloqdan əvvəl və sonra" adlanırdı. Material Vaqif Mustafazadənin Respublika Bəstəkarlar İttifaqına qəbul olunması xahişi ilə yazdığı ərizə ilə başlanırdı. Sonra da ittiham kimi səslənən bu ifadələr göstərilmişdi: **"Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyəti Vaqif Mustafazadəni ali təhsili olmadığı üçün ittifaqın üzvlüyünə qəbul etmir".**

Onun xoş təbəssümünü unutmaq mümkün deyil. Çoxları onun canından artıq sevdiyi qızı Əzizəni əlindən tutub necə məktəbə apardığını yaxşı xatırlayır. Bu, 70-ci illərin ortalarına təsadüf edirdi. Onun sevimli ciyərparası ilə xudahafizləşməsinin yalnız şahidi olmaq lazım idi. Necə də əyilib balaca Əzizənin ayaqqabılarının bağını bağlayar, saçını, sancağını düzəldərdi. Sonra da üzündən öpüb uzaqlaşar, amma bir neçə dəfə geri dönüb arxasınca baxardı. Qız məktəbin qapısına çatar-çatmaz, mehriban ata səslənərdi: "Mən bir şey unutmadım ki?" Əzizə yox işarəsi kimi başını bulayanda, Vaqif yenidən qaçıb qızın yanına gələr, yenidən onu öpüb geri qayıdardı.

Onun haqqında çox yazırdılar, əlbəttə, ən çox pianoçu, caz musiqisinin təbliğatçısı, dünya caz sənətinin ulduzu kimi. O, ulduz oldumu? Təbii ki oldu, amma

birmənalı qarşılanmırdı. Bəziləri iddia edirdi ki, onun ulduzluğu bu günlə düz gəlmir. Bəzi söz-söhbətlər, dedi-qodular baş alıb gedirdi. Vaqif isə bütün bunlara məhəl qoymadan yaradıcılığını davam etdirirdi.

İnsanlar adət etmədiklərinə görə, hər hansı bir yeniliyə həmişə şübhə ilə yanaşırlar. Anlaşılmazlıq isə qəbul edilmir, nifrət, qəzəb yaradır. Fərdilik isə başqa cür qəbul olunur, nadir hallarda təqdir edilir. Axı anlaşılmazlıqla inkar arasında bir addım məsafə var. Ona görə də V.Mustafazadənin böyük ilhamla ifa etdiyi parlaq kompozisiyaları o zaman respublika Bəstəkarlar İttifaqına yaxın buraxmırdılar: "Ali savadı yoxdur" – söyləyirdilər. Elə bil musiqi aləminə yenicə qədəm basırdı. Halbuki o vaxt V.Mustafazadə bir sıra dəyərli əsərlər yazmışdı ki, onlar təkcə bizim ölkədə deyil, Polşa və Fransada, eləcə də başqa xarici məmləkətlərdə də uğurla ifa olunurdu. Təkcə ümumittifaq "Melodiya" firması onun əsərlərindən ibarət valını öz ifasında buraxmışdı. Ölümündən bir neçə həftə əvvəl isə fortepiano ilə orkestr üçün öz konsertini görkəmli Azərbaycan dirijoru Niyaziyə təqdim etmişdi. O, teatrla əməkdaşlıq edir, sənədli filmlər üçün musiqi yazırdı. Vaqif Mustafazadənin "Əzizəni gözləyərkən" əsəri 1979-cu ildə Monakoda keçirilən caz kompozisiyaları bəstəkarlarının VIII Beynəlxalq müsabiqəsində I mükafata layiq görüldü. Vaqif o zamankı

İttifaqın birinci bəstəkarı idi ki, həmin forumda belə yüksək pilləyə qalxmışdı. Bəli, o, musiqi dünyasına təzə daxil olmamışdı. Amma buna baxmayaraq o zamankı Bəstəkarlar İttifaqının sorğu kitabına onun adı daxil edilməmişdi.

Məşhur musiqişünas Artur Kestler demişdir: "Kəşf nə qədər orijinal olsa, onun nəticəsi daha aydın görünər". Vaqif Mustafazadənin nümunəsi bunu təsdiqləyirdi. Bu gün məhz V.Mustafazadənin yaradıcılığının nəticəsidir ki, musiqi kataloqunda "Azərbaycan cazı" termini rəsmi surətdə daxil edilmişdir. Məhz bu fenomenlə dünya ona – Vaqif Mustafazadəyə borcludur.

Əfsus ki, biz sənətkarlara öləndən sonra qiymət verməyə başlayırıq. Bu yerdə mərhum xalq şairi Cabir Novruzun "İnsanlara sağlığında qiymət verin" fikri yada düşür. Hə, Azərbaycan televiziyası V.Mustafazadənin vəfatının birinci ildönümü münasibətilə veriliş hazırlamışdı. Amma Vaqifi elə sağlığında uğur onu müşayiət edirdi. Belə ki o son dərəcədə qısa zaman kəsiyində həm SSRİ-də, həm də xaricdə böyük populyarlıq qazandı. Bəli, yalnız ölümündən sonra həmin verilişdən sonra bu böyük sənətkarın əsl yaradıcılığı öz qiymətini aldı. Onu "Azərbaycan cazının banisi" adlandırmağa başladılar. Cəmi bir gecədə adamların

təsəvvüründə metamorfoza yarandı: Azərbaycanın əməkdar artisti V.Mustafazadə birdən-birə dünya əhəmiyyətli musiqiçi kimi yüksəldi. Həmvətənləri öz müasirlərinin əsl qiymətini belə dəyəndirləndirməyə başladılar.

Görkəmli Amerika musiqiçi və tənqidçisi V.Konover onun barəsində belə demişdir: "V.Mustafazadə ekstraklass pianoçudur". İsveç pianoçusu B.Yuxonson V.Mustafazadənin əsərləri haqqında söyləyib: "Onun musiqisi son dərəcədə müasirdir, eyni zamanda onun musiqisində bir neçə nəslin şairlərinin oxuduğu əsrarəngiz qədim Qafqazın melodiyaları yelpiklənir. Bu, Şəhrizadın nəql etdiyi 1002-ci gecə nağılıdır".

Vaqif 16 dekabr 1980-ci ildə Daşkənddə, elə səhnədəcə, pianino arxasında dünyasını dəyişdi. "Əzizəni gözləyərkən" – bu, onun qızına həsr etdiyi son vida kompozisiyası idi.

Artıq 29 ildir ki, o, aramızdan gedib. 29 ildir ki, bu özünəməxsus sənətkarın və şəxsiyyətin ürəyi əbədi dayanıb. Yaradıcılığının aşıb-coşduğu bir zamanda həyatdan getdi – cəmi 40 yaşında

Onun yaradıcılıq bioqrafiyasında 1300 musiqi əsəri yer alıb. Ən böyük arzusu isə özünə qırmızı rəngli royal almaq idi. Məsələ bunda idi ki, 1979-cu ildə İspaniyada mükafat fondu 25 min olan pianoçuların beynəlxalq müsabiqəsində Azərbaycan cazmeni birinci yerə layiq görülür. Lakin Vaqif bu mükafatdan imtina edir, çoxdan arzusunda olduğu qırmızı royal üzərində dayanır. Amma arzusu ürəyində qalır: böyük cazmen vəfat edir. 1980-ci ilin yanvarında isə münsiflər heyəti onun qırmızı rəngli royalını Bakıya göndərməyi qərara alır...

02.01.2011

İldırımlı yollrda keçmiş ömür

Elə adamlar var ki, xalqının, Vətəninin azadlığı, müstəqilliyi uğrunda ölüm-dirim mübarizəsinə qoşulur, bu müqəddəs yolda müxtəlif əzab-əziyyətlərə, hətta işgəncələrə məruz qalsa da, əqidəsindən, amalından dönmür, ömrünün sonunadək həmin əqidəyə xidmət edir.

Elələri var ki, mayası halallıqla yoğrulur, yalnız halallıqla qazandığına qane olur, həmişə el-oba yanında alnıaçıq, üzüağ gəzirlər. Bu gün elə adamlarla üzləşirik ki,

ürəkdən bağlandıqları peşəsinin mahir ustası kimi fəaliyyət göstərir, adı hörmət-izzətlə çəkilir.

Elələri var ki, dağı-dağ üstə qoysalar da, həmişə təvazökarlıq edir, özü haqqında danışmağı sevmir, tərifdən uzaq yaşayır. Haqqında söhbət açmaq istədiyimiz soydaşımız-mənalı və şərəfli ömür yolu hamımıza nümunə olan xalq yazıçısı, tanınmış və yorulmaz tədqiqatçı alim, təcrübəli müəllim Gülhüseyn Hüseynoğlu yuxarıda sadaladığım ən gözəl insani keyfiyyətləri özündə ehtiva edir. Onu çoxdan tanısam da (1963-68-ci illlərdə BDU-da təhsil aldığım illərdə hörmətli müəllimim kimi yadımda qalıb), keşməkeçli ömür tarixçəsinə kifayət qədər bələd olsam da, həmişə onunla həmsöhbət olanda bütün bunlardan bəhs etsək də, söylənilənlər barədə oxuculara məlumat vermək istəyimə qarşı çıxmışdı. Axır ki sonuncu dəfə necə deyərlər, "saqqızını oğurlaya bildim", barəsində yazmağıma necə icazə verdisə, özüm də təəccüb etdim, yamanca sevindim də.

"İçərişəhərli oğlan"

O, Masallı rayonunun Mollaoba kəndində doğulub. Amma hələ 4 yaşında ikən ailəliklə Bakıya köçür və İçərişəhərdə məskunlaşırlar. Uşaqlıq və gənclik illəri Bakının bu unikal, bənzərsiz hissəsində keçir. O illər indi

də yadına düşəndə, uşaq kimi kövrəlir, bu cənnətməkan guşənin hər dolanbac küçəsi, tini gözləri önündə canlanır.

Balaca Gülhüseyn Bakıda məşhur olan 132 saylı orta məktəbdə təhsil alır və 1942-ci ildə bu təhsil ocağını əla qiymətlərlə başa vuran gənc "içərişəhərli" elə həmin il o vaxtkı məşhur Azərbaycan Dövlət Darülfununa imtahansız qəbul olunur. Mətbuata, jurnalistikaya sonsuz həvəs göstərən Gülhüseyn təhsilini əyani şöbədə davam etdirməklə yanaşı, həm də o vaxtkı "Kommunist" qəzetinin sənaye şöbəsində ədəbi işçi kimi fəaliyyət göstərir. Amma əyani şöbədə oxuduğu üçün redaksiyadan uzaqlaşdırılacağı məsələsi ortaya çıxanda, yaxşı əməkdaş olduğu üçün onu əldən buraxmaq istəmirlər. Bu işdə "Kommunist"in məsul katibi xeyirxah insan Nəsir İmamquliyevin təkidi də öz işini görür.

G.Hüseynoğlu ali məktəbi 1947-ci ildə bitirir. O, hələ dövlət imtahanı verərkən, dekan Həbibulla Səmədzadə sevimli gənc tələbəsinə ərklə belə söyləyir: - "Bala, bir az da üzərində çalış, biz səni aspiranturada saxlamağı qərara almışıq".

Belə də olur. Gülhüseyn həyatını ali məktəblə bağlayır. Bu ali təhsil ocağında uzun illər ərzində elm aləminə baş vurduqca, pillə-pillə yüksəlir. Tələbəlikdən

sonra aspirant, müəllim, baş müəllim, dosent, nəhayət, professor kimi tanınır. Beləliklə, Gülhüseyn müəllim bütövlükdə, 60 ilə yaxın eyni elm məbədgahında filologiya fakültəsində müqəddəs müəllim adını şərəflə daşıyır, tələbələrinə müasir Azərbaycan ədəbiyyatının incəlikləri barədə məlumat verir, ədəbiyyat tariximizi onların gözləri qarşısında canlandırır.

"İldırımlı yollar"da bərkiyən gənclər"

Burada mühüm bir məqamı xatırlatmaq yerinə düşər. Gülhüseyn müəllim yazıçı, ədəbiyyatşünas olmaqla yanaşı, hələ erkən yaşlarından siyasətlə maraqlanıb, müstəqillik, vətənpərvərlik hissləri uşaqlıq çağlarından canına hopub. Bu əqidəsinə görə başı böyük müsibətlər çəkib, işgəncələrə məruz qalıb, ölümlə üz-üzə dayanıb. Amma sınmayıb, əyilməyib, vətənpərvərlik hissi heç vaxt onu tərk etməyib, Azərbaycanımızın müstəqilliyi, azadlığı onu daim narahat edib. Heç də təsadüfi deyildi ki, bu məqsədlə Gülhüseyn Hüseynoğlu hələ 1942-ci ildə "İldırım" adlı antisovet təşkilatı yaratmağa müvəffəq olub. "İldırım"ın hər birinin ağzından od-alov püskürən, azadlıq, demokratiya, müstəqillik arzuları ilə aşıb-daşan 8 gənc üzvü var idi: Gülnüseyn Hüseynoğlu (Abdullayev), İsmixan Rənimov, Hacı Zeynalov, Azər Rzayev, Aydın Vahidov, Kamal Əliyev, Kamal Rzayev və Musa

Abdullayev. Təşkilatın əsas tələbi Azərbaycanı SSRİ-nin imperiya buxovlarından azad etmək, yəni müstəqil, azad respublika yaratmaq, 1937-1938-ci illərdə repressiyaya uğramış Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərinin azadlığa buraxılmasına nail olmaq, doğma Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmaq idi. Öz demokratik ideyaları ilə tanınan həmin gənclər Azərbaycanda imperiya nökərlərinə çevrilmiş dövlət başçılarının qəzəbinə tuş gəlirlər. Odur ki, 1948-ci ilin sentyabr-oktyabr aylarında barələrində həbs qətimkan tədbiri görülür. Gənclər Azərbaycan SSR Ali Məhkəməsi tərəfindən mühakimə olunaraq müxtəlif müddətlərə həbs cəzasına məhkum edilirlər. Belə ki Gülhüseyn Abdullayev, İsimxan Rəhimov, Hacı Zeynalov barədə 25 il həbs və 5 il səsdənməhrum cəza tədbiri icra olunur, Azər Rzayev, Aydın Vahidov, Kamal Əliyev, Musa Abdullayev barədə 10 il həbs və 5 il səsdənməhrum cəzası oxunur. Kamil Rzayevə isə 7 il həbs cəzası kəsilir. Ona görə ki o, Böyük Vətən müharibəsində iştirak etmişdi və bir-iki təltifi var idi.

Məhkəmə prosesində vətənpərvər oğullar özlərini çox məğrur aparırdı. Hətta məhkəmənin ikinci günü az cəza alan gənclər, yəni 10 il cəzaya məhkum olunanlar əqidə dostlarından ayrılmamaq üçün etiraz səslərini ucaldaraq "bizə də 25 il kəsin",-deyə təkid edirdilər.

Beləliklə, azadlıq aşiqləri olan gənclərin uzaq Sibirdə məhkumluq illəri başlayır. Cılız, zəif tələbələr Sibirin sərt təbiəti ilə üzləşir, müxtəlif ağır işlərdə çalışır, hər cür əzab-əziyyətə sinə gərir, ölümün acığına dözür, dözürdülər.

Yalnız Stalinin ölümündən sonra, 1953-cü ildə siyasi dustaqların işinə yenidən baxılır və ilk dəfə SSRİ-də amnistiya aktı siyasi dustaqlara da şamil edilir. Odur ki, SSRİ Ali Məhkəməsi həmin siyasi dustaqların işinə yenidən baxır və hamısının əvvəlki cəza nüddətini 5 ilə endirir. Bununla da onlar 7 il məhbəsdə müxtəlif əzab-əziyyətlərə dözərək, yanlız 1955-ci ilin martında dəhşətli Stalin düşərgəsindən azadlığa buraxılırlar.

Müəllim, ustad, nasir

G.Hüseynoğlu həbs olunarkən BDU-da aspiranturanın II kursunda oxuyurdu, ona görə də geri qayıdıb təhsilini başa vurur, sonra da ali təhsil ocağının Azərbaycan ədəbiyyatı kafedrasında müəllim kimi fəaliyyətə başlayır. Çox keçmədən kafedra 2 yerə-Azərbaycan ədəbiyyatı kafedrası və müasir ədəbiyyat kafedrasına ayrılır. Gülhüseyn müəllim ikinci kafedranı seçir. Uzun illər ərzində həmin kafedrada müxtəlif vəzifələrdə fəaliyyət göstərir.

Bu gün Azərbaycan ədəbiyyatında zəngin ədəbi yaradıcılığı ilə tanınan Gülhüseyn müəllim ədəbi aləmə "Ana" hekayəsi ilə daxil olmuş və həmin nəsr əsəri onun yazıçı kimi tanınmasını təsdiqləmişdir. Hələ 1944-cü ildə Azərbaycan LKGİ MK və Yazıçılar İttifaqı gənc qələmlərin yaradıcılığına həsr olunmuş birgə tədbir keçirirdi. Həmin gecədə Gülhüseyn müəllim özünün "Ana" hekayəsini oxuyur. Ilk çıxış edən Səməd Vurğun hekayə barədə fikrini belə söyləyir: "Şair kimi mənim burada oxunan şeirlərin heç biri xoşuma gəlmədi. Amma Gülhüseynin hekayəsini əsl poeziya hesab edirəm". Beləliklə, Gülhüseyn elə həmin gündən özünü yazıçı kimi təsdiqlədi.

G.Hüseynoğlu Azərbaycan ədəbiyyatında mənsur şeirin banisi kimi məşhurdur. Ilk mənsir şeiri isə 1946-cı ildə "Ədəbiyyat qəzeti"ndə çap olunmuş "Bənövşə əfsanəsi"dir. O vaxtdan Gülhüseyn Hüseynoğlu həm mənsur şeirləri, həm də hekayələri ilə oxucularla görüşür. Bu iki janr yazıçının qoşa qanadı kimi ona şöhrət qazandırıb. Amma yazıçıya ümumxalq məhəbbəti qazandıran onun mənsur şeirləridir. O doğrudan da, Azərbaycan ədəbiyyatında bu ədəbi janrın banisi, ilk qaranquşudur. Gülhüseyn müəllim uzun illər ərzində mənsur şeiri inkişaf etdirib, boya-başa çatdırıb, ərsəyə yetirib, cilalayıb. "Mücrü" adlı mənsur şeiri isə xalqın

dilinin əzbəridir. Tamaşaçılar eyniadlı "Mücrü" televiziya filmini bu gün də həvəslə seyr edirlər. Tanınmış rus ədibi, Azərbaycan yazıçılarının yaxın dostu K.Fedin G.Hüseynoğlunun "Mücrü"sü barədə aşağıdakı sözləri söyləmişdir: "Əsərdəki məcaz varlığın canlı obrazına çevrilir. Bu metamarfoza məni ovsunlamışdır."

Rus ədibi haqlıdır. Amma mənsur şeir ustasının belə əfsunları kifayət qədərdir. "Mücrü" isə bizim qənaətimizə görə, yazıçı Gülhüseyn Hüseynoğlunun pasportu sayılmalıdır.

Yazıçının indiyə kimi bütövlükdə, 30-a qədər kitabı işıq üzü görüb. Külliyatının əsasını müxtəlif janrlarda qələmə aldığı mənsur şeirlər, hekayə və povestlər, ssenarilər və s. təşkil edir.

G.Hüseynoğlu ədəbiyyatşünas alim kimi də tanınır. O, nakam şairimiz Mikayıl Müşfiqin zəngin həyat və yaradıcılığı, şairin əsərlərinin, bütün ədəbi irsinin tədqiqi, tərtibi və toplanıb xalqa çatdırılması sahəsində misilsiz əmək sərf etmişdir. Təqdidatçı-alimin zəhməti və rəhbərliyi sayəsində gözəl bir məqamı da qeyd etmək istərdim. Belə ki ildə 2 dəfə Müşfiqsevərlər nakam şairin Bakıdakı abidəsi önünə yığışır, şair barədə ürək sözlərini söyləyir, sonra Müşfiqin ata-baba yurduna - Xızının

Sayadlar kəndinə gedir (hazırda orada həmin adda kənd olmasa da), kəndin mərkəzində Müşfiqin şərəfinə ucaldılmış abidə qarşısında tədbiri davam etdirirlər. Bütün bunlar böyük şairə olan dərin xalq məhəbbətinin, xalq ehtiramının təntənəsi, eyni zamanda tədqiqatçı-alimin zəhmətinin bəhrəsidir.

Keçən il Gülhüseyn Hüseynoğlu 90 yaşında vəfat etmiş və İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

İdris HACIZADƏ

«Amalım insanlara sağlamlıq bəxş etməkdir»

Bir həkimin məharəti yüzlərlə döyüşçünün

hünərindən üstündür

Homer

TANIŞLIQ

Bu sözlərin müəllifi ömrünün 48-ci baharına qovuşmuş ağxalatlı həkim, özü də hərbi həkim, yəni ağxalat altında çin gəzdirən hərbi xidmət polkovnik-leytenantı Şahlar Qubad oğlu Quliyevdir. Canlı bir kitaba bənzər bu ömrün nə qədər bir-birindən fərqli - maraqlı və həyəcanlı, pozulmaz və yaddaqalan səhifələri var?! Bu ömür yolu enişli-yoxuşlu, dərəli-təpəli olub, labirintlərdən keçib, həyatın hər cür sərt üzünü görüb, müxtəlif ünvanlarda dayanaraq lövbər salıb! Coşğun çaya bənzər həyatın burulğanlarına tuş gəlib, dəfələrlə ölüm kabusu ilə qabaq-qənşər olub, üz-üzə, göz-gözə dayanıb. Hər an, hər dəqiqə ölüm adlı o kabusla həyat uğrunda, yaşamaq uğrunda mübarizə gedib. Özünü, cavan canını düşünməyən bu şəxs düşmənlə qeyri-bərabər döyüşdə neçə-neçə say-seçmə oğullarımızı ölümün pəncəsindən qopararaq həyata qaytarıb. Qaşla-göz arasında olan bu ölüm-dirim mübarizəsində o, hər şeyi unudub, elə özünü də. Yalnız qarşısında uzanıb xilaskarından imdad diləyən, bəlkə də son anlarını yaşayan Vətən oğullarından ölümü uzaqlaşdırmaq üçün düşünüb-daşınan, təcili tədbirlərə əl atıb, çıxış yolu tapanda, ölümün gözünün içinə düz baxıb, ona qalib gələndə, üzünə təbəssüm qonub, dərindən köks ötürərək, rahat nəfəs alıb, bu zaman uşaq kimi kövrəlib də - bir kimsəni həyata qaytardığına görə.

O dəhşətİİ anları bu gün də tez-tez yada salan hərbi həkim yenə o vaxtlara qayıdır, o müdhiş, təsvirəgəlməz situasiyalar kinolent kimi gözləri önündən gəlib-keçir. Yalnız ondan toxtaqlıq tapır ki, müharibə şəraitində yaşasaq da, atəşkəs rejimi hökm sürür, qan-qada, ölüm-itim yoxdur...

Göründüyü kimi, Şahlar Quliyevin maraqlı, ibrətamiz həyat tarixçəsi vardır. Bugünkü gənclərə örnək olacaq bu ömür yolunun bəzi səhifələrini oxucular qarşısında vərəqləyirik.

Ş.Quliyev hazırda nankor qonşularımız tərəfindən işğal olunmuş Qarabağ torpağında, daha doğrusu, Füzuli rayonunun İkinci Mahmudlu kəndində Qubad kişinin çoxuşaqlı ailəsində həyata göz açmışdır. 1971-ci ildə orta məktəbi bitirən Şahlar 3 il rayonun N.Nərimanov adına kolxozunda sıravi kolxozçu işləyib. Sonra 2 il də o zamankı Sovet ordusunda qulluq edib. Az yaşında xeyli həyat təcrübəsi qazanıb, zəhmətə alışıb, çətinliyə qatlaşıb. Təhsil almaq, geniş həyat yollarına çıxmaq üçün doğma rayondan Sumqayıta gəlib. Əvvəlcə o, burada çalışan inşaatçılar cərgəsinə qoşulub. 3 saylı evtikmə kombinatında fəhlə işləyib. Lakin təhsil almaq bir an onu rahat buraxmır. Ona görə də N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun hazırlıq kursuna

qəbul olunur. 1976-cı ildə nəhayət, ali məktəbin tələbəsi olmaq səadəti Şahlara nəsib olub. Acılı-şirinli, təqaüd ümidli tələbəlik həyatı...

1982-ci ildə ali məktəbi başa vuraraq, bir il həkim-inter işləyib. Bundan sonra o, "Şuşa" sanatoriyasında, doğma rayonu Füzulidə rayon mərkəzi xəstəxanasında çalışıb. Burada 3 il anesteziologiya - reanimasiya şöbəsinə rəhbərlik edib...

ÖMRÜNƏ YAZILAN ÜZÜNTÜLÜ İLLƏR...

Azərbaycanın könüllülərindən ibarət Silahlı Qüvvələrinə daxil olan həkimlərin ilk cərgəsinə qoşulan Şahlar Quliyev 1992-ci ilin sentyabrından həqiqi hərbi xidmətə çağırılır. Bu çağırış ürəyindən olur. Axı döyüş bölgələrində onun kimi təcrübəli həkimlərə böyük ehtiyac var idi. Bir də Qarabağ, o cümlədən Füzuli bölgəsi imdad gözləyirdi. Odur ki, Şahlar N hərbi hissəsinə tibb bölüyündə hospital taqımının komandiri vəzifəsinə təyin olunur. 1995-ci ilin sentyabrına qədər bu çətin və məsul vəzifədə çalışır. Sonra da, daha doğrusu, 1995-1997-ci illər arasında N hərbi hissəsinin terapiya şöbəsinin, 1997-

ci ildən 2001-ci ilin aprelinədək N hərbi hissəsində qastroenterologiya bölməsinin rəisi vəzifəsini yerinə yetirir. Cəbhə bölgəsində çalışdığı illər onun ömrünə yazılmış ən dəhşətli və üzüntülü, ən çətin və əzablı, insandan, o cümlədən hərbi həkimdən dözüm, iradə, rəşadət və risk tələb edən illər idi. Yaralı əsgərlərə ilk tibbi yardım göstərir, yeri gələndə təcili surətdə onların üzərində cərrahiyyə əməliyyatı aparır. Düşünüb-daşınmadan 10 dəfələrlə çox qan itirmiş yaralıların venasına, öz qanından birbaşa qan itirmiş yaralıların venasına qan köçürmüş, neçə-neçə soydaşımıza ikinci həyat bəxş etmişdir. Bütün bunları həmişə bir həkim, vətəndaş, bəşər övladı kimi özünün müqəddəs borcu hesab edib. Məhz bundan sonra qəlbində rahatlıq tapıb, yüngülləşib. Maraqlıdır ki, Şahlar Quliyev xidmətdə olduğu Qarabağ döyüş bölgəsində 10 minə yaxın hərbçiyə ilk yardım göstərib, onları müalicə edib. Onların çoxusu bu gün də öz xilaskarını hörmətlə yad edir.

HAŞİYƏ

1994-cü ilin yay günlərində Füzuli bölgəsində gərgin döyüşlər gedirdi. Şahlar eşidir ki, qardaşı Ağabala da

döyüş bölgəsindədir, tabor qərargahının rəisidir. Döyüş zamanı qardaşının yaralandığını ona bildirirlər. Həkim özünü qardaşına çatdırır və təcili yardım göstərilir. Özünə gələn kimi qərargah rəisi yenidən döyüşə tələsir. Bundan narahat olan Şahlar həkim xahiş edir ki, bu tezlikdə döyüşə getmək olmaz. Lakin Ağabala Quliyev rəisi olduğü tabor sarıdan nigaran idi. Ona görə də yenidən döyüş bölgəsinə atılmağa hazırlaşır. Qardaşının xasiyyətinə yaxşı bələd olan Şahlar həkim susmağa qərar verir. Tabor rəisi Ağabala Quliyev (o, hazırda Respublika Prokurorluğunda çalışır) əsgərlərin yanına qayıdan kimi sanki bütün ağrı-acısını unutdu...

Hippokratın belə bir kəlamı var: "Xəstəliyi təbiət sağaldır, həkim isə ona kömək edir". Dahi Hippokrat öz fikrində o cəhətdən haqlıdır ki, xəstənin sağalması təbiətin səxavətinə qalır. Müharibə şəraitində isə yaralanmış və sağlamlığını itirmiş hər hansı xəstənin yeganə ümidi məhz hərbi həkimlərə qalır. Elə bütün varlığı ilə ondan imdad gözləyən Şahlar Quliyev kimi hərbi xidmət həkimlərinə. Bunun nəticəsidir ki, o, çalışdığı Füzuli bölgəsində qısa müddət ərzində 472 yaralını qəbul edib, hər birini təcili müayinədən keçirib, ilk yardım göstərib. Kiminə qan verib, kimini ciddi müalicə edib, kiminin üzərində cərrahiyyə əməiiyyatı aparıb. Sutkanın 24 saatı ərzində bəzən bir qurtum çay içməyə, bir loxma çörək yeməyə

vaxt tapmayıb, həftələr, aylarla ev üzü görməyib, ailədən xəbər tuta bilməyib. Amma həmişə gümrah görünüb, iş başında farağat dayanıb, hamya, hər kəsə yardım əlini uzatmağa hazır olub. Başa düşüb ki, ölkə müharibə vəziyyətindədir, Vətənə sağlam müdafiəçilər lazımdır. Hər bir əsgər və zabiti tez müalicə edib yenidən döyüş bölgəsinə göndərmək üçün təcili tədbirlər görülməlidir. Beləcə, hərbi həkimin hər günü, hər saat və dəqiqəsi, gərgin və dolğun keçən cəbhə bölgəsindəki fəaliyyəti ömür kitabının heç vaxt yaddan çıxmayan unudulmaz səhifələridir.

Ş.Quliyev keçən ilin aprelindən Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Kliniki Hospitalında (MHKH) çalışır, burada qastroenterologiya şöbəsinin rəisi vəzifəsini yerinə yetirir. Onun MHKH-də hər iş günü gərgin keçir. Gün ərzində neçə-neçə əsgər və zabit ona pənah gətirir. Ən çox mədə-bağırsaq xəstəliyindən əziyyət çəkənlər həkimə müraciət edirlər. Bu günlərdə biz də MHKH-də olduq və Şahlar həkimi iş başında gördük. Bir xeyli onun xəstələri müayinə etməsinin, dəqiq diaqnoz qoymaşının, dəyərli məsləhət verməsinin şahidi olduq. Söhbət zamanı hərbi həkim bildirdı ki, MHKH-də hər cür müasir diaqnostik aparatlar var. Onların köməyilə ən mürəkkəb xəstəliklərin düzgün diaqnozu qoyulur. Bu isə vaxtında müalicəyə başlamağa və xəstənin tez sağalmasına şərait yaradır.

MHKH-də bir neçə hərbçi xəstə ilə söhbət edirik.

Vüsal Hacıyev:

- Mədə xorası ilə hospitala gəldim. Vəziyyətim ağır idi. Sağ olsun həkim Şahları. İlk dəqiqələrdən başımın üstünü kəsdirdi. Müayinə apardı. Ciddi müalicə başlandı. Bir həftədə, necə deyərlər, özümə gəldim. İndi özümü yaxşı hiss edirəm. Bir neçə gündən sonra hospitalı xoş ovqatla tərk edəcəyəm.

Cavid Əliyev:

- Mədəaltı vəz, 12 barmaq bağırsaq mənə əziyyət verirdi. Doğrusu, bədbinlik üstümü almışdı. Yaman küskün olmuşdum. Amma 10 gün ərzində əvvəlki ovqatım özümə qayıtdı. Bunun üçün həkim Şahlara ömrüm boyu minnətdaram.

Yenə həkimlə söhbətimizi davam etdiririk.

- Ayda 30-35 xəstəni müayinə edib müalicə aparıram. Hospitalda hər cür şərait yaradılmışdır. Müasir tibb avadanlıqları, diaqnostik aparatlar həkimlərin işini xeyli yüngülləşdirib. Xəstələr də onlara göstərilən müalicədən, tibb xidmətindən razılıq edirlər. Bu isə bizim üçün ən böyük mükafatdır. Başlıca məqsədimiz insanlara sağlamlıq bəxş etməkdir.

Ali məqsədiniz var, tibb xidməti polkovnik-leytenant! Bu xeyirxah və nəcib əməlinizdə sizə daha böyük uğurlar diləyirik!

“Naxçıvan” qəzeti,

12 aprel, 2002-ci il

XİLASKAR QARABƏKİR PAŞA KİMDİR?

Güllü Məmmədovanın imzası ədəbi aləmə kifayət qədər məlumdur. İstedadlı yazıçı və jurnalist olan Güllü xanım uzun illərdir mətbuatda çalışır, Naxçıvan televiziyasında fəaliyyət göstərir. Öz bədii yazıları ilə oxuculara yaxşı tanış olan Güllü Məmmədova bu dəfə qələmini ədəbiyyatın daha ağır və çətin bir janrında sınamışdır. Belə ki o, bu dəfə "Qarabəkir əfsanəsi" adlı sənədli tarixi romanı ilə oxucuların görüşünə gəlmişdir. Bəri başdan qeyd edək ki, yazıçı öz çiynini ağır bir yükün altına vermiş və istəyinə nail olmuşdur. Axı tarixi sənədli roman üzərində işləmək yazıçıdan zəngin müşahidə qabiliyyəti, təsvir olunan dövrdəki hadisələrə yaxından bələd olmaq, fakt və rəqəmləri ardıcıllıqla və dəqiq işıqlandırmagı tələb edir. Nə yaxşı

ki, yazıçı bu məsuliyyəti dərk etmiş və öz qəhrəmanının dolğun obrazını yaratmışdır.

Kimdir Qarabakir paşa və yazıçı nə üçün onun haqqında roman yazmağı qərara aldı? Əvvələn, yada salaq ki, "Qarabəkir əfsanəsi" tarixi romanı tarixdən bizə məlum olan 1918-1920-ci illərdə Türkiyənin Doğu vilayətində, eləcə də Naxçıvanda baş verən dəhşətli hadisələrdən ətraflı bəhs edir. Yazıçı romanda həmin torpaqları erməni daşnaklarından, erməni işğalından azad edən böyük türk sərkərdəsi, Türkiyə və Azərbaycanın xilaskarı, əfsanəvi qəhrəman Kazım Qarabəkir paşanın qəhrəmanlığından, onun mənalı həyatı və bütün türk dünyasına nümunə olan döyüş yolundan söhbət açır.

Doğrudan da 1918-1920-ci illər Azərbaycan, eləcə də Naxçıvan üçün ən dəhşətli, ən müdhiş illər olub. Bu qədim diyarın öz kökündən - Azərbaycandan qoparılıb ayrılmaq təhlükəsi vardı. Bu zaman məhz bölgə əhalisinin müqavimət göstərməsi, ən başlıcaçı isə qardaş Türkiyənin hərbi və siyasi yardımı, mənəvi dayağı nəticəsində məkrli ermənilərin alçaq niyyətləri həyata keçmədi. Belə ki Türkiyənin igid oğlu Kazım Qarabəkir paşanın rəhbərliyi altında türk əsgərlərinin Naxçıvana daxil olmaları bölgənin acı taleyini həll etmiş oldu. Eyni zamanda həm azərbaycanlıların məhv edilməsinin qarşısı alındı, həm də

Naxçıvan diyarına Azərbaycanın tərkibində muxtariyyət statusu verildi. Bu mühüm amilin hər ikisi Kazım Qarabəkir paşanın adı ilə bilavasitə bağlıdır. Çünki bu igid türk oğlu həm silahla, həm də qələmlə (Naxçıvana muxtariyyət statusu verən Qars müqaviləsini məhz Kazım Qarabəkir paşa imzalamışdır) bu bölgəni qorumuş, onun yağı əlinə keçməsinə yol verməmişdir.

Həmin dəhşətli illərdən bizi uzun zaman kəsiyi ayırsa da, bu gün hər bir naxçıvanlı bölgənin xilaskarı kimi Kazım Qarabəkir paşanı dərin hörmət və ehtiramla yad edir və ruhuna rəhmət oxuyur. Bu cəhətdən yazıçı Güllü Məmmədovanın "Qarabəkir əfsanəsi" adlı tarixi roman yazması tamamilə qanunauyğundur.

Yazıçı bu əsəri qələmə almazdan əvvəl xeyli gərgin axtarışlar aparmış, arxivlərə baş çəkmiş, qəhrəmanın həyat və fəaliyyətini araşdırmış, Türkiyə Cümhuriyyətində olmuş, Qarabəkir paşanın sağ qalmış övladları və yaxınları ilə görüşmüş, zəngin material toplamış, onların hamısını yaradıcılıq süzgəcindən keçirmiş, bir sözlə, qələmə aldığı qəhrəmanını hərtərəfli öyrənə bilmişdir. Məhz elə buna görədir ki, əsər maraqla oxunur, hadisələr oxucunu ardıcıllıqla öz axarınca aparır.

Sənədli roman 6 hissədən ibarətdir: "Paşalığa gedən yol", "Türkülər ağladı Doğu elində", "Köhnə düşmən", "Dağlar da arxasız olmasın" və "Cəngiyə çevrilən bayatılar". Beləliklə, əsərdə Kazım Qarabəkiri uşaqlığından başlamış 20-ci illərə qədər olan fəaliyyəti qələmə alınmışdır. Yazıçı romanda öz qəhrəmanını diribaş və ağıllı uşaq, çalışqan və daim öyrənməyə meyl və həvəs göstərən tələbə, qeyri-adi istedada malik igid sərkərdə, incə qəlbli, zərif ruhlu şair və kövrək insan, əsl qeyrətli vətəndaş kimi təsvir etmiş, bir sözlə, onu hərtərəfli, bütöv bir obraz kimi oxuculara təqdim etmişdir.

Yazıçının niyə bu tarixi şəxsə müraciət etməsinə gəldikdə isə Güllü xanım cavab verir ki, jurnalist marağının, naxçıvanlıların tez-tez "O zaman Naxçıvanı saxlayan Kazım Qarabəkir paşa oldu", "Türk generalı olmasaydı, Naxçıvan indi ermənilərin idi" və s. kimi ürəkdən gələn sözlər söyləmələri, bu zaman onların kövrəlib göz yaşları axıtmaları məni bu obrazı yaratmağa qəti sövq etdi.

Romanın araya-ərsəyə gəlməsində yazıçıya ən qiymətli məlumatları Naxçıvanın nadir şəxsiyyətlərindən biri, filologiya elmləri namizədi, dosent, gözəl alim və tədqiqatçı Lətif Hüseynzadə verib. Güllü xanım Lətif müəllimi haqlı olaraq canlı ensiklopediya adlandırır. Belə

olmasaydı, aradan 80 il keçməsinə baxmayaraq Lətif müəllim paşanın şeirlərini hələ də əzbərdən deyib, onu böyük hörmət və məhəbbətlə yad etməzdi.

Müəllif «Qarabəkir əfsanəsi»nin işıq üzü görməsində ona hərtərəfli köməyini əsirgəməyənlərə dərin ehtiram və minnətdarlığını bildirir. Belə xeyirxah və yaxşı adamlardan biri də Naxçıvan MR-in əks-kəşfiyyat idarəsinin sabiq sədri Urfulla Qurbanov olub. Kitabın nəşr olunmasında isə Türkiyə Cümhuriyyəti müəllifə maddi kömək göstərib. Elə buna görə də Güllü xanım Türkiyə Cümhuriyyətinin diqqət və qayğısına cavab olaraq, eləcə də Kazım Qarabəkir paşanın ruhuna hörmətin ifadəsi kimi, kitabın satışından əldə olunacaq vəsaitin Naxçıvan şəhərində Kazım Qarabəkir kəhrizinin bərpasında aparılan işlərə sərf olunacağını aşkarlayır.

Kitaba ön sözü tarix elmləri doktoru, professor İsmayıl Hacıyev yazmışdır. Əsər gözəl illüstrasiya ilə "Zaman" nəşriyyatında çap olunmuşdur.

Güllü Məmmədovanın gərgin əməyinin bəhrəsi olan "Qarabəkir əfsanəsi" əsərini yazıçının sanballı uğuru hesab edirik.

2000-ci il, 22 sentyabr

Gənclərə örnək olan işıqlı ömür

Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin Fərmanı ilə «Əsrin müqaviləsi»nin 7-ci ildönümü ərəfəsində keçən il sentyabrın 20-si «Neftçi günü» kimi qeyd edilmişdir. Həmin gün Azərbaycanda Neft və Qaz Sənayesinin inkişafında göstərdikləri xidmətlərə görə xeyli neftçi ölkə prezidentinin fərmanı ilə yüksək adlara layiq görülmüş, «Şöhrət» ordeni və «Tərəqqi» medalı ilə təltif olunmuşdur. Onlardan biri də Nuru Nuriyevdir. O, «Şöhrət» ordeni ilə təltif edilmişdir. Bu qocaman neft ustası dolğun və mənalı həyat yolu keçmişdir. Biz də Nuru müəllimin mənalı ömür yolundan söhbət açmaq istəyirik.

Təcrübəli neftçi dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyinin baş mühəndisinin müavini, Neft və Qaz Hasilatı üzrə İstehsalat Şöbəsinin rəisidir.

Bəri başdan qeyd edək ki, N.Nuruyev yaşadığı 69 illik mənalı ömrünün düz 34 ilini mavi Xəzərin coşğun suları qoynunda tükənməz sərvətimiz olan "qara qızıl»ın çıxarılmasına həsr edib. Ümumilikdə isə, həyatının 45 ilini neftə bağlayıb.

ATA QAYĞISİ GÖRMƏDİ

O, yaralı yerimiz olan Qarabağ diyarının Ağcabədi rayonunda həyata göz açıb. 1933-cü ilin qızılı payız fəslində, Bünyad kişinin ailəsində. Nurunun gəlişi evə, ailəyə bir dünya sevinc bəxş edib. Leylan ana dünyanın bəxtəvəri idi. Bünyada oğul doğmuşdu. Uç bacı əhatəsində boyüdü Nuru. Arıq, qarayanız olsa da, çox qıvraq, çevik, diribaş idi. Bünyad kişi günləri sayırdı ki, Nuru nə vaxt məktəbli olacaq? 1941-ci ilin 1 sentyabrında Nuru birinci sinfə gedəcəkdi. Həmin günü hamıdan çox ata səbirsizliklə gözləyirdi. Lakin Bünyad arzusuna çatmadı. İki ay əvvəl o da vətənin müdafiəsinə səfərbər olundu. Özünün dediyi kimi, "Hitlerin başını əzməyə" yollandı. Ərini müharibəyə yola salan Leylan ana dörd uşaqla başıpapaqlısız qaldı, ciyərparalarına həm də ata oldu...

Nuru birinci sinfə atasız getdi. Atanın olmamasını həmin gün möhkəm hiss etdilər. Nuru isə hamıdan çox. Hər şeyi içində çəkdi. Söz verdi ki, hamıdan yaxşı oxuyacaq. Atasının arzusunu yerinə yetirəcək.

Vədinə əməl etdi Nuru. Qabiliyyəti, səy və bacarığı ilə yaşıdlarından seçildi. Bütün fənləri eyni dərəcədə

mənimsəyirdi. Amma atası bir an gözü önündən getmir, sanki onu müşayiət edir, üstündə göz olurdu. Ancaq nə edəsən ki, bütün bunlara baxmayaraq, atası uzaqda idi. Nigaran qoymuşdu ailəni. Bünyad kişidən cəmi üç məktub gəldi. Sonra da "qara kağız..."

Beləcə, 1951-ci ildə orta məktəbi uğurla başa vuran Nurunun Bakı həyatı başlayır. Nəhəng şəhərin qoynuna atılır. Arzusu ADU-nun fizika-riyaziyyat fakültəsinə daxil olmaq olsa da, Neft Akademiyasının tələbəsi olur. Tələbə adını da şərəflə daşıyır. Qrta məktəbdə olduğu kimi, ali məktəbdə də həmyaşıdlarına şəxsi nümunə göstərir. Vaxtını ancaq oxumaq və öyrənməyə sərf edir.

BU DA İSTEHSALAT!

1956-cı ildə ali məktəbə "əlvida" deyən gənc Nurunun təyinatını indiki "Balaxanınefl"ə verirlər. İlk dəfə buruqlar meşəsini görəndə, xüsusilə axşamlar, özünü əfsanəvi aləmdə hiss edir. Qalxıb-enən mancanaq dəzgahları sanki torpağa səcdə edir, yerin dərin qatlarından "qara qızıl" çıxarır. Nuru əmək fəaliyyətinə neft hasilatı üzrə operator kimi başlayır. Adına əmək kitabçası yazılır və beləliklə, o

da çoxminli neftçilər cərgəsinə qoşulur. Təcrübəli neftçilərin qabaqcıl iş üsullarından bəhrələnən, təhsildə qazandığı nəzəri biliyi istehsalatda möhkəmlədən N.Nuriyev qısa bir zamanda öz işinin ustasına çevrilir. Quyuların iş rejimini yaxşı öyrənən gənc neftçi texniki rejimə bir sıra yeniliklər gətirir. Hər şeylə maraqlanan, inadından dönməyən, texnikaya dərin maraq göstərən N.Nuriyev öz peşəsində pillə-pillə yüksəlir. Bir neçə ildən sonra isə baş mühəndis vəzifəsinə irəli çəkilir. Ancaq harada işləməsindən asılı olmayaraq, o öz vəzifəsinə həmişə ürəkdən, vicdanla yanaşmışdır.

Ona görə də daim işi tərifləmiş, başqalarına nümunə göstərilmişdir.

O illərdə N.Nuriyevin işgüzarlığı, qabiliyyəti, prinsipiallığı, nöqsanlara qarşı barışmazlığı başqa millətlərdən olanların (xüsusilə məkrli ermənilərin) xoşuna gəlmir, qısqanclıq, pislik hissilə coşub-daşır və Nuru barəsində rəhbərliyə donos yazır, onu gözdən salmağa, ləkələməyə çalışır, arabir istəklərinə də nail olurdular. Lakin haqq gec-tez öz yerini tutur və Nurunun uğurları bədxahların arzularını ürəyində qoyurdu.

3 iyun 1985-ci il. Bu, N.Nuriyevin Neft daşlarında fəaliyyətə başladığı tarixdir. O vaxtkı Sov.İKP XXII qurultayı adına Neft və Qazçıxarma İstehsalat Birliyinə baş mühəndis təyin edilmişdir. Daha doğrusu, gənc Nurunu bu vəzifəyə o vaxtkı Neft və Qazçıxarma Ümumittifaq Sənaye Birliyinin baş direktoru, məşhur neftçi, Sosialist Əməyi Qəhrəmanı Qurban Abbasov tövsiyə etmişdir. Nuru Nuriyevin əmək fəaliyyətinin ən çətin dövrü də o illərdən beləcə başlayır. Bəxtiyar Məmmədovun, Bəhmən Hacıyevin, Qurban Abbasovun, Xanoğlan Bayramovun, Akif Cəfərovun və İsrafil Hüseynovun, eləcə də onlarla neft korifeylərinin işlədiyi və qurub-yaratdığı ənənəni Nuru Nuriyev davam etdirəcəkdi. Davam etdirdi də. Həm də layiqincə, şərəflə. Nuru Nuriyev qabaqcadan onu da bilirdi ki, tələtümlü, şıltaq Xəzərin suları qoynunda, açıq dənizdə, həm də estakadalar üzərində işləmək hər oğulun işi deyil. "Dəniz cəsurları sevir" - ifadəsi də bu fikri təsdiqləyir. Çünki bu yolda qurban, qada, bəzən həyatın bahasına başa gələn risklər də olur. Quruda müəyyən təcrübə qazanmış Nuru müəllim, necə deyərlər, qolunu çırmayıb işə başladı. İlk öncə, o, elm və texnikanın son nailiyyətlərinin istehsalata tətbiqinə geniş meydan verdi. Belə ki müxtəlif elmi institutların elmi əməkdaşlarını iş meydanına dəvət etdi.

Birlikdə təcrübələr aparıldı, işgüzar söhbətlər, mübahisələr keçirildi. Nurunun özü də hasilatın artırılması üçün neçə-neçə səmərələşdirici təklif və ixtiralar üzərində, necə deyərlər, baş sındırdı, gecə-gündüz işlədi. Onları sınaqdan keçirdi, sonra da cəsarətlə istehsalata tətbiq edildi və gözəl iqtisadi səmərə əldə olundu.

ONUN İXTİRALARI

Neft daşlarında çalışdığı illərdə elmi axtarışlar, uğurlu nəticələr baxımından Nuru Nuriyevin ömrünün ən səmərəli və ən müdrik vaxtı hesab olunur. Belə ki həmin vaxt yaradıcı neftçi 50-yə yaxın elmi məqalə yazıb çap etdirmişdi. Həmin yazılar neft sənayesinin müxtəlif sahəsinə həsr olunmuşdur. Təkcə onu demək kifayətdir ki, o, 100-dən çox səmərələşdirici təklifin, 25-dən artıq ixtira və patentin müəllifidir. Onun istehsalata tətbiq olunan təkcə 9 patenti 15 milyard 421 milyon 641 min 608 manat iqtisadi səmərə vermişdir. Bunun da üstünə səmərələşdirici təkliflərdən əldə olunan iqtisadi səmərəni gəlsək, onda Nuru müəllimin neft sənayesinə verdiyi faydanın miqyasını aydın görə bilərik.

N.Nuriyevin bütün axtarışlarının, gərgin əməyinin, yuxusuz gecələrinin məntiqi nəticəsi 1990-cı ildə

"Dənizdə neftçıxarmanın səmərəliliyinin yüksəldilməsi" mövzusunda dissertasiya müdafiə edib, texnika elmləri namizədi alimlik dərəcəsi almasıdır. Əslində, N.Nuriyevin gördüyü işlər, onun neft sənayesinin iqtisadiyyatına verdiyi sanballı gəlir alimin doktorluq müdafiəsindən də yüksəkdir. Nuru müəllim bu gün də elmi axtarışlarını davam etdirir.

HƏMKARLARI, DOSTLARI NURU NURİYEV HAQQINDA

Onu tanıyanlar neftçi-alim haqqında adətən belə deyirlər: "Mülayim xasiyyətli adam", "Harada işləyibsə, orada yaxşı ad qoyub", "İddiasız insan", "Nuru müəllimə borcluyam", "Gənclərə örnəkdir".

Nuru müəllim barədə akademik Azad Mirzəcanzadənin fikirləri isə daha maraqlıdır: "Neft daşları bir sıra görkəmli neft mütəxəssisləri ilə yadda qalıb: Bəxtiyar Məmmədov, Süleyman Vəzirov, Bəhmən Hacıyev və bir çox başqalarının adları bu gün hörmətlə çəkilir. Son illər burada daha bir neftçi - mütəxəssis çalışır. Bu, Nuru Nuriyevdir. Nuru müəllim Neft daşlarına

pis vaxtda gəldi (hər cəhətdən). Belə bir vəziyyətdən ancaq həqiqi mühəndis baş çıxara bilərdi. Elə çıxartdı da. Nuru Nuriyev məhz belə bir mühəndis idi. Öz bacarığı, işgüzarlığı, səriştəsi və təcrübəsilə Nuru Neft daşlarında xeyli səmərəli iş görüb. Onun fəaliyyətini yüksək qiymətləndirirəm. Doğrusu, mən Nurunu görəndə neft fatehlərini, o cümlədən Qurbanı görürəm. O məşhur neftçi gəlib gözlərimin önündə durur. Nuruda əsl mühəndisə xas olan keyfiyyətlər var. O yaxşı kadrdır, gözəl mütəxəssisdir, alimdir, yüksək səviyyəli mühəndisdir.

AİLƏ DƏ KIÇİK BİR CƏMİYYƏTDİR

Nuru Nuriyev əsl azərbaycanlılara məxsus ailə başçısıdır. Tanrı ona bir oğul və iki qız, beş nəvə payı verib. Övladlarının hər üçü ali savadlıdır. Oğlu Bünyad babasının adını daşıyır. O da atasının açdığı cığırla gedir - neftçidir. Atası kimi Neft Akademiyasının məzunudur. Əmək fəaliyyətinə qazmaçı köməkçisi kimi başlayıb. Öz bilik və bacarığı sayəsində pillə-pillə yüksəlib. Bir müddət Xəzər Neft-Qaz İstehsalat Birliyində Üzən Qazma Qurğuları Şöbəsində mühəndis işləyib. Hazırda isə

Azərbaycan Dövlət Neft Şirkətində Mərkəzi İnformasiya və Operativ İdarəetmə üzrə referentdir.

Nuru müəllimin sədaqətli ömür yoldaşı Azərbaycan qadınlarına xas xanım-xatınlıq rəmzi olan Tamara xanım hazırda Bakı şəhər Qadınlar Cəmiyyətinə başçılıq edir.

Ömrünün müdriklik çağını yaşasa da, əvvəlki kimi gənclik həvəsi ilə işləyib-yaşayan neftçi-alim Nuru Nuriyevi aldığı yüksək dövlət mükafatı - "Şöhrət" ordeni münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, şərəfli peşəsində uğurlar diləyirik.

2002-ci il

İÇƏRİŞƏHƏR TARİXİ MEMARLIQ ABİDƏSİDİR

BU UNİKAL MƏKANI MÜHAFİZƏ ETMƏK ÜÇÜN TƏXİRƏSALINMAZ TƏDBİRLƏRƏ EHTİYAC VAR

Qədim və unikal İçərişəhər. Tarixlərin yadigarı. Dəqiq tarixi hələ lazımınca məlum olmayan bu yaşayış sahəsi sözün həqiqi mənasında, açıq səma altında muzeydir. Bu qəribə şəhərin özünəməxsus relyefi, makroiqlimi, ab-havası var. Dominovarı şəkildə bir-birinə bitişik olan orta əndazəli yaraşıqlı binalar, əyri və ensiz dolanbac qəmbər küçələr, meynəli və işıqlı aynabəndli dalanlar. Şəhər içində şəhər.

Sahəsi 21 hektara bərabər olan İçərişəhərin ərazisində 600-ə qədər müxtəlif biçimdə bina var. Əsrlərin yadigarı olan əzəmətli tarixi memarlıq abidələrinin sayı isə 500-dən çoxdur. Tarixi memarlıq qoruğu ilə yanaşı, yaşayış zonası sayılan İçərişəhərdə 400-dən artıq adam yaşayır. İlk dəfə 1952-ci ildə abidələri qeydə alınan, 1977-ci ildən "dövlət tarixi memarlıq abidəsi" statusu daşıyan İçərişəhər 2000-ci ildə YUNESKO-nun ümumdünya mədəni irs siyahısına daxil edilib.

Amma İçərişəhərin qorunub mühafizə olunması yönümündə tarixiləşən bu təqvim qoy heç kimi yanıltmasın. Burada vəziyyət ürəkaçan səviyyədə deyil. Çünki İçərişəhər kompleksi indiyə kimi qorunub-saxlanmayıb. Belə ki, abidə kompleksinin qorunmasında yol verilən külli miqdarda qüsur və nöqsanların qısa zaman kəsimində aradan qaldırılacağı, eləcə də bərpasında

dönüşlü irəliləyişə nail olunacağı gözlənilirdi. Amma heç də belə olmadı.

Doğrudan da bu qoruq-memarlıq abidəsinin başına son illər min oyun açılır. İçərişəhərdə kompleksə uyğun gəlməyən və onun ilkin gözəlliyinə xələl gətirən yamaq kimi yersiz əlavələr, zövqsüz bərpa işləri gedir. Bəzi cibidolu işbazların burada heç bir əndazəyə sığmayan, ümumi ansamblı pozan əzəmətli binaları, müxtəlif xarici səfirliklərin yerləşdikləri ofislər və başqa yöndəmsiz tikililər dediklərimizə misal ola bilər.

Ölkə başçısı da İçərişəhərlə əlaqədar sərəncam imzalamışdır. Həmin sərəncamdan irəli gələn və Mədəniyyət Nazirliyinin xəttiylə bu günlərdə İçərişəhər tarixi memarlıq qoruğunun mühafizəsi, təqdimi və təbliği məsələsinə həsr edilmiş elmi praktik konfrans keçirilmişdir. Tədbirdə respublikamızın ünlü mütəxəssislərilə yanaşı YUNESKO-nun ekspertləri və xarici mütəxəssislər də iştirak edirdilər.

Respublikanın mədəniyyət naziri Polad Bülbüloğlu söhbət obyekti olan İçərişəhərin mövcud durumu barədə məlumat verdi və tədbir iştirakçılarını bu abidənin gələcək taleyini müəyyənləşdirən konseptual planın hazırlanmasında daha fəal olmağa çağırdı. Görəsən, illər

boyu bu mövcud məsələyə biganə qalan mütəxəssislər bundan sonra doğrudanmı fəallaşacaqlar? Təki belə olsun!

Konfransın yekunlarından danışmazdan öncə İçərişəhərlə bağlı bəzi faktları oxuculara çatdırmaq istəyirik. Bu sətirlərin müəllifi də bir neçə dəfə respublika mətbuatında İçərişəhər, onunla bağlı problemlər barədə çıxış etmişdir. Bu gün həmin problemlər nəinki azalmamış, əksinə, onlara yeniləri də əlavə olunmuşdur. İçərişəhər abidəsinin dəqiq tarixi bilinmir. Tarixçi və arxeoloqların gəldiyi nəticəyə görə, bu yaşayış məskənlərinin kökləri daha dərinlərə aparır. Məsələ burasındadır ki, sözügedən ərazidə indiyə kimi lazımi səviyyədə qazıntı işləri aparılmayıb. Bu səbəbdən də İçərişəhərin dəqiq yaşını sübut edən əşyayi-dəlillər kifayət qədər deyil. Bütövlükdə araşdırdıqda isə İçərişəhərin tarixinə dair müxtəlif versiyalar mövcuddur. Faktlara müraciət edək. Bəzi mütəxəssislər belə hesab edirlər ki, abidənin bünövrəsi eramızdan əvvəl qoyulub. Amma aparılan qazıntı işləri belə qənaətə gəlməyə imkan verir ki, İçərişəhərdə VII əsrdən əvvəllərə aid olan bir sıra tarixi abidələr mövcuddur. İçərişəhərdə dəqiq yaşı bəlli olan ən qədim abidə Məhəmməd məscididir, ona Sınıqqala da deyilir. Məhəmməd məscidi 1042-ci ildə tikilib.

İçərişəhərin memarlıq üslub və ənənələrinə gəlincə, tarixi memarlıq kompleksinə ən çox milli memarlıq ənənələri, üslubu nəzərə çarpır. Ən gözəl, möhtəşəm binalar əsrin əvvəllərində tikilib. Xatırladaq ki, həmin dövrün əksər binaları qarışıq memarlıq ənənələri əsasında inşa edilib. Yəni bu binaların timsalında Şərq memarlıq üslubu ilə Avropa memarlıq abidələri sintezləşdirilib. İçərişəhərin ən dözümlü abidələri isə intibah dövrünə, yəni XIV-XV əsrlərə məxsusdur. Həmin dövrdə tikilən qala divarları, məscidlər, hamamlar, mədrəsələr bu gün də yaxşı vəziyyətdədir.

Onu da yada salaq ki, İçərişəhərdə aparılan son qazıntı zamanı çox qiymətli abidələr üzə çıxıb. Təəssüf ki, bu abidələrin əksəriyyətinin təyinatı hələ ki verilməyib. İçərişəhər barədə müxtəlif versiyalar mövcuddur. Amma bir şey məlumdur ki, bu məkanın hələ üzə çıxarılmamış yeraltı sərvətləri çoxdur. Ona görə, İçərişəhərin yaşı barədə qəti əminliklə danışa bilmərik. Bu gün İçərişəhərdə evlər, binalar tikilsin, ya tikilməsin. Bura qoruq kimi saxlanılsın, sualı da vacibdir, mübahisə doğuran məsələdir. Çoxları bu qənaətdədir ki, şəhərdə daha yeni binalar tikilməsin, sıxlıq yaranmasın. Məsələnin bu cəhəti İçərişəhərin xeyrinə olardı. İçərişəhər mütləq tikilməlidir fikrində olanlar da az deyil. Onların fikrinə şərik çıxmaq olar. Yalnız bir şərtlə ki, yeni binaların inşası zamanı

abidələrin aurasına, memarlıq ənənələrinə xələl gəlməsin. Axı əvvəldə qeyd etdiyim kimi, İçərişəhərdə evlər domino prinsipi ilə inşa edilib. Binalar bir-birinə sanki söykənib, bitişib, ona görə də hər hansı bir bina söküləndə, ona söykənən başqa binalar da laxlayır, yerindən oynayır, tədricən məhvə məruz qalır. Bu fikir üzərində dayananlar təsdiqləyirlər ki, həqiqətən də İçərişəhər hər şeydən əvvəl, açıq səma altında canlı muzeydir. Burada VI əsrdən üzübəri müxtəlif dövrlərə aid hələ bu gün də göz oxşayan, necə deyərlər, dözümlüyünü qoruyub-saxlayan tikililər, binalar var. Yeni əsrin, gələcək əsrlərin tikililərini də artırmaq, bəlkə də labüddür. Yalnız bir şərtlə: İçərişəhərin ümumi görkəminə xələl gəlməməklə, yəni şəhərin aurası nəzərə alınmaqla.

İçərişəhərin tarixi memarlıq qoruğunun mühafizəsi, tədqiqi və təbliği məsələsinə həsr olunmuş elmi-praktik konfransda "İçərişəhərin yeni idarə üsuluna və yanaşma tərzinə ehtiyac var" kimi mühüm məsələ irəli sürüldü. Döğrudan da İçərişəhər iki sttukturun - bir tərəfdən şəhər İcra Hakimiyyətinin, o biri tərəfdən də Mədəniyyət Nazirliyinin tabeliyindədir. Bu iki hakimiyyətlik də işə öz təsirini göstərir. Mənim şəxsi qənaətim belədir ki, şəhər içində şəhər olan İçərişəhərin özünün xüsusi meri olsun. Həmin mer burada böyük tarixi əhəmiyyətə malik abidələrin taleyilə bilavasitə özü məşğul olsun. O zaman

hökumət də birmənalı şəkildə müəyyən edər ki, İçərişəhərin taleyi üçün hansı qurum konkret məsuliyyət daşıyır. Halbuki son zamanlara qədər İçərişəhərlə bağlı hər hansı bir suala cavabla əlaqədar "ötür-ötür" oyununun şahidi olurduq, yəni heç kim məsuliyyət daşımaq isləmirdi.

Konfransda YÜNESKO-nun eksperti David Miçelmor da İçərişəhərin yeni idarə üsuluna keçməsinə ehtiyacı olduğunu vurğuladı. Xarici qonaqlarla yanaşı Azərbaycanın mütəxəssıs və memarlarından Afiq Talıbov, Cəfər Qiyasi, Şamil Fətullayev, Rəna Allahverdiyeva və başqaları da çıxış edərək, qoruq-abidənin mühafizəsi barədə konkret fikirlərini söylədilər. Bütövlükdə konfrans iştirakçıları diqqəti İçərişəhərin qala divarlarından tutmuş bir çox tikililərin özülünü laxladan yeraltı nəqliyyata, metroya yönəltdilər. Həqiqətən qabaqcadan İçərişəhərdən metro stansiyalarının salınması binaların deformasiyaya uğramasına səbəb olar. Əlbəttə, bu gün artıq gecdir, olan olub. Bircə əlac ona qalır ki, həmin ərazilərdən keçən qatarlar sürəti azaltsınlar. Dünyanın nadir yaşayış məntəqələrindən, özündə uzun əsrlərin farixi abidələrini - Əzəmətli qız qalasını, bənzərsiz memarlıq üslubuna malik Şirvanşahlar Sarayını, orta əsrlərə aid məscid və hamamları, bazar meydanını, gözoxşayan tikililəri birləşdirən bu möhtəşəm məkan göz bəbəyi kimi

qorunmalı, gələcək nəsillərə çatdırılmalıdır. Çünki İçərişəhər bizim tarixi abidəmizdir.

2002-ci il,

Publisistin düşüncələri

ДОСТ ЩАГГЫНДА ДЦШЦНЪЯЛЯР

МЦЯЛЛИМ ДОСТЛАРЫМ

Бир щеъадан, бир саит вя цч самит сясдян ибарят олан “дост” сюзцнц мян шяхсян мцгяддяс мяфщум щесаб едирям. Ялбяття, бурада сющбят ясл садиг достдан эедир. Бюйцк Сократ да ясл доста беля гиймят верир: “Ким юзцня юзц гядяр инана биляъяк бир дост тапа билярся, о, юзцнц бцтцн хязинялярин сащиби щесаб едя биляр”. Ж.Стобей ися “Вар-дювлят дост дейил, дост вар-дювлятдир”. М.Т.Сисеронун да достлуг щаггында фикри гиймятлидир: “Дцнйада достлугдан эюзял шей йохдур, онсуз Йер цзц санки Эцняшдян мящрум оларды”. “Достсуз, йолдашсыз

адам юлц щесабындадыр” фикри бюйцк Я.Хаганийя аиддир. “Ата хязинядир, гардаш дайагдыр, дост ися щям хязиня, щям дя дайагдыр” – кяламы инэилис аталар сюзцдцр. Эюрцн, Шота Руставели доста неъя тяриф верир: “Юзцня дост ахтармайан адам юзцнцн дцшмянидир”. Демокритя эюря ися “Щягиги досту олмайанын йашамасы да мянасыздыр”. Амма М.Горки “Достлуг йолдашлыьын йцксяк пиллясидир” – сюйляйир.

Эюрцндцйц кими, танынмыш тарихи шяхсиййятляр, дцнйа эюрмцш сюз адамлары ясл дост щаггында фикир вя мцлащизялярини сюйлямишляр. Цстцндян узун ясрляр кечмясиня бахмайараг дост щаггында диля эятирилмиш, бязиляри аталар мисалына чеврилмиш мцдрик дейимляр бу эцн цчцн дя тязядир, тярдир. Доьрудан да, дцнйаны дярк едян, щяйатын мянасыны анлайан, халгына, инсанлара файда вермяк цчцн йашайан щяр бир бяшяр ювлады ясл достун, достлуьун инсан щяйатында ойнадыьы явязсиз ролу гиймятляндирмяйи баъарыр, юзцня дост сечир, достлуьу уъа тутур, она цряк гыздырыр, щям шад, щям дя язаблы, чятин мягамларында йанында олур вя досту иля щаглы олараг фяхр едир.

Мян дя бу ащыл чаьымда дцнйа эюрмцш, щяйатын доланбаъ йолларында юмцр сцрмцш бир фярд кими ясл достун ня демяк олдуьуну юз тяърцбямдя эюрмцшям. Юмрцмцн мцхтялиф мярщяляляриндя - ушаглыг илляриндя, ясэярлик щяйатында, тялябялик дюврцндя, сонракы иллярдя цнсиййятдя олдуьум достларым олуб ки, би эцн дя онлары щюрмят вя фяхарятля йад едир, дцнйасыны дяйишяряк щагга говушанлара Аллащдан рящмят диляйир, саь галанлара ися узун юмцр арзулайырам.

Ону да щяйат тяърцбямдян билирям ки, дост тапмаг асандыр, ясас мясяля бу достлуьу баша вурмагдыр. Баша вурмаг цчцн ясас шярт одур ки, Азярбайъан аталар сюзцндя дейилдийи кими, дост доста тян эяряк, тян олмаса, эен эяряк. Йяни ики достун хасиййяти, щяйата бахышы, мяняви дцнйасы уйьун эялмялидир. Бу мягамда Ящмяд Ханинин бир щикмятли фикрини йада салаг. О дейир:

Достлуг асан дейил – ъяфадыр, ъяфа.

Достлуьун мягсяди вяфадыр, вяфа.

Бу щикмят сащиби башга бир шеириндя;

Йахшы дост – гардашын, щям дайаьындыр,

Сянин щям эюзцндцр, щям чыраьындыр

– сюйляйир.

Ушаглыг достум

Ариф Гулийев ушаглыг вя эянълик достум олуб. Анасынын йеэаня ювлады иди. Атасы Бюйцк Вятян мцщарибясиня эедиб, эери гайытмады. Анасы Мянсуря хала юлян эцня гядяр щяйат йолдашы Мющцбцн йолуну эюзляди.

Арифин йахшы ял габилиййяти вар иди. Ушаглыгда бир аз горхаг иди. Бизим аилямиз бюйцк олдуьундан Арифи дя аилямизин бир цзвц кими гябул етмишдик. Ону щамымыз – биз беш гардаш горуйурдуг. Щяйатыны ряссамлыьа щяср етди Ариф. Мян дя бу сащядя ону рущландырыр, гайьысыны чякирдим. Яввялъя Я.Язимзадя адына Ряссамлыг Мяктябини, сонра да Мухина адына Санкт-Петербург

Академийасыны битирди. Тящсил алдыьы Ряссамлыг Мяктябиндя мцяллим кими фяалиййятя башлады. Танынмыш фырча устасына чеврилди, бюйцк щюрмят газанды, коллективин севимлиси олду. Тялябяляри башына анд ичирди. Касыб тялябялярин щимайячиси иди. Гябул имтащанларында касыб аилялярдян эялмиш абитурийентляря хцсуси щяссаслыгла йанашар, онлардан кюмяк ялини ясирэямязди. Достумун уьурлары мяни севиндирир, тез-тез онун дярс дедийи ряссамлыг мяктябиня эедирдим.

Ариф достумдан сорушардым: сян ряссамсан, йохса мцяллим? Ъаваб верярди ки, щям ряссам, щям дя мцяллим. Амма тярязийя гойсаг, тярязинин мцяллим тяряфи аьыр эяляр. Бир дя ахы билдийин кими, Зцмрцд дя (щяйат йолдашыны дейирди) мцяллимдир. Бир евдя ики мцяллим, амма бир ряссам…

Ряссам мцяллимлярин щамысы иля таныш идим. Амма достумун уьуру узун сцрмяди: Кор баьырсаьындан ямялиййат олунду. Залым нашы ъярращ заваллы Арифин йоьун баьырсаьыны зядялядийиндян, саьалмасы мцмкцн олмады. Вахтсыз юлцм габаьа дцшдц – накам достум гуъаьымдаъа эюзлярини вяфасыз щяйата ябяди йумду. Индийя

кими дя ушаглыг вя эянълик достуму унуда билмирям. Щейиф онун истедадындан!

Ясэярлик достум

Иззят Щямидов ясэярлик достумдур. Ясэярликдян сонра достлуьумуз даща да мющкямлянди. Аьдашдан олан Иззят районда ишляйя-ишляйя гийаби олараг али савад алды, рус дили мцяллими олду.

Иззят достум црякдян севдийи мцяллим пешясиня садиг галды. 50 ил бу мцгяддяс пешяйя гуллуг етди. Рус дилини шаэирдляриня севдирди. Щазырда гызы Аида мцяллим дя атасынын пешясини давам етдирир.

Чох сямими, гядирбилян, ишэцзар вя зящмяткеш инсандыр Иззят мцяллим. Бизим щяр эюрцшцмцз (йа о, Бакыйа эялир, йа да мян Аьдаша эедирям) ясл байрама чеврилир. Сон илляр достум Щаъы титулу газаныб, Гуран яцлидир, савадлы молладыр. Сяхавяти, мещрибанчылыьы даща да артыб. Йахшы ювладлар бюйцдцб, тярбийя едиб. Гулаьыма щямишя хош сораьы эялир, бундан гцрур дуйурам. Бу йахынларда аиляликля Аьдаша гонаг эедяъяйик.

Бизим эялишимиз мцнасибятиля щинд тойуглары бясляйиб. Интизарла йолумузу эюзляйир Щаъы Иззят мцяллим. Саьлыг олсун!

Тялябялик достум

Ялювсят Ялийев (юзцня “Полад” тяхяллцсц сечиб) тялябялик илляримин йадиэарыдыр. Онун дцнйанын ян садялювщ, мясум инсаны щесаб едирям. Эюзцтох, мянян зянэин, дцнйа малында эюзц олмайан (еля мяним кими – бурада дейилиб: дост-доста тян эяряк!), садя щяйат сцрян ащыл журналистдир Ялювсят Полад. Тялябялик илляриня хатырлайырам. Дярин зяка сащиби, философ тялябя иди. Бу арыг, чялимсиз, бястябой тялябяйя бизя “Якинчи”дян дярс дейян Вяли Мяммядов “Шастри” (Щиндистанын рящбярляриндян бири) дейяряк бизим эцлцшцмцзя сябяб оларды. Ялювсят райондан эялмишди, рус дилини билмирди. Бизим ушаглар да хариъи дил явязиня рус дилини сечмишдиляр. Ики ил бу дили кечмяли идик. Рус дили мцяллимимиз дя Мющсцнзадя адлы (Мир Мющсцн аьанын гардашы оьлу) чох ъидди вя тялябкар иди. Бир тялябя

йолдашымыз щямин мцяллими ики илдя разы сала билмядийи цчцн али мяктябдян говулду. Ялювсят дя намизяд иди. Анъаг мян щеч ъцр разы олмаздым ки, тялябя достум рус дилини билмядийиня эюря мин бир язиййятля дахил олдуьу али мяктябя “ялвида” десин. Ян дящшятлиси онун цчцн рус дилиндян имла йазы иди. Ейни парта архасында отурурдуг Ялювсятля. Чалышырдым еля отурум ки, Ялювсят йаздыгларымы эюрсцн. Амма эюря билмирди. Она эюря дя Мющсцнзадя йазыдан она 2 гиймят йазырды. Шифащидян ися мян верилян мятни гыса шякилдя ади сюзлярля йазыб она веридим, о да щямин мятни язбярляйиб, 3-я ъаваб верирди. Достума эюря мцяллим мяни дяфялярля данлады, йерими дяйишди, амма мян достумун говулмасына йол вермядим. Достум инди дя зарафатла дейир ки, гардаш, алдыьым дипломун йарысы сяниндир. Йахшы йадымдадыр, щяр дяфя Нефтчаланын Голтуг кяндиня эетмяйим орада ясл байрама чеврилярди. Мяним шяряфимя мусигили мяълис дцзялдилярди. Ону да ялавя едярди ки, Идрис гардаш (о мяня щямишя беля мцраъият едярди), айаьын йцнэцлдцр, балыгчыларымыз калан балыг тутублар, сянин пайын дцзяляъяк.

Инди дя тялябя достумла ялагя сахлайырам, юзцнцн дя арабир Бакыйа йолу дцшяндя эюрцшцр, аъылы-ширинли хатиряляри йада салырыг.

Ону да гейд едим ки, узун илляр Нефтчала район гязетиндя баш редактор ишляйян Ялювсят Поладын юзц бир мяктябдир, фялсяфи фикир дцнйасы чох зянэин – мцшащидя габилиййяти эенишдир. Бешъилдлик китабларыны юзц тякбашына ярсяйя эятириб. Материаллары компйутердя йыьыб, редактя вя чапына гядяр юзц мцстягил шякилдя щазырлайыб. Ъилдляря о, ядябиййатын мцхтялиф шанрларында – роман, повест, щекайя, ессе, хатиря вя с. дахил едиб. Эюрцб-эютцрдцклярини бейнинин сцзэяъиндян кечиряряк бядии ясярляр ярсяйя эятириб. Ялбяття, щяр бир ъилд ишыг цзц эюрдцкъя эялиб автографла мяним дя пайымы вериб вя фикрими юйрянмяк истяйиб. Амма мян щямин ъилдляри охуйуб баша чатдырсам да, щяля ки фикрими билдиря билмямишям. Доьрусу, нядянся бу, мяним цчцн чох чятиндир.

Ащыл чаьымын досту

Нювбя эялиб, ащыл чаьымда Танрынын мяня бяхш етдийи щялялик ахырынъы достум – **Щцсейн мцяллимя** чатды. О Щцсейн мцяллим ки, бцтцн инсани кейфийятляри юзцндя ещтива едир. Достлуьумузун тарихи чох узун илляря эедиб чыхмаса да, мющкям тямял цзяриндя гурулуб. Щцсейн али савадлы мцяллимдир. Азярбайъан Дювлят Педагожи Университетин филолоэийа факцлтясинин мязунудур.

Достум 25 илдян артыг бир мцддятдя шаэирдляря Азярбайъан дили вя ядябиййат фяннини тядрис едиб, онлара дилимизин инъяликлярини юйрядиб, ашыг поезийасынын вурьуну олдуьу цчцн шаэирдляри Дядя Ялясэяр, Дядя Шямшир, Микайыл Азафлы, Ашыг Якбяр Ъяфяров, Ашыг Имран Щясянов, Ашыг Шакир вя башгаларынын зянэин йарадыъылыьындан сющбят ачар, онларын чохлары иля танышлыьы барядя мараглы мялуматлар вериб. Щазырда сящщяти иля ялагядар мцяллимликдян узаглашса да, Щцсейн достум мцяллим мязун достлары иля сых ялагялярини давам етдирир, щяр биринин мцяллим кими газандыьы уьуруна юз уьуру гядяр севинир. О, язямятли даьлар дийары Эядябяйдя анадан олмуш, ушаглыг вя эянълик илляри бурада кечмишдир. Щазырда Бакынын Сулутяпя мяканында мяскунлашан Щцсейн достум бу яразинин аьсаггалы кими таныныр,

онун мяслящят вя тювсийяляриня щямишя ещтийаъ дуйулур. 3 гыза ата олан достум артыг бабадыр. Сющбят заманы она хатырладанда ки, Щязрят пейьямбяримиз беля буйуруб: 3 гыз тярбийя едиб, бюйцдян вя аиля гурмасына наил олан атанын йери ъяннятликдир. Бу заман йумру чющрясиня азъа гызарты чюкцр вя гызларындан хейли разы галдыьыны диля эятирир.

Мян достумун хейирхащлыьыны, няъиб щярякятлярини хцсуси гейд етмяк истярдим. О, санки Виктор Щцгонун "Инсан хейирхащ, тямиз, ядалятли, намуслу олмаг цчцн доьулуб" кими мцдрик кяламыны юзцня щяйат девизи сечиб. Виктор Щцгонун башга бир фикри дя Щцсейн достумун алнына йазылыб: " Щям эюзял инсан олмаг, щям дя ишя йарамаг бюйцк адам олмаг демякдир". Бяли, о щям эюзял инсан, щям дя щамынын ишиня йарайан ел оьлудур. Бурада А.П.Чеховун да бир кяламы йадыма дцшдц. О дейирди: "Инсаны эюзялляшдирян, она зинят верян ян мцщцм ъящятлярдян бири дя онун тявазюкар вя садя олмасыдыр". Мян дя щяр дяфя достумла йанашы отуруб онунла щямсющбят оларкян ондакы бу кейфийятлярин шащидиня чеврилирям: тявазюкар, садя вя сямими!

Мян инанмырам ки, Щцсейн мцяллим щачанса щирсляниб юзцндян чыхсын, кимяся щясяд апарсын, кимися пахыллыьын чяксин. Чцнки о йахшы баша дцшцр ки, хейирхащлыг щяйатын ян йцксяк гайясидир.

Щцсейн достум щям дя иман ящлидир, ялитясбещли, дили дуалыдыр. Щяр эцн 5 дяфя яллярини Аллащын дярэащына галдырыр, намаз гылыр. Улу Танрыдан севимли бяндяляриня ямин-аманлыг, хош эцзяран, рузи боллуьу диляйир, йаралы йеримиз олан Гарабаьын тезликля дцшмян ясарятиндян хилас олмасыны, 1 милйондан артыг сойдашымызын доьма торпагларына гайыдараг йенидян юз од-оъагларыны йандырмасыны арзу едир, тезликля бу арзусуна йетишяъяйимизя ямин олдуьуну вурьулайыр. Чцнки бу эцн бизим эцълц ордумуз, Илщам Ялийев кими Али Баш Командамыз вар.

Щцсейн мцяллимин хейирхащлыьыны, алиъянаблыьыны якс етдирян бир мягамы да охуъулара чатдырмаг истяйирям. Йухарыда хатырлатдым ки, о, Азярбайъан Дювлят Педагожи Университетин мязунудур. О вахтдан 25 ил кечир. Бу мцддят ярзиндя Щцсейн мцяллим групларында олан 25 мязунла мцтямади ялагя сахлайыр, щамынын

цнванының, йашайыш йерини язбяр билир, онларын хейир вя шяриндя иштирак етмяйя вахт тапыр. Онлардан тякъя Щцсейн мцяллим Бакыда йашайыр. Бу йахынларда достум 25 илдян сонра мязунлары тящсил алдыглары АДПУ-да эюрцшцнц тяшкил етмяйи гярара алыр. Бу мягсядля али мяктябин рящбярлийинин разылыьыны алараг фяалиййятя башлайыр. Филолоэийа факцлтясинин деканы профессор Булудхан Хялилов да бу тяшяббцсц алгышлайыр. Тяшкилатчы Щцсейн мцяллим бцтцн мязунларын щамысыны АДПУ-йа йыьыр вя эюрцш баш тутур. 25 ил айрылыгдан сонра кечмиш тялябяляр бир арайа эялир, щяр бир мязун юзц барядя мялумат верир. Аъылы-ширинли хатиряляр чюзялянир. Гейри-ади тяшкилатчылыг баъарыьына эюря бцтцн мязунлар, еляъя дя профессор Булудхан мцяллим Щцсейн мцяллимин фяалиййятини айрыъа гейд едир.

Кярбялайы Щцсейн беля эениш гялбя, гейри-ади сяхавятя, тяшкилатчылыг габилиййятиня малик инсандыр. Онунла эюрцшяндя тез-тез беля сюзляр ешидирям: Загаталадан тялябя йолдашым аиляси иля бирликдя бизя эялмишди. Ъцмя ахшамы Белясуварда йашайан тялябя йолдашымын яринин щцзцрцня эетмишдим, сабащ Масаллыдан тялябя йолдашым

хястя оьлуну щякимя эятиряъяк, щякимля габагъадан данышмышам вя с.

Достум щаггында, онун щяр кясдя олмайан али инсани кейфийятляри барядя сющбяти бир журнал мягалясиня сыьышдырмаг мцмкцн олмадыьы цчцн фикрими она щяср етдийим “Хейир ямяллярдян йаранмысан сян” шеири иля битирмяк истяйирям:

Сян даьлар оьлусан, даь вцгарлысан,

Даьлардан алмысан язямяти сян.

Кечдийин юмцр йол олмайыб асан,

Елдян газанмысан мящяббяти сян.

Йаранмысан Танрынын хош чаьында,

Сяня бяхш едибдир чинар бой-бухун.

Достларын гызыныр эур оъаьында,

Гям-гцсся гялбиня эялмясин йахын.

Хейир ямяллярчин йаранмысан сян,

Хейирхащ инсанлар йол йолдашындыр.

Майан йоьрулмушдур щалал зящмятдян,

Сяхавят, мярщямят гялб сирдашындыр.

Сян ей 3 гызына мещрибан ата,

Йерин ъяннятликдир, йахшы билирсян.

Ювладларын йетсин арзу-мурада,

Нявялярин бир-бир тойун эюрясян!

Биръя эцн сясини ешитмяйяндя,

Ичимдя бир бошлуг йараныр, достум.

Щяр дяфя о хош симаны эюряндя,

Башым сямаларда дайаныр, достум.

Кярбялайы адын мяня язиздир,

Эетдийин о щагг йол щалалын олсун!

Гялбин бцллур, саф судан да тямиздир,

Щяъъ зийаряти дя гисмятин олсун!

Идрис ЩАЪЫЗАДЯ.

MƏNƏVİYYATIMIZ NƏ YAMAN PASLANIB?!

Hər bir xalq özünün hər hansısa bir ənənəvi keyfiyyəti, xüsusiyyətilə seçilir və başqa dünya xalqları arasında həmin əlamətilə yadda qalır. Məsələn, amerikalılar başqa xalqlara hegamonluq etməyə səy göstərmələrilə, ingilislər diplomatiyaları ilə, fransızlar nəciblik və mədəniyyətlərilə, ruslar işgüzarlıqları, eyni zamanda böyük xalq olmalarını nümayiş etdirmələrilə, almanlar hər işdə dəqiq olmaları və halallıq axtarmaları ilə, gürcülər nikbinlikləri, şən ovqatları, bir də özlərini sevmələrilə, yaponlar beyinlərini işə salıb böyük kəşf və ixtiraları ilə, ermənilərsə ilk növbədə məkrli əməlləri, daha çox qonşu torpağı qoparmaq hərisliyi, işinin xatirinə

qız və qadınlarını qabağa vermək şakərilə…ad çıxarmışlar.

Bəs biz azərbaycanlılar? Hə, bizə gəldikdə, biz azərbaycanlıları başqa xalqlardan fərqləndirən keyfiyyətlər çoxdur. Onlardan ən öncəsi odur ki, biz öz qonaqpərvərliyimizlə dünyaya səs salmışıq. Son tikəmizi boğazımızdan kəsib qonağa, qonşuya verməyə adət etmişik. Elə bu ürəyiyumşaqlıq ucbatından zaman-zaman məkrli, çörəkləri dizləri üstündə olan ermənіləri də süfrəmizin başında oturtmuş, qonşuluq haqqı-salamına həmişə sadiq qalmışıq. Amma bu səxavətimizdən sui-istifadə edən ermənilər necə deyərlər, "Aşma-aşına, axırda gəlib çıxdılar ocaq başına". Düz iki əsrdir ki, üzdə kirvə-kirvə deyib, üzümüzə güldülər, əməldə isə məkrli planlarını həyata keçirdilər. Bu da son nəticə. Təkcə son 10 ildə Qarabağı, bütövlükdə 20 faiz torpaqlarımızı zəbt etdilər, 1 milyondan çox soydaşlarımız əsir-yesir olub, qaçqın-köçkün vəziyyətinə düşdülər. Budur səxavətimizin, ürəkyumşaqlığımızın, başlıcası isə unutqanlığımızın bəhrəsi - acı nəticələri. Beləcə, iki əsrdir ki, əzəli torpaqlarımızı itirə-itirə gəlirik, Daha itiriləsi bir şeyimiz qalmayıb. Nəhayət ki, ayılıb özümüzə qayıtmalıyıq. Deyirlər, türk oğlu özünə qayıdanda, istədiyinə nail olur.

Mən hələ xalqımıza məxsus olan onun bir keyfiyyətini qeyd etdim. Bizim başqa, digər xalqlara nümunə ola biləcək gözəl keyfiyyətlərimiz çoxdur. Ədəb-ərkanı gözləmək, böyüklərin yolunu tutmaq, onlara hörmət etmək əzəli ədəb normalarımız kimi həmişə müşahidə edilib. Axı, hər xalqın öz adət-ənənəsi olduğu kimi, bizim də öz mənəvi dəyərlərimiz, mentalitetimiz var və bizdə olan bu gözəl insani keyfiyyətlər zəngin mənəvi sərvətlərimiz hesab olunur. Nə edək ki, biz bu keyfiyyətlər üzərində köklənmişik. Abır-həya, böyük-kiçik yolu tutmaq, pərdə saxlamaq həmişə qanımızda olub, iliyimizə işləyib. Bütün bunlar isə ailə tərbiyəsi vasitəsilə əldə olunur. Valideynlər öz uşaqlarını ilk çağlarından, körpəlikdən bu ruhda tərbiyə etmiş, onları cəmiyyət arasına çıxarmışdır. Tərbiyəyə isə erkən vaxtdan başlamaq lazımdır. Atalar bu cəhətdən yaxşı deyib: "Körpəni bələkdə, gəlini pərdədə...". Uşağın tərbiyəsinə erkən çağından başlamaq barədə belə bir pritça mövcuddur. Bir şahın uzun illərdən sonra bir oğlu dünyaya gəlir. İstəyir ki, yeganə oğlunun tərbiyəsilə körpəlikdən məşğul olsunlar, həm də uşaq tərbiyədə şaha layiq olsun. Odur ki, bir üləmanı yanına çağırıb vəziyyəti ona danışır. Üləma soruşur ki, uşaq neçə gündür doğulub? Cavab alır ki, 40 gündür. Üləma bildirir ki, artıq 40 gün gecikmisiniz. Şah pərt olur... Bəli, düzgün tərbiyə, tərbiyə normalarına əməl

olunması gələcəkdə nümunəvi nəslin yetişməsinin təməlini qoyur. Biz artıq XXI əsrdə yaşayırıq. Yeni əsr - elm və texnika, texniki tərəqqi əsri olan XXI əsr bizdən daha dolğun mənəvi əxlaqi dəyərlərə söykənən nümunəvi nəsil yetişdirməyi tələb edir. Bəs görəsən belə bir nəsil yetişirmi? Bəri başdan böyük bir təəssüf hissi ilə bildirməliyik ki, yox! Bir də yox! Bugünkü məktəblilər həmin etimadı doğrulda bilməz. Çünki məktəblər öz işini müasir tələblər səviyyəsində qura bilmir. İlk əvvəl təlim istənilən səviyyədə deyil. Müəllimlər canı dildən dərs demir, uşaqları taleyin ümidinə buraxırlar. Valideynlərdən umurlar ki, kim istəyir uşağı bilikli olsun, ona əlavə (sinifdənkənar) dərs keçim. Əlbəttə, pullu. Ümumiyyətlə, istər orta, istərsə də ali məktəblərdə uşaqlardan, onların valideynlərindən müxtəlif bəhanələrlə pul qoparmaq, yəni rüşvət almaq artıq sağalmaz bir xəstəliyə çeyrilib. İmkansız uşaqlar da bu səbəbdən məktəbdən uzaqlaşır, erkən yaşlarından pul qazanmaq naminə tərbiyədən, kollektivdən aralanır, bazarlarda, çayxana, kafe və barlarda sırtıqlaşır, bir sözlə, onların tərbiyəsi pozulur, sonra da cinayətlər törədir, oğurluğa qurşanır va cəmiyyətin tüfeyli, cinayətkar üzvünə çevrilirlər. Çünki pul, rüşvət müəllim-şagird, müəllim-tələbə arasında olan pərdəni yırtıb dağıdır. Çox vaxt müəllim şagirdi, ya da tələbəsilə bir yerdə siqaret çəkir, içki içir, hətta əxlaqsız

yerlərə gedir. Belə olan şəraitdə hansı mənəvi dəyərlərdən, təlim-tərbiyədən danısmaq olar? Budur, mənəviyyatsızlıq!

Son zamanlar düşdüyümüz vəziyyət, maddi sıxıntı, işsizlik böhranı adamları müxtəlif xoşagəlməz hərəkətlərə əl atmağa - oğurluğa, ev yarmağa, reketçiliklə məşğul olmağa, uşaq oğurluğuna, kütləvi qarətçiliyə və qətllər törətməyə vadar edib. Yalan, böhtan, adam aldatma, dələduzluq…baş alıb gedir. Onların arasında təəssüflər olsun ki, jurnalist adını ləkələyən, bu addan istifadə edən əldəqayırma, müxtəlif yollarla saxta jurnalist vəsiqəsi əldə etməklə dələduzluq edən "jurnalist"lərin sayı çoxalıb. Ümumiyyətlə, bu gün Azərbaycan jurnalistikasına ləkə gətirən üzdəniraq jurnalistlər ordusu yaranıb. Jurnalistika ilə heç bir yaxınlığı olmayan, heç adını və soyadını əməlli-başlı yaza bilməyən bir çox başabəla soydaşlarımız qəzet təsis edib özünü baş redaktor elan edir, redaktor kimi qəzetin adından bir qoşun da cavan oğlan və qıza vəsiqə təqdim edib hamısını saldırır Azərbaycanın sənaye müəssisələrinin, ictimai təşkilatlarının üstünə. Özü də hər bir əməkdaşın boynuna aylıq müəyyən məbləğdə nırx qoyur. Bu minvalla Azərbaycan mətbuatının beşiyi başında dayanmış Həsənbəy Zərdabinin "Əkinçi"sinə, Mirzə Cəlilin "Molla Nəsrəddin"inə zərbə vurulmuş olur. Vicdanını itirmiş belə dələduz jurnalistlərdən birini

oxuculara tanıtmaq istəyirəm. Adı Vüqar, soyadı Fərziyevdir. Dələduzluq və fırıldaqla məşğul olan Vüqar yağlı, necə deyərlər, varlı-pullu müəssisələrə daxil olur, özünü Təhsil Nazirliyi mətbuat xidmətinin rəhbəri (yaxud getdiyi müəssisə və idarədən asılı olaraq başqa adla) kimi təqdim edib, iş düzəltmək adı altında (ilanı yuvasından çıxaran dil tökmək qabiliyyəti var) adamlardan külli miqdarda pul alıb aradan çıxır. Bu günlərdə onun üstündə öz fotoşəkli olan bir vəsiqəsini ələ keçirə bilmişik. Vəsiqədə Vüqar Fərziyev Azərbaycan Reşpublikası Əfqanıstan və Qarabağ Veteranlar İttifaqının "Mübarizə" qəzetinin mətbuat xidmətinin rəhbəri kimi göstərilir. Vəsiqənin nömrəsi 002-dir. Vəsiqəni də öz dəst-xəttilə imzalayıb, ona qol çəkən Əfqanıstan Veteranlar İttifaqının sədri Məmməd İsgəndərovdur. Özü də vəsiqə 31.12.2002-ci ilədək etibarlıdır. Maraqlıdır, Məmməd müəllim hansı əsasla fəaliyyətdə olmayan bir qəzetin - "Mübarizə"nin mətbuat xidmətinin rəhbəri vəsiqəsini Vüqar Fərziyevə təqdim etmişdir? Biz məsələni aydınlaşdırmaq məqsədilə Ədliyyə Nazirliyində olduq. Xeyli get-gəldən sonra bizə konkret olaraq məlumat verdilər ki, nazirlikdən nə belə bir qəzet qeydiyyatdan keçib, nə də Əfqanıstan Veteranları İttifaqı kimi belə bir ittifaq. Biz axtarışımızı davam etdiririk. Vüqarı da tapıb onun törətdiyi əməllərə görə (aldadıb aldığı külli miqdarda pullara görə) cinayətə cəlb

etməyə, ona hansı təmənnaya görəsə yalançı vəsiqə verib. Vüqarı cinayətə sövq edən ƏVİ-nin sədri Məmməd İsgəndərovu da. Qoy belə fırıldaqçı dələduzlara aramızda yer olmasın!

P.S. Vüqarın bir neçə nəfəri də aldadaraq onlardan müxtəlif məbləğdə pul qoparmasını eşitmişdim. Yaxşı tanıdığım bir özəl ali məktəb professorunun da saqqızını oğurlayan Vüqar nəvəsini bir nüfuzlu məktəbə düzəltmək bəhanəsi ilə ondan 200 manat almış və qeybə çəkilmişdi. Amma o, uzağa gedə bilmədi. Vüqarı tanıyan qeyri bir tanışımdan onun telefon nömrəsini öyrəndim. O mənə söylədi ki, Vüqar tapa bilmədiyi hansısa maşın hissəsini axtarır. Sən ona zəng vur de ki «zavqaram» və məndə hər cür maşın hissələri var. Gəl bu ünvana, al apar. Belə də etdim. Müəllimi də başa salıb, qabaqcadan evimizə dəvət etdim. Maraqlı səhnə qurulmuşdu Vüqar üçün. Belə ki onu evimizin qarşısında qarşıladığım, «zavqar» kimi qapıdan içəri salıb arxadan qapını bağladım. Bu zaman müəllimlə qarşılaşan Vüqar sarısını uddu, əsməyə başladı və dərhal 200 manatı çıxarıb müəllimə uzatdı. Beləcə, Vüqar ifşa olundu. O, fırıldağından əl çəkəcəkmi? – Bilmirəm.

2005-ci il

ANA DİLİMİZİ QORUYAQ

Azərbaycan dilinin saflığı uğrunda mübarizə aparmış Xalq şairləri Xəlil Rza Ulutürk və Bəxtiyar Vahabzadə

Hər bir xalq öz ana dili ilə tanınır, öz fikrini məhz doğma dili ilə başqalarına bildirir. Çünki dil ən mühüm ünsiyyət vasitəsidir. Hər bir kəs öz dili ilə fəxr edir, onu qoruyur, zənginləşdirir. Əbəs yerə demirlər ki, bir xalqı məhv etmək istəyirsənsə, ilk növbədə, onun dilini əlindən al. Amma elə xalq da var ki, özü məhv olub gedib, hazırda mövcud deyil, dili isə bu gün də yaşayır. Latın dili dediyimizə misal ola bilər. Maraqlı orasıdır ki, dərman preparatlarının adları məhz dediyimiz latın dilində yazılır. Elə xalqlar da var ki, onların dilləri sıxışdırılaraq aradan çıxıb və həmin xalqlar başqa dildə danışır, o dil vasitəsilə başqaları ilə ünsiyyət qurur.

Bu gün ingilis, rus, fransız, alman, çin dilləri dünyada geniş yayılmışdır. Maraqlıdır ki, ABŞ-da da ingilis dilində danışırlar və bu dil Amerika kimi nəhəng bir ölkənin

dövlət dili hesab olunur. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan da öz qədim dilinə malikdir. Həsənoğludan üzbəüz Füzuli, Nəsimi, Şah İsmayıl Xətai, Xan qızı Natəvan, Qasım bəy Zakir, Vaqif, Mirzə Fətəli Axundov, Aşıq Alı, Dədə Ələsgər, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, Mikayıl Müşfiq, Bəxtiyar Vahabzadə, Əli Kərim, Xəlil Rza Ulutürk... Azərbaycan dilini şəddü-şəkər hesab etmiş, bu dilin çoxçalarlılığından öz yaradıcılıqlarında gen-bol istifadə etmiş, dilin zənginləşməsi üçün xeyli əmək sərf etmişlər. Rus imperiyasının qılıncının qabağının da, arxasının da kəsdiyi 70 il ərzində bütün Orta Asiyada, ələlxüsus Qazaxıstanda olduğu kimi, bizim respublikada da Azərbaycan dili sıxışdırılmış, məhdudlaşdırılmışdır. Respublikanın hər yerində, eləcə də rayonlarımızda rus məktəblərinin şəbəkəsi genişləndirilmişdir. Bütün tədbirlər - yığıncaq və iclaslar, plenum, konfrans və qurultaylar məhz rus dilində aparılırdı. Mötəbər yığıncaqlarda hətta sıravi sağıcı qadın, adi fəhlə və çoban da mütləq rus dilində çıxış etməli idi. Başqa cür ola da bilməzdi. Yazıq sağıcı, adi fəhlə və ya çoban da hıqqına-hıqqına, sözlərin qol-qanadını sındıra-sındıra çıxışını birtəhər başa vurub canını qurtarırdı. Azərbaycanlıların öz doğma dilində danışmağa gerilik kiml baxıb, belələrini "çuşka" adlandırırdılar. Rus dilli təhsili olanlara üstünlük

verilir, onları yüksək vəzifələrə irəli çəkirdilər. Məhz belə bir zamanda Xəlil Rza kimi qeyrətli oğullarımız Azərbaycan dilinin saflığı, onun yad ünsürlərdən qorunması sahəsində bütün vasitələrdən istifadə edirdilər. Yaxşı yadımdadır, o vaxtkı ADU-nun filologiya fakültəsində təhsil alan gənc Xəlil yaşıdlarından öz ötkəmliyi, prinsipiallığı ilə seçilirdi. O, həmkarları arasında belə bir qərar çıxarmış və onun icrasına nail olmuşdur. Söhbət zamanı bir kimsə danışığında işlətdiyi hər bir rus sözünə görə 20 qəpik (o vaxtın pulu ilə) "cərimə" ödəməli idi. Bu, artıq bir növ qərarlaşdırılıb qanun şəklini aldığından söhbət zamanı rus sözləri işlədən hər bir kəs özü könüllü olaraq cəriməsini ödəyirdi. Yığılan pullar isə tələbə-gənclərin çay puluna xərclənirdi. Həmin dövrü xatırlayanlar bu gün Azərbaycan dilinin saflığı uğrunda yorulmaz mübariz Xəlil Rza Ulutürkün ruhuna dualar oxuyur və onu hörmətlə yad edirlər.

Hələ sovetlər dövründə Azərbaycanda rus məktəblərinin şəbəkəsinin genişlənməsindən bərk narahat olan, dilimizin inkişafına mane olanlara qarşı ciddi mübarizə aparan xalq şairi Bəxtiyar Vahabzadə dəfələrlə "KGB"-nin qınağına tuş gəlsə də, əqidəsindən dönməmişdir. Elə bu gün də el ağsaqqalı, dilimizin öncül qoruyucusu gənclərimizi Azərbaycan dilinin saflığı uğrunda mübarizəyə səsləyir. Görkəmli ədibimiz etiraf

edib təsdiqləyir ki, ana öz körpəsinə beşikdə məhz doğma ana dilində layla çalmalı, uşaq ana laylasının sədaları altında yuxuya getməlidir. Məhz bu ruhda böyüyən uşaq ananın, bu adla qoşa çəkilən ana dilinin şirinliyini yadda saxlayar, heç vaxt onları - ananı və ana dilini unutmaz.

Azərbaycan dilini və onun zəngin çalarlarını vaxtilə görkəmli rus ədibləri yüksək qiymətləndirmişlər. Vaxtilə Qafqazda sürgün ömrü yaşamış Puşkin və Lermontov Azərbaycanı, bu müdrik xalqı, onun zəngin adət və ənənələrini sevmiş, öz əsərlərində yeri gəldikcə Azərbaycan sözlərindən məharətlə istifadə etmişlər. Onlar etiraf etmişlər ki, Qərbdə ünsiyyət vasitəsi kimi fransız dili nə qədər önəmlidirsə, Şərqdə də Azərbaycan dili o qədər böyük əhəmiyyət kəsb edir. Görkəmli rus yazıcısı Lev Tolstoy da Azərbaycan dilinə böyük maraq göstərmiş, həmyerlimiz, görkəmli şərqşünas alim, Peterburq Universitetinin Sərq dilləri kafedrasının uzun illər müdiri işləmiş Mirzə Kazım bəy böyük rus ədibinə Azərbaycan dillni öyrətmişdir.

XX əsrdə ikinci dəfə müstəqillik qazanaraq üçrəngli bayrağı ilə dünya xalqları arasında varlığını təsdiqləmiş Azərbaycan dövləti dilimizin saflığı və onun qorunması haqqında bir neçə qərar çıxarmışdır. Ulu öndərimiz, ümummilli liderimiz Heydər Əiiyev təmiz Azərbaycan

dilində danışmaqda hamıya şəxsi nümunə göstərmişdir. Bu da sirr deyii ki, ölkənin birinci şəxsi, prezidenti beşiyi başında durduğu xalqın ilkin olaraq dilini, dinini, adət-ənənəsini, keçmişini, tarixini bilməlidir. Ümummilli liderimiz Heydər Əliyev məhz belə bir şəxs idi, belə bir tarixi şəxsiyyət idi. Sovetlər dağıldıqdan, Azərbaycan dili bərqərar olduqdan sonra hələ də bəzi məmurların rus dilində danışmaları ölkə başçısının etirazına səbəb olur və həmin məmurlara Azərbaycan dilində danışmaq üçün prezident xüsusi möhlət verərdi. Bu da təcrübədə öz bəhrəsini göstərərdi. Müxtəlif tədbirlərdə, ziyalılarla, ədəbiyyat və incəsənət xadimləri, dilçi alimlərlə görüşlərdə Heydər Əliyev dilimizin inkişafı, saflığı barədə əhatəsində olduğu adamlara tövsiyələr verir, onları dilimizin yad ünsürlərdən qorunması uğrunda mübarizəyə səsləyirdi.

Bəs bü gün Azərbaycan dilinin qorunması və inkişafı sahəsində vəziyyət necədir? Bəri başdan etiraf edək ki, vəziyyət heç də ürəkaçan deyil. Faktlara müraciət edək. Birinci növbədə mətbuata nəzər salaq. Bugünkü mətbuat bolluğunda, media bazarında dilimiz nəinki qorunmur, əksinə, bərbad hala salınır. Belə ki hər bir mətbu orqan öz yabançı dəst-xətti ilə fəaliyyət göstərir. Dil, üslub xətaları, orfoqrafiya, ahəng qanunu, uzlaşma, söz birləşmələri əsla gözlənilmir. Elə əcaib-qəraib yersiz ifadələr, sözlər

işlədilir, əcnəbi sözlər xırdalanır ki, adamı təəccüb bürüyür. Bəzi qəzetlər isə öz savadlı olduğunu nümayiş etdirmək üçün əllaməçilik edir. Bir materialı oxuyub başa çatdıqdan sonra yazı müəllifinin məqsədi sənə agah olmur.

Bəzən elə təkrar sözlər işlədilir ki, qəzetçinin "məharətinə heyran" kəsilirsən. Cümlənin əvvəlində böyük hərflə "Və" bağlayıcısı ilə başlanan fikir səni dərin fikrə daldırır. Belə əllaməçiliyə özünü sırf radikal hesab edən müxalifətçi qəzetlərdə sıx-sıx rast gəlmək olar. Əlbəttə, bu yerdə Azərbaycan dilinin qorunması məsələsindən danışmağa dəyməz. Eyni vəziyyət özəl televiziya kanallarına da xasdır. Həmin kanallardakı aparıcıların əksəriyyətinin Azərbaycan dilinin qanunlarından xəbəriəri belə yoxdur. Sözlərin düzgün tələffüz edilməməsi, ləhcələrlə danışmaq, ahəng qanunun gözlənilməməsi, cümlənin əvvəlində, ortasında və sonunda yeri gəldi-gəlmədi "Yəni" sözünün işlədilməsi adamın qulağını və gözünü “mazol” edir. Həmin aparıcıların verilişlərini izlədikcə, inanmırsan ki, o xanım aparıcılar (elə bəylər də!) görəsən ali təhsil alıblar, ali məktəblərdə dil dərsi keçiblər, dilçi pedaqoqlar qarşısında dildən imtahan veriblər? Həmin telekanalların rəhbərləri yəqin ki öz əməkdaşlarını ekran qarşısındakı səhvlərini, dilimizin başına açdıqları min bir oyunu aydın görürlər.

Elə isə qoy onlar insafa gəlib əməkdaşlarının nöqsanlarını üzlərinə deyib, dilimizə hörmət etsinlər.

Şəhər Reklamlar İttifaqına da ciddi iradımızı bildirməyi lazım bilirik. Bakımız gündən-günə böyüyür, gözəlləşir, səliqə-sahmana minir. Amma reklamları, al-əlvan reklam çarxlarını nəzərdən keçirdikcə, qanın qaralır. Bilmirsən ki, Bakı şəhərindəsən, xaricdə - Londonda, Milanda, Moskvada, yoxsa Qahirədəsən. Belə kı müxtəlif əcnəbi dillərdə yazılmış reklamlar adamı çaşbaş salır, qanını qaraldır. Axı reklamlar təmiz Azərbaycan dilində yazılmalıdır, çünki Bakı Azərbaycanın paytaxtıdır. Bütün bu eybəcərliklər isə ilk öncə Azərbaycan dilinə hörmətsizlikdir, ikincisi də şəhərimizin gözəlliyinə xələl gətirir.

2001-ci il

70 YAŞIN MÜBARƏK, MÜDRİK İNSAN!

Bu gəlimli-gedimli, sonucu ölümlü qoca dünya məhz Yer üzünün əşrəfi sayılan insanları ilə gözəldir. Çünki insan hər şeyə qadirdir. Hər iki dünyanın bəzəyi, zinəti olan insan Adəm babamızın törəməsidir,

onun övladıdır, Ulu Tanrı da yaratdığı insanları sevdiyi üçün onlara ağıl və zəka, şüur və düşüncə bəxş etmişdir ki, öz əməlləri ilə dünyanı bəzəsinlər. Ona görə Yaradan xəlq etdiyi hər bəndəsinə bir ömür əta etmişdir ki, bu ömrü dolğun və mənalı yaşasın, ondan ürəyincə zövq alsın. Allahın yaratdığı bəndə də yaradanına necə deyərlər, bəndəlik etməli, insanlıq naminə həyatda fəal mövqe tutmalı, insanlıq adına ləyaqətli ömür yaşamalıdır.

Elə insanlar var ki, illəri, neçə qərinələri yola salsa da, ömrün müdrik vədəsinə gəlib yetişəndə belə, əvvəlki təravət onu tərk etmir, üz-gözünə, simasına, çöhrəsinə müdriklik əlaməti olan nuranilik cizgiləri gəlir, dünyaya baxış aynası olan gözləri əvvəlki şəffaflığını, aydınlığını qoruyub saxlayır. Bu sözləri haqqında söhbət açmaq istədiyim Yasif Nəsirli barəsində də söyləmək olar.

Deyirlər ki, dünyada eyni ilə bir-birinin təkrarı olan iki insana rast gəlmək mümkün deyil. Bu, bəlkə də belədir. Amma əməlləri, amalları, zahiri əlamətləri, məsələn, oxşar baxışları eyni olan adamlara mən çox rast gəlmişəm. Bəri başdan qeyd edim ki, Yasif müəllimin özü bütövlükdə, ziyalılıq mücəssəməsidir. Bu ziyalılıq onun bütün vücuduna hopmuşdur, gülümsər çöhrəsində

nuranilik şöləsi bərq vurur, aydın və mənalı baxışlarında həyat eşqi, qurub-yaratmaq, mübarizə aparmaq həvəsi, azərbaycançılıq naminə fəaliyyət göstərmək ehtirası coşub-qaynayır, iri qara gözlərində əbədi nikbin ovqat yuva salıb, geniş alnı sınaq meydanı olaraq ona verilmiş həyatının enişli-yoxuşluğundan, keşməkeşli olaylarından xəbər verir. Onun işıqlı, nurlu qaynar gözləri - aydın baxışları mənə mərhum Əziz Şərifin - vaxtilə bizə əziz və doğma olan Mirzə Cəlil və onun yaratdığı "Molla Nəsrəddin" dərgisində çalışan, xalqımızın böyük ziyalı oğlu, uzun illər Moskva Dövlət UnİversitetindəTələbələrə Qafqaz xalqlarının ədəbiyyatından dərs demiş bu nurlu insanın aydın baxışlarını, parlaq gözlərini yadıma salır. 1964-cü ildə BDU-da (hazırda ADU) təhsil alarkən ulu Naxçıvan torpağının yetişdirmələrindən biri olan Əziz Şərif oxuduğum ali məktəbə - tələbə, müəllim və professor kontingenti ilə görüşə gəlmişdi. Zala toplaşan görüş iştirakçılarının sürəkli alqışları altında xitabət kürsüsünə qalxan bu bəstəboy, nurani insan sanki uzaq əsrləri dolaşıb, bizim kimi bugünkü övladlarının görüşünə gəlmiş qədim Oğuz yurdunun Dədə Qorqudu idi! Bütün zaldakılar içini dərmədən ona diqqətlə qulaq kəsilmişdi. Natiqin asta-aram, aydın tərzdə söhbətləri, başlıcası isə nisbətən xırda, girdə, amma nüfuzedici diri gözləri, məhrəm, isti baxışları bu gün də gözlərimin önündən

çəkilmir. Bəli, bu iki baxış - Əziz Şəriflə Yasif müəllimin baxışları arasında bir oxşarlıq, doğmalıq, bir yaxınlıq var. Ömrü Yasif Nəsirli kimi xələfiəri üçün qalsın, müqəddəs ruhu bütün Azərbaycan xalqına, o cümlədən Yasif müəllimə duaçı olsun.

Siz kimsiniz, Yasif müəllim?

Bu yaxınlarda öyrəndim ki, Yasif müəllim mənalı və çoxlarına nümunə olacaq ömrünün müdrik çağına yetişib - dekabrın 23-də 70 illiyini qeyd edib. Sevindim. Ona görə ki onunla demək olar ki, həmyaşıdam. Bu il - 2008-ci ildə mən də 70-in belini qatlayacağam. Elə bu yubileylə əlaqədar, Yasif müəllimin ömür kitabını vərəq-vərəq səhifələmək istədim. Özü də yubilyarla üzbəsurət oturub söhbətləşmədən, onunla həmsöhbət olmadan. Çünki onsuz da tərcümeyi-halı, yaradıcılıq yolu, çoxşaxəli həyat fəaliyyəti, mənəvi dünyası barədə kifayət qədər məlumatım var.

Ola bilsin ki, Yasif müəllim məni şəxsən tanımır, çünki qeyd etdiyim kimi, biz onunla sıx-sıx görüşməmişik, Cavanlığımızda iki-üç dəfə qısa müddətə həmsöhbət olmuşuq. İlk dəfə o, «Ulduz» jurnalına baş redaktor vəzifəsinə təzəcə gəlmişdi. Mən də BDU-nun jurnalistika ixtisasına yiyələnmiş gənc jurnalist idim.

"Ulduz" redaksiyasındakı ilk görüşdən Yasif müəllimin qaynar, nüfuzedici baxışı, gülər üzü, istiqanlılığı və səmimiyyətilə yadımda qaldı. Sonra ona bədii yazılarımı, o cümlədən, mənsur şeirlərimi təqdim etdim. Dərhal oxuyub nəzərdən keçirdi. Razı qaldığını hiss etdim. Amma tövsiyəsi bu oldu ki, çapına tələsməyim, yazılarımın üzərində bir də işləyim, həm də Azərbaycanda mənsur şeirin banisi olan Gülhüseyn Hüseynoğlunun yaralıcılığına çox müraciət edim. Razılıq hissi ilə Yasif müəllimdən ayrıldım. Amma bir daha onunla ilk dəfə olduğu kimi, üz-üzə oturub söhbət etmək mənə nəsib olmadı. Sonralar müxtəlif tədbirlərdə, görüşlərdə arabir rastlaşıb salamlaşırdıq. Lakin ilk görüşün təəssüratı hələ də məni tərk etməyib. Və mən o vaxtdan indiyə kimi Yasif Nəsirlinin yaradıcılığını, fəaliyyətini, yəni bütövlükdə ömür yolunu necə deyərlər, addım-addım izləmişəm. Ta bu günə kimi.

Bilirəm ki, o, mən özümün ikinci Vətənim hesab etdiyim Qarabağın Cəbrayıl rayonunda (Cəbrayılı ona görə özümə ikinci vətən sayıram ki, bir cəbrayıllı müqəddəs ailə ilə az qala yarım əsrdir dostluq edirəm) doğulub. 70 it bündan əvvəl bu rayonun Kavdar kəndində. Ərazicə çox da böyük olmayan Cəbrayıl Azərbaycana çoxlu sayda işıqlı ziyalılar, qəhrəmanlar bəxş edib. Akademik Mehdi Mehdizadə (sabiq maarif naziri), Əşrəf

Hüseynov (akademik), Tofiq Hacıyev (akademik), Qəzənfər Kazımov (professorlar), Novruz Quliyev (akademik), Sabir Əhmədov (xalq yazıçısı), Cəmil Əhmədov - onun qardaşı (Sovet İttifaqı Qəhrəmanı), Köçəri Babayev (Sosialist Əməyi Qəhrəmanı), Vidadi Rzayev (riyaziyyatçı) və onlarca başqa tanınmış şəxsiyyətlər bəxş edib. Onlar bu torpaqda həyata göz açmış, bu yerlərin ab-havası ila nəfəs alıb, ərsəyə çatmışlar. O dövrün uşaqları kimi balaca Yasifin də uşaqlığını Böyük Vətən müharibəsinin dəhşətləri udmuş, onu məhrumiyyətlər, dözülməz əzab-əziyyətlərlə üz-üzə qoymuş, bir sözlə, arxa cəbhənin məhrumiyyətlərinə tuş gətirmişdir. Atası Vətənin müdafiəsinə getdiyindən, anası ailəni dolandırmaq üçün kirpiyilə od götürüb. Ehtiyac ucbatından VII sinif şagirdi olan Yasif günün birinci yarısını quzu otarıb, ikinci yarısını isə dərsə gedib. Amma o dövrün xeyirxah adamları, o cümlədən məktəbin müəllimləri başqaları kimi Yasifin dərdini yüngülləşdirib, onlara maddi və mənəvi cəhətdən arxa-dayaq olublar.

Onu doğru deyiblər ki, dərd adamları birləşdirir.

Məktəbdə oxuyarkən, dəqiq elmlərə böyük həvəs və maraq göstərən gənc Yasif inanmazdı ki, həyat ona öz diktəsini edəcək. Belə ki orta məktəbin yuxarı siniflərində oxuyarkən öz ilk şeir və hekayələrini rayon qəzetində

görəndə, buna heç sevinməyib də. Çünki ilk qələm təcrübəsinin nə üçün mətbuata yol tapdığından heç özü də baş açmamışdı. Sən demə, bu ilk qığılcımlar bəs deyilmiş, bu, onun sonradan ədəbi aləmə düşüb, burada parlamasının başlanğıcı imiş.

Sənədlərini Neft və Kimya İnstitutuna versə də, müsabiqədən keçə bilməyən gənc Yasif vaxt itirmədən Mədəni-Maarif Texnikumuna daxil olur. Və təhsil ocağına ona görə minnətdarlığını bildirir ki, gələcək ömür-gün yoldaşı məhz burada qismətinə çıxır və onu xoşbəxt edir, həyatını mənalandırır, ona gözəl övladlar bəxş edir; tərbiyəli və savadlı, Vətənə və qədirbilən xalqımıza, zəmanəmizə layiq övladlar!

Yasif Nəsirlinin yaradıcılıq bioqrafiyası çox zəngindir. O, kifayət qədər təhsil alıb. BDU-nun və M.Qorki adına Moskva Ədəbiyyat İnstitutunun məzunudur. Eyni zamanda, keçmiş SSRİ Dövlət Təhiükəsizlik Komitəsinin Ali məktəbini bitirib. Ədəbi aləmdə imzası isə keçən əsrin 60-cı illərində görünməyə başlayıb, çox məhsuldar qələm əhli kimi oxucuların marağına səbəb olan Yasif hələ təhsil aldığı ali məktəbin IV kursunda ikən "Araz daşan yerdə" və "Qırmızı qərənfil" sənədli hekayələr toplusu ilə həmyaşıdlarının diqqətini cəlb edir.

"İnsanlar və görüşlər", "Adsız təpə", "İntizar", "Bolluq yaradanlar", "Qayıdacağam", "Çinar vüqarı", "Görə bilmədin", "Azərbaycan şeiri" və başqa povest, hekayə, pyes və elmi əsərlərdən ibarət kitablar dediklərimizi təsdiqləyir. Sonra da "Ömür", "Dünya", "Zaman» adlı üçcildliyi çap edilərək oxucuların mühakiməsinə verilmişdir. Yazıçı "Liftdə hadisə», «Təyyarə geri dönür", "Qan qardaşları" adlı pyeslərini isə televiziya tamaşaçılarının ixtiyarına verməklə özünü bu sahədə də sınamışdır.

Y.Nəsirli yaradıcılığının bir qolu da tərcüməçilikdir. Uzun illər bu sahədə çalışan nasir G.Markovun məşhur əsəri olan «Sibir»i böyük bir ilhamla dilimizə çevirmişdir. Mariya Mayerovanın "Dünyaların ən yaxşısı» romanı, A.Diqanskinin "Filosof və paltaryuyan qız», Ş.Ələddinin "Mərmər pillələr" povestləri və «Polşa hekayələri» toplusu Y.Nəsirli tərəfindən dilimizə tərcümə edilərək ayrıca kitabça şəklində işıq üzü görmüşdür. Yasif Nəsirli həm də alimdir, filologiya elmləri doktorudur.

"Ulduz" jurnalının ilk baş redaktoru olmuş Y.Nəsirli həm də ömrünün bir hissəsini ictimai-siyasi xadim kimi dövlətçiliyimizin qorunmasına həsr etmişdir. Belə ki Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində (DTK) İdarə rəisi vəzifəsində çalışan Yasif Nəsirli

Kollegiya üzvü seçilmiş, 1990-cı ilin may ayından general-mayor rütbəsinə layiq görülmüşdür.

Tanınmış nasir, publisist, tənqidçi, dramaturq, ictimai xadim, filoIogiya elmləri doktoru... Yubilyarın bütün bu kimi çoxsahəli fəaliyyətini sadaladıqca, özünü saxlaya bilməyib, istər-istəməz soruşmalı olursan: Doğrudan da, deyin görək, siz kimsiniz, Yasif Nəsirli? Haqlı sualdır, deyilmi?

Biz nə üçün bu dünyaya gəlirik?

Biz istəsək də, istəməsək də Allahın rizası ilə dünyaya gəlirik. Amma nə üçün cahana gəldiyimizi bilmirik. Zaman keçdikcə, yaşa dolduqca, həyatın acısını-şirinini daddıqca, yaxşını-pisi bir-birindən ayırdıqca, həyata gəlişimizin mənasını anlayırıq. Əlbəttə, yaşamağa qadir olan insandan söhbət gedir. O insandan ki harada, hansı şəraitdə çalışmasından asılı olmayaraq xalqına, millətinə əməyi, fəaliyyətilə fayda verməyə borclu olduğunu dərk etsin, bu yolda bütün çətinliyə sinə gərsin. Elə Yasif Nəsirli kimi.

Yasif müəllim ömrünün bir hissəsini böyük məsuliyət tələb edən Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində keçirib. Özü də 36 yaşında. Qəribədir, yazıçı, publisist kimi tanınan bu insan görəsən nə əcəb fəaliyyətini dəyişib, tamam başqa bir sahəyə - DTK-ya keçib? Yasif müəllim bu barədə verdiyi müsahibədə etiraf edir ki, həmin sahəni onun özü seçməyib, onu seçiblər həmin sahəyə. Amma Yasif müəllim onu da müsahibəsində aşkarlayıb ki, işlədiyi qurum insanlara, cəmiyyətə fayda vermək üçün ən gözəl struktur idi. Beləliklə, 5-ci sahədə fəaliyyətə başlayan Y.NəsİrIi yaradıcı, elm, maarif, məktəb və digər təşkilatlara baxır. Cörəcəyi işləri təhvil alan gənc DTK iscisinin ilk təəssüratı ürəkaçan olmur. Belə ki 17 ədəd dissertasiya üzərinə yazılan arayışlarla tanış olan Yasif müəllim həmin əsərlərin müəlliflərinin hamısını şəxsən tanıyırmış. Odur ki, dissertasiyaların suçunu diqqətlə araşdırır. Ona bəlli olur ki, guya dissertasiya işləri antisovet və millətçilik ab-havasında qələmə alınıb. Uzun illər ədəbi mühitlə bağlı olan bir şəxs necə inana bilərdi ki, yaradıcılığına, əqidəsinə, dəst-xəttinə kifayət qədər bələd olduğu dissertasiya müəlliflərinə vurulan damğalar yalan, böhtan və iftiradan savayı bir şey deyil?! Məhz Yasif müəllimin dəlil-sübutundan sonra həmin əsərlər müdafiəyə buraxılır və bundan sonra Y.Nəsirli rahat nəfəs alır, daxilində bir yüngüllük hiss edir. Axırda o da bəlli

olur ki, həmin dissertasiyaların üzərinə böhtan damğası buranlar elə o ziyalıların içərisində olan qələm "dostları"dır.

Yasif müəllim bu minvalla DTK-da fəaliyyət göstərdiyi müddətdə öz işilə əlaqədar neçə-neçə böhtan və iftiraya aydınlıq, hüququ pozulmuş insanların fəaliyyətinə tarazlıq gətirib, onların üzərindəri qara ləkələrin təmizlənməsinə nail olub. Zəngin ədəbi yaradıcılığa malik, poeziyasında Vətənin min bir gözəlliyi, ab-havası tərənnüm olunan Bəxtiyar Vahabzadə də «dostlar»ının qısqanclıq böhtanından yan keçmir. Bu müdrik, nəğməkar şair barədə «millətçidir» - deyə haray qoparırlar. Məqsədləri, sən demə, onu təqdim olunan Dövlət mükafatından məhrum etmək imiş. Bu məqamda da Y.Nəsirlinin məsələyə səmərəli müdaxiləsi müsbət nəticəsini verir.

Bu məqamda nakam şairimiz Mikayıl Müşfiqin faciəli taleyi yada düşür. Kim deyər ki, onun faciəsinin əsas səbəbkarları Müşfiqin bulaq kimi qaynar yaradıcılığından əndişə keçirən, paxıllıq və qısqanclıq hisslərindən boğulan "qələm dostları" olmayıb?!

Adam ona sevinir ki, nə yaxşı həmin illərdə Azərbaycan DTK-sında məhz Yasif Nəsirli kimi

təəssübkeş eloğlumuz, qəlbi yalnız xeyirxahlıq, haqq və ədalət hisslərilə döyünən, daim vicdanının səsinə qulaq asan, köksü altda yumruq boyda bir saf ürək daşıyan, mayası halal zəhmətlə yoğrulmuş qeyrətli bir ziyalı fəaliyyət göstərib!

O da bizə bəllidir ki, Bəxtiyar Vahabzadə və Sabir Əhmədov, İsa Hüseynov və Məmməd Araz, Abbas Abdulla və Nüsrət Kəsəmənli kimi Azərbaycanın qaymaqları - tanınmış yazıçı və şairlərimizə də uzun illər şübhəli şəxslər kimi baxılmış, barələrində xüsusi yoxlama işləri aparılmış, məhz Yasif Nəsirli kimi mübariz ziyalılarımızın ardıcıl səyi nəticəsində onların üzərindəki qara xətt silinmişdir.

Bəs mübarizələrdən doğulmuş, mübariz və istiqlal şairi, canından artıq sevdiyi bu xalq, bu Vətən uğrunda Təbriz adlı oğlunu qurban verən Xəlil Rza Ulutürk? Mübariz ruhunu boğmaq üçün fəaliyyət göstərdiyi ali məktəbdəki müəllimlikdən uzaqlaşdırırlar. Maqsud Şeyxzadə haqqında yazdığı sanballı dissertasiyasını müdafiə etmək yoluna sipər çəkirlər. Bir sözlə, imperiyaya əbədi qənim kəsilən bu azadlıq carçısının həqiqəti söyləyən ağzına daş basmaq istəyirlər. Yenə Yasif müəllim sinəsini qabağa verir, xeyli çətinlikdən sonra mübariz şairin yazdığı doktorluq dissertasiyası

müdafiəyə buraxılır, üstəlik, işə bərpa olunur. Beləliklə, haqq-ədalət qalib gəlir.

"Vətən ona görə gözəl deyil ki, o gözəldir, Vətən ona görə gözəldir ki, o Vətəndir"

Xalq şairi Bəxtiyar Vahabzadənin zərb-məsələ çevrilmiş bu hikmətİndə böyük bir həqiqət vardır. Doğrudan da, Vətən gözəl olub-olmamasından, iqlim şəraitindən, relyefindən, yaxın-uzaqlığından asılı olmayaraq elə Vətəndir. Bu cəhətdən "Vətənə gəldim - imana gəldim" deyimi fikrimizi bir daha təsdiqləyir. Elə Vətənə olan sonsuz məhəbbəti, Vətən təəssübkeşliyinin nəticəsi idi ki, Yasif Nəsirli DTK-da fəaliyyət göstərdiyi müddətdə Qarabağ problemi ilə məşğul olurdu. Bəli, Y.Nəsirli 1989-91-ci illərdə inzibati orqanların fəaliyyətinə nəzarət edir, eyni zamanda milli məsələlər onun nəzarəti altında olur. Volski və onun ermənipərəst dəstəsi Xankəndindən haqlı olaraq qovulduqdan sonra Qarabağ üzrə təşkilat komitəsi yaradılanda, Y.Nəsirli həmin təşkilat komitəsi sədrinin birinci müavini vəzifəsinə təyin edilir, çox məşəqqətli günlər yaşayır. Hər dəqiqə ölüm-itimlə qarşılaşır. Yəqin çoxları bilmir ki, gənc

jurnalist Salatın Əsgərovaya ermənilər tərəfindən tuşlanan güllələr onun əyləşdiyi maşının ardınca gedən Yasif Nəsirlini məhv etməli idi. Adi bir təsadüf nəticəsində düşmən gülləsi hədəfdən yayınır. Belə hallarla tez-tez rastlaşan təşkilat komitəsinin üzvləri ölümün gözünə dik baxmağa həmişə hazır olur, Ermənistanla həmsərhəd olan bütün Qarabağ ərazisində çox iş görürlər. Y.Nəsirlinin özü isə bəzi çətin əməliyyatların həyata keçirilməsinə bilavasitə özü rəhbərlik edib. O vaxt Azərbaycanın ər oğullarının Vətən yolunda şəhid olduğunu görən Yasif müəllimin özü neçə dəfə ölüb-dirilib.

Azərbaycan deyiləndə ayağa dur ki...

Azərbaycan! Mayası nur, qayəsi nur ki,

Hər daşından alov dili ox ola bilər.

Azərbaycan! - deyiləndə ayağa dur ki,

Füzulinin ürəyinə toxuna bilər.

Onu da yaxşı bilirəm ki, Yasif Nəsirli xeyli müddətdir ki, məsul vəzifə daşıyır. Bu, "Azərbaycan dünyası" Beynəlxalq Əlaqələr Mərkəzidir. Yasif müəllim bu mötəbər mərkəzin prezidentidir. Nə yaxşı ki, mərkəz dövlət büdcəsindən maliyyələşdirilir. Məmləkətimizin beynəlxalq aləmdə tanınması və təbliği sahəsində sanballı fəaliyyət göstərir. Dünyanın ən sivil dövlətlərindən biri olan, heç kimin torpağında gözü olmayan, amma özünün müqəddəs torpaqlarının 20 faizdən çoxunun bədnam qonşularımız tərəfindən işğal edilən, əhalisinin 8 nəfərindən birinin qaçqın-köçkün vəziyyətində yaşayan Azərbaycanın haqq səsini dünyaya yayan mərkəzin fəaliyyəti təqdirəlayiqdir. Çünki mərkəzin işgüzar kollektivi yaxşı bilir ki, Nizami və Füzulinin, Nəsimi və Şah İsmayılın, Aşıq Qurbani və Ələsgərin, Səməd Vurğun və Xəlil Rza Ulutürkün Vətəni olan Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Qarabağ donuz xislətli ermənilərin tapdağı altında uzun zaman qala bilməz. Bunu yazımın qəhrəmanı Yasif müəllim də müsahibələrində etiraf edib və vurğulayıb ki, məqsədimiz mövcud imkanlardan istifadə edərək torpaqlarımızın azad olunmasına nail olmaqdır.

Bu, hər bir azərbaycanlının ümdə arzusudur, Yasif müəllim! Sizi isə 70 yaşınız münasibətilə "Naxçıvan" qəzeti kollektİvi adından, şəxsən öz adımdan təbrik

edirəm! Qoy gülümsər çöhrənizdə yuva qurmuş müdriklik əlaməti olan nuranilik sizi heç vaxt tərk etməsin, aydın və mənalı baxışlarınız ətrafdakılarınıza daim nikbin ovqat bəxş etsin!

“Naxçıvan” qəzeti, 2009-cu il

“ƏKİNÇİ”DƏN ÜZÜBƏRİ, YAXUD QƏZET BOLLUĞU PİSDİR, YA YAXŞI?

1875-ci ildə görkəmli yazıçı və maarifçi, zəmanəsinin tanınmış ziyalısı Həsən bəy Zərdabi tərəfindən nəşrə başlayan "Əkinçi" qəzeti Azərbaycanda ilk milli mətbuatımızın əsasını qoydu. Düz 123 il əvvəl qeyrətli eloğlumuzun bu nəcib hərəkəti, yəni onun yeni icadı bəzilərinə əvvəlcə qəribə, müəmmalı görünürdü. Lakin dərinə vardıqca, maarifçi mühərririn qəzetinin məramı, qayəsi və ideyası ilə tanış olduqca, onun "Əkinçi"sinə olan maraq və diqqət də artmağa başladı.

Axı görkəmli alim Zərdabinin bu qəzeti yaratmaqda əsas məqsədi millətin gözünü açmaq, onu maarifləndirmək, mənən zənginləşdirmək idi. Oxucular bilməlidirlər ki, böyük maliyyə çətinlikləri ilə üzləşən,

min cür təzyiqlərə məruz qalan Zərdabi "Əkinçi"ni cəmi iki il yaşada bildi. Qəzetin 56 nömrəsi işıq üzü gördü. Lakin elə o vaxtdan, ondan sonrakı əsrin əvvəlində Azərbaycanın dünya miqyasında tanınmasında "Əkinçi"nin müstəsna rolu oldu. Çünki qəzetin redaktoru dünya elmlərindən xəbərdar olan ensiklopedik bilik sahibi idi və buna görə də qəzetdə həyatın bütün sahələri, bütövlükdə Azərbaycan dünyası öz əksini tapırdı. Beləliklə, "Əkinçi" sərhədlər aşır, ölkələr dolaşır, əllərdə gəzirdi.

Aradan 123 il keçməsinə baxmayaraq, milli mətbuatımızın ilk qaranquşu olan "Əkinçi" bu gün də mətbuatımıza örnək rolunu oynayır, belə ki onun hər nömrəsi ali məktəblərdə təhlil olunur, təqdir edilir, əhəmiyyəti barədə danışılır. "Əkinçi"nin cəsarəti, məharəti, qabiliyyəti ayrıca qeyd olunur. Milli mətbuat tariximizdə o vaxtdan – 22 iyun 1875-ci ildən qeyd olunur. Ümumiyyətlə, hər bir xalqın mətbuatı o xalqın həyatının aynası, güzgüsü sayılır, yəni bir xalqın mətbuatı ilə yaxından tanış olmaq kifayətdir ki, həmin xalq haqqında dəqiq fikir yürüdəsən. Deməli, bir xalqı təmsil edən hər hansı qəzet, yaxud ümumilikdə, mətbuat o xalqın canlı salnaməsidir. Bu cəhətdən "Əkinçi"nin mətbuatımız tarixindəki rolu misilsizdir, əvəzsizdir.

"Əkinçi"dən üzübəri Azərbaycan mətbuat tarixini izlədikcə, mətbuatı təmsil edən neçə-neçə qəzet və jurnalla tanışlıqdan sonra şahidi olursan ki, hər bir qəzet (indiki qəzet bolluğunda olduğu kimi) müəyyən bir mövqedən çıxış edib. Barmaqla sayılası qəzet və jurnal olub ki, heç bir partiyanın mənafeyini müdafiə etməyib. Öz sərbəst sözünü deyib, müstəqil olub. Elə "Əkinçi" kimi, "Molla Nəsrəddin" jurnalı kimi (Allah onun redaktoru, 25 il olmazın əzab-əziyyətlərə qatlaşaraq, jurnalı yaşadan, onun əqidə istiqamətinə sadiq qalan Mirzə Cəlilə qəni-qəni rəhmət eləsin!). "Azərbaycan", "Açıq söz", "Hürriyət" və s. qəzetlər də onun kimi.

70 il ərzində kommunist rejiminin Domokl qılıncı başımız üstündə fırlanıb. Bütün qəzet və jurnallar bu içiboş, yalançı rejimi, kommunist ideologiyasını təbliğ və təşviq etməklə məşğul olub. Allaha min şükürlər olsun ki, bu ideologiyanın mənfur siması özünü axır ki büruzə verdi. Və quru hay-küyçülük, çürük bünövrə üzərində qurulmuş "Şura hökuməti" süquta uğradı: uçdu, dağıldı, məhv oldu. Sovetlər birliyinə daxil olan respublikalar parçalandı, müstəqil, suveren dövlətə çevrildi. Hər respublika özünə müstəqil prezident seçdi, demokratik quruluş bərpa olundu. Monopartiyalıqa son qoyuldu. Çoxpartiyalı prinsip özünə yol açdı. Hər bir partiya da öz

qəzetini yaratdı. Bəzən bir partiyanın bir neçə qəzeti fəaliyyət göstərir.

Bəllidir ki, hazırda respublikamızda 60-dan çox müxtəlif partiya var. Onlardan 40-a yaxını qeydiyyatdan keçib. Bəs bu gün Azərbaycanda neçə adda qəzet (bəli, təkcə qəzet nəzərdə tutulur) mövcuddur və onların birdəfəlik tirajı nə qədərdir? Hazırda 8 milyonluq Azərbaycanımızda 500-dən artıq müxtəlif biçimdə qəzet nəşr olunur. Maşallah olsun, elə bir ucdan da yeniləri əllərdə gəzir. Onlardan 170-i dövrü olaraq, fasilə vermədən çıxır. Bugünkü qəzet çoxluğu, sıxlığında elə qəzetlərə də təsadüf edirik ki, onlar təsadüfdən-təsadüfə işıq üzü görür. Məsələn, il ərzində cəmi iki nömrə çıxa bilir. Bu, nə üçün belədir, buna yalnız həmin qəzetlərin sahibləri dəqiq cavab verə bilər.

Əlbəttə, burada maliyyə çətinliklərini danmaq olmaz. Bəs Azərbaycanda heç, gündəlik qəzet çap olunmur? Niyə? Olunur, 8 belə qəzet fəaliyyət göstərir ki, onları oxucular hər gün kiosklardan alıb oxuya bilir. Düzdür, həmin qəzetlərin gündəlik tirajı çox da nəzəri cəlb etmir, yəni 10 mindən yuxarı qalxmır. Deməli, bu 8 qəzetin birlikdə ümumi gündəlik tirajı 80 min nüsxə təşkil edir. Halbuki sovetlərin at oynatdığı vaxtlarda təkcə Azərbaycan KP-nin orqanı olan "Kommunist" qəzetinin

tirajı 600 mindən çox idi. Onun da əksəriyyəti məhz abunə yolu ilə, zorla təşkil edilirdi.

Bu gün isə rekord sayda - 30 min tirajla nəşr olunan qəzetləri barmaqla saymaq olar. Bu isə o deməkdir ki, qəzetlərin sayı artdıqca, onların ümumi tirajı azalır. Deməli, qəzetlərin ümumi miqdarı onların ümumi tirajının cəmi ilə tərs mütənasibdir. Bu minvalla dediklərimizi rəqəmlə belə ifada etmək olar: Bu gün Azərbaycanda nəşr olunan qəzetlərin sayı əvvəlki rejim dövründə çıxan qəzetlərlə müqayisədə 8,5 dəfə artsa da, onların aylıq tirajlarının sayı da bir o qədər dəfə azalıb. Deməli, boş hay-küy salıb, qəzet bolluğundan şikayətlənməyə, bu bolluğu yerli-yersiz hallandırmağa hacət yoxdur. Çünki respublikada qəzetlərin sayı nə qədər çox olarsa, Azərbaycanımız haqqında, sərhədlərimizdənkənar dövlətlərin ölkəmiz barədə məlumatı daha çox olar. Azərbaycan jurnalisti öz respublikasını bu və digər cəhətdən xaricilərə daha sıx tanıdar. Bunun nəyi pisdir? Bir də axı Azərbaycan demokratik yolla inkişaf edir, ölkəmiz demokratik qanunlar əsasında fəaliyyət göstərir. Qoy onda hər bir qəzet və jurnal bütün həqiqətlərimizi olduğu kimi yaxın-uzaq ölkələrə çatdırsın. Bir də təkrar edirəm: bunun nəyi pisdir? Pis orasıdır ki, Azərbaycanda baş verən reallığa əllaməçilik donu geydirib, onu başqa qifayədə dünyaya çatdırmaq üçün cidd-cəhd göstərəsən.

Bu isə reallıqdan kənarlaşmaq, uzaqlaşmaq deməkdir. Milli mətbuatımızın ilk qaranquşu olan "Əkinçi"nin ruhunu unutmaq olmaz!

“Yeni era” qəzeti, 19.01.1998-ci il

TİKDİ Kİ İZİ QALSIN...

Musa Nağıyev haqqında bildiklərimiz və bilmədiklərimiz

O xəsis deyildi

Azərbaycanda sahibkarlığın, milli burjuaziyanın tarixindən söhbət açanda, ilk növbədə, məşhur xeyriyyəçilərimiz Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuz Muxtarov, Seyid Mirbabayev, Binəqədili Səlimov, Hacı Hacağa, İsabəy Hacınski və başqaları yada düşür. Vaxtilə bu məşhur milyonçuları təkcə Azərbaycanda, Qafqazda və Rusiyada deyil, dünyanın bir sıra başqa ölkələrində də yaxşı tanıyırdılar.

Görkəmli tədqiqatçı alim, ensiklopedik biliyə malik qocaman nasir və tərcüməçi Manaf Süleymanov Bakının keçmişindən, onun keşməkeşli günlərindən, acılı-şirinli tarixindən bəhs edən "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" adlı kitabında milyonçuları iki qismə bölür: birincisi, neft milyonçuları, yəni neftxudalar, ikincisi isə, "sandıq milyonçuları", yəni pulu sandıqda üst-üstə yığıb, yalnız sələmçilik yolu ilə, yaxud da malı "öldürə-öldürə" ucuzlaşdırandan sonra alıb, baha qiymətə satmaqla varlanan milyonçular.

Ağa Musa Nağıyev birincilərdən idi. Onun dövrü, fəaliyyəti, işgüzarlığı, halal zəhməti layiqincə qiymətləndirməyi bacarması və qənaətcilliyi barəsində çoxlu fakt və rəvayət var. Ağızdan-ağıza keçən bu rəvayətlərin bəzilərində o, xəsis adam kimi təsvir olunur və beləliklə də, gördüyü böyük işlərin, milyonçunun xeyirxah əməllərinin üstünə kölgə salınır. Halbuki Musa Nağıyev inqilabdan qabaqkı Bakımızın memarlıq simasının formalaşması üçün böyük əmək, enerji və əlbəttə, milyonlarını "uf" demədən sərf etmişdir. Maarif və səhiyyə sahəsində bir sıra xeyirxah işlərini də bura əlavə etmək olar. Təəssüf ki, biz bu güclü, təpərli və sözükeçən şəxsiyyətin fəaliyyətini, doğma xalqı üçün gördüyü işləri hələ dəyərincə qiymətləndirməmişik.

Bəllidir ki, Azərbaycanın neft maqnatlarından biri kimi tarixə düşmüş Ağa Musa Hacı Əli oğlu Nağıyev Bakı şəhərinin Biləcəri qəsəbəsində yoxsul bir ailədə həyata göz açmışdır. Erkən çağlarından fiziki əməklə məşğul olmuş, əvvəlcə hambalçılıq etmiş, bu yolla qəpik-quruş qazanmış, heç vaxt israfçılıq etməmiş, iti ağlı və qənaətcilliyi sayəsində milyonlara sahib olmuşdur. Bu qeyrətli şəxsiyyətin adı çəkiləndə, ilk öncə, onun "Cəmiyyəti-xeyriyyə" üçün Bakı şəhərinin mərkəzində ucaltdığı əzəmətli "İsmailiyyə" hazırda respublika Əlyazmalar İnstitutu kimi tanınan yaraşıqlı bina, bu gün onun adını daşıyan (nə yaxşı ki uzun illər Semaşko xəstəxanası kimi bəlli olan bu səhiyyə oçağı axır ki onu inşa etmiş şəxsin adına layiq görüldü) xəstəxana və başqa tikililər gözlərimiz önündə canlanır. Ömrü boyu təmtəraqdan, gözqamaşdıran parıltıdan uzaq olan, şan-şöhrətə uymayan Ağa Musa həmişə bədxərclikdən, israfçılıqdan uzaq olmuş, pulunun qədrini bilmiş, "Dama-dama göl olar" atalar sözünü özünün həyat devizinə çevirmişdi.

"İsmailiyyə" düz 6 ilə (1907-1913) inşa edilmişdir. Binanın layihəsini milliyyətcə polyak olan məşhur memar İ.Ploşko vermişdi. Layihə Venetsiyada ucaldılmış məşhur Palattso Kantarini üslubunda hazırlanmışdı. Xəstəxana isə tanınmış memar N.Bayevin layihəsi üzrə tikilmişdi. Bina

xeyriyyəçinin familiyasının baş hərfi - "N" - formasında inşa edilmişdi.

Ağa Musa yüksək zövqə malik idi. Bakıda yeni bir bina uçaltmaq istəyəndə o, həmişə tanınmış və istedadlı memarlar dəvət edir, layihənin bir neçə variantda hazırlanmasını tapşırır, layihələr hazır olanda isə onların ən mükəmməl variantı üzərində dayanırdı. Ona görə də Ağa Musanın Bakıda tikdirdiyi binalar Azərbaycan memarlığının qızıl fonduna daxil olmuşdur. Həmin layihələr əsasında tikilmiş binalar bunlardır: 28 May küçəsindəki əkiz 4, 6, 10 və 46 nömrəli binalar, həmin küçədə kirxa, Nizami küçəsində Opera və Balet Teatrı kassalarının yerləşdiyi bina, yenə həmin küçədə nəzəri uzaqdan cəlb edən və uzun illər "Şaxnoviçin mağazası" kimi tanınan bina, hər iki "Kitab pasajı"nın binaları, Bülbül küçəsindəki 12 və 30 nömrəli binalar, Rəsul Rza küçəsindəki 8, 23 və 49 nömrəli binalar, Ağamalıoğlu küçəsindəki 13 nömrəli bina, Ü.Haçıbəyov küçəsindəki 10, 11, 12, 13 nömrəli binalar, Xaqani küçəsindəki 47 nömrəli bina, Əzizbəyov küçəsindəki 19 nömrəli bina, Ağa Musanın öz evi (indiki "Yeni Avropa" mehmanxanası) və neçə-neçə başqa yaraşıqlı tikili, eləcə də Pirşağı qəsəbəsindəki uşaq evi, əlillər evi və s. Bütün bu tikililər öz gözəlliyi ilə Bakının mənzərəsində indi də seçilir.

VƏSİYYƏTƏ ƏMƏL ETMƏK MÜMKÜN OLMADI

Ağa Musa 70 il ömür sürüb, 1919-cu ildə vəfat edib və Çəmbərəkənd qəbiristanlığında torpağa tapşırılıb. Dəfni çox təmtəraqlı keçib. Bakı əhalisi - "məmə yeyənden pəpə deyənə qədər" dəfndə iştirak edib.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Ağa Musa Nağıyev kimi xeyriyyəçilərə "istismarçı", "kapitalist" damğası vuruldu. Onların məzarlarını belə urvatdan salır, həmin məzarları hətta qohum-əqrəbanın ziyarət etməsinə imkan vermirdilər.

1931-ci il gəldi. Azərbayçan bolşevikləri Bakının ən uca nöqtəsində - Dağüstü parkda "alovlu natiq" Kirovun elə bir heykəlini ucaltmağı qərara almışdılar ki, o, şəhərin hər yerindən görünsün. Şəhər əhalisinə xəbərdarlıq edilmişdi ki, kim istəsə, ölüsünün sümüklərini Çəmbərəkənd qəbiristanlığından çıxarıb, başqa bir qəbiristanlıqda dəfn edə bilər. Yiyəsiz qəbirlər qısa bir vaxtda yerlə-yeksan edildi.. Bu xəbəri eşidən Ağa Musanın qohumları bərk təşvişə düşdülər. Mərhumun

qardaşı oğlu Əliəsgər o vaxt yüksək vəzifədə işləyirdi, lakin dövrün qorxusunu başı üstündə hiss edərək (milyonçu kapitalistin qohumu olduğuna görə) bu işə əvvəlçə yaxın durmur. Onda M.Nağıyevin qardaşı Ağaəli ilə qardaşı gəlini (biz onun haqqında bir az sonra söhbət açacağıq) Zəhra xanım onun sümüklərini oradan çıxarıb xüsusi qutuya yığmış, vaxtı ilə qardaşı Ağaəli üçün Verxni Priyutski (indi Şamil Əzizbəyov, 28) küçəsində rəhmətliyin hədiyyə olaraq tikdirdiyi və hazırda onun nəslinin törəmələrinin kirayənişin qismində yaşadıqları evə gətirirlər.

Qardaşı Ağaəlinin dediyinə görə, Ağa Musa vəsiyyət edibmiş ki, onu Kərbəlada dəfn etsinlər. Lakin o illərin narahatlığı, gərginliyi bu vəsiyyəti həyata keçirməyə imkan vermir və beləliklə, Ağa Musa Çəmbərəkənddə dəfn olunur. Dağdan ağır qardaşının vəsiyyəti Ağaəlinin ürəyindən daş olub asılır, ona görə də qardaşının sümüklərini uzun müddət evdə saxlayır ki, fürsət düşən kimi qardaşının vəsiyyətini yerinə yetirib, heç olmasa sümüklərini Kərbəlada aparıb dəfn etsin. Lakin Ağa Musanın qardaşının qayınanası Məsmə xanım bu xəbəri eşidəndə, dəhşətə gəlir. Qatı dindar olan bu qadın deyir ki, rəhmətliyin sümüklərini torpağa tapşırmamaq şəriətimizə, dini-şiə və Qurani-Kərimə yerli-dibli ziddir. Kərbəla məsələsinə gəldikdə isə, indi bu barədə əsla söhbət gedə

bilməz. Həm də artıq var-dövlət əldən çıxmışdı: nağıyevlər nəsli müflis vəziyyətinə düşmüşdü. Çox götür-qoydan sonra əlacsız qalıb Ağa Musanın sümüklərini təzədən yuyur, qusul verir, xüsusi hazırlanmış qutuya qoyub, Quran oxutdurur, onu Biləcəri qəbiristanlığında basdırırlar. Qəbiri də nişanlayırlar ki, bu məzar birovuz sayılır və imkan düşən kimi, qəbir sahibinin vəsiyyətinə əsasən Kərbəlaya aparılacaqdır. Lakin vəziyyət getdikcə çətinləşir, Ağa Musanın vəsiyyəti yaddan çıxır...

AĞA MUSANIN QOHUMLARI

Hacı Əli oğlunun üç oğlu olub. Ağa Musa onların böyüyüdür.

Ortancıl qardaşın adı Ağaəli, kiçiyininki isə Yusifəli olub. Həyat yoldaşı Ümmüldən İsmayıl adlı bir oğlu olur. Çox ucaboy, qamətli, savadlı, xeyirxah olan bu gənç yuxarıda qeyd etdiyimiz kimi, nakam ölür - 27 yaşında həyatla vidalaşır. Musa Nağıyev kimi milyonçu oğlunu amansız xəstəliyin pəncəsindən qopara bilmir. Çünki vərəm xəstəliyini o zaman yalnız xaricdə müalicə etmək mümkün idi. Düzdür, İsmayılı da müaliçə etmək üçün

xaricə aparırlar. Lakin xəstəliyin vaxtı keçdiyindən, dərdinə əlaç olmur. "İsmailiyyə" binasını Ağa Musa oğlunun şərəfinə tikdirmişdi.

Ağa Musanın qızı Ümmü isə milyonçu Şəmsi Əsədullayevin oğlu Mirzəyə ərə gedir. Onların bu nikahından Ümbül adlı bir qızı dünyaya gəlir (Anası doğuş üstündə öldüyünə görə, adını qızına verirlər). Sonradan həyatın gərdişi onu o uzaq Fransaya aparıb çıxarır və Banin ləqəbi ilə bu ölkənin məşhur yazıçısına çevrilir. Əsərlərinin əksəriyyətinin mövzusunu Azərbayçan, Qafqaz təşkil edir. İki milyonçunun nəvəsi bu yaxınlarda Fransada vəfat etmişdir.

Ağaəli Nağıyevin 2 arvadı olub. Balaçaxanım adlı arvadından 6 oğlan - Ağa Kazım, Zeynal, Haman, Abdulla, Məmmədəli, Ağa Tağı, 2-ci arvaddan isə Əliəsgər və Həmid adlı 2 oğlu olub.

Yusifəli Xədicə xanımla ailə qurub. Lakin qismətlərinə övlad payı düşməyib və Yusifəli cavankən dünyasını dəyişib.

Nağıyevlər nəslinin davamçısı Musa Nağıyevin qardaşı oğlu Əliəsgər 5 övlad atası olub: Rauf, Solmaz, Ağaəli, Çingiz, Dilarə xanım. Hazırda onlardan Rauf, Solmaz və Dilarə xanım sağdırlar.

DİLARƏ XANIMIN DEDİKLƏRİNDƏN

- Bakı milyonçusu, xalqımızın xeyriyyəçi oğlu, atamın əmisi Ağa Musa ilə fəxr edirəm. İllər keçdikcə, onun xalqı üçün gördüyü işlər öz layiqli yerini tutduqca, qəlbimdə yüngüllük hiss edirəm. Əvvəlkitək milyonçu kapitalistin qohumu kimi adamlardan qaçmıram.

Atam Əliəsgər incəsənət işçisi idi, Fərəc ləqəbi ilə tanınırdı. Dövrünün sayılıb-seçilən rejissoru, aktyoru, rəssamı və teatr xadimi idi. O, gözəl ailə başçısı idi. Həyat yoldaşı Zəhra xanımı ülvi məhəbbətlə sevir, onu necə deyərlər, gözünün üstündə saxlayırdı. Çox gözəl və yaraşıqlı olan anamı atam bir an da olsun gözündən kənara buraxmazdı. Baxmayaraq ki, anam vəfalı arvad, gözəl ana idi. Anamın bütün paltarlarını atam özü zövqünə uyğun tikərdi, təki başqa dərzi - bu dərzi hətta qadın olsa da - onun əndamını görməsin. Həm də atam incəsənətin bir çox növlərində olduğu kimi, dərzilikdə də məşhur idi. Yeni bir tamaşa hazırlanıb, teatrda göstəriləndə, atam tez əl-ayağa düşər, dünyalar qədər sevdiyi, gözəlliyi ilə öyündüyü həyat yoldaşı üçün münasib paltar tikər və ona uyğun, çox zaman da elə həmin parçadan ayaqqabı tikdirərdi ki, anamın gözəlliyi kimi geyimi də teatra gələn qadınların geyimindən fərqlənsin. Həqiqətən də anam çox cazibədar qadın idi. 8

bacının ən gözəli idi. O, qeyrətdə də yeganə idi. 5 övlad böyütmüşdü anam. Ağa Musa ocağına gözəl, namuslu, ruzili bir gəlin kimi daxil olmuşdu.

Ağa Musanın sümüklərinin Çəmbərəkənddəki qəbirdən çıxarılmasında onun qardaşı Ağaəli ilə gəlini, yəni anam Zəhra xanım fəallıq göstərdilər. Çıxarılan sümüklər uzun müddət evdə qaldı. Ağanın Kərbəlada dəfn olunması haqqında vəsiyyəti həyata keçmədi. Çünki ailə çox müflisləşmişdi. Bu zaman çox tədbirli qadın olan anam xeyli götür-qoydan sonra boynunun mirvarisini qayınatasına satdırdı və ikisi birlikdə Ağa Musanın sümüklərini Biləcəridə haqq yerinə tapşırdılar.

Yadımdadır, atam danışardı ki, Ağa Musaya atası deyərmiş: "Oğul, bacardığın qədər çox bina tikdir. Neçə bina tikdirsən, ömrün bir o qədər uzanar".

Uzun müddət biz hərdənbir Ağa Musanın tikdirdiyi yaraşıqlı binaların qarşısından keçərkən, atam təəssüflənərdi ki, gör, kişi nə çür imarətlər qoyub getdi, biz isə onun hətta adını da qorxa-qorxa çəkirik.

VARİSİN ARZUSU...

Sözünün sonunda Musa Nağıyevin qonumu Dilarə xanım onu da bildirdi ki, indi bu xeyriyyəçi milyonçu haqqında ürəkdən yazın, xalqa onu Azərbaycanın müdrik və zəkalı bir oğlu kimi tanıtdırırlar. Haqq, ədalət öz yerini tapdı. Ancaq Dilarə xanım arzusunu da bildirdi: Bakının 28 May küçəsində Musa Nağıyevin vaxtilə tikdirdiyi yaraşıqlı binaların birinin fasadında onun barelyefi görünsün, ədəbi qaynaqlarda "xəsis", simic" sözləri onun üstündən götürülsün və "qənaətcil" sözü ilə əvəz edilsin. Qoy Ağa Musanın, Ağaəlinin və Əliəsgərin ruhları bununla şad olsun!

Avqust 1977-ci il

OYAT BU XALQI, ARAZ ELSƏS!

O, BİR ORDUYA BƏRABƏRDİR

Onu ilk dəfə ekranda görmüşdüm. Ucaboy, yaralıqlı, aydın baxışlı bir gənc kimi yadımda qalmışdı Araz. Sazlı-sözlü, əsl ozan təki. Sazı dilə gətirib, ürəyinin dərinliyindən kükrəyib gələn nəğmələrini elə-belə, adi tərzdə, sakitcə dinləmək mümkün deyil. Çünki damarında əsl azərbaycanlı qanı axan, Vətənini sevən, onun bütövlüyü uğrunda mübarizə aparan bir gəncin ifa etdiyi mahnılar adamın iliyinə işləyir, qanını coşdurur, qəlbini alovlandırır.

Araz Elsəs o taylı Azərbaycanda böyüyüb başa çatıb. Amma özünü dərk edəndən İrandakı rejimin Azəri türklərinə, Azərbaycan dilinə qarşı ögey münasibət, fars hegemonçuluğu, 30 milyonluq soydaşlarımızla mövcud rejimin hesablaşmaması erkən çağlarında Arazın qəlbində etiraz alovunu gücləndirmiş, onu sazla həmdəm olmağa sövq etmişdir. Bütöv Azərbaycanın dərdi, onun yarıya bölünməsi Arazın gur səsi vasitəsilə ölkələr dolaşdıqca, dünyaya yayıldıqca, ozan qəlbində daha böyük təpər tapır, Azərbaycan elçisi kimi hər yerdə hərarətlə qarşılanır.

Görüş baş tutdu

Növbəti dəfə o, Bakıya Hollandiyadan qayıtmışdı. Qərib ölkədə pis dolanmasa da, Vətən üçün, onun qeyrətli oğul və qızlarından ötrü qəribsəmişdi Araz. Bir də axı onun ən çox öz doğma Vətənində başa düşürlər, o da öz həmvətənləri ilə ünsiyyətdən dünyalar qədər zövq alır. Araz Bakıda olduğu müddətdə özünə çoxlu dost, həmkar, həmdərd tapdı. Xeyli konsert verdi, ürəyini boşaltdı. Amma geniş tamaşaçı qarşısında çıxış etmək üçün darıxmışdı yaman Araz. Belə bir məkan mayın 29-da Əl oyunları sarayındı yarandı. Araz sənətinin pərəstişkarları həmin günü səbirsizliklə gözləyirdilər. Vaxt tamam oldu. Lakin son anda hamının əli ağzında qaldı. Araz Elsəs tamaşaçılar qarşısına çıxıb konsertin baş tutmadığını söylədi, texniki səbəbləri ön plana çəkdi. Amma tezliklə onlara konsert verəcəyini vəd etdi. Vədə sadiq çıxmaq üçün bu yorulmaz, mübariz, qəlbində od gəzdirən 28 yaşlı gənc Bakıda xeyli qapı döydü, çoxlu məmurla, idarə rəhbərləri ilə ünsiyyətə girdi. Axır ki istəyinə nail oldu Araz. Bu dəfə Azərbaycan Dövlət Sirkində konsert verəcəkdi ozan. Verdi də. Konsert nə konsert! Bu barədə yalnız həmin tədbirdə iştirak edənlər danışa bilərlər.

«Salam, dar ağacı!»

…Bəlkə də bu konsert ocağı iyunun 23-dəki qədər tamaşaçı görməmişdi. Konsertin başlanmasına hələ yarım saat qalmış bütün yerlər tutulmuşdu. Xeyli əvvəl Azərbaycanın, türk dünyasının bayraqları əllərdə, güdrətli biləklər üzərində dalğalanırdı. Baş bayraqdar Elman Türkoğlu qoşa oğlu – Məmmədəmin və Elçibəylə başları üzərində bayraqları dalğalandırırdılar. Cavan ozan əlində saz səhnədə görünəndə uğultu qopdu. Sanki kükrəyib-coşan dəryanın suları sahillərə toxunub, əks-səda verdi. Sürəkli, gurultulu alqışlar salonu titrətdi. Arazsevərlər yəqin ona sevinirdilər ki, gec-tez onlar bu türk qeyrətli igid ozanla, onun sənəti ilə tanış olmaq imkanı əldə etmişdilər. Tamaşaçıları qarşısında baş əyən Araz onlara minnətdarlıq nümayiş etdirdi və ayrılmaz könül həmdəmi sazı sinəsinə basdı, bir azdan Əhməd Cavadın məşhur «Azərbaycan, hey!» mahnısının sədaları onun ürəyindən qopub çıxaraq dalğa-dalğa dörd tərəfə yayıldı. «Gecədir dilsiz-ağızsız»a növbə çatdı. «Salam, dar ağacı!»nı Elsəs xüsusi ehtirasla oxudu. Ümumiyyətlə, Araz öz repertuarına elə tükürpədən, adamı özündən alıb aparan, ürəyinə od salan mahnılar daxil edib ki, hər biri haqqında ayrıca danışmağa dəyər. Orası da maraqlıdır ki, nəğmələrinin əksəriyyətini müğənni özü bəstələyib, özününküləşdirib. O da fərəhlidir ki, Araz yeni musiqi

qrupu yaradıb, müşayiəti ilə oxuduğu musiqi qrupuna «Bayduru» adı verib. Qrup sanki Araz qəlbinin tellərini, ürək çırpıntılarını səsləndirir. Daha bir qədim xalq mahnısı – «Çoban qızı» müğənninin oranjemanında necə də həzin, qəmli, necə də məhzun səsləndi! «Bağlar», «Ceyran» mahnılarını müğənninin lirik ovqatını tamaşaçılara bütün çalarları ilə çatdıra bildi. Bəs məşhur «Ninna, yarım» İraq-Kərkük nəğməsi?!

Araz uşaqlara dərs verirdi

Araz Elsəs arada konsertinə gəlmiş uşaqları yanına çağırır, mikrofonla qarşılarında diz çöküb onları sorğu-suala tutur, biliklərini sanki yoxlayırdı. «Azərbaycanın neçə düşməni var?», «Azərbaycan bayrağı neçə rəngdədir və onları ardıcıl necə sayarsan», «Türk dünyasında neçə dövlət var?», «Sən böyüyəndə kim olacaqsan?» və s. Düzgün cavab verməyən uşaqların valideynlərini Araz məzəmmət edirdi ki, övladlarına adi şeyləri öyrətmirlər.

Tamaşaçılar da hər mahnıdan sonra səhnəyə çıxır, müğənninin sənətinə, onun vətənpərvərliyinə səcdə edirdilər. Növbəti dəfə gənc bir qız Araza yaxınlaşdı.

Boynunu qucaqladı, onun razılığı ilə mikrofona yaxınlaşdı. Araz Elsəsə həsr etdiyi şeiri ürək yanğısı ilə, titrək səslə oxudu. Bu Pərvanə Süxəndi idi. Həmin şeirin bir hissəsini sevimli oxuculara da təqdim edirik.

Oyat bu xalqı!

Oxu, ey yurdumun igid, ər oğlu,

Təbrizin, Bakının fəxri-vüqarı.

Ulu türkün od-ocağı, alovu,

Hayqır, hayqır, oyat, oyat bu xalqı!

Hələ ayıqdan çox yatanın vardır,

Hələ türkçülüyü dananın vardır.

Hələ soykökünü qanmayan vardır,

Hayqır, hayqır, oyat, oyat bu xalqı!

Sən tək ananın yox, xalqın oğlusan!

Təbriz həsrətilə qəlbi dağlısan.

Türküstan elinin ozan oğlusan,

Hayqır, hayqır, oyat, oyat bu xalqı!

«Can bədəndən çıxmayınca» mahnısının melodiyaları salona yayıldıqca, salondakılar da səslərini Arazın gur, bulaq kimi qaynar səsinə qatıb, onu axıra qədər xorla oxudular. Hamı ayağa qalxdı. Sürəkli alqışlarla müğənnini təbrik etdilər.

Ön söz əvəzi

Araz Elsəs pərəstişkarları düz 2 saat onunla, onun sənətilə üz-üzə dayandı. Araz Elsəsin sehrilə yaşadı. Onun səsində Dədə Qorqud müdrikliyi, Atatürk mübarizliyi, türk cəngavərliyi, Əhməd Cavad şeirinin siqləti, Koroğlu nərəsi, Əmrə ozanlığı, Həzi qəhrəmanlığı… var. Araz

təklikdə bir orduya bərabərdir. Elə bir ordu ki, bu gün düşmən tapdağı altında inləyən və aman gözləyən torpaqlarımızı azad etsin. Arazı həm də Dərvişə bənzədirəm. Ölkə-ölkə, el-el gəzib Azərbaycan həqiqətlərini gözükor, qulağıkar dünyaya çatdırır. Köksü altında xeyirxah, hamıya hərarət verməyə hazır olan bir qəlb daşıyır. Yeni görüşlərədək, Araz həsrətli, Araz səsli Araz Elsəs! Qoy gəzsin, dünyanı oymaq-oymaq dolaşsın Araz Elsəs hayqırtısı…

27.09.1999-cu il

Bəxtiyar Sadıqov: «Əslində müxalifət özünü boykot edir»

Müsahibimiz millət vəkili, jurnalist həmkarımız B.Sadıqovdur

Bəxtiyar Sadıqov 1951-ci ildə Ağdam şəhərində anadan olub. 1974-cü ildə BDU-nun jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirib. Jurnalist kimi fəaliyyətə «Abşeron» qəzetindən başlayıb –

korrektor kimi. Burada baş redaktorun müavini vəzifəsinə qədər pillə-pillə ucalıb. 1987-ci ildə «Kommunist» qəzetində fəaliyyətini davam etdirib. Baş müxbir və şöbə müdiri işləyib. 1991-1993-cü illərdə «Həyat» və «Azərbaycan» qəzetlərinin Qarabağ üzrə xüsusi müxbiri işləyib, bu odlu nöqtələrdən operativ materiallar hazırlayıb. İki dəfə «Qızıl qələm» mükafatına layiq görülüb. Müharibədən bəhs edən «Qeyrət və xəyanət», habelə 10-a qədər siyasi kitabın müəllifi və redaktorudur. Evlidir, iki uşaq atasıdır.

- Bəxtiyar müəllim, öncə icazə verin sizi Milli Məclisin üzvü seçilməyiniz münasibatilə jurnalist həmkarım kimi ürəkdən təbrik edim, şərəfli və məsul işinizdə uğurlar diləyim.

- Çox sağ olun, ürəkdən minnətdaram. Məni təbrik etdiklərinə görə "Naxçıvan" qəzetinin çoxsaylı oxucularına da dərin təşəkkürümü çatdırmağınızı xahiş edirəm.

- Parlament üzvü kimi özünüzü necə hiss edirsiniz?

- Qaliblər özünü necə hiss edirsə, mən də o cür. 5 noyabr seçkiləri Azərbaycanda demokratiyanın inkişafında yeni bir mərhələ olduğunu təsdiqlədi. Həm də

xalq yeritdiyi siyasi fəaliyyətini urəkdən bəyəndiyi YAP-a səs verdi. Üzvü olduğum, gələcəyi olan partiyanın seçkilərdə inamlı qələbə qazanması məni bir daha sevindirdi. Və özümə inam hissimi gücləndirdi.

- Oxuçular Bəxtiyar Sadıqovu respublikamızın sayılıb-seçilən qələm sahibi kimi tanıyır. Onun qələminin məhsulu olan çoxlu sayda maraqlı, rəngarəng, problem xarakterli yazıları, kitabları göz önünə gətirdikdə belə bir haqlı sualla üzləşirlər: Bəxtiyar Sadıqov niyə deputat olmağı qərara aldı?

- Haqlı sualdır. Azərbayçan Respublikasının Milli Məclisinin üzvü olub parlamentdə iştirak etmək hər bir ölkə vətəndaşının ən böyük arzusu, həm də şərəf işidir. Mən də millət vəkili olmaq arzusundaydım. Lakin arzu bir şey, onu gerçəkləşdirib reallığa çevirmək başqa şeydir. Ən öncə Azərbaycanda gedən demokratik proses mənim bu istəyimin gerçəkləşməsinə impuls verdi - şərait yaratdı. Bu il "Azərbaycanda Milli Məclisə seçkilər haqqında" və "Mərkəzi Seçki Komissiyası haqqında" yeni qanunlar qəbul olundu. Beynəlxalq standartlara cavab verən və əvvəlkindən daha təkmil olan bu qanunlar seçkilərin demokratik prinsiplər əsasında keçirilməsinin təməli oldu. Həmin qanunlarla tanışlıqdan sonra imkanlarımı diqqətlə götur-qoy edib, namizədliyimi irəli sürdüm.

- Siz mojaritar, yoxsa proporsional qaydada seçilmisiniz?

- Mən 48 saylı Ağdam kənd seçki dairəsindən mojaritar qaydada namizədliyimi irəli sürəndə, qələbə qazanacağıma əmin idim. Çünki zorla cəlb olduğumuz muharibənin ən ağır günlərində, qaçqınlıq həyatının ən müdhiş dövründə həmişə həmvətənlərimlə birlikdə olmuş, onlara mənəvi dayaq durmağa çalışmışdım. Ağdamlılar həmin ağır, dözulməz günlərdə, məşəqqətli məqamlarda məni sınaqdan keçirmiş və həmin vaxtlarda lazımınca tanımışdılar. Rəqiblərimə gəldikdə, həmin dairədən daha 3 nəfər namizədliyini irəli sürmüşdü. Son nəticəni möhtərəm seçicilər həll etdilər. Alternativlərimin isə biri YAP-ın, ikincisi Sosial Rifah Partiyasının üzvü, üçüncüsü özünü bitərəf kimi təqdim etsə də, əslində müxalifət tərəfindən ciddi şəkildə müdafiə olunan adam idi. Nəticəyə görə seçicilərimə minnətdaram.

- Ümumiyyətlə, builki seçkilərin əvvəlkindən üstünlüklərini əsasən nədə görürsünüz?

- Əvvəla, qəti bəyan edim ki, seçkilər tam demokratik şəraitdə keçdi və məndə əvvəlcədən bu inam olduğu uçün namizədliyimi irəli sürmüşdüm. İkincisi, xalq gözləniləndən də çox fəallıq nümayiş etdirdi. Müxalifətin

isə məğlub olacağı qabaqcadan heç kimə sirr deyildi. Çünki iqtidarda olduğu müddətdə özünü lazımınca doğrultmayan, hər şeyi inkar edən, qazanılan bütün uğurların üstünə qara pərdə çəkmək üçün dəridən-qabıqdan çıxan müxalifətin kifayət qədər səs qazanmayacağı gün kimi aydın idi. Axı xalqın gözü tərəzidir. O, qurub-yaradanları, inkişafı təmin edənləri sevir və onlara inanır. Bu dəfə də belə oldu.

- Jurnalist peşəniz deputat mandatı qazanmaqda köməyinizə çatdımı?

- Əlbəttə. 1991-1993-cü illərdə "Həyat" və "Azərbaycan" qəzetlərinin Qarabağ üzrə xüsusi müxbiri işləyəndə Ağdamda yaşayırdım. Hərbi əməliyyatların ilk dövrlərindən torpağının müdafiəsinə qalxanların arasında olmuş, onların şücaət və qəhrəmanlıqlarının canlı şahidi kimi müntəzəm olaraq materiallar hazırlayıb işlədiyim qəzetlərdə dərc etdirmişdim. Eyni zamanda, odlu-alovlu müharibənin gedişindən bəhs edən "Qeyrət və xəyanət" kitabının müəllifiyəm. Qarabağ müharibəsində qarabağlılar və bütün Azərbaycan xalqının nümayəndələri öz silahları ilə, mən isə qələmimlə iştirak etdiyim üçün bir-birimizi gözəl başa düşürdük. Ona görə də jurnalistlik fəaliyyətim MM-ə seçkilərdə uğurumu təmin edən mühüm amillərdən biri oldu.

- Birinci gün parlamentdə özünüzü necə hiss etdiniz?

- İlk gün bir qədər həyəcanlı, bir qədər də sevincək idim. Bütün bunların fonunda məsuliyyətli gün idi. Həmin gün MM-in sədri seçildi. Bu, YAP-ın nümayəndəsi, tanınmış siyasətçi, elm xadimi Murtuz Ələsgərov idi. Birinci iş günü həm də Azərbaycanda baş verən ictimai-siyasi proseslər, müxalifətin antidemokratik fəaliyəti prinsipiallıqla müzakirə edilib qiymətləndirildi. Şəki hadisələri barədə bəyanat qəbul edildi.

- Sizcə müxalifətdən olan deputatlar MM-ə gəlməməklə nəyə nail oldular?

- Onlar MM-ə gəlməməklə heç nə qazanmadılar. Bu addımı atmaqla şəxsi ambisiyalarını bir daha üzə çıxardılar. Amma bu hərəkətləri ilə çox şey itirdilər. Ən əvvəl, onlara səs verən seçicilərin etimadını. Bu addımları ilə onlara səs verənlərə göstərdilər ki, möhkəm yanılıblar. Güman ki, növvbəti seçkilərdə həmin şəxslər öz "səhvlərini" düzəldərlər.

- Budəfəki parlamentdən nə gözləyirsiniz?

- Ötən parlament öz fəaliyəti dövründə 900-ə qədər qanun qəbul edib. Həmin qanunlar həyatımızın bütün

sahələrini əhatə etmişdir. Artıq müstəqil Azərbaycan öz qanunları əsasında fəaliyyət göstərir. Şübhəsiz, qanun yaradıcıları öz fəaliyyətlərini səmərəli şəkildə davam etdirəcəklər. Ölkəmiz beynəlxalq aləmə çıxaraq dunya təşkilatları ilə müxtəlif parlament və qurumlarla əlaqə yaradır, mövcud əlaqələri daha da genişləndirir. Bu, həm də Azərbaycan parlamentinin fəaliyyətinin yeni sahəsidir: Bütün bunları nəzərə alaraq MM-ə daha 1 müavin seçilib. İnanırıq ki, qarşıdakı müddətdə MM hər iki sahədəki fəaliyyətini uğurla davam etdirəcək.

- **Siz bir deputat kimi parlamentdə xalqın mənafeyinə xidmət edəcək hansı taleyüklu problemləri qaldırmağı planlaşdırmısınız?**

- Ağdam rayonundan deputat seçilmişəm. Hazırda bu rayonun 3/2 hissəsi işğal altındadır. Ağdamlılar həm rayon ərazisinda, həm də respublikanın 50-dən çox rayonunda məskunlaşıblar. Odur ki, həm Ağdam qaçqınlarının, həm də respublikadakı 1 milyondan çox məcburi köçkün və qaçqının çətinlik və problemləri var. Ölkə prezidenti zati-aliləri Heydər Əliyev qaçqınlarla bağlı bütün məsələləri operativ şəkildə həll edir. Onlara lazımi qayğı və diqqət göstərir. Hörmətli prezidentimizin bu atalıq qayğısı, qaçqınlara münasibəti bizim hər birimiz üçun örnəkdir. Qaçqınların həyat şəraiti və güzəranını yaxşılaşdırmaq

üçün MM tərəfindən bir sıra qanunlar qəbul olunub. Ali qanunvericilik orqanımız qaçqınlarla bağlı bütün məsələlərin müsbət həllinə çalışır. Mən də bütün bunlara arxalanaraq MM-də öz seçicilərimin qayğı və problemlərinin həllinə çalışacağam. Şübhəm yoxdur ki, bütün deputatlar bu sahədə lazımi köməklik göstərəcəklər.

- Azərbaycanın Avropa Şurasına qəbul olunması respublikaya nə verə bilər?

- Azərbaycan müstəqillik yolu ilə irəliləyir, beynəlxalq qurumlara daxil olur. Bu da onun haqq səsinin eşidilməsinə, ölkəmizin pozulmuş hüquqlarının bərpa olunmasına şərait yaradır. Təəssüf ki, müxalifət öz mənafeyi naminə milli maraqları tez-tez tapdalayır. Seçkiqabağı günlərdə 5 müxalifət partiyasının Azərbaycanın AŞ-a qəbul olunmasının seçkilərdən sonraya kimi təxirə salınmasını xahiş etməsini duşmən dəyirmanına su tökməkdən başqa nə cür qiymətləndirmək olar? Lakin müxalifətin yox, xalqın dediyi oldu: AŞ-ın qapıları Azərbaycanın üzünə açıldı.

- Şəki hadisələrinə münasibətiniz.

- Şəki hadisələrinin araşdırılması və hüquq-mühafizə orqanlarının apardıqları əməliyyat-istintaq tədqiqatının ilkin nəticələri göstərir ki, bu, Azərbaycanın radikal

müxalifəti, xüsusən Müsavat və AMİP tərəfindən planlı şəkildə təşkil edilmiş aksiyadır. Qanun keşikçilərinə ciddi bədən xəsarəti yetirmək, ayrı-ayrı vətəndaşların əmlakını yandırıb-dağıtmaq - bütün bunlar insanlıqla bir araya sığmır və onu təşkil edən bədxahlara heç də başucalığı gətirmir. Müxalifət bu yolla qisas almağa, xaos illəri olan 1988-1993-cü illəri geri qaytarmağa çalışır. Lakin onlar bu xam xəyallarına çata bilməyəcəklər. Odur ki, xalq dağıdıcı müxalifətin qarşısının qətiyyətlə alınmasını tələb edir.

- Bəxtiyar müəllim, maraqlı müsahibə üçün sağ olun.

- Siz də sağ olun. "Naxçıvan" qəzeti öz dəst-xətti ilə seçilən mətbu orqanıdır. Baş redaktor Nazilə xanım qəzet ətrafına istedadlı qələm sahibləri toplaya bilib. Çox şadam ki, deputat mandatı alandan sonra ikincilər sırasında mənimlə məhz sizin qəzet müsahibə aparır.

7.12.2000-ci il, "Naxçıvan" qəzeti

Unutsaq - unudarlar

SƏN SİMURQ QUŞUSAN

Ön söz

Bir əsrdən çox tarixi olan teatr sənətimizin, ondan nisbətən cavan kinomuzun inkişafında əvəzsiz rolu və xidmətləri olmuş sənət fədailərinin ilk qaranquşlarını da, orta nəsl sənətkarlarını da bu gün böyuk hörmət və ehtiramla xatırlayır, sənətkarlıqları qarşısında səcdə edirəm. Teatr və kinoya baqlılıq sonradan məni "Kino" qəzetində işləməyə sövq etdi. 10 ildən artıq bu qəzetdə və "Yeni filmlər" jurnalında işlədiyim üçün hazırda dünyasını dəyişməsi görkəmli teatr və kino xadimləri ilə uzun zaman təmasda olmuşam və onların hər biri haqqında xoş xatirələrimi həmişə qəlbimdə əziz saxlayıram. Hətta hər birinin özünəməxsus danışıq tərzi, oturuşu-duruşu, səsinin ahənki belə, indi də qulaqlarımda səslənir - məni tərk etmir.

Amma unudulmaz sənətkarımız, bütün imkan və baçarıqını incəsənətimizin hər iki qolunun - həm kinomuzun, həm də teatrımızın inkişafına eyni dərəcədə sərf edən Möhsün Sənani haqqında xatirələrim 40 ildən artıq bir müddət keçsə də, hər zaman təzə-tərdir, istidir, yaddaqalandır.

Hələ tələbəlik illərindən Bakının mədəni həyatına fəal qoşulur, ekrana çıxan hər bir yeni filmə, hər yeni tamaşaya birincilər sırasında baxırdım. O vaxt Bakının mərkəzi kitabxanalarında, idarə və müəssisələrində görkəmli sənət adamları - yazıçı və şairlərlə, tanınmış teatr və kino xadimləri ilə, bəstəkar və müqənnilərlə görüşlər tez-tez keçirilərdi. Belə tədbirlərdə müntəzəm iştirak etməyim sənət xiridarlarına olan maraq və məhəbbətimi gündən-günə artırırdı. Möhsun Sənaniyə, onun ifaçılıq məharətinə çoxdan valeh idim. Aktyorun çalışdığı Azərbaycan Milli Akademik Dövlət Dram Teatrında oynadığı tamaşaların, çəkildiyi kinofilmlərin heç birini buraxmırdım. Bu misilsiz sənətkarla, duzlu-məzəli, şirin ləhçəli insanla üzbəüz dayanıb, nurani üzünə, iri qaynar gözlərinə baxmaq, onunla ünsiyyətdə olmaq ən böyuk arzum idi.

«Şeyx Sənan»da oynadığı Serqo. Mən deyərdim aktyorun bütün istedadı bu rolda açılırdı. Onun hər dəfə oxuya-oxuya səhnəyə gəlişi taşmaşaçıları heyran edirdi.

Elə olmazdı ki, İslam Səfərlinin «Göz həkimi”ni göstərsinlər, mən ona baxmayım. Özu də həmişə parterdə oturardım ki, böyuk sənətkarın bütün hərəkətlərini açıq-aşkar görum, eçazkar səsini, sözlərini yaxşı eşidim.. Aktyorun böyuk şövqlə, ilhamla oynadıqı sürücü

Həsənağa rolu elə bil onun boyuna biçilmiş, müəllif tərəfindən onun üçün nəzərdə tutulmuşdu. Sonralar sənətkarla söhbətlərimizin birində bu barədə onun fikrini soruşanda, etiraf etdi ki, bəli, müəllif Həsənağa rolunu məxsusi M.Sənanini nəzərdə tutaraq yazmışdır. Aktyor təbii oyunu, yapışıqlı ifa tərzi ilə qəhrəmanının- sürücü Həsənağanın şəkili qızı, tibb baçısı Gülarəyə olan səmimi hisslərini, təmiz məhəbbətini tamaşaçıya çatdırmaq üçün nə qədər yaradıcılıq axtarışı apardıqını yaxşı başa düşürdüm. Xüsusən Həsənağanın ifa etdiyi mahnı aktyorun ifasında çox oynaq, şux səslənir, pərəstişkarlarına xoş ovqat bəxş edirdi.

İLK GÖRÜŞ, BİR DÜNYA SEVİNC...

Növbəti dəfə «Göz həkimi» tamaşasına qrupumuzdan 5 nəfər tələbə ilə getmişdim. Möhsün müəllimdən avtoqraf almaq üçün böyük tənəffüsdə aktyorun qrim otaqına getdik. Tələbə-jurnalist olduqumuzu bildirdik. Gülərüzlə qarşıladı bizi. Bir-bir hərə öz açıqçasını avtoqraf almaq üçün ona təqdim edirdi. O da bizdən hər birimizin əlində hazır tutduqu açıqcanı alır, adını soruşur, avtoqraf yazıb, özünə qaytarırdı. Ələvsət. Səfər, Əşrəf,

Əsildar. Növbə mənə çatanda, adımı dedim. Başını qaldırıb, üzümə baxdı:

- Bilirsən, İdris kim olub?-deyə soruşdu.

..Xeyr, - dedim. Cavabını özü verdi: ...İdris adlı peyqəmbər olub. Deyilənə görə, yoxa çıxıb-qeyb olub. Mənə dönüb:- Siz jurnalistlər belə şeyləri yadda saxlamalısınız. Heç olmasa, adının xatirinə...

...Mənim üçün yeni olan bu məlumata görə gözəl və səmimi insana dərin təşəkkürümü bildirdim. Xoş ovqatla sənətkarın qrim otağından çıxdıq. Hər birimizə bir dünya sevinc bəxş olunmuşdu bu unudulmaz görüşdən.

...Taleyim elə gətirmişdi ki, mən böyük aktyorla qonşu idim və tez-tez rastlaşır, görüşürdük.

İSTİ YAY GÜNÜ, LƏZZƏTLİ DONDURMA...

...İsti yay günlərinin birində nişanlımla şəhəri gəzirdim. Neftçilər prospektində. Səki ilə gedib bulvara addımlamaq istəyirdik ki, birdən sağ böyürdən bir maşın gəlib, bərabərliyimizdə dayandı. Ayaq saxladıq. Yenə Möhsün müəllim idi. Onu görən kimi özümü itirdim. Maşını tanıyanlar "QAZ-21"-i dövrəyə aldılar. M.Sənani bizi maşına dəvət etdi. Etiraz edə bilməzdik. Maşına əyləşdik. Bizdən heç nə soruşmadan Möhsün müəllim

maşını üzüyuxarı-hökumət evi səmtə sürdü. Söhbətə özü körpü saldı:

- Bilirəm, jurnalist (o, həmişə mənə belə müraciət edərdi, heç vaxt adımı deməzdi. Deyəsən, heç axıracan da adımı dəqiq bilmədi bu xanım nişanlındır, xoşbəxt olun. Sonra Möhsün müəllim maşını yolun kənarında saxladı. Maşından düşdük. Yaxınlıqdakı yay kafesində bizi ləzzətli dondurmaya qonaq etdi. Ona dərin təşəkkürümüzü bildirdik. Ayağa duranda dedi:

- Siz dəniz kənarında kəzişin. Mən də teatra gedim. Məşqin vaxtıdır. Xudahafizləşib maşına tərəf addımladı. Biz də «QAZ-21»-i onun sükanı arxasında oturmuş bu mehriban, səmimi insanı bizdən uzaqlaşana qədər müşayiət etdik.

SƏNƏT HAQQINDA QISA SÖHBƏTLƏR

M.Sənaninin həm teatrda, həm də kinoda oynadığı bir-birindən maraqlı, yaddaqalan obrazlarının hər biri mənim üçün eyni dərəçədə əzizdir. Bu obrazlarda mərdanəlik, kişi əzmkarlığı, kişi qeyrəti, sözübütövlük kimi gözəl keyfiyyətlər cəmləşib. Amma, nədənsə, mən onun teatrdakı Şərifini /"Almaz"/ və Həsənağasını /"Göz həkimi"/, kinoda isə Qoçu Əsgəri /"O olmasın, bu olsun"/

və kolxoz sədrini /«Dağlarda döyüş»/ daha çox sevmişəm və bu rolları onun sənətinin zirvəsi hesab edirəm.

Biz dəfələrlə Möhsün müəllimlə söhbətlərimizdə kino və teatr sənəti barəsində danışardıq, fikir mübadiləsi aparardıq. Bir dəfə "Məşədi İbad" filmindən söhbət düşdü. Soruşdum:

- İstedadlı rejissor H.Seyidzadə filmə kino və teatr sənətimizin bu qədər qaymaqlarını necə toplaya bildi? Cavab verdi:

- Bu, birinci növbədə, böyük vətəndaş, cəfakeş insan, sənət fədaisi, Azərbaycan kinosunun inkişafına öz həyatını belə qurban verməyə hazır olan sənətkarın təşkilatçılıq qabiliyyəti, sənət adamları arasında onun böyük hörmət sahibi olması ilə əlaqədardır.

- Filmdə Məşədi İbadı ən çox siz, daha doğrusu, sizin yaratdığınız Əsgər sancır, onu çox pis vəziyyətdə qoyur. Deyin görək, düşdüyü vəziyyətə görə ona yazığınız gəlirdimi?

- Qocalıqda yorğalıq eləməyin bəlasını çəkir Məşədi İbad. Buna görə həyatın özü onu cəzalandırır. Nə yaxşı ki axırda kəniz qismətinə düşür, qazı kəbinlərini kəsir. Əgər Sənəmlə evlənməsəydi, o vaxt ona yazığım gələrdi.

- Deyirlər, rejissor sizi - qoçu Əsgəri birbaşa, sınaq çəkilişləri aparmadan ekran qarşısına çıxarıb...

- Bu da elə rejissorun tapıntısı, onun böyüklüyü, zəngin təcrübəsi, aktyora inamı, bir sözlə, fəhminin nəticəsi idi.

- «Dağlarda döyüş» filmində bir ailədən iki nəfərin - qayınata ilə gəlinin çəkilməsi kimin ideyası idi - sizin, yoxsa rejissorun? Ümumiyyətlə, Ofeliya xanımın filmdəki rolundan razı qaldınızmı?

- Rejissor K.Rüstəmbəyov əvvəlcə məni filmə dəvət etmişdi. Hicran roluna gəldikdə isə, rejissor bu barədə mənim də fikrimi bilmək istədi və mən razılığımı verdim. Ofeliya xanım həm yaxşı diktor, həm istedadlı aktrisa, başlıçası isə, yaxşı gəlin və anadır, sədaqətli ömür-gün yoldaşıdır. Mən onunla fəxr edirəm!

- Möhsün müəllimlə sıx görüşlərimiz 1973-cü ilədək davam etdi. Bu vaxtadək Universiteti də bitirdim, ailə də qurdum. Ali məktəbi başa vurmağım münasibətilə məni ilk təbrik edənlərdən biri də Möhsün müəllim oldu... Hələ bir hədiyyə də verdi mənə. Amma ailə həyatı qurarkən onu toya dəvət etmədiyim üçün məndən yaman incimişdi. Sonra yadına saldım ki, toy günü o qastrolda olub. İnandı və məni bağışladı.

...O vaxtdan bu gözəl insanla bir daha görüşmədim. Çünki əvvələn, ailə vəziyyətimlə əlaqədar Sumqayıta köçmüşdüm. İkinçisi, həyatımda baş vermiş bir sıra xoşagəlməz hadisə məni bərk sarsıtmışdı, bədbinliyə qapılmışdım. Artıq kino da, teatr da mənə yad olmuşdu, uzaqlaşmışdım hər şeydən. Bütün bunlara ən başlıça səbəb o idi ki, yığdığım qəpik-quruş pullar hesabına yaratdığım zəngin bir kitabxanam yanmış, külü qalmışdı. Beləçə, çoxlu bədii kitab, kinoya və teatra aid zəngin şəkillər, açıqçalar, qəzet və jurnallar... qiymətli materiallar məhv olmuşdu. Mənə ən çox yer edən Möhsün müəllimlə birlikdə çəkdirdiyim bir neçə müxtəlif formada şəkillərin yanması idi...

Son söz

1981-ci ilin soyuq fevral ayında əziz sənət dostumun qəfil dünyasını dəyişməsi məni sarsıtdı və mən hələ bir neçə il əvvəl ona «Sən simurq quşusan...» adlı şeir də yazmışdım.

Bizim səhnəmizin parlaq ulduzu,

Ətirli yazısan, Möhsün müəllim!

Sənə tay sənətkar az olar, düzü,

Teatrın özüsən, Möhsün müəllim!

Sənət fədaisi desəm az olar,

Sən Simurq quşusan bizim səhnənin.

Sənətdə həmişə baharsan, yazsan,

Bahar yelkənlidir ömür yelkənin.

İki güclü qolun-Tanrı vergisi,

Biri teatrdır, o biri kino.

O geniş ürəyin sənət sərgisi,

Yoxdur tamaşaya gələnin sonu.

Sonra şeirə bir bəndi də əlavə etdim:

...Ölüm sevinməsin- səni apardı.

Gedən cismin oldu- ruhun qəlblərdə.

Bütün ürəklərdə heykəlin vardır,

Sənətkar ölməyir heç vaxt, heç vədə...

Bu gün hörmətli sənətkardan mənə təsəlli qalan onun çəkildiyi filmlərdir.

3.03.1999-cu il

RAMİL SƏFƏROV YƏQİN Kİ, EKSTRADASİYA OLUNACAQ

ÖLKƏMİZİN EKSPERTLƏRİ BU FİKİRDƏDİR

“Əgər Macarıstan tərəfi Ramil Səfərovun ekstradasiyasına razılıq versə, o, Azərbaycana gələndən sonra yalnız bizim hökumət onun taleyini həll edə bilər. Əgər Ramili azad etsələr, macar tərəfi artıq heç bir etiraz göstərə bilməz. Onu da qeyd etmək lazımdır ki, dünya

təcrübəsində kifayət qədər belə hadisə mövcud olub, neçə-neçə ekstradasiya olunmuş şəxs öz ölkəsində azadlığa buraxılıb". Bu fikirləri hüquqşünas Elçin Qəmbərov söyləyir. Onun sözlərinə görə, əgər Azərbaycan tərəfi tez-tez dilə gətirsə ki, ekstradasiyadan sonra Ramil Səfərovu azad edəcəklər, ermənilər bundan bəhrələnəcəklər, Macarıstan tərəfi isə fikirləşə bilər: bu adam ekstradasiya olunsun, ya yox.

Ekspert fikrini davam etdirir: "Bizim mövqeyimiz isə belə olmalıdır ki, R.Səfərovun sonrakı cəzaçəkmə müddəti Azərbaycanda davam etdiriləcək. Azərbaycan tərəfindən verilən başqa bəyanatla ermənilərin əlinə fürsət verəcək və Ramil Səfərovun özünə qarşı çevrilmiş olacaq".

Xatırladaq ki, Ramil Səfərov Macarıstanda ömürlük həbs cəzasına məhkum olunub. Yeri gəlmişkən, bu yaxınlarda Macarıstandan səfərdən qayıdan Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfovun sözlərinə görə, adıçəkilən ekstradasiya ilə bağlı məsələ Avropa Şurasının hüquqa yardım üzrə konvensiya çərçivəsində nəzərdən keçirilə bilər. Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu öz növbəsində qeyd edir ki, Macarıstan tərəfi də yəqin ki, Ramil Səfərovun ekstradasiya olunmasına razılıq verər. Azərbaycanın Avropaya münasibəti və dövlətimizin

dünya miqyasında tutduğu mövqe baxımından da onu deməyə əsas verir ki, dünya ictimaiyyəti Ramil Səfərovun ekstradasiya olunmasının əleyhinə çıxmaz. Onu da unutmaq olmaz ki, hazırda Avropada iqtisadi böhran artmaqda davam edir, Avropa böhrandan çıxmaq üçün yollar axtarır. Bizim ölkəmiz, Xəzərin resursları isə bu sahədə Avropa üçün böyük əhəmiyyət kəsb edir. Odur ki, Macarıstan bundan sonra Azərbaycanla münasibətlərini yaxşılaşdırmağa davam edəcək. Onun sözlərinə görə bütün bu cəhdləri nəzərə alan Macarıstan Ramil Səfərovu azad edə bilər. Axı Avropa İttifaqının özü də Azərbaycana hörmətlə yanaşır və bu cəhətdən sözügedən prosesə yəqin ki, mane olmaz. Amma orası da var ki, erməni tərəfi böyük hay-küy qoparacaq və bütün dünyaya yayacaq ki, Ramil Səfərov qatildir və cavab istəyəcək ki, onların həmvətənlisi nəyə görə qətlə yetirilib. Odur ki, erməni tərəfdən heç bir səmərə olmayacaq. Amma Avropa da bu ölkəni eşitməyəcək. Çünki Avropa İttifaqı Ermənistandan əvəz alınacaq heç bir səmərə götürmür. Ümumilikdə, erməni diasporu da son zamanlar xeyli dərəcədə zəifləyib.

Siyasi icmalçının dediyi kimi, Ramil Səfərov bizim qanlı və şanlı tariximizdir. "Hələ orası bəlli deyil ki, Ramil Səfərov Azərbaycana gələndən sonra azadlıqda qalacaq, ya yox. Zənnimcə, əsası odur ki, o, vətənə qayıtsın. Əgər vətəndə onu yenidən həbs etsələr belə, o

zindanda yaxşı şəraitdə yaşayacaq.” – deyə ekspert əminliyini bildirdi.

Xatırladaq ki, Ramil Səfərov 1977-ci ildə Cəbrayıl şəhərində anadan olub. O Cəbrayıl ki 1993-cü ilin avqustunda erməni qəsbkarları tərəfindən işğal olunub. Ramil 8 illik məktəbi Cəbrayıl şəhərində bitirib. 1991-ci ilə qədər Bakıda yaşayan Ramil sonra 8 il Türkiyədə hərbi təhsil alıb. Əvvəlcə İstanbulda hərbi gimnaziyada (1992-1996-cı illər), sonra Türkiyədə hərbi akademiyada (1996-2000-ci ildə). Təcrübəsini Kiprdə keçib və 2000-ci ildə Azərbaycana qayıdaraq Ali Hərbi Məktəbdə tağım komandiri vəzifəsini icra etməyə başlayıb. 2004-cü ilin yanvarında Ramil Səfərov Macarıstanın paytaxtı Budapeştə yola salınır. Orada “Sülh naminə tərəfdaşlıq” proqramı çərçivəsində ingilis dili kurslarında iştirak edir. 2004-cü il fevralın 19-da Ramil onunla eyni kurslarda iştirak edən, dəfələrlə Azərbaycan xalqını, onun bayrağını, Qarabağda şəhid olan vətən oğullarını təhqir edən erməni əsilli Markaryanı balta ilə qətlə yetirir. Ramilin valideynləri və qohumları, həmvətənləri isti yuvalarını, od-ocaqlarını tərk etmiş, Xocalı soyqırımı qurbanlarına çevrilmişlər. Belə ki qohumları İldırım Xudiyev və Cabbar Yusifov Qarabağ döyüşlərində həlak olmuşlar. Ramil Səfərovun özü isə həmin vaxtda Cəbrayılda olmuş,

azərbaycanlıların oradan necə çıxarılmasını öz gözləri ilə görmüşdür.

Ramil Səfərov Macarıstanda həbsxana həyatı yaşaya-yaşaya bu xalqın dilini öyrənməyə nail olmuş, tanınmış macar yazarı Maqda Sabonun "Qapı" romanını Azərbaycan dilinə tərcümə etmiş, mütəxəssislər tərəfindən rəğbətlə qarşılanmışdır. Bundan ruhlanan Ramil başqa bir macar yazıçısının - Molnar Ferencin "Pal küçəsinin uşaqları" əsərini də dilimizə çevirmişdir. Azərbaycan xalqı Ramil Səfərovun erməni Markaryanı öldürdüyünə haqq qazandırır, özünü ləyaqətsiz apararaq Azərbaycan xalqının bayrağını təhqir etdiyinə görə haqlı cəzasını aldığını alqışlayır və Ramil Səfərovun böyük vətənpərvərliyi qarşısında baş əyir.

Ramil Səfərovun erməni zabiti qarşısında hərəkəti hər bir Azərbaycan zabiti üçün örnəkdir. Qərinələr ötəcək, Ramil xalq qəhrəmanı kimi əbədiyaşarlıq qazanacaq. Onun haqqında nəğmələr oxunacaq, mahnılar bəstələnəcək. Tarixi dastanlarımızın bir qəhrəmanı da Ramil olacaq.

VƏTƏNÇÜN YANAN SAİR

Oddan-alovdan keçənlər

Həyatda elə adam var ki, oturub onunla həmsöhbət olanda, kəlmə kəsəndə, xoş ovqatı, nikbinliyi, şər zarafatları könlünü oxşayanda, sanırsan ki, qarşındakı ulu Tanrı özünün ən bəxtəvər bəndəsi kimi yaradıb, dünyanın qəm-kədəri, ağrı-acısı ondan bilmərrə uzaqdan da uzaqdır. Amma dərininə varanda, onun həyat tarixçəsini vərəqləyəndə, başqa aləmlə qarşılaşanda, digər vəziyyətlə üzləşir və bu zaman istər-istəməz dünyanın qəribəliklərinə mat-məəttəl qalırsan.

Haqqında söhbət açmaq istədiyimiz soydaşımız da belələrindədir. Şair Fətəli Sahibi deyirəm. O Fətəli, Sahib ki, ömrü boyu kirpiyində od daşıyıb, Tanrı sanki onu sınağa çəkmək üçün yaradıb, dözülməz əzab və iztirablarla üzləşdirib.

Onu çoxdan tanısam da, şair kimi yaradıcılığına kifayət qədər bələd olsam da, ünsiyyət zamanı həmisə xoşqılıq, deyib-gülən təsiri bağışlasa da, sən demə, yanılırmışam. Tərcümeyi-halına kifayət qədər bələd deyilmişəm. Aysberqin görünməyən tərəfi varmış. Burada

"Ağlayanın bir dərdi var, gülənin min dərdi" məsəli yada düşür. Sən demə, bu amansız həyat ona və ailəsinə ömrü boyu sərt üzünü göstərib. Taleyin naqolay zərbəsinə daim tuş gəlib. Əzib-sıxıb onu tale öz məngənəsində, sınağa çəkib ailəsini də, onun özünü də.

Bu gün ömrünün ahıl, müdrik çağını yaşayır Fətəli Sahib. Elə bu yaşında da dost-tanışları ilə görüşəndə, şən zarafatlarından qalmır. Üzündən gülüş, təbəssüm əskik olmur. Təbəssüm necə də onun nurani simasına yaraşır!

Oddan-alovdan çıxmış 78 yaşlı Fətəli Sahibin həyatını üç mərhələyə, yəni ömür kitabını üç fəslə bölmək olar: Böyük Vətən müharibəsinə qədərki illər, müharibə illəri, ondan sonrakı illər.

7 yaşında faciəyə tuş gəlmiş Fətəli

Həyatın sal qaya kimi min bir sərt üzünü görmüş şair dostum hələ 7 yaşında ikən dəhşətli bir faciə ilə üzləşmişdi. Bu, qanlı Stalin repressiyasının faciəsi idi. Ucarın Qəziyan kəndində o vaxta qədər sakit həyat tərzi yaşayan təmiz, mömin bir ailə vardı. Evin başıpapaqlısı Molla Manaf, xanımı Fatma ana başqalarına nümunə idi.

Sayıb-seçilən bu ailə xoşbəxt günlərini yaşayırdı. Hamı ailəyə yaxşı mənada qibtə edir, həsəd aparırdı. Manaf kişi rayonda kolxoz yaradanlardn biri idi. Bir sözünü iki edən tapılmazdı. Kənddə-kəsəkdə heç bir tədbir, xeyir-şər onsuz ötüşməzdi. Qan bağlayardı Molla Manaf. Lakin kim bilərdi ki, bu xoşbəxtliyin ömrü belə qısa olacaq, tezliklə dəhşətli bir tufan onların qapısını da nişan verəcək, «ellər atası", 'Yer üzünün sönməz günəsi" Stalinin repressiyasının acı ruzgarı Manaf kişinin də qapısını döyəcək. Həmin dəhşətli hadisə 1931-ci ildə baş verdi. Ailəni - Molla Manafı 4 oğlu ilə birlikdə Qazaxıstana sürgün edirlər, daha doğrusu, onları gedər-gəlməzə yollayırlar. Çox keçmir ki, dünyanın ən mömin bəndələrindən biri olan günahsız Molla Manafı say-seçmə 4 oğlu ilə birlikdə Qazaxıstanın Şoltan şəhərində qətlə yetirirlər. 7 yaşlı Fətəli əvvəlcə bu faciəni nağıl bilir, anasının göyə büləndolan ah-naləsindən, fəryadından, axıtdığı acı göz yaşlarından sonra hər şeyi anlayır və sonralar yeganə ümidi Fatma ana ilə ömrü boyu həmin faciənin acı xatirələri altında əriyir, qovrulur. Amma onlar ölmürlər, yaşayırlar, onları ölümün acığına yaşadan ana-oğul məhəbbəti olur. Bir də onların daxilində yuva salmış möhkəm iradə, əzm və mübarizlik.

Başının tacı, hər biri bir el-obaya arxa-dayaq olacaq 4 igid, 4 gözəl-göyçək oğlunu, 4 qartal balasını əbədi itirmiş

möhnətkeş ana yeganə təsəllisini balaca Fətəliyə bağladı, ərinin də, əlindən getmiş oğullarının da mehrini ona verdi, onların iyini sonbeşiyindən alırdı. Taleyin amansiz qanunları ilə barışmalı olan ana gümanını Fətəliyə bağladı. Ananın ən böyük arzusu ona savad vermək, təhsilli oğul kimi ortaya çıxarmaq, araya-ərsəyə gətirmək idi. Fətəli də ağıllı çıxır, ananın arzusunu gözündə qoymur, yaxşı oxuyurdu. Beləliklə, orta məktəbi bitirir. Erkən yaşlarından yazı-pozuya meyil göstərir, mətbuatla maraqlanır. Gənc Fətəli "Ucar pambıqçısı" qəzetini çap etmək üçün rayon rəhbərliyinin təşəbbüsü ilə mətbəə yaradır, lazım olan bütün texniki avadanlığı qısa vaxtda əldə edir, sonra da rəhbərliyin təşəkkürünü və mükafatını qazanır, hətta qəzetin 2 sayını buraxa bilir. Qəzetin texniki işçisi, mətbəə yaradıcısı kimi rayonda mətbuatın yayılması sahəsində qızğın fəaliyyət göstərir. Qonşu İsmayıllıda "Yeni Işmayıllı" qəzetinin yaranması, fəaliyyətə başlamasi ücün də bütün bacarığını sərf edir və istəyinə nail olur.

Bu, Fətəli Sahibin ömrünün müharibəyə qədər olan dövrü idi. Sonra da müharibə illəri başlayır...

Fatma ana Fətəli ilə Polşa sərhədində necə görüşür?

Gənc Fətəli hələ bığ yeri tərləməmiş -17 yaşına girəndə Böyük Vətən müharibəsinə yollanır. Anamı tək-tənha, Allaha tapşırıb, cəbhəyə yola düsür. Əvvəlcə Tbilisidə yerləşən 3 illik hərbi zabitlik məktəbinə daxil olur. Həm məktəbdə oxuyur, həm də hərbi qəzet ("Fəhlə-Kəndli Qızıl Ordu döyüşçüsü"), plakat və s. buraxmaq üçün mətbəə yaradır, mətbəənin bütün texniki avadanlığını əldə edir, özü də mətbəədə çalışır. 9 ay hərbi məktəbdə oxuyandan sonra tezləşdirilmiş hərbi diplom alır və leytenant rütbəsilə həmin hərbi qəzetdə çalışır. Bir gün ordu generalı onu yanına çağırıb diviziyanın səyyar mətbəəsini yaratmaq barədə leytenant Fətəliyə tapşırıq verir. O, canla-başla işə girişir. Az vaxtda mətbəəni lazımi texniki avadanlıqla təchiz edir. Onun sərəncamına "ZİS-5" markalı maşın da verilir. Qəzetin bütün ağırlığı çiyninə düşsə də, hərbi qəzetin hər bir nömrəsini mütəmadi nəşr etdirir.

Döyüşlər davam edirdi. Fətəlinin vuruşduğu 416-cı Taqanroq diviziyası düşmənə müqavimət göstərir, onun canlı qüvvəsini və texnikasını məhv edir, irəliyə doğru

addımlayırdı. Fətəli harda olursa – olsun, hansı əməliyyatı yerinə yetirirsə-yetirsin, Fatma anası bir an da olsun gözləri önündən getmirdi...

Yenə yuxusuna girmişdi tənha qadın. Təndir qalamışdı arvad. Çörək bişirirdi. Çörəyi təndirdən çıxaranda, Fətəli anasına yaxınlaşır. Ana sevinir:

- Nə yaxşı gəldin, oğul? Sonuncu çörəyi təndirdən çıxarıb Fətəliyə tərəf gəlir. Ana-bala görüşüb öpüşürlər... Bu ara yuxudan oyanır zabit Fətəli. Yenə fikrə dalır: "Görəsən, anam necədir? Xəstə deyil ki? Bəlkə heç sağ deyil. Belə ağır itkilərə necə dözsün yazıq, başıbəlalı anam? Birdən zil bir səs Fətəlini xəyaldan ayırır:

- Tovariş starşiy leytenant, vas kakaya-to jenşina spraşivayet.

Fətəli ildırım vurmuş kimi yerindən sıçrayır. Hərbçinin dediyi yerə qacır.

Birdən əsl möcüzə ilə qarşılaşır Fətəli. Bəli, bu, əsl möcüzə idi. Tanrının yaratdığı möcüzə! Həmin qadın anası idi – doğmaca anası Fatma ana! O, necə bura düşmüşdü, ilahi? Mələklərin qanadlarındamı gəlib çıxa bilmişdi oğlunun yanına - bu uzaq Polşa sərhədində, Tissa çayı sahilində axtarıb tapa bilmişdi? Nə idi bu ilahi

qüvvə? Ana-oğul məhəbbəti! Axı Fatma ana yeganə təsəllisi Fətəli üçün yaşayırdı. Ona görə də Fətəlinin ardınca dünyanın lap o başına gedib çıxardı. Təki ona yetişə bilsin. Necə ki gəlib hər saniyə ölüm saçan müharibənin od-alovundan qorxmadan, böyük inamla uzaq məsafələr qət edərək, ümidgahına yetişmişdi Fatma ana. Fətəli Sahib indinin özündə də bu möcüzə qarşısında mat qalıb. Bu gün də qəlbinə həkk olunmuş o möcüzəni tez-tez yad edir, ömrünü oğluna bağışlayıb dünyadan köçmüş Fatma anaya dönə-dönə Ulu Tanrıdan rəhmət diləyir, hər dəfə də uşaq kimi kövrəlir, gözləri nəmlənir, analı günlərinə qayıdır...

Fətəli Sahib ləqəbini necə qazanır?

1945-ci il aprel ayının 22-si idi. Baş leytenant Fətəli Bayramov adı çəkilən hərbi qəzetin bütün ağırlığını öz üzərinə götürmüşdu. Göydən düşmən tərəfindən yağılan mərmi yağışları altında qəzetin hər sayı səyyar surətdə çıxıb Qızıl Ordu döyüşçülərinə, əsgər və zabitlərə çatdırılırdı. Növbəti dəfə Tissa çayı sahillərində, meşənin dərinliyində qəzetin materialları yığılır. Xəbər çatır ki, ordu mühasirədədir. Xəbər doğru çıxır. Birdən yer-göy

lərzəyə gəlir, tufan qopur. Düşmən redaksiya heyətini yağış atəşinə tutur. Aləm alt-üst olur. Fətəli gözünü açanda, özünü tənha görür. İmkan tapıb "ZİS-5"i oradan uzaqlaşdıra bilir. Amma çox uzağa gedə bilmir. Demə, düşmən hədəfindəymiş. Birdən qəfil və sərrast düşmən gülləşi boğazının sol tərəfini yarıb keçir, ikinci güllə sağ böyründən girib, solundan çıxır. Fətəli sənədələyir, çinar kimi yerə sərilir. Bir də Riqada yerləşən hərbi hospitalda gözünü açib, başının üstündə alagözlü, mehriban baxışlı, ağ xalatlı bir qadın görür. Qadının ilıq və xoş təbəssümü Fətəliyə bir anlıq yaralandığını, ağrı-acısını unutdurur. Tanış olur. Azərbaycanlı, mayor rütbəli həkim - Xanım adli bu xanım-xatun qadın Cəbrayıl torpağından olduğunu söyləyir. Xanım həkim baş leytenant Fətəli Bayramova olmazın qayğı göstərir. Yaralarına məlhəm qoyur. Fətəli də ilhama gəlir, bu qayıgikeş, şirindil həkimı vəsf edən şeirlər yazır. Bu minvalla hər gün yeni şeir yaranır, ilham mənbəyisə oxucuya artıq tanış olan, Fətəliyə ikinci ömür bəxş edən həkim Xanım idi. Artıq özünə gələn, qolunda güc, qəlbində təpər hiss edən yaralı, ağxalatlı qadının nəvazisinə özünün qəlbində baş qaldırdığı ilhamı ilə cavab verir və hər gün 1-2 şeir yazıb, öz xilaskarına təqdim edir. Bir il hospitalda qalıb müalicə olunan həmyerlimiz bu müddət ərzində görəsən, neçə şeir yazmış olar?

Günlərin birində həkim ona həsr olunmuş növbəti şeirin altında öz dəst-xəttilə "Fətəli Sahib" təxəllüsünü yazır. Yeni təxəllüsü görən şair öz xilaskarının yeni tapıntısından məmnun qalır. Beləcə, Azərbaycanın "Fətəli Sahib" təxəllüsülü bir istedadlı, məhsuldar şairi öz yaradıcılığı ilə yadda qalır. Şair təkcə ona təəssüflənir ki, bir il ərzində həkim xanıma həsr etdiyi şeirlərin heç birinin surəti onda qalmayıb. O vaxtdan o həkimi çox axtarıb, amma heç bir səmərəsi olmayıb...

Şair Fətəli Sahib

Bir il Riqa hospitalında müalicə alandan sonra Fətəlinin gərginləşmiş əsəblərini sakitləşdirmək məqsədilə onu Tbilisidəki nevroloji hospitala yola salırlar. 9 ay da burada müalicə qəbul edir. Yalnız 1947-ci ildə, özü də Novruz bayramında Vətəninə dönür. İlk öncə özünü anasına yetirir. Ana Tanrıya dua edir ki, ciyərparası yaralı olsa da, onun yanına qayıdıb. Düzdür, yaraları incitsə də, onu tez-tez narahat etsə də, Fətəli Sahib anasının hüzurundə həmişə özünü qıvraq, sağlam göstərməyə çalışır.

Vətənə qayıdan Fətəli, ilk öncə ali təhsil almağa can atır və anasının arzusunu yerinə yetirir. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin tələbəsi adına layiq görülür. Bu gün Azərbaycan poeziyasında adı hörmətlə çəkilən Balaş Azəroğlu, ƏliTudə (rəhmətlik) ilə eyni qrupda təhsil alır. Şeirləri geniş oxucu kütləsinin qəlbinə yol tapdıqca, Fətəli Sahibin məsuliyyəti də artır, yaradıcılığı da cilalanır, ədəbi aləmin, tənqidcilərin nəzərini cəlb edir.

Beləcə, yarım əsrdən çox poeziya dünyasında öz yaradıcılıq dəst-xəttinə sadiq qalan qocaman və müdrik şairin qələmindən indiyə kimi 21 kitab çıxıb. Təkcə Moskvada rus oxucuları onun 4 kitabı ilə tanışdırlar. Əsərləri bir neçə əcnəbi dilə tərcümə olunub. Mövzu aktuallığı onun yaradıcılığı üçün əsas meyardır. Şübhəsiz ki, canlı şahidi olduğu müharibə mövzusu əsərlərindən qırmızı bir xətlə keçir. Şirin-şəkər balalara da şeirlərində yer tapır. Onlara indiyə kimi bir neçə şeir həsr edib. Axı o da babadır. 4 nəvənin babası, iki övladın atasıdır Fətəli Sahib.

Son söz əvəzi

Son vaxtların gün-güzəranı onu da xeyli sıxmışdı. İqtisadi durum, sosial vəziyyətin ağırlığını o da dadmışdı. Aldığı təqaüd yaranı sağaltmırdı. Fərdi təqaüd almaq üçün xeyli qapı döydü. Hərdən əsəbiləşirdi də. Axır ki haqq yerini tapdı. Nazildi, amma üzülmədi. Mən onu tanıdığım üçün adını fərdi təqaüdçülər sırasında görəndə, sevindim, uşaq kimi kövrəldim də. Onunla görüşməyi qərara aldım. Xeyli söhbət etdik, ovqatı ilə maraqlandım. Hər halda özüm də görür və hiss edirdim ki, əvvəlki kimi məzəli zarafatları ilə ətrafdakıları feyziyab edir. Çox sualla onu yormaq istəmədim. Onsuz da ömrü suallarla dolu həyatda onun özü çox sualla üzləşib. Bəzilərinə hələ də cavab tapa bilmir. Şair dostuma yeganə sualım bu oldu:

- Fətəli müəllim, ilk fərdi təqaüdü necə xərclədiniz?

- llk öncə yığılıb qalan borclarımı verdim. Çatmadı, ikinci təqaüdə də qaldı. Bütün borclarımı verəndən sonra rahat nəfəs ala bilərəm.

Beləcə, həyat imtahanlarından məharətlə çıxan, əyilməzliyi, mübarizliyi, vətənpərvərliyi ilə çoxlarının diqqətini cəlb edən Fətəli Sahib hələ həyatdan doymayıb, yaşamaq istəyir. Odur ki, bu gün də yazıb-yaradır, yuxusuz gecələr keçirir. Gənclərlə tez-tez ünsiyyətdə olur. Ona da əmindir ki, hamı vətəndə qeyrətlə çalışsa, hər

addımda rastlaşdığımız neqativ hallar aradan qaldırılsa, qarnıyorğun məmurlar odu təkcə öz qabaqlarına çəkməsələr, ölkənin sərvəti əhalisinin maddi rifahına sərf olunsa, Azərbaycan dünyanın ən varlı məmləkətlərindən birinə çevrilər, onda hər addımda əl-ayağa dolaşan dilənçilər də olmaz.

Burada vətənpərvər şairin iki misrası yadıma düşdü:

Vətənçün yanmasan, Vətən yanacaq,

Vətənə Vətənçün yanan qalacaq!

2002-ci il

TƏHSİLİMİZİN FƏDAİLƏRİ

Malik Novruzov respublikanın tanınmış jurnalisti kimi özünü çoxdan təsdiqləyib. Axı o 60 illik ömrünün yarıdan çoxunu məhz ürəkdən bağlandığı bu peşəyə həsr etmişdir. BDU-nun jurnalistika fakültəsinin məzunu olan gənc Malik "Azərbaycan müəllimi" qəzetinə göndərilmiş və burada məsul katib kimi fəaliyyətə başlamışdır. Bu gün

də sənətinə və vəzifəsinə sadiq qalan M.Novruzov zəngin təcrübə qazanmışdır. Müqəddəs və məsul peşə sahibi olan müəllimlərlə daim təmasda olan Malik müəllim onların fəaliyyəti, istək və arzuları, amallarına hamıdan çox yaxındır. Ona görə də istedadlı jurnalistin müəllimlərə həsr etdiyi hər yazı öz orijinallığı və yazı tərzi ilə seçilir və maraqla qarşılanır. Müxtəlif illərdə müəllifin mühakiməsinə vermiş olduğu oxucuların "Ürəkdə yanan işıq" və "Müəllim əməyinin izi" kitabları M.Novruzovun öz mövzusuna sadiq qaldığını təsdiq edir. Yaxın günlərdə işıq üzü görmüş "Təhsilimizin uca insanları" kitabı Malik müəllimin sayca üçüncü əsəridir. Yeni kitabda orta ümumtəhsil məktəblərində fəaliyyət göstərən müəllimlərin nümunəvi iş təcrübəsindən, illər boyu bu və ya başqa təhsil sahəsinə rəhbərlik edən pedaqoqların şərəfli əməyindən, rayon təhsil şöbə müdirlərinin təhsil islahatı yollarında qazandıqları uğurlardan, zəngin təcrübələrindən geniş bəhs olunur.

Müəllif kitaba daxil etdiyi materialları "Qabaqcıl müəllim və məktəb rəhbərləri", "Təhsil islahatı yollarında", "Unudulmaz pedaqoqlar" və "Müsahibələr" ümumi başlıqlar altında toplamışdır. Çap olunmuş hər bir oçerk və publisist yazıda müəllif öz peşəsini ürəkdən sevən, tədris etdiyi fənni uşaqlara sevdirmək üçün zəngin təcrübəsindən istifadə edən, bu zaman elmi-metodiki və

psixoloji biliyini xərcləyən və öz işindən zövq alan müəllimlərin obrazını yaratmışdır. Bu cəhətdən "Həmişə axtarışda" adlı oçerki maraq doğurur. Yazı Ağsu şəhər 3 saylı orta məktəbin yaradıcı sinif müəllimi Adilə Əfəndiyevanın iş təcrübəsinə həsr olunmuşdur. Oçerki oxuyan hər kəsin gözü qarşısında Adilə müəllimin işıqlı siması canlanır. Ümumiyyətlə, kitabda ömrünü şam kimi uşaqların təlim-tərbiyəsi yolunda əridən, gözünün nurunu, ürəyinin hərarətini fidan balalarımızın XXI əsrə layiq gənclər kimi yetişməsinə sərf edən geniş qəlbli müəllimlər çoxdur. Gəncəli təhsil bilicisi, hələ sağlığında öz məktəbini yarada bilmiş 75 yaşlı maarif fədaisi Müsəddin Məmmədov, kimyaçı alim, professor İsfəndiyar Aslanov, astaralı şair-müəllim Seylan Şiriyev, ömrünün 32 ilini uşaqların qəlbində kimya elminə həvəs və maraq məşəli yandıra bilən Bürcəli Qurbanov, Masallının Qodman kənd orta məktəbində işlədiyi cəmi 6 ildə "əqlin gimnastikası" hesab olunan riyaziyyat fənnini sevdirən İlahəddin Əliyev və başqaları belələrindəndir. Abşeron rayon təhsil şöbəsinin müdiri Aslan Rüstəmovla yazı müəllifinin dialoqu da maraq doğurur. Müsahibədə rayonun təhsil sahəsində qazandığı uğurlardan bəhs olunur.

Yazıların dili rəyan, sadə, aydın və səlisdir. Dolaşıq, yerinə düşməyən fikir və ifadələrə rast gəlməzsən. Bu barədə bir misal: "Çoxları ona müəllimlərin etalonu

deyirdi. O həm də doğruluğun, düzlüyün, halallığın etalonu idi. Yalan danışanları görən gözü yox idi. Nurəddin müəllim anadan sanki elə müəllim kimi doğulmuşdu. Peşəsini doğma övladı kimi sevirdi. Uşaqlara təlqin edirdi ki, peşə insanın övladıdır. Övlada isə xəyanət etmək olmaz..." "Onun həyat amalı düzlük və halallıq idi" oçerkindən dil səlişliyinə, rəvanlığa fikir verirsinizmi? Bütün oçerk və publisist yazılar beləcə aydın, sadə, oxunaqlıdır.

Nəfis şəkildə 7 çap vərəqi həcmində "Adiloğlu" mətbəəsində çap olunmuş "Təhsilimizin uca insanları" kitabı M.Novruzovun yaradıcılığının yeni uğurudur. Kitab ali və orta məktəb müəllimləri, məktəb direktorları, təhsil şöbə müdirləri, eləcə də valideynlər və pedaqoji sahədə çalışanlar üçün qiymətli vasitədir.

RƏSSAM VƏ PEDAQOQ

Pesəsindən (istər müəllim, istər həkim və mühəndis, istərsə də adi fəhlə) və tutduğu vəzifədən (istər institut rəhbəri ol, istərsə də adi sürücü) asılı olmayaraq hər bir vətən övladının amalı ondan ibarət olmalıdır KI, öz şəxsi

mənafeyini xalqın və dövlətin mənafeyindən üstün tutmasın, bütün varliği ilə xalqına bağlansın, bilik və bacarığını millətin dirçəlişinə, vətənin rifahına sərf etsin. Bir sözlə, ölkə vətəndaşı adına layiq yaşayıb, fəaliyyət göstərsin. Elə haqqında söhbət açmaq istədiyim rəssam-müəllim **Rauf Səmədzadə** kimi.

Rauf müəllim azərbaycanlı olmaği ilə fəxr edir, qürur hissi keçirir. Bu başı bəlalı xalqın tarixinə yaxşı bələddir. Ancaq həmişə ona təəssüflənir ki, torpağının altı da, üstü də qızıl olan vətən övladları bu sərvətlərin müqabilində firavan yaşaya bilmir, yoxsulluq, dilənçilik baş alıb gedir, dolanışıq ucbatından soydaşlarımız cəlayi-vətən olurlar. Küçələrdə əl açıb dilənən qadın görəndə, dünya başıma fırlanır, yer ayağımın altından qaçır, gözlərimə qaranlıq çökür. Dərhal başımda bir fikir dolaşır: "Axı bu millət belə yaşamamalıdır". Rauf müəllim milli azadlıq hərəkatının öncüllərindən olub, dəfələrlə "KQB"-yə "dəvət olunub" dindirilib. Azərbaycan müstəqillİk qazananda, uşaq kimi sevinib. Fikirləşib KI, xalq artıq azaddır, özü öz sərvətinin sahibidir, yağ-bal içində üzəcək. Lakin... belə olmadı, hələ KI, o düşünən vaxt yetişməyib...

Rauf Səmədzadə Mirzağa Əliyev adına İncəsənət Universitetinin məzunudur. Həmin ali məktəbin rəssamlıq fakültəsini bitirib. Diplom işi "Azərbaycan dekorativ

tətbiqi sənətinin reklam-plakatları" mövzusunda olub. Müdafiə zamanı Komissiya üzvlərindən Mikayıl Abdullayev, Kərim Kərimov, Kamal Ələkbərov, Paşa Hacıyev kimi tanınmış sənətkarlar gənc rəssamın diplom işini bəyəniblər. Paşa müəllimin xeyir-duası ilə Rauf diplom alan kimi N.Tusi adına Pedaqoji Universitetə müəllim kimi dəvət alır. Burada "Təsviri incəsənət və onun tədris metodİkası" fənnini tədris eləməyə başlayır. Beləliklə, sənət yollarında ilk addımlarını atan gənc rəssamlara təsviri sənətin incəliklərini öyrədən Rauf müəllim ali məktəbdə qısa vaxtda həm müəllim həmkarlarının, həm də tələbələrin hörmətini qazanır.

İllər arxada qalıb, Rauf Səmədzadə bu illər ərzində çox şey itirib. Amma qazancı daha çox olub. İlk növbədə müəllim adını qoruyub-saxlaya bilib, onun şərəfinə xələl gətirməyib, öz halal zəhmətilə pis-yaxşı dolanıb, sevimli tələbələrinin qəlbinə yol tapa bilib, düşüncələrini tablolara köçürməklə rahatlıq tapıb.

Rəssamlar İttifaqının üzvü olan Rauf müəllimin indiyə kimi müxtəlif janrlarda yaratdığı rəsm əsərləri ayrı-ayrı ümumittifaq, eləcə də Polşa və Çexoslovakiyanın sərgi salonlarında nümayiş etdirilib. Rəssamın Nəsirəddin Tusinin yağlı boya ilə çəkdiyi portreti Mədəniyyət Nazirliyinin fondunda saxlanılır. Şair Bəxtiyar

Vahabzadənin qrafik üsulu ilə yaratdığı rəsmi Moskvadakı Şərq muzeyinin daimi eksponatlarından biridir.

...Bu da rəssamın yaradıcılıq emalatxanası: müxtəlif sənət əsərləri, mənzərələr, tablolar, plakatlar, qrafik nümunələr, yarımçıq qalmış əl işləri. "Qalada axşam", "Xoşbəxt ailə ", "Təbriz gözəli", "Abşeron bağları" - hər əsərdə dərin bir məna, rəssam təxəyyülünün ifadəsi. Emalatxana əsil rəssamlıq sərgisini xatırladır. Burada Azərbaycanın təbii gözəllikləri, namuslu və ər kişilərimiz, Bakı və Abşeron mənzərələri və s. öz əksini tapıb.

Rauf Səmədzadə ömrünün 65 yaşına gəlib çatıb. Onun yarısını sevimli tələbələri arasında auditoriyalarda keçirib. O, tələbələrə təkcə sənət öyrətmir, həm də onlara həyat dərsi keçir; tələbələri dilimizin saflığı uğrunda mübarizəyə səsləyir, türkçülüyü qorumağı tövsiyə edir.

Çingiz, Əziz, Ədalət, Şöhrət, Arif Mərdanov kimi rəssam və əqidə dostları ilə hər görüşdən sonra xeyli yüngülləşir, mənən zənginləşir.

Poeziya vurğunudur Rauf müəllim. Qəzet səhifələrində həzin və lirik şeirləri, satiraları, rübailəri "Rauf Azərtürk" ləqəbilə çap olunub. Sonda onun bir rübaisini oxuculara təqdim edirik:

Vətən həsrətilə alışıb-yandım,

Dünyanı çox gəzib, çox da dolandım.

Görmədim azəri türkü tək nəcib,

Xalqımı bəşərin incisi sandım...

P.S. Bu material Rauf müəllimin 60 illik yubileyi ərəfəsində yazılmışdı. Bu müddətdə rəssam-müəllimin həyatında nə baş vermişdir? Yaşının üstünə bir yaş da əlavə olunmuşdur. Dərs dediyi ali məktəbə yeni rəhbər təyin olunmuşdur. Yeni təyinat təhsil ocağına yeni ab-hava gətirmiş, sağlam atmosfer yaratmışdır. Rauf Azərtürkün həm rəssamlıq, həm də poeziya yaradıcılığında yenilik var. Rübailərdan ibarət kitabı işıq üzü görüb. Bir sözlə, bu müdrik insan yaşayır, yaradır, gənc rəssamların həyat yoluna işıq salmaqda davam edir.

2007-ci il

VİTALİ İSLAMI QƏBUL ETDİ

BUNA HEYDƏR ƏLIYEVIN HƏCC ZIYARƏTI SƏBƏB OLUB

Hazırda islam dini ciddi təhlükəylə üzləşib. Bu təhlükə ondan ibarətdir ki, Azərbaycana müxtəlif əcnəbi ölkələrdən dini missionerlər ayaq açır, burada bəzi zəif iradəli gənc oğlan və qızları öz torlarına salır. Bugünkü ağır iqtisadi çətinliklərdən istifadə edərək gənc soydaşlarımızı pul gücünə öz iradələrinə tabe etdirə bilirlər. Beləliklə, pul hərisləri olan iradəsi zəif gənclər dini əqidələrinə dönük çıxıb başqa dinlərə üz tuturlar. Faktlara inanşaq, deyə bilərik ki, hazırda iki minə qədər soydaşımız xristian dinini qəbul edib. Nə yaxşı ki bu gün başqa dinlərdən də islama üz tutur, müsəlmançılığa iman gətirirlər. Eləcə də xristianlar islama pənah gətirirlər. Bu yaxınlarda onlardan biri ilə görüşüb, ətraflı tanış oldum, ömür yolunu izlədim. Çox maraqlı həyat tarixçəsi var. Onu oxucularımız qarşısında vərəqləməyi lazım bildim.

KEŞLƏLİ BALASI VİTALİ

Vitali Apuşkin Bakının qədim Keslə qəsəbəsində kasıb bir rus aıləsində dünyaya gəlib. Ailə azərbaycanlılarla təmasda olub. Ona görə də bu keşləli rus balası Azərbaycan dilində təmiz və sərbəst danışır.

Uşaqlıqda yaman dəcəl olub. Pozğun uşaqların əhatəsində böyüyüb. Siqaret də çəkib, içki məclislərində də iştirak edib. Amma hamı onu çox istəyib, necə deyərlər, başına and içib. Vitali də dostlarının hər işinə yarayıb, sözlərindən çıxmayıb. İradəsi onu pis əməllərə qoşulmaqdan xilas edib. Bəxti onda gətirib ki, idmana meyl göstərib və ondan möhkəm yapışıb. Idman da Vitalinin həyatında əsaslı dönüş yaradıb, onu sonrakı uğurlara qovuşdurub. İdmana olan həvəsi hər şeyə qalib gəlib. Sambo və dzü-do ilə məşğul olub. Az bir zamanda idman ustası adına layiq görülüb. Müxtəlif beynəlxalq yarışlarda çıxış edib. Və hər dəfə də Azərbaycana mükafatlarla qayıdıb. Bütün qazandığı nailiyyətlərə görə özünü ilk məşqçisi Akif Əhmədova borclu hesab edir.

50 yaşlı Vitali Apuşkin bu gün bir təcrübəli məşqçi kimi öz yetirmələri ilə fəxr eləyə bilər. Onların ikisi Azərbaycanın Milli Qəhrəmandır: Mədət Quliyev və Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub, şəhidlik zirvəsinə yüksəlmiş İlqar İsmayılov. Yeddiqat dünya çempionu Ceyhun Məmmədov da

V.Apuşkinin yetirməsidir. Vaxtilə "Azərbaycan pələngi" adını qazanmış Vitali Apuşkin bu millətə sadiq qalaraq, ikinci adı - Məhəmməd Əli ilə fəxr edib qürrələnir.

Hazırda "Ruslan" idman sağlamlıq mərkəzində məşqçi fəaliyyətini böyük bir həvəslə davam etdirən V.Apuşkin Azərbaycanın müxtəlif idman cəmiyyətlərində yaxşı tanınır. Onun Məhəmməd Əli adı ilə tanınması yaxın tarixə aiddir.

«AZAN SƏSİ RUHUMU TƏZƏLƏYİR»

Onun qəribə taleyi var. İlk baxışda şən, nikbin təsir bağışlayan bu adamın iç dünyasında nəsə bir nisgil, ağrı-acı, köhnə yara var. Bu da onun birinci arvadı ilə bağlıdır. Köhnə səhifələri özü böyük ürək ağrısı ilə belə vərəqləyir:

- Erkən ailə qurdum. Həyat yoldaşım rus qadını idi. Onunla 32 il ömür sürdük. Qismətimizə bir qız, bir oğlan payı düşdü. İllər keçdi, uşaqlar boyüdü. Hazırda qızım Almaniyanın Münhen şəhərində ərdədir. Almana ərə gedib. Oğlum İspaniyada yaşayır. Özüm də on il Almaniyada yaşayıb işləmişəm. Pis də dolanmırdım. Düz 6 il Münhen şəhərində məşqçi işlədim. Orada başqa

işlərdə də fəaliyyət göstərmişəm. Sonra da doğma Vətənə – Bakıya döndüm. Burada arabir kilsəyə gedərdim. Amma qəlb rahatlığı tapa bilmirdim. Bu din məni yormuşdu. Hiss edirdim ki, bu din mükəmməl din deyil. İstədiyin kimi hərəkət edə bilmirsən. Yalnız islamda tapdım qəlb rahatlığını. Bu din paklıqla, təmizliklə yoğrulub. Müsəlmançılığı qəbul etdikdən sonra özümü rahat, yüngül hiss edirəm. İbadət edəndən, namaz qılandan sonra özümü sərbəst hiss edirəm. Müsəlman olduğum üçün xoşbəxtəm. İki ildir oruc tutur, gündə beş dəfə namaz qılıram. Üstəlik də, təzə ailə qurmuşam. Gözəl azərbaycanlı qızı ilə evlənməyim məni dünyanın bəxtəvəri edib. Sanki yenidən dünyaya gəlmişəm. Hər dəfə məscidə namaz qılmaga gedəndə, azan səsini eşidəndə, ruhum təzələnir, gəncləşir, yaşamaq, adamlara gərək olmaq istəyirəm.

İSLAMI NECƏ QƏBUL ETDİ?

Vitali bu məqamda belə deyir: - Almaniyada həm də barda barmen işləyirdim. Bir gün bir iranlı televizoru mənə göstərdi. Baxdım, gözlərimə inana bilmədim. Azərbaycan prezidenti Heydər Əliyev - həcc ziyarətinə gedən respublika nümayəndələrinin arasında idi. Həm də

ehramda. Bir anlıq daxilimdə bir təlatüm baş qaldırdı. Ani fikrə daldım. Özümə gələ bilmirdim. O vaxtdan islam dininə olan məhəbbətim qəlbimə əbədi hakim kəsildi.

HAŞİYƏ

Taleyi müsəlman qardaşımızı xeyli sınağa çəkib, ona ağır zərbələr vurub. Özü də 32 il birgə yaşadığı həyat yoldaşı tərəfindən.

Vitalinin dediklərindən: "Əyri yol tutmuşdu, içki düşgünü olmuşdu. Bunu sonradan bildim. Çox axtardım, düz 7 ay izi-tozu tapılmadı. Gecələr az qalırdı havalanım, yatağıma sanki qor dolurdu. Sonra hər şey mənə aydın oldu. Sən demə, məndən xəbərsiz evimizi sataraq aradan çıxıb, Rusiyaya, valideynlərinin yanına gedib. Nə yaxşı özümü ələ ala bildim. Bu məqamda da islam köməyimə çatdı. Mənə səbir, dözüm, iradə, möhkəmlik verdi.".

Necə müsəlman oldu?

Vitalinin dediklərindən:

- Iki il əvvəl dostum Xəyal Rza ilə respublika klinik xəstəxanasının yanından keçirdik. Birdən dostum mənə təklif etdi ki, gedək xəstəxanaya, cərrah səni müsəlman eləsin. Ürəyimi elə bil oxumuşdu! Bu fürsəti çoxdan gözləyirdim. Nə isə, getdik xəstəxanaya. Cavan bir cərrah bizi qarşıladı. Dostum mətləbi ona açdı. Cərrah mənə hazırlaşmağı tapşırıb qeyd etdi ki, əməliyyat cəmi 5-6 dəqiqə vaxt aparacaq. Amma 45 dəqiqə çəkdi. Əməliyyatdan razı qaldim. Cərrah məni təbrik edib əlimi sıxdı. Heç pul da götürmədi. Beləcə, müsəlman oldum.

Dostum Xəyal Rza məni Məhəmməd Əli çağırmağa başladı. Bax, Vitali belə Məhəmməd Əli oldu. Qürur hissi keçirirəm ki, həyat yoldaşım da azərbaycanlıdır - Fəridə xanımdır adı. .

FƏRİDƏ XANIMIN DEDİKLƏRİNDƏN

Vitali müəllim "Ruslan" idman-sağlamlıq mərkəzində həm sambo, həm də dzü-do üzrə təcrübəli, işgüzar,

tələbkar məşqçidir. Mən də onun meneceriyəm. Dünya şöhrətli yetirmələri olub. Qayğıkeş, mehriban adamdır. 6 aydır ailə qurmuşuq və bu izdivacdan, hər ikimiz razıyıq.

Biz də öz növbəmizdə bu maraqlı ər-arvadı yeni ailə qurmaları münasibətilə təbrik edir, bir azdan bu evdə körpə səsinin eşidilməsini və yeni ocağı körpə nəfəsinin daha da isindirməsini arzulayırıq.

P.S. Məhəmməd Əlinin ən böyük arzusu həcc ziyarətində olmaq, hacı titulunu qazanmaq idi. Ulu Tanrı onu arzusuna yetirdi. Hazırda o, həccə gedən azərbaycanlı soydaşlarımızın arasındadır. Onun ömür-gün yoldaşı Fəridə xanim bir az narahatdır. Hər gün Təzəpir məscidinə zəng çalıb zəvvarlardan xəbər tutur. Bizə məlumat verdi ki, fevralın 22-də Məhəmməd Əli də qurban kəsəcək. Martın 3-də isə zəvvarlar, inşallah, geri dönəcəklər.

Fəridə xanım, narahat olmayın. Az qalıb, martın 3-də zəvvarları qarşılayanlar arasında sən də olacaq, onu təbrik edib deyəcəksən: Həcc ziyarətin qəbul olsun, əzlzim!

2005-ci il

XEYIRXAHLIQ

Qartal zirvələrdən qanadlanar

Novruz Novruzov (Demanlı) dağlar qoynunda - Yardımlının qədim Deman kəndində dünyaya göz açıb. Bu, bir az əfsanəvi, bir az real olan əsrarəngiz diyarın təmiz ab-havasında yuyulub təmizlənib, saflaşıb Novruz. Ulu dağlar bu kəndə arxa durub, ona keşik çəkib zaman-zaman. Lakin 1953-cü ildə kənd sakinlərini Demandan Azərbaycanın aran yerlərinə, o cümlədən Əli Bayramlıya köçürürlər. O zaman yeniyetmə Novruz VII sinfi təzəcə bitirmişdi. Beləliklə, demanlılar - dağ havasına öyrənmiş bu kənd əhalisi Əli Bayramlının yayda nəfəs təngidən iqliminə düşür və uzun müddət yeni şəraitə alışa bilmir. Amma nə edəsən? O dövrün hökmü belə idi. Bu da bir növ daxili deportasiya idi. Novruzgilin ailəsi də o vaxtın gənclik şəhərində məskunlaşmağa məcbur olur. Novruz da orta təhsilini 1956-cı ildə Əli Bayramlı şəhərindəki 1 saylı orta məktəbdə bitirib kamal attestatı alır. Sonra təhsilini davam etdirib əmtəəşünaslıq ixtisasına yiyələnir. Seçdiyi peşə ona başıucalıq gətirir. Əli Bayramlıda müxtəlif vəzifələrdə çalışır, şəhərdə böyük hörmət qazanır. Həm də

onu gənc şair kimi də tanıyırdılar. Uşaqlıqdan şeirə, poeziyaya vurğun olan Novruz üzərində ciddi çalışır, çoxlu mütaliə edir, klassik və müasir Azərbaycan ədəbiyyatından bəhrələnir. 1965-ci ildən üzvü olduğu "Şirvan" ədəbi birliyi Novruzun bədii yaradıcılığına təkan verir. Məhsuldar yaradıcılıqla məşğul olan Novruz "Demanlı" təxəllüsü ilə 60-dan çox qəzet və jurnalda müxtəlif məzmunlu şeirlərlə çıxış edir. Oxucular Novruz Demanlının artıq 3 şeir kitabı ilə tanışdırlar. Yeni şeir kitabı çap ərəfəsindədir.

Doğma kəndi Demanı heç vaxt unutmayan Novruz 1990-cı ildə Yardımlıya qayıdır və Demana baş çəkir. Görür ki, demanlılar da artıq geri qayıdırlar. Novruz Demanı əvvəlki vəziyyətə gətirmək üçün necə deyərlər, əl-qolunu çırmayıb, fəaliyyətə başlayır. Kənddə abadlıq işləri aparır, yollar saldırır, mədəni-məişət ocaqları təşkil edir. Qədirbilən kənd camaatı onu sədr seçir. Torpaq oğlu daha sonra fermer təsərrüfatı yaradır və ona rəhbərlik edir.

20 yaşından Əli Bayramlıda kök salıb orada məskunlaşan Novruz Demanlı şəhərdə yaşayan 500-ə yaxın demanlıya çətin məqamlarda arxa durub, kömək əlini uzadıb, ağsaqqallıq edib. Beləcə arxada qalan 40 il ərzində xeyir əməllərinə görə Novruz kişi Əli Bayramlı sakinlərinin dərin hörmətini qazanmışdır. Şəhərin hər

küçəsində, hər bir guşəsində bu xeyirxah və şair insanın ayaq izləri var. Bir ayağı şəhərdə, o biri ayağı Demanda olan Novruz müəllim hər iki "cəbhə"də öz sözünü deyir. Gözdən-könüldən uzaq düşmüş, tikanlığa, kol-kosa bürünmüş kəndi abad etmək üçün Novruz müəllim nə qədər alın təri axıtmış, gərgin əmək sərf etmişdir. Kəndə abad yol, işıq çəkdirmiş, tibb məntəqəsi, məktəb binası tikdirmiş, başqa mühüm işlər görmüşdür. Demanda elə ailə yoxdur ki, bu xeyirxah insan, el ağsaqqalı, vətənsevər Novruz müəllim ona yardım əlini uzatmasın. Mayası xeyirxahlıqdan yoğrulmuş bu Allah adamını "səxavət dağarcığı" adlandıranlar səhv etmirlər. Bu səxavəti, mərhəməti, vüqarı Novruz müəllim doğulub boya-başa çatdığı, bu gün də tez-tez görüşünə getdiyi başı qarlı dağlardan alıb. Xoşbəxt ailəsi var Novruz Demanlının - 4 oğul, 3 qız atasıdır, övladlarının hamısı ali savad alıb. Bütün bunlarda, əlbəttə, evin xanımı, Novruz müəllimin ömür-gün yoldaşı Cənnət xanımın böyük zəhməti, payı vardır.

Novruz Demanlı yaradıcılığının müdrik çağını yaşayır. Onun bu yaxınlarda çap olunmuş "Qəzəllər" kitabından Həzrət Əli (ə)-a həsr olunmuş bir qəzəlini oxuculara təqdim edirik:

Enməz bayrağımız, ya Əli!

Gedib-gələn nəfəsim, ürək qanımsan, ya Əli,
Sən vicdanım, sən qeyrətim, sən canımsan, ya Əli!

On bir övladına qurban durmaqdır borcum mənim,
Adınla ucalıram, şöhrət-şanımsan, ya Əli!

Dar məqamda səsləyəndə, sən kömək oldun mənə,
Ömrümün bu çağında da dayağımsan, ya Əli!

Düşəndə zülmətlərə qaranlıq gecələrdə mən,
Yoluma işıq saçan, nurlu çırağımsan, ya Əli!

Novruzun başı üstünə şölə saçan bir günəşsən,
İslamın köküsən, enməz bayrağımsan, ya Əli!

2005-ci il

BİR DOST İTİRMİŞƏM…

(esse)

Bir dost itirmişəm, dünya bərabəri əziz dost. Əvəzsiz dost itirmişəm. Həyatsevər, nikbin ovqatlı, gülərüz, xoş təbəssümlü bir insan.

Bir ürək dostu itirmişəm. Qəmxarım deyərdim ona. Dost, sirdaş, yoldaş, qardaş idi mənə. Məsləkdaşım idi Zaman. Dərdirnin əlacı, təsəlli yerim idi. Gümanım, pənahım, ümid yerim olan blr insan itirmişəm. Onsuz bu dünya mənə dar gəlir. Qanadları sınmış bir quşam. Sanki yaşamıram bu gün, quruca nəfəsim gedib gəlir. Bir dost itirmişəm. İgid, cəngavər bir dost. Yeriyəndə yer titrəyərdi. Şaqraq gülüşü ən bədbin, həyatdan küsmüşlərin də ürəyini qızdırar, dodaqlarında təbəssüm yaradardı. Mehriban və xoşqılıq, səmimi və vəfalı bir dost itirmişəm. Bütün insanları birliyə, həmrəyliyə səsləyən xeyirxah bir şəxsiyyət idi Zaman Mehdi. Onun üçün həyatda pis adam yox idi. Bütün pisləri, köntoyləri, əyyaş və bədnəmları düz yola gətirmək üçün dəridən, qabıqdan çıxardı. Hamı ilə dil tapardı. İçəhşəhərdə, Xəzərin sahilində böyümüşdü.

Qız qalası qədər qüdrətli və təpərli insan idi. Həyatını Xəzərsiz təsəvvür edə bilmirdi. Bəlkə Xəzərdə yaşayan qağayıların sayını da bilirdi. Harda onu itirsəydin, dəniz kənarında buradakı "Lalə" çayxanasında tapardın. Dost-tanışlar arasında. Sanki dəniz sahilinə gələnlərin hamısı onun dost-tanışı idi. Hamı ilə səmimi görüşər, hal-əhvəl tutardı. Təbəssüm qonardı gözlərinə. Ətrafda xoş əhval-ruhiyyə yaranardı dərhal.

Günlər beləcə keçərdi. Beləcə gəlib 56 yaşına çatdı Zaman Mehdi. 56 yaş nədir ki?! Onun da son 10 ilini ürəyindən şikayətçi yaşadı dostum. Ürək neyləsin? Yumruq boyda bir parça ət. O da əridi qətrə-qətrə dost-tanış, qohum-əqrəba, el-oba yolunda. O biri yandan da Qarabağ dərdi, gün-güzərən dərdi. Güc verərdi siqaretə. Birini o birinə calayardı.

Belə bir dost itirmişəm. Hər günü bir ilə bərabər olan 40 gündür Zamansız yaşayıram. 40 gündür Zaman dünyasını dəyişib. Onun qəfil ölümü hamını sarsıtdı. Gənc qələm dostum, "NƏBZ" qəzetinin baş redaktoru Hacı Qurban hamıdan tez qələmə sarıldı. "Təzə mənzilin mübarək, Zaman!" adlı hüzn və kədərdən yoğrulmuş ağı ilə ürəkləri titrətdi. Axı Rəhmətlik Zaman Hacı Qurbanı çox sevər, onun yaradıcılığı, uğurları ilə öyünərdü. Bu barədə aramızda tez-tez söhbət gedərdi. Zaman ən çox da

"NƏBZ"də çıxış edərdi: Təbabətə aid yazılarına qəzet həmişə ehtiyac duyardı. Elə şeirləri də tez-tez orada işıq üzü görərdi. Şeirlərinin ilk oxucusu mən olardım. Mənim xeyir-duamdan sonra "NƏBZ"ə yollanardı. Qəzetin hər sayını tapır, üstəlik birini də mənim üçün alıb gətirərdi, birlikdə oxuyub müzakirə edərdik. Bir xeyli şeiri çap olunmuşdu. Kitab şəklində buraxdırmaq istəyirdi. Deyirdim tələsmə, bir qədər də yaz, yaxşı sanballı bir şey çıxaraq ortaya. Amma o tələsərdi, məni də tələsdirərdi. Sən demə ürəyinə dammışdı. Ona görə də "qardaş, gəl kitabın çapını tezləşdirək", - deyərdi. Nə bilim belə olacaq, fələk qabağa düşüb öz saydığını sayarmış?...

Bir dost itirmişəm. Əvəzsiz bir dost. Şəhərə çıxa bilmirəm, onunla qoşa gəzdiyim yollarla gedə bilmirəm, "Lalə" çayxanasına girə bilmirəm. Elə bilirəm hamı onu məndən soruşacaq, tək gəlməkdə məni məzəmmətləyəcəkdir:

Yaşıldır başın, ördək.

Çatılıb qaşın, ördək.

Həmişə cüt gəzərdiz,

Hanı yoldaşın, ördək?

Başqa dost-tanışlarım məni qınamasın. Zamanı əvəz edən başqa birisi yoxdur ki, gündə bir neçə dəfə zəngləşək, dərd-sərimizi bölüşək, bir-birimizə həm mənəvi, həm də maddi dayaq olaq.

Ölümündən bir gün qabaq yanına ona baş çəkməyə getmişdim. Düz 6 saat yanında oturdum. Getməyimi istəmirdi. Sonra başqa dostumuz - Rəhim müəllim də gəldi. O gün necə xoşbəxt idi?! Sonuncu xoşbəxt gün.

Ertəsi gün, ölümünə bir neçə saat qalmış mənə zəng vurdu, dedi ki, sənin üçün yaxşı iş yeri tapmışam. Ayda 200 dollara - razısan? Dedim - inanmıram, qardaş. Əgər elə olsa, onun 50 dollarını sənə verərəm. İkimiz də gülüşdük. Onun o şaqraq gülüşü... Sonuncu şaqraq gülüşü... Ömrüm boyu qulaqlarımda səslənəcək.

Bir dost itirmişəm, əvəzsiz bir dost. Getdi, məni tənha qoydu bu vəfasız dünyada. Ruhu şad olsun! Qəbri nurla dolsun!

16.04.05

İSTEDAD ZƏHMƏTLƏ BİRLƏŞƏNDƏ

Ağəddin müəllimi 1963-cü ilin sentyabrından tanıyıram. ADU-nun jurnalistika fakültəsinə daxil olmuşduq. Sentyabrın 1-də eyni qrupda görüşdük, tanış olduq. İlk gündən sadəliyi, dilli-dilavərliyi, səmimiyyətiylə qrup yoldaşlarının hörmətini qazandı. O, dərsə gəlməyəndə dərhal yeri görünürdü. Sonra ailə vəziyyətilə alaqədar olaraq jurnalistikanın qiyabi şöbəsinə keçdi. Çünki Ağəddin Sumqayıtda yaşayıb işləyirdi. Gənclik şəhərini quranlardan idi. Şəhər onun gözləri qarşısında böyümüşdü. Gənclik çağlarından odlu-alovlu, qaynar olan Ağəddin şəhər komsomolçularının lideri idi. Zəhmətlə bağlı bu gənc hələ tələbə ikən az bir zamanda sumqayıtlıların həyat fəaliyyətini əks etdirən maraqlı publisist yazılarla çıxış edir, qələmini püxtələşdirirdi.

Tezliklə Ağəddin yaradıcılıqla məşğul olur. Jurnalist-publisist Ağəddin yazıçı kimi tanınır. Özü də şirin-şəkər balalarımızdan hekayələr yazır. Sonra da kitabları işıq üzü görür. «Dağ suyu», «Növbə mənimdir», «Təzə paltar» kitablarının qəhrəmanları sevimli uşaqlarımızdır. Daha sonra gənc yazıçının yaradıcılığı sanki qol-qanad açır,

genişlənir. Bir-birinin ardınca "Səmənd atın belində", "Qış soyuq keçmədi", "Lal Vəli", "Cənnətdə görüşənədək", "Özbəkistanda nəyim qaldı" kitabları yazıçının məhsuldar yaradıcılığından xəbər verir. Ümumiyyətlə, belə demək olar ki, Ağəddin müəllimin mayası zəhmətdən yoğrulub. Özü də halal zəhmətdən. Axı o halal adamdır. Allah adamıdır, dindardır, din xadimidir, Hacıdır. Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının üzvüdür. Sumqayıtda ağsaqqal kimi də böyük hörmət-izzət sahibidir, xeyriyyəçi kimi hamının xeyir-şərində təmənnasız iştirak edir, gənclərə yol göstərir, dəyərli məsləhətlər verir. Övladcanlı olan Hacı Ağəddin yaxşı ailə başçısı, 5 uşaq atası, 4 nəvənin babasıdır. Nəvələrini görəndə ürəyi dağa dönür, bütün yorğunluğunu, dünyanın dərd-qəmini unudur.

Qeyd etdiyimiz kimi, Hacı Ağəddin zəhmətsevərdir, işgüzardır. Keçirdiyi yuxusuz gecələr nəinki onu yorub usandırmır, əksinə, yaradıcılığına yeni təkan verir. 2000-ci il ədibin yaradıcılığı üçün uğurlu olmuşdur. Çünki iki kitabı – «İnsan qaranquş deyil» və «Mən Bəxtiyaram" əsərləri oxucuların mühakiməsinə verilmişdir. Sonuncu kitabın baş qəhrəmanı yazıçının özünü tanıyandan bəri yaradıcılığı ilə qidalandığı, nəfəs aldığı, mənən zənginləşib saflaşdığı xalq şairi, millət vəkili Bəxtiyar Vahabzadədir.

Hacı Ağəddinin 60 yaşı tamam oldu. Onun təxminən 35 ilini yaradıcılığa həsr etmiş jurnalist-publisist-yazıçı kimi oxuçuların dərin rəğbətini qazanmış ədib bu gün yaradıcılığının ən qaynar və məhsuldar dövrünü yaşayır.

Şanlı yubileyi münasibətilə Hacı Ağəddin Mansurzadəni ürəkdən təbrik edib, ona daha böyük yaradıcılıq uğurları arzulayan, şəxsiyyətinə və işgüzarlığına pərəstiş edən qələm dostu İdris.

2000-ci il

ANANIN VƏSİYYƏTİ:

"Bəhruz həkim məni yerdən götürsün, sinəmin üstünə də oğlumun cib dəsmalına bükdüyüm, gəlinnlərimin əllərilə yolunmuş ağ birçəyimi qoysun".

"Azərbaycan gəncləri" qəzetinin bu il 23 sentyabr tarixli sayında "Vəsiyyət etmişəm" adlı tükürpədici bir yazı yerimdəcə sarsıtdı məni. Yazıda söhbət bir ananın faciəsindən, konkret olaraq Bakının Bilgəh qəsəbəsindəki

qocalar evində yaşayan Hökumə ananın acı taleyindən bəhs olunurdu.

Kimdir Hökumə ana, nədir bu qadını yaşının ahıl çağında qocalar evində yaşamağa məcbur edən?

O, qocalar evinə Bakıdan gedib. Həyat yoldaşı erkən vəfat etdiyindən, ana iki oğul böyüdüb, boya-başa çatdırıb. Onları ərsəyə yetirənə qədər min əzabla üzləşib, kirpiyində od götürüb Hökümə ana. Sonra da min arzu ilə hər ikisinə istədikləri qızı alıb. Toy edib, qoşa gəlin qayınanası olub. Elə onun əsl faciəsi də, müsibətli günləri də bundan sonra başlanıb. Gəlinlər qala-qala, evdə bütün işləri Hökümə ana özü görüb ki, ailədə artıq söz-söhbət olmasın. Bir də arvad onda ayılıb ki, artıq qulluqçuya çevrilib - analıq hüququndan əsər-əlamət qalmayıb. "Sağ ol" eşitmək əvəzinə isə gəlinləri tərəfindən təhqirlərə məruz qalıb, hətta utanıb eləmədən arvadın zəhmətdən ağarmış saç-birçəyini də yolub tökür, döyüb əldən salırlar. Axırda ana dərdini oğlanlarına açır ki, arvadlarını tənbeh edib, anası qarşısında üzr istəsinlər. Lakin arvad əksini görür: arvadlarına qəhmar çıxır oğlanlar! Elə bundan sonra evdə özünü artıq hiss edən iki oğul anası beləcə qocalar evində yaşamağı üstün tutur - bütün bu haqsız təhqirlərə dözə bilmir.

Necə də dəhşətli bir hadisə?! Nə qədər də böyük bir ədalətsizlik, haqsızlıq?! Hər iki oğulun gözu qabağında, daha doğrusu, onların iştirakı ilə möhnətkeş ana yavaş-yavaş ev qulluqçusuna çevrilir, sonra da təhqirlərə məruz qalır, analıq hüququ tapdalanır, axırda da artıq bir əşya kimi bayıra atılır... Bu yerdə özunu saxlaya bilmir, dişinin dibindən çıxanı belə məsləksiz, nankor oğullara, ev, ailə tərbiyəsi görməmiş gəlinlərə yağdırmaq istəyirsən: ar olsun belə qoşa oğula! Lənət onların başlarına qoyduqları papaqlarına! Özlərinə, kişiliklərinə (əgər onlara kişi demək olarsa) min lənət! Başlarına dəysin belə qızları evlərə yola salan anaların tərbiyəsi!..

Başına gətirilən bu müsibətlərdən sonra ana ürəyi yenə dözmür, uşaqları üçün narahatçılıq keçirir, hələ də gözləri yoldadır: bəlkə oğlanları bu uzun vaxt ərzində barı bircə dəfə onu yada salıb, bura gəldilər? Lakin daş qəlbli övladlar arvadlarının tumanı altında gizlənib (Bu ifadə üçün oxuculardan üzr istəyirik. Bundan tutarlı söz tapmadıq), onların nazı, hikkəsi ilə oynayır, ananı bir dəqiqə də olsa, yadlarına salmırlar. Beləcə aylar, illər bir-birini qovur, lakin övladlar ananın öldu-qaldısından bir xəbər tutmurlar. Ana gecə-gündüz fikirləri ilə baş-başa qalır, vəziyyəti götür-qoy edir. Bir neçə dəfə özünə qəsd etmək qərarına gəlir. Yenə övladlarını düşünür, onların şəxsiyyətini düşünüb, fikrindən daşınır. Ümidini itirməyib

- daim yollara dikilir gözləri, intizar baxışları. Nə qədər çalışsa, ürəyi ilə bacarmır ana. Amma ümidləri yenə boşa çıxır. Axırda başa düşür ki, o öz-özünü aldadır. Bununla iş bitmir. Ananı bir məsələ narahat etməyə başlayır: onun qocalar evində ölümü (ölüm haqdır) oğlanlarının şəxsiyyətinə toxunmaz ki?

Görürsünüzmü ana qəlbinin genişliyini, ana ürəyinin həyəcanını? Bu yerdə üzümü anaya tutub deyirəm: özünü əldən salma, Hökumə ana, daşqəlbli oğlanların buna layiq deyillər. Onların şəxsiyyəti, mənliyi, mənəviyyatı yoxdur. Olsa da ora boşdur, heçdir, puçdur. Soyuq, donuq bir ət parçası daşıyırlar onlar. Ürək yerinə.

Axır ki, ana bütün ümidini üzəndən sonra qəti sözünü deyir: vəsiyyət edir. Vəsiyyətdə deyilir: Mən bir daha heç vaxt o evə qayıtmaram. Vəsiyyət eləmişəm - məni bu qocalar evindən Bəhruz həkim yerdən götürsün (Allah Bəhruz həkimi o qocalar evinə çox görməsin!), sinəmin üstünə də oğlumun cib dəsmalına büküb gətirdiyim, gəlinlərimin əllərilə yolunmuş ağ birçəyimi büküb qoysun. Mənim oğlum da, həkimim də Bəhruz həkimdir...

Dağ vüqarlı, dəniz ürəkli Hökumə ana! Sənin qəti və son qərarını alqışlayır, qarşında səcdə edirəm. Və bu

dəmdə bir atalar sözünü demək yerinə duşər; "Neynirəm qızıl teşti ki, içində qan qusacağam". Bəli, belə mənəviyyatsız, insanlıqdan kənar, nankor övladlardansa, vəsiyyətini sağlığında edib, gözün yumulandan sonra qəbir evinə məhz Bəhruz kimi oğulları çiynində getmək daha düz olar.

Ana, ancaq mən heç cür inana bilmirəm ki, oğlanların öz ailələrində xoşbəxtdirlər, xoşbəxt yaşayırlar. Başqasının bədbəxtliyi, faciəsi üzərində qurulan həyat necə xoşbəxt ola bilər? Görəsən oğlanların barı bircə dəfə ölməz sənətkarımız Rəşid Behbudovun məşhur "Ana" mahnısını dinləyiblərmi, ya da mərhum şairimiz Əli Kərimin "Qaytar ana borcunu" şeirini eşidiblərmi? Bəs harın, hikkəli, əqidəsiz gəlinlər? Onlar heç yadlarına salırlarmı ki, bir vaxt özləri də sənin kimi qaynana olacaqlar? Yəqin ki, o dunyadan bixəbərlər "Nə tökərsən aşına, o da çıxar qaşığına" kəlamını bilmirlər. Yenə bir atalar sözünü deyirəm təsəlli uçun: "Buynuzsuz qoçun qisası buynuzlu qoçda qalmaz". Vaxt gələr oğlanların da, onların arvadları da tutduqları əməldən peşman olarlar. Günlərin birində mən əminəm ki, indi susmuş vicdanları oyanar, onları haqq-ədalət məhkəməsinə çəkər. Əfsus ki, o zaman gec olar. Çünki "Sonrakı peşmançılıq fayda verməz" kimi atalar sözumüz var axı bizim.

2000-ci il

ÖLÜM SEVİNMƏSİN QOY…

ONSUZ KECİRİLƏN AD GÜNÜ

Keçən ilin dekabr ayında Azərbaycan Respublikası Qadınlar Cəmiyyətinin 90 illiyi qeyd edilməli idi. Mən də bu münasibətlə yubiley ərəfəsində cəmiyyətin sədri, həyat tarixçəsinə, bioqrafiyasına, şərəfli ömür yoluna kifayət qədər bələd olduğum professor, AMEA-nın müxbir üzvü Zemfira Verdiyeva ilə görüşüb, Qadınlar Cəmiyyətinin keçdiyi uzun və tarixi yol barədə söhbət açmağı qərarlaşdırmış və həmin yazının «Zəriflik»in məhz ilk nömrəsində işıq üzü görməsini planlaşdırmışdım. Bu məqsədlə də Qadınlar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Yasəmən Möhübbət qızı ilə görüşdüm, məramımı ona bildirdim. Bir anda Yasəmən xanımın işıqlı çöhrəsinə qüssə və kədər qarışıq hüzn qondu. Kövrəldiyini açıq-aydın hiss etdim. Sanki nitqi tutuldu. Araya qısa sükut çökdü. Sonra özünü ələ alıb, hüznlü səslə yalnız bunları söyləyə bildi:

«Zemfira xanım artıq həyatda yoxdur...» Bu qəfil acı xəbər məni də sarsıtdı. Özümdən asılı olmayaraq soruşdum:

- Axı mən bu barədə heç bir yerdə bir məlumata rast gəlməmişəm.

- Özü belə vəsiyyət etmişdi. Özünüreklam ona yad idi. Mayası təvazökarlıqdan yoğrulmuşdu Zemfira xanımın.

- Bəs harada dəfn olunub?

- Fatmayıda, valideynlərinin uyuduğu məkanda.

- Allah rəhmət eləsin, yatdığı torpaq nurla dolsun!

Bir anda Zemfira xanımın işıqlı, nurlu çöhrəsi, abır-həyalı baxışı gözlərim önündə canlandı. O, hələ Azərbaycan Dillər Universitetində rektor vəzifəsində işlədiyi illərdə onunla bir neçə dəfə ünsiyyətdə olduğumu xatırladım. Onun əsl ziyalı, mədəni və kübar bir xanım, eyni zamanda son dərəcə sadə və təvazökar bir insan olduğunu çox yerdə söyləmişəm. Azərbaycan qadınlığına bariz nümunə idi Zemfira Verdiyeva. İlahi ona dərin zəka, parlaq istedad, elmə tükənməz həvəs, təşkilatçılıq bacarığı, xeyirxahlıq və mərhəmət kimi gözəl insani keyfiyyətlər bəxş etmişdi. Zemfira xanımın bugünkü gəncliyə əsl örnək olan maraqlı və parlaq fəaliyyəti

barədə, həyat amalı, həyatsevərliyi, nikbinliyi və fədakarlığı haqqında bildiklərimi, eşitdiklərimi və oxuduqlarımı oxucularla bölüşməyi qərara aldım.

O kəslər xoşbəxtdir ki, müqəddəs və xeyirxah əməlləri ilə minlərin yoluna işıq salıb, onlara həyan olub, arxa-dayaq durub. Elə bu xoş əməlləri ilə də canından artıq sevdiyi millətinin, xalqının qəlbində ucalıb, zirvələşib, əbədiləşib. O kəslər xoşbəxtdir ki, mənalı ömür yolu, saf və büllur, axar-baxarlı coşqun çaya bənzəyir və bu saf sulu çaydan başqaları da bəhrələnir, ondan fayda götürür. O kəslər xoşbəxtdirlər ki, həyat yollarında qarşısına çıxan bütün maneələrə sinə gərərək vətəninə layiqli övlad olmaq üçün çətinliklərə qarşı mərdliklə mübarizə aparır, son nəticədə istəyinə çatır, şərəfii əməyi ilə xalqına yararlı olduğunu dərk edir. Zemfira Nadir qızı Verdiyeva da coşqun fəaliyyəti və işgüzarlığı ilə Azərbaycan xalqının fəxr etdiyi ziyalı qadınlardan idi.

Zemfira xanım haqqında keçmişdən danışmaq ağır olsa da, reallıqdan qaçmaq mümkün deyil. O, təhsil aldığı o vaxtkı Azərbaycan Dillər Universitetində laborant kimi fəaliyyətə başlayır və adına ilk dəfə əmək kitabçası bu ali məktəbdə yazılır. Sonradan isə bilik və bacarığı, istedad və qabiliyyəti sayəsində burada pillə-pillə ucalır. Belə ki

pedaqoji təcrübə müdiri, kafedra müdiri, uzun illər isə (25 il!) rektor kimi çalışır.

1965-ci ildə namizədlik dissertasiyasını uğurla müdafiə edir, 1972-ci ildə isə artıq professor adına layiq görülür. Respublikamızda xarici dil (ingilis dili) üzrə ilk mütəxəssis olan Z.Verdiyeva həm də Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü idi. Ölkənin ictimai-siyasi həyatında fəal iştirak edən Zemfira xanım 1990-1995-ci illərdə Milli Məclisin deputatı olmuş, bu ali məclisdə bir sıra mühüm qərarların qəbul olunmasında fəallıq nümayiş etdirmişdir.

Onu da vurğulamaq yerinə düşər ki, Z.Verdiyeva dünyanın beş şəhərinə vurğunluğunu bildirmişdi. Bunlar London, Vaşinqton, Moskva, Roma və Madriddir. Bəs doğma Bakı şəhəri? Bu şəhəri rəqabətdən kənar hesab edən Zemfira xanım doğma şəhər kimi Bakıya qəlbən bağlı olduğunu dilə gətirir və əlavə edirdi ki, bu şəhərə ülvi məhəbbət ona gendən keçib. Söyləyir ki, evlərində heç vaxt deyilməyib ki, vətəni, xalqı sevmək lazımdır, əlavə edir ki, biz sadəcə bilirdik ki, başqa cür mümkün deyil.

Z.Verdiyevanın yuxarıda adıçəkilən şəhərlərə vurğunluğunun tarixi məqamları var. Məsələn, Zemfira

xanım 1956-cı ildə Londonda təhsil alan ilk azərbaycanlı qız idi. Onun AMEA-nın müxbir üzvü, elmlər doktoru, professor adı qazanmasının əsası bu şəhərlə bağlı olmuşdur. Hər dəfə Londona səfər etdikcə, elmlər namizədi üzrə dissertasiya müdafiə etdikcə, İngiltərənin Pittrsburq Universitetində «Şekspir: İngiltərə və Sovet İttifaqında onun yaradıcılığına münasibət» proqramında iştirak etdikdən, şəhərin görkəmli yerlərinə - kitabxanalara, miili muzeylərə, teatrlara baş vurduqdan sonra Londona dərindən bağlanmışdır. Bir dəfə London Qadınlar Cəmiyyəti sədri tərəfindən kraliça Yelizavetadan ona məktub-dəvətnamə gəlir. O, Zemfira xanımı Yelizaveta, Bukinhem sarayında düzənlənən çay dəsgahına dəvət edir. Həmin mərasimdə Ingiltərə kraliçasına bəlli idi ki, Zemfira xanım Azərbaycanda məhsuldar fəaliyyət göstərir və Londonda təhsil alır. Ona görə də kraliça həmyerlimizi İngiltərə kraliçasının himayədarlıq etdiyi cəmiyyətin fəxri üzvü seçir və yadigar olaraq boynuna qızıl zəncir taxır.

Zemfira xanımın Vaşinqtonla bağlı xatirələri də maraqlıdır. O, Moskvada aspiranturanın III kursunda oxuyarkən aspirantların ingilis dili biliklərini dərinləşdirmək məqsədiylə onu ABŞ-ın Corciya Universitetinə göndərirlər. Vaşinqtonda yaşayarkən onu məşhur Amerika ailələrinə dəvət edirlər. İş elə gətirir ki,

aspirant Zemfira xanım Kennedi ailəsi ilə tanış olur. O zaman Robert Kennedi azərbaycanlı aspirantı evlərinə dəvət edir, Robert Kennedi həmyerlimizlə birlikdə şəkil çəkdirir. 1993-cü ildə senatın oğlu Maykl Kennedi jurnalist kimi yanvar hadisələrini əks etdirmək üçün Bakıya gəlir və Zemfira xanımla görüşür. Maykl söyləyir ki, o, anası Etel Kennedinin xahişiylə gəlib və istəyir ki, onun ailə üzvləri ilə görüşsün. Etel növbəti dəfə Zemfira xanımı Amerikaya dəvət edir, onlar görüşür və arxada qalmış 65-ci ili xatırlayırlar. Moskvada keçirdiyi iilər Z.Verdiyevanın elm sahəsində qazandığı misilsiz uğurlarla yadda qalıb.

Z.Verdiyeva Roma və Madrid şəhərlərində gördüklərini ömrünün ən gözəl çağları hesab edir. Romanın muzeyləri, teatrları, Madridin bənzərsiz möcüzələri Zemfira xanımı məftun etmiş, onun dünyagörüşünə böyük təsir göstərmişdir.

Zemfira xanım ömrünün müdrik illərini qadınlar arasında keçirmişdir. Belə ki 1971-ci ildən Azərbaycan Respublikası Qadınlar Cəmiyyətinin sədri kimi fəaliyyət göstərmişdir. 1920-ci ildə yaradılan bu cəmiyyətə müxtəlif illərdə Azərbaycanın görkəmli fəal qadınları Ayna Sultanova, Hökumə Sultanova, Səidə İmanzadə, Əzizə Cəfərzadə başçılıq etmişlər. Növbəti dəfə bu məsul

və şərəfli vəzifəni 1989-cu ildə hələ Xarici Dillər İnstitutuna rəhbərlik edən Zemfira xanıma Əzizə Cəfərzadə estafet kimi ötürmüşdür. Özündə 75 mindən çox qadını birləşdirən bu cəmiyyətə rəhbərlik edən Zemfira xanım qurumun fəaliyyətində böyük rol oynamış, qadınların hüquqlarının müdafiəsində bütün var qüvvəsini sərf etmişdi.

1989-cu ildə hər bir azərbaycanlı hər hansı bir təşkilatda müəyyən ictimai bir yük daşımağa borclu idi. Çünki o illər Azərbaycan üçün taleyüklü dövr idi. Respublikamızda müharibə şəraiti hökm sürürdü. Bakıda xaotik vəziyyət yaranmışdı. Ölkəmiz ağır günlərini yaşayırdı. Rus imperiyasının zirehli texnikası Bakıya daxil olmuşdu. 20 Yanvar faciəsi törədilmişdi. Məhz belə bir şəraitdə Z.Verdiyeva Qadınlar Cəmiyyətini qeyri-hökumət təşkilatı kimi qeydiyyatdan keçirməyə müvəffəq oldu. Bu böyük təşkilatçı qadın bir gecənin içində zərif cinsin nümayəndələrini bir yerə toplayıb qanlı 20 yanvar hadisəsi barədə bir səhifəlik yazı və baş verənləri əks etdirən video-kaseti dünya ictimaiyyətinə çatdıra bildi. Cəmiyyətin bir çox vətənpərvər qadını həmin video-kasetləri nümayiş etdirmək üçün postsovet məkanının müxtəlif respublikalarına səfərbər olundu. Eyni zamanda bütün qadın təşkilatlarına müraciət hazırlayan cəmiyyətin qadınları onların nümayəndələrini həqiqətləri öz gözləri

ilə görmək üçün Azərbaycana dəvət etdi. Qadınların bu təklifinə ilkin olaraq Türkiyənin keçmiş prezidenti Turqut Ozalın həyat yoldaşı Səmra xanım və Xomeyninin qızı Zəhra xanım cavab verdilər. Sonrakı dövrdə cəmiyyətin qarşısında başqa mühüm bir problem baş qaldırdı: isti ocaqlarından perik düşmüş qadınlara arxa durmaq! Bu məsələ də tezliklə həllini tapdı. AQC onları müxtəlif ünvanlara yerləşdirdi. Zemfira xanım özü də həmin qadınlarla tez-tez görüşür, onlara təsəlli verir, könüllərini alır, mənəvi dayaq durmağa çalışırdı. Bir neçə ildir ki, AQC 3 qocalar evi, 4 uşaq evi və 16 internat məktəbini də nəzarətdə saxlayır, onların qayğıları ilə maraqlanır.

Bu gün AQC dünyanın 65 qadın təşkilatı ilə əməkdaşlıq edir. Həm də bu cəmiyyət Ümumdünya Demokratik Qadınlar Təşkilatının üzvüdür. Bu şərəfə nail olmaqda Zemfira xanımın işgüzarlığı, təşkilatçılıq bacarığı, şəxsi nüfuzu, zəngin həyat təcrübəsi, geniş erudisiyası öz sözünü demişdi.

Qadınların işsizlik probleminin həll edilməsi sahəsində də bu xeyirxah insanın, qayğıkeş rəhbərin fəallığı ayrıca qeyd olunmalıdır.

Azərbaycanın, xalqımızın haqq səsini bütün dünyaya yaymaqla düşmənlərimizə qənim kəsilən bu qeyrətli və

vətənpərvər el qızının misilsiz xidmətləri vardır. 2000-ci ildə «İlin qadını» kimi şərəfli ad daşıyan Zemfira xanımın əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş, o, «Şərəf nişanı» və «Şöhrət» ordenləri ilə təltif olunmuş, beynəlxalq aləmdə göstərdiyi fəaliyyəti isə ona ABŞ, İngiltərə, Kanada, Cənubi Koreya və digər ölkələrin bir sıra mükafatlarını qazandırmışdır. Həyat və yaradıcılığını «Azərbaycanfilm»in sənədli film ustaları lentə almışlar.

Dünyanın 64 şəhərini gəzib-dolaşan Zemfira xanım Parisdən söz açıb, söyləyib ki, o, azadlıq, məhəbbət, gözəliik şəhəridir. Bir də Məkkə və Mədinə, Bağdad və Məşhəd, Afina, Qahirə, Dehli, Təl-Əviy, Pekin, Lissabon, İstanbul, Stokholm və Cenevrənin adlarını qeyd edir. Bəli, bütün dünyanı sevirəm, - söyləyir, səyahət etməyi xoşlayıram, başqa xalqların mədəniyyətlərinə valehəm. Amma mənə heç kim Azərbaycanı tərk etməyə şirnikləndirə bilməz. Yalnız bu ölkədə yaşamaq istəyirəm. Özü də məhz Bakıda, öz küçəmdə, öz evimdə, öz mənzilimdə.

Bəli, Vətənini, torpağını heç bir başqa cənnətməkana dəyişməyən, Vətən üçün çalışan, onu dünyaya tanıdan, istedadını və fəaliyyətini bu Vətənə həsr edən Zemfira Verdiyeva - zəngin mənəvi dünyası ilə Azərbaycan

qadınlarına örnək olan bu ziyalı xanım müqəddəs Vətən torpağına tapşırıldı.

Ölümündən sonra 2010-cu il noyabrın 19-da Zemfira xanımın anadan olmasının 75 illiyi qeyd olundu. Bu dəfə onun iştirakı olmadan. Yeri görünürdü, yaman görünürdü Zemfira xanımın. Ruhu şad olsun! Onun əziz xatirəsi daim bu qədirbilən xalqın qəlbində əbədi yaşayacaq.

«Zəriflik» mart 2011

"SİL GÖZÜN YAŞIN, QARAĞİLƏ..."

RÜBABƏ MURADOVA ÖZ SƏSİ İLƏ ARAZ ÜSTDƏN KÖRPÜ SALAN İLK MÜĞƏNNİ İDİ

Ulu Tanrı ona ilahi bir səs bəxş etmişdi. Bəxş etmişdi ki, o taylı-bu taylı bütöv Azərbaycanımızı feyziyab etsin. Allah-Təala ondan heç nəyi əsirgəməmişdi: uca çinar qamət, yaraşıqlı, incə boy-buxun, tökmə büllur bədən, kamana çəkilmiş qaşlar, mənalı və nüfuzedici gözlər, şəvə kimi gur saçlar. Əlbəttə, bir də qeybdən gələn ilahi bir səs.

Elə bir səs ki min oxuyanın arasından seçilən, məhz Rübabə Muradovaya məxsus olan bir səs.

Hər bir dərddən olur yaman ayrılıq…

Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulmuş Rübabə Muradovanın ailəsi sonralar taleyin amansız və acı hökmü ilə Quzey Azərbaycanda məskən salmalı olur. Hələ uşaqlıqdan musiqi və nəğmə ilə böyüyən balaca və dəcəl, bir qədər də şıltaq qızcığaz sonralar adamlara hərarətlə dolu bir dünya sevinc bəxş etmişdir. Hələ A.Zeynallı adına Musiqi Məktəbində Seyid Şuşinskinin sinfində oxuyarkən 21 yaşlı gənc Rübabəyə etibar göstərib, onu Azərbaycan Dövlət Opera və Balet Teatrına dəvət edirlər. O vaxtdan Rübabə xanımı bu sənət məbədgahında bütün bacarıq və istedadını göstərərək nəyə qadir olduğunu təsdiqləmişdir.

Rübabə Muradova böyük Üzeyir bəy tərəfindən əsası qoyulan milli muğam operalarımızda çalışmış, Leyli, Əsli, Ərəbzəngi, Şahsənəm, Xanəndə qız kimi bir-birinə bənzəməyən, müxtəlif xarakterli obrazlar qalereyası yaratmışdır. Onun opera səhnəsində canlandırdığı Leyli

obrazını ayrıca qeyd etmək lazımdır. Bu rolu Rübabə xanıma qədər milli operamızda Həqiqət Rzayeva, Gülxar Həsənova, Sara Qədimova və başqaları ifa etmişlər. Amma Rübabə xanımın Leylisi onların heç birinə bənzəmirdi. Rübabə xanımın təfsirində Leyli obrazı daha yanıqlı və təsirli alınırdı. Rübabə Muradovanın Leylisinə tamaşa etmək üçün o zaman təkcə Bakı və onun ətraf rayonlarının sakinləri yox, başqa regionlardan da çoxlu tamaşaçı axışıb gələrdi. Salon bir qayda olaraq ağzınacan dolu olardl. Mütəxəssislər, elə Rübabə xanımın dostları da onun Leylisinin bənzərsizliyini etiraf etmişdilər. Belə ki uzun illər opera səhnəsində Leyli obrazını sevə-sevə yaratmış Zeynəb Xanlarova da Rübabə xanımın Leylisinin əvəzsiz ifaçısı olduğunu təsdiq edib.

R.Muradova sənətinin vurğunları arasında yaxın və uzaq əcnəbilər də az olmamışdır. Onlardan biri də dünya şöhrətli kinoaktyor və rejissor, "Avara" və «Cənab-420» filmlərində baş rolların yaradıcısı məşhur Rac Kapur idi. Ümumiyyətlə, Azərbaycan xalqının və onun zəngin musiqisinin, eləcə də tanınmış sənət adamlarının, o cümlədən ölməz sənətkarlarımız Rəşid Behbudovun pərəstişkarı olan Rac Kapur dəfələrlə respublikamızda olmuşdur. Onun Rübabə xanımla da şəxsi tanışlığı var idi. Çünki o, Rübabə Muradova yaradıcılığının, onun bənzərsiz səsinin, yanıqlı avazının vurğunu idi. Dəfələrlə

onun Leylisini opera səhnəsində dinləmişdi. Müğənni kimi ürəklərə yol tapan ilahi səsinə məftun kəsilmişdi hind sənətkarı.. O zaman Rübabə xanımın cəmi 23 yaşı vardı. Müğənnini dinləyəndən sonra Rac Kapur demişdir: "Mən birinci dəfədir görürəm ki, müğənni oxuyarkən ağlasın, amma səsi boğulmasın, batmasın. Bu, Rübabə xanım Muradovadır". Ona görə də R.Kapur Rübabə xanımı Hindistana dəvət etmişdi. Və söz vermişdi ki, Hindistanda "Leyli və Məcnun" operasını hazırlayıb həmyerlilərinə göstərəcək. Leyli rolunu da şübhəsiz, Rübabə xanım oynayacaq. Amma xalqımızın vətənpərvər qızı Hindistana köçüb orada yaşamağa heç cür razılıq verə bilməzdi. Müğənni bildirmişdi: "Mən heç vaxt yad ölkədə yaşaya bilmərəm. Bir də Bakı Dehlidən Ərdəbilə daha çox yaxındır. Arabir bütöv Azərbaycanın ortasından axan Arazın sularına tamaşa etməklə sanki doğma Ərdəbilə bir anlıq yaxınlaşıram, nisbətən təskinlik tapıram, adam oluram".

Bəli, Rübabə xanım doğulduğu, uşaqlıq illərini qoynunda keçirdiyi, lakin ondan əbədi ayrıldığı, bu səbəbdən illər uzunu doğma şəhərini, oradakı evlərini, qohum-əqrəbalarını, yaxınlarını görmək üçün ömrü boyu burnunun ucu göynəmişdi. Lakin sərt dövlət rejimi onun arzusunu ürəyində qoymuşdu. Bu, ən böyük faciə idi. Uzun sürən dəhşətli faciə Rübabə xanımın səsinə əbədi

hopmuş yanğı və təşnə, hicran və həsrət notları da ayrılıq və intizarın məhz bu məntiqi nəticəsi və "bəhrəsi" idi. Həmin həsrətlə də dünyasını dəyişdi Rübabə xanım. Özü də vaxtsız, vədəsiz: ömrünün 50-ci baharında...

50 yaş nədir ki...

Vətən həsrəti idi Rübabə xanımı üzən, qəlbini qətrə-qətrə əridən, ömrü uzunu onu narahat edən. Nə yaxşı ki Tanrı ona səs ərməğan etmişdi. Ərməğan etmişdi ki, hicran və həsrətdən qovrulan dəmlərində harayına yetişsin, ona qəmxar, həmdəm, ürəyinə həyan olsun, təpər versin, dərdlərini unutdursun. Unutdura bildimi ona hicran, ayrılıq və həsrət dərdini? Hardasa nisbətən unutdurdu, amma bütövlükdə, səsi də ayrılıq dərdinə məlhəm olmadı. Səsi cilalansa, səs sahibi ürəklərə yol tapsa da, həsrət və hicranın da yükü ağırlaşıb çəkisi artırdı. Bu mənfi yüklərsə zaman-zaman onun dərdinə mənfi təsir göstərir, ona ağırlıq edir, incə ruhlu, həssas qəlbli müğənni xanımın ürəyini ağrıdır, ahəngini pozurdu. Və həmin vədələrdə ölməz şair Şəhriyarın məşhur "Heydər babaya salam" poeması geniş yayılır, sonra da poemadan bir parçaya eyniadlı musiqi bəstələnir. Mahnının ilk ifaçısı da Rübabə xanım olur. Bu zaman

onun ürək ağrılarına sanki müvəqqəti məlhəm qoyur "Heydər babaya salam" mahnısı. Lakin müğənni həmin mahnını qəlbinin nisgili, odu-alovu ilə elə yanıqlı ifa edir ki, həm tamaşaçıların ürəyinə od salır, həm də köksünə sığmayan ürəyi daha da bərk sızıldamağa, bu qəlb sahibini narahat etməyə başlayır. Təbiblər köməyə yetməyə cəhd göstərirlər. Ürəyinin şəklini çəkirlər - kardeoqramını çıxarırlar. Bu zaman mat-məəttəl qalırlar. Yumruq boyda ürəkdə nə qədər çat olarmış? Bu çatlarla Rübabə xanım necə yaşayırmış, İlahi?! Beləliklə, hicran, həsrət simptomları işini görür: yaradıcılığının çiçəkləndiyi dövrdə özünəməxsus səsi və avazı, zəngin repertuarı ilə o taylı-bu taylı soydaşlarının dərdini oxşayan nisgilli müğənni 50 yaşında ürəyində qübar bağlamış vətən həsrətilə bu vəfasız dünyaya "əlvida" deyib həyatdan köçdü.

Düz 20 üdir ki, Rübabə xanımın canlı ifasını görmürük. 20 ildir ki, onun “Qaragilə”, “Sevəydin barı” kimi mahnılarını, təsnif və muğamlarını eşitmirik. Bizə təsəlli olan unudulmaz müğənni, səhnəmizin yaraşığı Rübabə Muradovanın qorunub saxlanmış lent yazılarıdır.

Haşiyə

Rübabə Muradova Azərbaycan dilinin incəliklərinə bələd olan müğənni idi. Oxuduğu mahnıların sözlərinə çox ehtiyatla yanaşar, aydın və səlis tələffüzü ilə həmkarlarından seçilərdi. Yüksək səhnə mədəniyyəti və gözəl zövqə, repertuar seçmə səriştəsinə malik nadir müğənnı idi. Rübabə xanım həm də bəzən ifa etdiyi mahnılara əlavə edərdi ki, mahnının siqlətini daha da artırsın. Mən də dəfələrlə onun şahidi olmuşam. Konsertlərin birində "Yeri-yeri mən də gəlim dalınca" xalq mahnısını ifa edərkən mahnıya özündən belə bir əlavə etdi. İndiyə kimi həmin əlavə yadımdadır.

Uca dağ başında bir cüt nəlbəki,

Yazdığın məktubu cırdım hələ ki

Sən ki məni sevmədin, cəhənnəmə ki

Ay gedən oğlan, eşit bir dayan

Çox uzaq getmə, peşman olarsan.

Bundan sonra tamaşaçıların alqışları salonu lərzəyə saldı.

Üç müğənni bacı

Mahrux Muradova Rübabə xanımın kiçik müğənni bacısı idi. O da böyük bacısının müğənnilik məktəbini keçmişdi. Repertuarına əsasən Rübabə xanımın ifalarını daxil edərdi. Bu da onun sevimli bacısının sənətinə məhəbbətindən irəli gəlirdi. Mahrux da müğənni kimi uzun illər öz ifaçılıq yaradıcılığı ilə yadda qalmışdı. Lakin müğənni ömrünün son çağlarında maddi imkansızlıq girdabında əzilmiş, yəni maddi ehtiyac içində yaşamışdı. Sonra da sağalmaz bir bəlaya mübtəla olmuşdu. Belə ki, o, bir ayağından məhrum olmuşdu. Xeyli qapılar döydükdən sonra adı prezident təqaüdü alanlar siyahısına düşmüşdü. Nə yazıqlar ki, ilk təqaüdü belə ona nəsib olmamış, vaxtsız əcəl qapısını döymüşdü. Burada mərhum xalq şairi Cabir Novruzun "İnsanlara sağlığında qiymət verin" misrası yada düşür.

"Rübabə əvəzedilməz müğənni idi"

Xatırlanan müğənni bacıların bir bacısı da var: Tahirə Muradova. Tahirə xanım ixtisasca həkimdir. Deyir ki, Rübabə xanım əlçatmaz zirvə, əvəzedilməz müğənni idi:

"Rübabə bacım bizim üçün ilahi varlıq idi və bizi erkən tərk etdi. Nəslimizin belini qırdı. Onun kimi sənətkar müğənni yüz ildə bir dəfə dünyaya gələr. Sənətkar bacıma heykəl ucaltmaq lazımdır. Bu gün onun yeri aydın görünür. Mən fəxr edir və qürur hissi keçirirəm ki, Rübabə xanımın doğma bacısıyam.

Bacım Ərdəbil həsrəti ilə yanıb qovrulardı. Həmişə bir arzu ilə yaşayardı. Ərdəbilə gedib evimizi, qohumlarımızı görmək arzusuyla. Lakin həmin arzu ilə bizdən əbədi ayrıldı. Bacımın vəfatından sonra iki dəfə Ərdəbilə getmiş, oradan torpaq gətirib Rübabənin narahat məzarı üstünə səpmişəm ki, qoy ruhu şad olsun. Rəhmətlik həmişə deyərdi: "İrana yol açılan kimi iməkləyə-iməkləyə də olsa gedib evimizi ziyarət edəcəyəm'". Amma arzusu ürəyində qaldı.

Bacım elə bil ölümünün yaxınlaşmasını hiss etmişdi. Deyərdi: "Ərdəbili görmək mənə qismət olmayacaq. Ancaq siz görə biləcəksiz". Elə də oldu. Onun yeganə təsəllisi oxumaq idi. "Qaragilə" xalq mahnısı elə bil onun üçün yazılmışdı. "Sil gözün yaşın, qaragilə, ağlama bəsdi" deyəndən sonra özü də göz yaşlarını saxlaya bilməzdi. Ölməmişdən bir gün qabaq televiziyaya çıxıb "Gəl bizə, yar" xalq mahnısını oxudu, evə gəlib yatanda isə "Yumul, bənövşəm, yumul" mahnısını zümzümə etdi. Ertəsi gün

son nəfəsdə bu sözləri deyə bildi: "O, kimdir? O sarışın qadın nə istəyir?" Sonra gözlərini əbədi yumdu.

Son söz əvəzi

Tahirə xanımın sözlərinə qüvvət olaraq deyirəm: Bəli, Rübabə xanım kimi aktyor-müğənni yüz ildə bir dəfə doğulur. Ona həqiqətən də heykəl qoyulmalıdır. O da həqiqətdir ki, bugünkü ucuz və keyfiyyətsiz müğənni bolluğunda Rübabə xanımın yeri və çəkisi daha çox görünür. Görkəmli sənətkar əsl qiymətini tapıbmı? Qətiyyətlə cavab verək ki, yox. Bakıda adını daşıyan nə bir küçə, nə bir xiyaban var, nə də bir musiqi məktəbi. Heç olmasa yaşadığı ünvana: "Respublikanın xalq artisti Rübabə Muradova bu evdə yaşamışdır" sözləri yazılsın. Bu, onun ruhuna da xoş olardı...

1998-ci il

GÜLÜ XAR OLMUŞ GÜLXAR HƏSƏNOVA

Üzeyir bəyi valeh edib

... 1942-ci il idi. Filarmoniyada tanınmış opera müğənniləri Xanlar Haqverdiyev, Şirzad Hüseynov və Münəvvər Kələntərlinin iştirakı ilə konsert verilirdi. Üzeyir bəyin tapşırığı ilə gənc Gülxar da tədbirə dəvət olunmuşdu. Sən demə, bu, onun üçün bir sınaq, ən böyük imtahan imiş.

Beləliklə, konsert başlanır. Əvvəlcə "Kürdü-Şahnaz" muğamı ifa olunur, onun ardınca "Qatar"a növbə çatır, daha sonra "Segah" zilə qalxır, nə qalxır! Bəs onun (Gülxar xanımın - İ.H.) növbəsi nə vaxt çatacaq? Niyə axı əvvəlcədən repertuarını xatırlatmadı? Elə bu ara aparıcı Gülxardan soruşur:

- Bəs siz nə oxuyacaqsınız?

- Nə oxusun? Çox fikirləşmir. Bədahətən cavab verir:

- "Bayatı-Şiraz" muğamını.

Nömrəsi elan olunur. Bunun ardınca böyük bir tələş və həyəcan ovqatıyla səhnəyə çıxır. Birdən qulağı "Uzeyir bəy buradadır" sözləri çalır. Bu, onun həyəcanını daha da şiddətləndirir.

Əvvəlcə tar dilə gəlir. Tarzən pərdələrdə gəzişir. Növbə müğənniyə verilir. O, ahəstə bir avazla oxumağa başlayır. Artıq həyəcana son qoyulmuşdur. Salona sakitlik

hakim kəsilir. Gülxar oxuyur. Böyük şövqlə, həvəslə, bütün bacarığı ilə, Budur, son zəngulə! Alqış sədaları salonu təlatümə qərq edir, çəpik səsləri pəncərədən bayıra, küçəyə yayılır. Müğənni baş əyir, dəfələrlə səhnəyə dəvət olunur. Işıqlar yanır. Salon dolu baxışlar ona zillənir. İşıqlı, nurlu, tanış və tanış olmayan baxışlar...

Üzeyir bəy Gülxarı yanına dəvət edəndə, yenidən həyəcan onu aguşuna alır, ürək döyüntüsünü özü aşkar eşidir. Lakin narahatçılığı uzun sürmür. Üzeyir bəy xoş bir təbəssümlə, adətinə uyğun olaraq, əlini nazik bığına çəkib deyir:

- Təbrik edirəm, qızım. Sözünə ara verib əlavə edir: - Amma "Küçələrə su səpmişəm"i oxusaydın, lap qiyamət olardı.

Gülxar özünə gəlir, dili açılır:

- Bilirsiniz, Üzeyir əmi, mən "Qatar" oxumaq istəyirdim, amma məndən qabaq onu ifa etdilər.

Üzeyir bəyin işıqlı siması daha da nurlanır:

- Lap yaxşı oxudun, qızım. Amma sabah operaya gələrsən.

Aktrisanın şah obrazı

Beləcə, Gülxar Həsənova Gənc Tamaşaçılar Teatrından Opera Teatrı səhnəsinə qədəm qoyur və bundan sonra onun yaradıcılıq fəaliyyətində yeni parlaq səhifələr yazılmağa başlayır. Yeni kollektivdə isə ilk rolu "Əsli və Kərəm" operasında Əsli rolu olur.

Amma milli operamızın inkişafı və təşəkkül tapması sahəsində əzmlə çalışan opera müğənnisi dramatik aktrisa, tələbkar pedaqoq, respublikanın xalq artisti Gülxar Həsənovanın adı gələndə, ilkin olaraq onun sənətinin zirvəsi olan, yaradıcılığının şah obrazı sayılan Ərəbzəngi yada düşür. Böyük sənətkar yarım əsrlik səhnə fəaliyyətində müxtəlif obrazları özünəməxsus tərzdə yaratsa da, onların cərgəsində ən uzunömürlülük qazananı elə bu şah obrazdır.

Aktrisanın tərəf-müqabillərisə uzun illər operamızın ünlü sənət xadimləri Hüseynağa Hacıbabəyov, Əlövsət Sadıqov, Xanlar Haqverdiyev, Qulam İsgəndərov, Məmmədtağı Bağırov, Ağababa Bünyatzadə, Canəli Əkbərov və başqaları olmuşdur. Unudulmaz bəstəkar Müslüm Maqomayevin bu ölməz operasında "Şah İsmayıl"dakı Ərəbzəngi obrazını yaratmaq üçün GüIxar xanım nə qədər öz üzərində çalışmış, aramsız məşqlər

etmiş, yaradıcılıq axtarışları aparmış, böyük və tükənməz zəhmətə qatlaşmışdır. Axı Ərəbzəngini tamaşaçılara sevdirmək üçün aktrisadan cəldlik və çeviklik, qılınc oynatmaq, ox atmaq, əlbəyaxa qurşaq tutmaq, güclü biləklərə malik olmaq tələb olunurdu. Çünki bəstəkar bu operasında Ərəbzəngini zəvvar, çapqınçı və başlıcası, Şah ismayıl kimi surətlərlə qarşılaşdırır. Bunlardan əlavə, bu rolun ifaçısı müxtəlif xarakterli musiqi sədaları altında oxumalıdır. Məsələn, Ərəbzənginin səs partiyası hətta muğam improvizələrində belə, yalnız tarın deyil, eyni zamanda: orkestrin müşayiətilə oxumağı bacarmalıdır. Odur ki, güclü səs diapozonu tələb edən bu mürəkkəb obrazı yaratmaq üçün Gülxar xanım xeyli əmək sərf edib və nəhayət, Ərəbzəngini özününküləşdirməyə nail olub.

Bu sahədə rejissorun tövsiyə və məsləhətləri köməyinə gəlmiş, başlıcası isə, fərdi yaradıcılıq imkanlarını səfərbərliyə ala bilmişdir.

Oxucular üçün şübhəsiz, o da maraqlıdır ki, G.Həsənova bu obrazı ilk çıxışından axıra kimi 5 dəfə yeni quruluşda oynamış, 500-dən artıq tamaşasında Ərəbzəngi rolunda çıxış etmiş, aktyor, müğənni hər dəfə də səhnəyə yeni ovqatda, yeni məsuliyyətlə çıxmışdır. Gülxar xanım bu obrazda düz 15 il əvəzedicisiz (dublyorsuz) çıxış etmişdir. Bu obraz sanki görkəmli

sənətkarın boyuna biçilmişdi. Uca qamət, çinar kimi boy-buxun, xasiyyətindəki mərdanəlik Ərəbzəngiyə necə də yaraşırdı?! Onun Şah ismayılla döyüş səhnəsindəki şaqraq səsi, yüksək notlarda gəzişməsi tamaşaçının qəlbinə əbədi həkk olunmuşdur. Bir sözlə, o, Ərəbzəngiyə öz möhürünü vurmuş, bu obrazda öz sözünü demişdi. Elə başqa rollarda da. Məsələn, Leyli ("Leyli və Məcnun"), Şahsənəm ("Aşıq Qərib"), Yengə ("Nərgiz"), Qarı ("Vaqif"), Ana ("Gəlin qayası"), Lalə ("Durna") və başqa obrazlar buna misaldır.

Gülxar Həsənova zirvəsi

Onu da vurğulamağa dəyər ki, Gülxar Həsənova ilk dəfə Ərəbzəngi rolunda tamaşaçılar qarşısına çıxanda, tamaşadan sonra bu obrazı özünəməxsus tərzdə yaratmış, obrazın məşhur Ərəbzəngisi Həqiqət Rzayeva rejissora yaxınlaşaraq etiraf edib ki, mən bir daha Ərəbzəngini oynamayacağam. Qoy bundan sonra onu həmişə Gülxar xanım oynasın...

İllər bir-birini əvəz edib. Milli operamızın səhnəsində Ərəbzəngini başqaları da oynayıb (onların çoxu elə Gülxar xanımın tələbələridir), amma heç biri G.Həsənova yaradıcılığının zirvəsinə qalxa bilməyib.

Hamlet-iki aktyorun "əsəri"

Gülxar Həsənova 1920-ci ildə bəy ailəsində doğulub. Atası İbrahim kişi Tovuz bəylərindən, anası isə Şəmkir bəylərinin nəslindən olub. Atası saza uşaqlıqdan vurğun kəsilib. Evləri daim qonaq-qaralıymış. Atası sazı sinəsinə basıb çalanda, Gülxar da sazın sədaları altında oxuyarmış. Musiqiyə olan həvəsi də elə o vaxtdan onu müşayiət edib. Orta məktəbi bitirən Gülxar xanım arzularının ardınca Bakıya gəlir. Teatr Texnikumunu bitirir. Sonralar görkəmli teatr və kino aktyoru Ağadadaş Qurbanova rast gəlir və onlar ailə qururlar. Hər ikisi Gənc Tamaşaçılar Teatrında fəaliyyət göstərir. Gülxar xanımın həyatının yeni mərhələsi başlayır - Bir-birinin ardınca yeni rollar, sənət eşqi, bir də dünyaya gəlmiş yeni körpə - oğlan uşağı...

Bəli, iki böyük sənətkar Hamleti dünyaya gətirir. Hamlet Qurbanovu. Bu yeganə övlad sonradan ananın yeganə təsəllisinə çevrilir.

Müharibə onun 3 qardaşını da uddu...

Böyük Vətən müharibəsi Gülxar xanımın da ailəsinə bədbəxtlik, fəlakət gətirir. Onun 3 say-seçmə qardaşı müharibənin alovlarına atılır. Ölüm kabusu olan müharibə hər 31 qardaşı - Həmid, Səlim və Nazimi udur - heç biri geri qayıtmır. O vaxtdan 3 ağır dərd Gülxar xanımın

qəlbində dünya boyda daş kimi asılı qalıb. Sonradan ona bir dərd də əlavə olunub. Ümidgahı, gözəl aktyor, əməkdar artist Hamletin vaxtsız vəfatı ona əvvəlki dərdlərini də unutdurub. Oğul dərdi, oğul itkisi qardaş dağından, qardaş itkisindən də yaman olarmış... Cəfakeş ananı yandıran odur ki, oğlu Hamlet barəsində haqsızlığa yol verdilər. Ağır xəstəliyə düçar olmuş sənətkarın müalicəsi üçün qayğı göstərmədilər, onunla maraqlanmadılar, görkəmli aktyorun yaradıcılığını layiqincə qiymətləndirmədilər, necə deyərlər, onun ölümünə, dünyadan vaxtsız getməsinə fərman verdilər. İndi də Hamletdən söhbət düşəndə, səhnəmizin ağbirçəyi qovrulur, yanıb töküür, ana ürəyinin yağı qətrə-qətrə əriyir.

Bu gün əzabkeş ananın təsəllisi Hamletin yeganə varisi - oğlu Səlimdir. İndi onunla nəfəs alır, ömrünün ahıl çağında xəstə və əldən düşmüş sənətkarı yaşadan nəvəsi Səlimdir.

Sənət fədaisi olan Gülxar Həsənovanı tələbələri qayğıkeş, eyni zamanda tələbkar müəllim kimi də tanıyır, sənətin incəliklərinə yiyələnməyə görə, bilik və bacarığını onlardan əsirgəmədiyi üçün onu hörmətlə yad edir, tez-tez müəllimlərinə baş çəkir, vəziyyətilə maraqlanırlar. Tanınmış müğənnilərimiz Zeynəb Xanlarova, Rəsmiyyə

Sadıqova, Səkinə İsmayılova, Simuzər Hətəmova, Sahibə Əhmədova, Canəli Əkbərov, Qəndab Quliyeva və başqaları Gülxarın həmişə çağlayan sənətkar bulağından su içərək pərvazlanıb, sənət zirvəsinə yüksəliblər. Gülxar xanımın həyat vəsiqəsi verdiyi tələbələrindən biri hazırda Los-Ancelesdə yaşayan Ədilə Pirkükdür. Etibarlı tələbə hər dəfə vətənə gələndə, mütləq müəlliminə baş çəkir, onun qayğıları ilə maraqlanır.

Gülxar xanım haqqında nə düşünürlər?

Xalq artisti **Sara Qədimova:**

"... Heç kəs Ərəbzəngi obrazını Gülxar xanım kimi füsunkarcasına yarada bilməyib".

Xalq artisti **Arif Babayev:** "...Gülxar Həsənova opera teatrımızın sütunlarından biri olub"

Mühəndis **Mayıl Əliyev**: "Ərəbzəngi obrazı sanki Gülxar xanım üçün yaranmışdır. Onun görkəmli, məlahətli səsi və aktyorluq sənəti, misri qılınca qurşanması, kişilərlə əlbəyaxa vuruşması, bu əfsanəvi Azərbaycan cəngavərinin bütün hərəkətləri biz tamaşaçıları razı salır".

Professor **Kamal Abdulla**: "... Sən elə indi də Ərəbzəngisən, Gülxar xanım!"

Bəli, hörmətli Gülxar xanım, ömrünün müdrik çağını yaşasan da, indi də Ərəbzəngisən! Yüz il yaşa, sən hələ bizə çox lazımsan. Yeni Ərəbzəngilər yetişdirməlisən...

QIZIL FONDUMUZDAN

ECAZKAR SƏNƏTKAR

Oxu, gözəl, oxu, gözəl, qoy səsin

Ürəyimdə kaman kimi titrəsin!

Deyirlər ki, bu məşhur misraları ölməz sənətkar, xalq şairi Səməd Vurğun Şövkət xanıma ithaf etmiş, şeirə musiqini isə görkəmli bəstəkar, xalq artisti, Dövlət mükafatı laureatı Səid Rüstəmov yazmış, nəticədə böyük üçlüyün misilsiz yaradıcılıq töhfəsi nəsillərə ərməğan olaraq qalmışdır.

Şövkət xanım 1922-ci ildə Bakıda doğulmuş, uşaq yaşlarından musiqiyə həvəs göstərmiş, məktəblərində keçirilən tədbirlərdə öz səsi ilə çoxlarının diqqətini cəlb etmişdi. Sənət aləminə gəlməsinin isə maraqlı tarixçəsi var. Belə ki günlərin birində tale bu balaca, qıvrımsaç qızı böyük bəstəkar, xeyirxah insan Üzeyir Hacıbəyli ilə rastlaşdırır. «Zər qədrini zərgər bilər» məsəli burada tamamilə yerinə düşür. Üzeyir bəy 15 yaşlı yeniyetmə qızı Azərbaycan Dövlət Xorunun kollektivinə dəvət edir. Bu xoru dahi bəstəkar özü yaratmışdı. Beləliklə, gənc Şövkəti böyük səhnəyə gətirən bəstəkar ona ata kimi xeyir-dua verir. Sonralar Şövkət Ələkbərova sənətdə ilk addımlarını belə xatırlayır: «Dördsəsli xorda oxumağım mənə çox şey verdi. Bu gün müxtəlif üslublu, müxtəlif dəst-xətli ansamblların, orkestrin muşayiəti ilə oxuya bildiyim üçün, ilk növbədə, Üzeyir bəyə, onun yaratdığı xora borcluyam».

Peşəkar vokal dərslərini Şövkət xanım tanınmış opera muğənnisi Hüseynqulu Sarabskidən almışdı. Müğənni «Qatar», «Şahnaz», «Segah» kimi muğamlarımızı özünəməxsus ustalıqla ifa edirdi. «Qarabağ şikəstəsi», «Kəsmə şikəstə» və digər zərb muğamlar bu istedadlı muğənninin ifasında yeni həyat yaşayan bənzərsiz sənət inciləridir. Çox mürəkkəb olan «a kapella» müşayiətsiz ifaçılıq üsulu müğənnidən xüsusi bacarıq və səriştə tələb

edir. Şövkət xanım genişimkanlı mürəkkəb parçaların ifasını sənət möcüzəsinə çevirirdi.

Ş.Ələkbərova zəngin xalq musiqimizə, ənənələrə sadiq qalan, eyni zamanda bu nəsillər arasında körpü yaradan istedadlı bir müğənni, böyük sənətkar idi. O, bütün janrlarda misilsiz uğurlar qazanmaqla yanaşı, həm də səhnəmizə, efirimizə özünəməxsus ifa tərzi və yüksək səhnə davranışı və səhnə efir mədəniyyəti gətirmişdi. Kaş bugünkü müğənnilər səhnəyə və efirə çıxarkən Şövkət xanımı xatırlayardılar.

Böyük bəstəkarımız Cahangir Cahangirov söyləyərdi: «İndi şöhrət sahibi olan çox bəstəkarlar Şövkət xanıma borcludurlar. O, böyük müğənnidir, belələri tarixdə az-az yetişir. Bəstəkarların əksəriyyəti çalışırdı ki, yeni mahnılarını Şövkət xanım oxusun. Çünki bu ilk ifa mahnının şöhrət və ömür qazanmasına səbəb olurdu. Musiqi sənətimizin inciləri sayılan elə mahnılar və kantatalar vardır ki, Şövkət xanımdan sonra o əsərlərin ifası demək olar ki, baş tutmamışdır. Belə əsərlərdən biri də möhtəşəm sənət nümunəsi olan «Füzuli» kantata»sıdır. Bu sıraya mən şair Cabir Novruzun sözlərinə bəstəkar Oqtay Kazıminin bəstələdiyi «Məhəbbət» mahnısını da aid edə bilərəm.

O bu boyda bir cahanı yaradıb,

Yeri, göyü, asimanı yaradıb,

İnsan onu, o insanı yaradıb,

Bu dünyanın əlifbası məhəbbət,

Həm ilk nəğmə, həm ilk yazı məhəbbət.

Bu misralarla başlayan «Məhəbbət» mahnısını (mahnının özü böyük bir əsərdir) Şövkət xanımın ifasında dinləyərkən dünyanı çiynində gəzdirən, yeri, göyü, asimanı yaradan məhəbbətin varlığına inanırsan, nikbinliyinə, xoş ovqata köklənir, sevmək, yaşamaq, yaratmaq istəyirsən. Budur Şövkət səsinin qüdrəti, Şövkət səsinin möcüzəsi!

Təbiidir ki, belə mahnılar heç vaxt köhnəlmir, unudulmur, həmişə təzə-tər, təravətli qalır.

Uzun illər keçməsinə baxmayaraq heç bir müğənni belə şedevr mahınları Şövkət xanım kimi tamaşaçıya çatdıra bilmir. Onu mahnının ikinci bəstəkarı da hesab edənlər haqlı idilər.

Doğrudan da o, mahnılara ikinci həyat verir və mahnını uzunömürlü edirdi.

Müharibə və cəbhə konsertləri, qara kağızlar, alqışlar, göz yaşları, təltiflər, ayrılıqlar… Şövkət xanım rəngarəng sənətkar ömrü, çəkilməz bir qadın taleyi yaşadı. Lakin nə şan-şöhrət, nə var-dövlət, nə də müsibətlər onun xanım-xatınlığına, insanlığına, ustadlığına xələl gətirə bilmədi. Yel qayadan heç nə qopara bilmədiyi kimi. Həmişə sayılıb-seçilirdi, möhtəşəm tədbirlərə dəvət aldı. Həmişə də gözəlliyin və sadəliyin özü olaraq qaldı Şövkət xanım.

Azadlıq və müstəqillik uğrunda ayağa qalxan Azərbaycan xalqını 1990-cı ilin 20 Yanvarında işğalçı rus ordusu qanına qəltan elədi. Həmin vaxtlar Almaniyada müalicə olunan Şövkət xanım ağır xəstəlik yatağından qalxıb xalqına yardım etmək üçün 2 dəfə xeyriyyə konserti vermiş, nə həkimlər, nə də dostlar onu, bu vətənpərvər el qızını istəyindən döndərə bilməmişlər.

Şövkət xanım incə ruhlu, ipək qəlbli bir xanım idi. Büllur kimi saf və bənzərsiz səsi onu xalqımızın sevimlisi etmiş, ona ümumxalq məhəbbəti qazandırmışdı. Özündən sonra neçə gənc müğənniyə arxa-dayaq durdu, onları böyük səhnəyə hazırladı. Xalq artisti Aygün Bayramova, əməkdar artistlər Aybəniz Haşımova, Firuzə İbadova və

başqaları sevimli müəllimlərinin onlara göstərdiyi ana qayğısını daim dilə gətirir, ruhuna Ulu Tanrıdan rəhmət diləyirlər.

Şövkət xanım ömrünün 71 yaşında bizi tərk etdi. Zaman keçəcək, gələn gedəcək, amma «Oxu gözəl!» deyən bir səs var ki, o hələ çox səslənəcək. Çünki o səs Vətənin nəğməkar qızı olan Şövkət xanımın səsidir, qəlbinin, ruhunun səsidir.

Bu gün Şövkət sənətini sevənlərə bir təsəlli qalır ki, onun ailəsində nənəsinin adını daşıyan balaca Şövkət böyüyür. Onun da səsi var. Kim bilir, bəlkə yaxın gələcəkdə nənə Şövkəti əvəz etdi nəvə Şövkət. Kim bilir?..

BƏNÖVŞƏ ƏTIRLI, BƏNÖVŞƏ SƏSLI MÜĞƏNNI

Bir səs yayılır ətrafa efirdən, ekranlardan, ürəklərə hakim kəsilir. Qəlbləri riqqətə gətirir, könül xoşluğu yaradır bu səs. Gah həzin pıçıltıya dönüb hissləri titrədir, gah şahə qalxıb dinləyicilərin ürək çırpıntılarını coşdurur, oymaq-oymaq el-obanı, yaxın-

uzaq məmləkətləri dolaşır. 45 ildən artıqdır ki, bu səs beləcə çağlayır, insanın mənəvi dünyasına işıq saçır, onu gah sevindirir, sanki arzularına qovuşdurur, gah da daxili aləminə sirayət edib varlığına, aurasına hakim kəsilir, onu ardınca aparır.

Bu məxmər səsli müğənni Xalq artisti Flora xanım Kərimovadır. O Flora xanım ki, uzun illər ərzində öz bənzərsiz sənəti ilə Azərbaycan mədəniyyətinə layiqli töhfəsini bəxş etmiş, yaradıcılıq dəst-xətti, ifa tərzi, səhnə mədəniyyəti ilə tanınmış, geniş tamaşaçı kütləsinin sevimlisinə çevrilmişdir.

Yaşlı nəslin nümayəndəsi kimi mən Flora xanımın səhnəyə gəldiyi ilk günləri yaxşı xatırlayıram. 1961-ci ildə hərbi xidmətdən yenicə qayıtmışdım. Rusiya ərazisində 3 il xidmət etdiyimdən, Azərbaycan musiqisi üçün təşnə idim. Seyid Şuşinski, Xan Şuşinski, Əlövsət Sadıqov, Şövkət Ələkbərova, Sara Qədimova, Əbülfət Əliyev, Tükəzban İsmayılova kimi xanəndə və müğənnilərin ifalarını yorulmadan dinləyirdim. Yeni bir səs, yeni bir ifa nəzərimi cəlb etmişdi o zaman. Bu, Flora xanımın avazı idi. Bu, incə, məsum baxışlı, gülərüz gənc bir qızın özünəməxsus ifa tərzi idi. Rəhmətlik anası Zümrüd xanım həyatı qədər sevdiyi yeganə qızının istedadı, ifa tərzi barədə sənət adamlarının xeyir-duasını alandan sonra

onun qolundan tutub balaca Floranı mədəniyyət ocaqlarına, konsert salonlarına özü aparıb-gətirər, uğurla başlanan ilk addımlarına uşaq kimi sevinərdu. Flora xanım isə hələ ilk addımlarından ifaçılıq tərzi, repertuar şeçmə səriştəsi, işgüzarlığı ilə seçilir, getdikcə tanınır, yaradıcılığı cilalanırdı. Hər bir yeni mahnı, yeni nəğmə Flora xanımın ifasında tez bir zamanda dillər əzbəri olur, tamaşaçıların qəlbinə yol tapırdı. Hər bir bəstəkar bu gənc istedadlı müğənni ilə yaradıcılıq əlaqəsi yaratmağa çalışır, onun səs imkanlarına uyğun mahnılar yazmağa cəhd göstərirdi. Xalq və bəstəkar mahnılarına repertuarında yer ayıran müğənni 60-80-ci illərdə yaradıcılığının ən məhsuldar çağlarını yaşayırdı. Heç bir dövlət tədbiri bu yüksək zövqlü, incə ruhlu ifaçısız ötüşmürdü. Zəngin repertuar seçməkdə, hər dəfə repurtuarlarını dəyişməkdə əvəzsiz olan Flora xanımın ifa etdiyi saysız-hesabsız mahnılar indi də qulaqlarda səslənir. Onun ifa etdiyi "Bakı, sabahın xeyir", "Saçlarına gül düzüm" adlı mahnılarını kim unudar?

Bu xamm-xatın, məlahətli qadının istedadını görən kinorejissorlar onu filmlərə çəkilməyə dəvət etməkdə heç də səhv etməmislər. Görkəmli kinoxadim, məşhur kinorejissor, Xalq artisti Muxtar Dadaşov məhz bu keyfiyyətlərinə görə Flora xanımı "Mehman" filmində Mehmanın həyat yoldaşı Züleyxa roluna dəvət etdi. Film

ekranlara çıxanda mütəxəssislər gənc aktrisanın ekran yaradıcılığını bəyənmiş, onu yeni ekran əsərlərində görmək arzusunda olmuşlar. Amma təəssüf ki, "Mehman" Flora xanımın ekranda yer aldığı ilk və son filmi olmuşdur.

Müğənninin səs diapazonunu görən görkəmli sənətkarlar ona "Leyli və Məcnun" operasında Leylinin obrazını yaratmağı təklif etmişlər. Aktrisa bu təklifə əsasən həmin rolu hazırlamış və etimadı doğrultmuşdur. Axı yüksək səs tembrinə malik olan müğənnini bu keyfiyyətlərinə görə məşhur Peru müğənnisi İma Sumaka oxşadırlar. Belə musiqi sərrafları, sənət adamları heç də səhv etmirlər. Flora Kərimova sənət yollarında bu cəhətdən özünü təsdiqləmiş, zəngin yaradıcılığı ilə musiqi və sənət dünyamıza öz möhürünü vurmuşdur. Sənətsevərlərə bəlkə də müğənninin onlara məlum olmayan bir keyfiyyəti də xatırlatmaq istəyirəm. Belə ki yüksək musiqi təhsili alan ünlü sənətçi bir vaxtlar həkimliyə olan sonsuz məhəbbətinə görə, Tıbb Universitetinə qəbul olmuş, həkim ixtisası alandan sonra bu sahədə də çalışmışdır. Çox zərif və həssas qadın olan Flora xanım həm də zəkalı, prinsipial, gözəl ziyalıdır. İstədiyinə nail olmağı bacarır, onun qarşısını heç bir maneə, çətinlik ala bilməz. Həmişə öz hüquqları uğrunda mübarizə aparmağı bacaran bu mərd qadın həm də çox

qayğıkeş, nəcib, xeyirxah bir insandır. Sənət yollarında ilk addımlarını atan gənc istedadlara həmişə qəyyumluq etmiş, onların yaradıcılığına güzgü tutmuş, bilik və bacarığını onlardan əsirgəməmişdir. Bu gün neçə-neçə gənc Flora xanımın analıq qayğısından ağızdolusu danışır, yüksək sənətkarlığı qarşısında baş əyir.

Flora xanımın yaradıcılığında duet ifası mühüm rol oynayır. Sənətsevərlər yəqin ki, bir vaxtlar onun görkəmli sənətkar Gülağa Məmmədovla oxuducu duetləri, o cümlədən "Saçlarına gül düzüm" mahnısını yaxşı xatırlayırlar. Həmin unikal lent yazısına bu gün də həyəcansız baxmaq mümkün deyil. Görkəmli sənətkar duet yaradıcılığını bu gün də davam etdirir. Belə ki onun Faiq Ağayev, Aslan Hüseynov, Nadir Qafarzadə və başqa ifaçılarla oxuduğu duetlər bu xanım sənət xadiminin gənclərə daim dayaq durduğuna əyani misaldır. Axı Flora xanımın özü bir məktəbdir. Dərin ensiklopedik biliyə, zəngin həyat təcrübəsinə, musiqi savadına malik olan Flora Kərimovadan yararlanasi, öyrəriləsi çox şey var. Amma təəssüf ki, bütün bunlardan lazımınca istifadə olunmur. Milçək ağırlığında işini dəvə zirvəsinə qaldıranlardan fərqli olaraq, Flora xanım şüarçılıqdan, reklamdan uzaqdır. Çünki bu müdrik qadın ataların "Ağac bar verəndə, başını aşağı əyər" misalını, "Əl tutmaq əlidən

qalıb" və "Sağ əlin verdiyini sol əl bilməməlidir" kimi hikmətlərdən lazımınca xəbərdardır.

Həyatın keşməkeşli yollarında inamla addımlayan, ona qarşı yamanlıqlardan, bədxahların naqis əməllərindən sınmayan, öz qadınlıq qürurunu, mərdanəliyini hər şeydən uca tutan görkəmli sənətkar, Xalq artisti, sənətsevərlərin sevimlisi olan Flora xanım həm də qayğıkeş ana, mehriban nənədir. Dünyalar qədər sevdiyi, sənətdə qazandığı bütün uğurlara görə minnətdar olub ruhu qarşısında baş əydiyi anasi Zümrüd xanımın adını daşıyan qızı Zümrüdü ikiqat məhəbbətlə sevir. Anasının məhəbbətini də qızı Zümrüdə bağlayan Flora xanım onu gəlin köçürəndə hansı hissləri keçirdiyini təsəvvür etmək asan deyil!

Flora xanım haqqında çox deyilib, çox yazılıb, çünki o, bundan da artığına layiqdir. Mən 45 il jurnalist təcrübəsi olan və onun sənətinin, mübarizliyinin vurğunu plan qələm əhli kimi bu məxmər səsli sənətkarın səhnə fəaliyyəti haqqında bu düşüncələr fonunda sənədli bir əsər yazmağı çoxdan qərarlaşdırmışam. Flora xanımın xeyir-duasını gözləyirəm.

2005-ci il

Dekabr 2010/ «Zəriflik»

OQTAY AĞAYEV: “ƏN BÖYÜK QAZANCIM XALQIN MƏHƏBBƏTIDIR”

Nə var, nə yox, Oqtay müəllim?

Onunla söhbətə bu sözlərlə körpü saldım.

- Şükür, yaxşıyam. Ötən il gözlərim qlaukoma xəstəliyinə tutulmuşdu. Həyat işığına həsrət qalmışdım. Dünya işığından məhrum olmaq - bundan ağır faciə ola bilərdimi? Akademik Z.Əliyeva adına Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunun sabiq baş həkimi Qalib İsgəndərov və qlaukoma şöbəsinin müdiri Firəngiz Qədimova gözlərimə təzədən işıq bəxş etdilər, məni yenidən hələ doymadığım həyata qaytardılar.

"Durnalar", "Qaytar eşqimi", "Yadındamı?", “Qayalar", "Sənin bircə təbəssümün", "Abşeron"...

Oqtayın ifa etdiyi mahnılarına hopmuş zəriflik, həlimlik, incəlik, kövrəklik müğənninin öz incə və zərif, həlim və kövrək təbiətindən gəlir. Doğrudan da, O.Ağayev heç bir müğənniyə bənzəməyən ipək kimi yumşaq təbə, qeyri-adi zərifliyə malikdir. O zərif vücuddan axıb gələn şirin, incə səs süzülüb qulaqlara axdıqca, qəlblərə hakim kəsilir, xoş ovqat yaradır.

Beləcə, Oqtay Ağayev düz 43 ildir özünün ecazkar səsi ilə Bakının əsrarəngiz, möcüzəli hissəsi olan İçərişəhərin dolanbac, labrintli dalanlarında, Xəzərin sahilində, paytaxtın küçələrində dolaşır, adamları işləməyə, sevib-sevilməyə, qurub-yaratmağa, yaşamaq uğrunda mübarizəyə səsləyir. Mən deyərdim ki, Bakının hər tinində, hər guşəsində Oqtay səsinin möcüzəsi, o səsin, o avazın rəngi bu gün də dolaşır.

Müğənnini ilk dəfə kəşf edən görkəmli bəstəkar Xəyyam Mirzəzadə olub. Onun bəstələdiyi məşhur "Qayalar" mahnısını birinci Oqtay ifa edib.

MÜĞƏNNİNİN DEDİKLƏRİNDƏN:

- Uşaqlıq dostum Xəyyam Mirzəzadə bir gün məni yaxşı mənada tənbeh etdi:

- Bütün bəstəçilərdən oxuyursan, amma dostundan yan keçirsən. Budurmu sənin vəfan?

Bu haqlı giley məni yaman tutdu və biz Xəyyamgilə getdik. Dərhal pianino arxasına keçdi dostum. Birnəfəsə 5 mahnı çaldı. "Qayalar" mahnısının da "balvankası"nı ifa etdi. Melodiya məni ovsunladı. Xəyyam soruşdu:

- Səncə, bu melodiyaya hansı şair mətn yaza bilər?

Qeyri-ixtiyari cavab verdim:

- Anar!

- Xəyyam Anara zəng etdi. O da razılaşdı. Beləliklə, "Qayalar" tamamlandı. Sonra da dillər əzbəri oldu. Elə bu gün də populyarlığını saxlayır...

İllər arxada qaldıqca, Azərbaycan estradası ulduzunun səs-sorağı sərhədlər adlayır. O vaxtkı bütün sosialist ölkələrində, o cümlədən Kuba, Əlcəzair kimi dövlətlərdə də maraqlı konsert proqramları ilə çıxış edir, Vətənə xoş təəssüratla qayıdır.

Vaxtilə müğənninin təhsil aldığı A.Zeynallı adına Musiqi Texnikumundan söhbət düşür. Bu məqamda Oqtay müəllim fərəhlə söhbətə qoşulur:

1953-cü ildə Süleyman Ələsgərovun direktor olduğu musiqi texnikumuna daxil oldum. Orada bu gün Azərbaycan incəsənətinə özlərinin misilsiz töhfələrini vermiş görkəmli sənətçilərdən Xeynəb Xanlarova, Lütfiyar Imanov, İslam Rzayev, Arif Babayev, Ramiz Quliyev, Habil Əliyev, Ramiz Mirişli, Telman Hacıyev, Məmməd Salmanov kimi sənət adamları təhsil alırdılar. İndi onların hər biri istər müğənni, istər bəstəkar, istərsə

də çalğıçı kimi respublikamıza öz sənəti ilə ad-san qazandırır.

Söhbət səsin tembrindən, gücündən-qüdrətindən, müxtəlif çalarlarından düşür. Oqtay müəllimdən bu məsələyə aydınlıq gətirməsini xahiş edirəm.

- Sizin bu gün Teleradio Verilişləri Şirkətinin qızıl fondunda saxlanılan çoxlu sayda lirik mahnınız var. Niyə sizin ifa etdiyiniz mahnıları başqa müğənni oxumur?

- Mənim səsimin tembri altinodur: Böyük çıxmasın, bu, nadir səsdir. Bu səslə yalnız məşhur müğənni Luçano Tayolenin oxuyur.

- Bu yaxınlarda 65 yaşınız qeyd olundu. Onun 43 ilini Azərbaycanda estradanın inkişafına həsr etmisiniz. Amma hələ də heç bir fəxri ad... (Sözümü kəsir).

- Nə vaxt insafa gəlib məni yada salsalar da sağ olsunlar, salmasalar da. Qaldı yubileyimə, bunun üçun yenə sənət dostlarım sağ olsunlar. Onların hamısına minnətdaram, o cümlədən populyar müğənni Mətanət İsgəndərliyə. Tədbirin təşkilati işini öz üzərinə götürmüşdü.

- Eşitdiyimə görə, kompakt diskinizi buraxdırmısınız.

- Bəli. Xeyirxah adamlardan, sənətimə qiymət verən qeyrətli soydaşlarımızdan Allah razı olsun.

- Arxada qalan illərdən razısınızmı? İtirdiyiniz nə olub, qazandığınız nə?

- Gəl, əzizim, keçənləri

Yada salaq dönə-dönə.

Ötən günə gün çatarmı

Calasaq da günü-günə?..

Bəli, ötən günə gün çatmaz. Günlər aylara, aylar da illərə qovuşub məni ömrümün payız fəslinə çatdırıb. Çox şey itirmişəm bu yaşımda. Amma qazancım da az olmayıb. Başlıcası, ömrümü halallıqla yaşamışam. Gözəl ailəm var - bir oğul atası, iki nəvə babasıyam. Ömür-gün yoldaşım hər cür qayğımı çəkir. Ən böyük qazancım isə qədirbilən xalqımın mənə olan məhəbbətidir.

TANRI ONDAN HEÇ NƏYİ ƏSİRGƏMƏYİB, YAXUD XOŞBƏXTLƏR XOŞBƏXTİ

Bəli, Ulu Tanrı ondam heç nəyi əsirgəməyib, hər şeyi ona səxavətlə bəxş edib: təbii gözəlliyi də, xanım-xatınlığı və zərifliyi də, istedad və işgüzarlığı da, təşkilatçılıq bacarığı və xeyirxahlığı da... Onun qadına və ümumən insanlığa məxsus başqa ən gözəl keyfiyyətlərini də bura əlavə etsək, böyük bir siyahı alınar. Özü isə düzlüyü, kiminsə işinə yaramağı, yəni kiməsə əl tutmağı, olduğu kimi görünməyi, bir sözlə, həyatda ən şirin nemət olan insanlığın, bir də yaxşılığın qalacağını ön plana çəkir və hər yerdə bu keyfiyyətləri meyar sayır. Allah ona həm də bulaq kimi çağlayan həzin və məlahətli səs və bir də xoş, ürəklərə sirayət edən ilıq təbəssüm bəxş etmişdir ki, onları insanlara ərmağan versin, könüllərdə xoş duyğular oyatsın.

Söhbət respublikamızın xalq artisti, efir və ekranımızın xanım-xatın ulduzu Ofeliya Sənanidən gedir. Çoxşaxəli yaradıcılığa malik bu xanım bütün evlərin əziz və sevimlisi, hər gün intizarla gözlədikləri qonaqdır. Konkret olaraq Ofeliya xanım kimdir və necə olub ki, bu qədər məşhurlaşıb? İlk öncə, o diktordur - həm efir, həm

da televiziya diktoru. Diktorluğa xas olan əlamətlər - aydın və səlis diksiya, məlahətli səs çaları, ekran mədəniyyəti Ofeliya xanımda öz əksini tapmışdır. Yəqin bu xanımın sənətinin vurğunu olanlar yaxşı bilir ki, o, tapşırılan mətni oxumur, sadəcə olaraq tamaşaçı ilə söhbət edir. Bununla da onu dinləyənlərin qəlbinə dərhal yol tapır. Ofeliya xanım qeyd etdiyim kimi, çoxcəhətli yaradıcılıq qabiliyyətinə malikdir. Belə ki, o, həm uşaqlar üçün nağıl, hekayə oxuyur, həm də son xəbərləri, teleməclisləri aparır, eyni zamanda, radio tamaşalarında baş rollarda çıxış edir. Həyatının, daha doğrusu, yaradıcılığının bir qolu da kino ilə bağlıdır. Bu cəhətdən təkcə onu demək kifayətdir ki, Ofeliya xanım "Azərbaycanfilm" kinostudiyasında 100-dən çox filmi dublyaj edib, 20-yə qədər filmi dilimizdə səsləndirib. Onun səsi hər hansı bir filmdə öz yapışıqlığı, zərif və incəliyi ilə dərhal seçilir və tanınır.

İki filmdə baş rolda çəkilib Ofeliya xanım. Onun "Dağlarda döyüş" filmindəki Hicran rolu kinosevərlərin yaxşı yadındadır. Maraqlı burasıdır ki, ekran əsərində tanınmış teatr və kino xadimi Möhsün Sənani - onun qayınatası - Hicranın atası rolunda çəkilmişdir. Ofeliya həmin filmdə qazandığı uğura görə tərəf-muqabili olan görkəmli sənətkar Möhsün Sənaniyə borclu olduğunu həmişə etiraf edir. Gənclik illərinin xoş xatirəsinə

çevrilmiş həmin kinofilmi ömrünün ən kövrək çağlarının yadigarı adlandırır.

"Gəlin ocağa çəkər", "Gəlin gəlin olmaz, düşdüyü ocaq onu gəlin edər", "Uşağı bələkdə, gəlini pərdədə" kimi atalar sözləri bütövlükdə Ofeliya xanıma da aiddir. Taleyini bu ailəyə bağlamaq, bu ocağın gəlini olmaq Ofeliya xanım üçün böyük səadət idi. Əsl səadəti, xoşbəxtliyi də məhz Sənanilər ailəsində tapdı Ofeliya xanım. Ömür-gün yoldaşı, bu gün Azərbaycan jurnalistikasının yükünü çiyinlərində daşıyanlardan biri olan Valid müəllimlə birgə yaşayışın təxminən 40 illik tarixi vardır. Arxada qalan illər bu mehriban ailəyə 2 övlad - bir qız və bir oğul, 2 qız nəvəsi bəxş edib. Baba-nənə nəvələrinə baxdıqca qayğısız uşaqlıq illərini yada salır, bəzən kövrəlirlər də. Başqa cür də ola bilməz. Axı bugünkü uşaqların qayğıları başlarından aşır. Çətinlik, qıtlıq, hər sahədə olduğu kimi, sənət adamlarının da həyatından yan keçməyib. Amma başqaları kimi Ofeliya xanım da nikbin ovqatdadır. Əmindir ki, tezliklə böhran vəziyyəti xalqımızdan uzaqlaşacaq, sənət adamlarının, bütün ziyalıların üzü güləcək. Təki belə olsun, Ofeliya xanım.

Ofeliya Sənani yaradıcılığını bütövlükdə 3 qismə - bir-birini tamamlayan, yəni bəzəyən 3 yerə bölmək olar:

radio-televiziya-dublyaj. Hər 3 sahəyə ürəyinin yağını, gözünün nurunu, zehnini əridib qətrə-qətrə və buna görə də hər 3 sahədə uğur qazanıb Ofeliya xanım. Ömür yollarında bu 3 sahənin silinməz izləri qalıb. Nə az, nə çox - düz 20 il "Biləyən"ə, 10 il aparıcısı olduğu "Natəvan"a, 8 il "Səhər görüşləri"nə həsr edib bu günə gəlib yetişən ömrünü.

Ən böyük hakim olan Zaman Ofeliya xanımın həyatında çox şeyi dəyişib: çox sular axıb ömründən, ad-san sahibi olub, respublikamızın tanınıb-seçilən sənətçiləri cərgəsinə qoşulub - mötəbər məclislərdə aparıcı kimi çıxış edib. Neçə-neçə görkəmli sənət adamını tamaşaçılarla tanış edib. Amma ona sadiq qalan gözəl və məlahətli səsi öz təravətini qoruyub saxlaya bilib. Bir də heç vaxt solmayan gözəlliyi, səs həlimliyi, insanlara münasibəti, peşəsinə olan sevgi və məhəbbəti.

Bəli, Ofeliya xanım sənətinin əsl fədaisidir. Ona görə də illər arxada qalsa da, o, sənətin zirvəsinə ucalmış, daha doğrusu, sənəti onu ucaltmışdır və bu gün o ucalıqda həyat yolunu seyr edir. Seçdiyi peşəyə görə peşman deyil. Bir də taleyini Sənanilər ailəsilə bağladığına görə özünü xoşbəxt sayır. Doğrudan da, Ulu; Tanrı ona hər şey bəxş etmişdir.

Biz də oxucularımız adından Ofeliya xanımı doğum münasibətilə ürəkdən təbrik edib deyirik: Siz efirimizin də, ekranımızın da bəzəyisiniz. Yüz yaşayın, xanım-xatınlığınızla Azərbaycan qadınlığına nümunə olan Ofeliya xanım!

Sözümü Ofeliya xanım haqqında qələmə aldığım şeirin bir bəndi ilə qurtarmaq istəyirəm:

İllər gəlib keçir sənin ömründən,

O gənclik həvəsin yerində qalır.

Sənինlə fəxr edir bu xalq, bu Vətən,

İncə, zərif səsin yerində qalır.

RƏHİM RƏHİMOV - 50

YÜZ YAŞINA DOLASAN!

(DOSTUM RƏHİM MÜƏLLİMƏ)

Yaxın dost, səmimi insan Rəhim müəllim haqqında söhbət düşəndə, ilk öncə, onun ilıq baxışları, xoş təbəssümü, şirin söhbəti, müsahibini özündən razı salması, bir az da çılqınlığı göz önünə gəlir. Doğrudan da, onunla həmsöhbət olmağın özü də bir istirahətdir. Ən dilxor çağında qəlbini bir neçə dəqiqəyə elə ələ alır ki, ürəyin rahatlıq tapır.

Rəhim Rəhimov əsl işgüzar adamdır. 50 illik ömrünü halal zəhmətdə keçirmiş bu adam həmişə çiynini ağır işə söykək etmiş, daim narahat həyat keçirmişdir. O, 50 il əvvəl Hacıqabul rayonunun Nəvahı kəndində el ağsaqqalı, el atası Rafiq müəllimin ailəsində doğulmuşdur. Ali təhsilini indiki Neft Akademiyasında almış, adına Bakı Məişət Kondisionerləri zavodunda ilk dəfə əmək kitabçası açılmışdır. Həmin müəssisədə yük sexinin rəisi, sonra isə EİB baş direktorunun istehsalatın təminatı və satışı üzrə köməkçisi, baş mühəndisin müavini vəzifələrində çalışmışdır. Hazırda "Neftqazavtomat" EİB-də baş mütəxəssis işləyir. Harada işləməsindən asılı olmayaraq həmişə vəzifə borcuna sadiq qalmış, haqq-ədalət uğrunda axıra qədər mübarizə aparmış, neçə-neçə ehtiyacı olan şəxsin hüquqlarını müdafiə etmişdir. Elə bu gün də həmin missiyanı davam etdirir.

Səmimi ailə başçısı, qayğıkeş ata olan Rəhim müəllimin evində bir cüt gözəl-göyçək qız balası böyüyür. Ən böyük arzusu qoşa qolu-qanadı olan Nəzrinlə Nigarı xoşbəxt görməkdir.

Rəhim müəllimin dostu-tanışları saysız qədərdir. Əsl dostları da az deyil. Elə ən çətin məqamlarda onların köməyinə, məsləhət və tövsiyələrinə arxalanır. Ən yaxın həmdəmi, könül sirdaşı Zaman Mehdidir. Bu alicənab, ipək qəlbli insan demək olar ki, hər gün Rəhim müəllimlə görüşür, ondan hal-əhval tutur. Belə dostları ilə yubilyar fəxr edir, onlarla öyünür.

Rəhim Rəhimov ömrünün ən gözəl çağını yaşayır, bu gün də gənclik həvəsilə çalışır. İrəlidə onu xoş günlər, uğurlar gözləyir. Biz də "Gələcək gün" oxucuları adından yubilyarı bir daha ürəkdən təbrik edib deyirik: YÜZ YAŞA!

Yubilyarın dostlarından Əli Əmirov, İxtiyar Şirinov, Oqtay İsayev, Mürsəl Əliyev, Musa Qəniyev, Zülfüqar Niftiyev, Rasim Çələbiyev, İlqar İsayev, Vaqif Əliyev, Aydın Allahverdiyev və başqaları da bu təbrikə qoşulurlar.

Sən Dədə Rafiqin oğul payısan,

Bənzədirəm onu uca palıda.

Çatsan da ömrünün 50 yaşına,

Yenə də atanın noğul payısan.

Qayğılar başından aşıb-daşsa da,

Ailə qayğısı birinci olur.

Ən çətin zamanda, çətin məqamda

Ömür-gün yoldaşın yanında durur.

Bir cüt qönçə balan qolun-qanadın,

Onlardır həyatda səni yaşadan.

Onlardır dövlətin, onlardır varın,

Hifz etsin onları ulu Yaradan.

Dar ayaqda çoxlu sadiq dostun var,

Zaman isə sənin yaxın sirdaşın.

Yarım əsri yola salırsan, qardaş,

Hamı deyir: MÜBARƏK 50 YAŞIN!

Həmişə mübariz olmusan, qardaş,

Haqq yolunda başın çəkib qovğalar.

Namərdə qənimsən, dostlara sirdaş,

Üstündən əsməsin heç acı rüzkar.

Hələ toy-düyünlər irəlidədir,

Səni görüm müdrik baba olasan!

Nəvə-nəticəni sayasan bir-bir,

Qocalasan, yüz yaşına dolasan!

2000-ci il

İlk azərbaycanlı SSRİ idman ustası

BİR SİNƏDƏ İKİ ÜRƏK DAŞIYAN QADIN

ZÜLEYXA HACIYEVA

O ömrünün ahıl çağını yaşayır. 25 avqust 1923-cü ildə Bakıda anadan olub. Bu xanım-xatın, nurlu qadın başqaları kimi yaşını gizlətmir. Söyləyir ki, 88-i xırdalayıram. Bu, ömrümdən keçən illərdir. Arxada qalan hər bir illə fəxr edirəm. Hər biri mənim üçün əziz *və* yaddaqalan olan illər ömür kitabımın unudulmaz səhifələridir.

Azərbaycan radiosunun ilk diktor qadınlarından biri. 64 il sərasər onun aydın, səlis və yapışıqlı səsi Azərbaycan efir dalğalarından eşidilib. Şəxsən mən özüm 50 ildən artıqdır ki, bu ürəyəyatımlı səsin vurğunuyam. Hər dəfə efirdən onun səsini eşidəndə, ayaq saxlayır, işimi dayandırıb, axıra kimi onu dinləmişəm. Beləcə, illər arxada qalıb. Züleyxa xanım da yaşa dolub, elə mən də.

Azərbaycan radiosunda çox qadın diktorun səsinə valeh olmuşam. Gültəkin Cabbarlı, Fatma Cabbarova,

Ofeliya Sənani. Amma Züleyxa xanımın həmişə səsi qulağımda səslənir. Nə gizlədim, elə bilirdim ki, yaşı ilə əlaqədar olaraq o da dünyasını dəyişib. Sən demə yanılırmışam. Bu yaxınlarda AzTV-də radio və televiziya gününə həsr edilmiş verilişdə «klassik» radio diktorları arasında onu görəndə, mülayim səsini eşidəndə ürəyim atlandı - sevindim. Yaman sevindim ki, o hələ sağdır, maşallah, gümrahdır. Səsi isə yenə həmin səs - həlim, aydın, ürəyə yatan səs. Deməli, səs qocalmır, dəyişmir. Əlbəttə, o səs ürəkdən su içirsə. Beləliklə, Züleyxa xanımı tapıb onunla görüşmək, «Zəriflik» jurnalının ilk nömrəsində bu unikal qadın haqqında, onun mənalı və şərəfli ömür yolu barədə oxuculara məlumat vermək istəyi keçdi qəlbimdən. Onu da yaxşı bilirdim ki, Züleyxa xanım respublikamızda gimnastika üzrə ilk azərbaycanlı qadındır ki, SSRİ idman ustası olub. SSRİ yığma komandasının üzvü olub, uğurları nəinki postsovet məkanında, dünya idmançıları arasında da dillər əzbəri olub.

Beləliklə, Azərbaycanda idmanın gimnastika üzrə ilk qaranquşu olan Züleyxa xanımın axtarışına çıxdım. Axı o hazırda işləmir, prezident təqaüdçüsü kimi mənalı istirahət edir. Sağ olsun respublikanın əməkdar artisti, tanınmış jurnalist həmkarım Gülşən Əkbərova ki Züleyxa xanımın ev telefon nömrəsini mənə verdi.

...Bu da Züleyxa xanım və mən. Onların səliqə-sahmanlı, rahat mənzilində oturub söhbət edirik.

Yenə Züleyxa xanımın cavan yaşlarında eşitdiyim səsi, asta, xanımanə danışığı, hələ də təravətini itirməmiş, aydın baxışları, incə qaməti, nurani siması.

- Züleyxa xanım, maşallah, səsiniz heç dəyişməyib. Əvvəlki kimi aydın, qəlbə rahatlıq verən həmin səsdir səsiniz, - deyə söhbətə körpü salıram.

- Hə (gülümsünür), səsimdən narazı deyiləm. Amma əlahəzrət yaş işini görür.

Həyatının müxtəlif məqamlarını əks etdirən müxtəlif unikal şəkillər nəzərimi çəkir. Mətləbə keçirəm:

- Züleyxa xanım, başqaları bir işi başa gətirə bilmir, siz isə iki sahədə - həm idmanda (özü də hansı illərdə?!), həm də diktorluq peşəsində misilsiz uğur qazanmısınız.

- Burada təəccüblü bir şey yoxdur, əsası odur ki, ürəkdə təpər və istək olsun, bir də prinsipiallıq.

- Gəlin idman karyeranızdan danışaq.

- İdmana uşaqlıqdan sonsuz həvəsim vardı, xüsusilə gimnastika növünə. Həyatımı idmansız təsəvvür edə bilmirdim. «Dinamo» idman klubunda məşq edir, müxtəlif yarışlara qatılır və uğur qazanırdım. Bütün bu uğurların sayəsində 18 yaşımda gimnastika üzrə SSRİ idman ustası adına layiq görüldüm. Həmin adı daşıyan ilk Azərbaycan qadını idim.

- İdman sahəsində başqa uğurlara da imza atmısınız?

- 1942-48-ci illər arasında 7 dəfə gimnastika üzrə Azərbaycan çempionu olmuşam.

- 1942-ci ildə Moskvada sovet idmançılarının antifaşist mitinqinin iştirakçısı olmusunuz. Bu barədə bəlkə açıqlama verəsiniz.

- 1942-ci ilin avqust ayı idi. Mənə xəbər verdilər ki, respublika MK-nın I katibi M.Bağırov səni yanına çağırır. Matım-qutum qurudu. O vaxt qardaşım Mənsur təyyarəçi idi. Anamla belə fikirləşdik ki, bəlkə o nəsə xoşagəlməz bir iş tutub. Nə isə, böyük həyəcanla məni respublikanın I şəxsinin yanına buraxdılar. O, əl-ayağımın əsdiyini görüb məni sakitləşdirməyə çalışdı. Dedi:

- Qızım, almanlar böyük bir qüvvə ilə Moskvaya Volokalamsk şosesinə yaxınlaşır. Siz, SSRİ idmançıları antifaşist ruhda mitinq keçirməlisiniz. Sən də çıxış edəcəksən. Mənə çıxışımın mətni də verildi. Sonra M.Bağırov əlavə etdi ki, narahat olma, səni Moskvaya aparıb geri gətirəcəklər.

Beləliklə, Moskvaya getdim, mitinqdə də iştirak və çıxış etdim. Sonra da ərizə verdim ki, mən də Moskvanın müdafiəsində iştirak edim. Dedilər sən o cüssənlə düşmən qarşısında nə edə bilərsən? Axı onda heç 18 yaşım da tamam olmamışdı. Odur ki Bakıya qayıtdım.

- Qayıtdınız və yolunuzu bu dəfə Azərbaycan radiosundan başladınız.

- Bəli, dedilər radioya diktor tələb olunur. Getdim. Oxumaq üçün mətn verdilər. Amma mən mətni bir yana qoyub, öz bildiyim sərbəst bir şey oxudum. Bir də gördüm şüşənin o tayında xeyli adam yığışıb. Bayıra çıxan kimi hamı məni təbrik etdi. Gözəl səsin və diksiyan var. Əsl diktorsan! - söylədilər. Nə gizlədim, həmin gün mənim üçün ikiqat bayram idi. Həm ad günüm, həm də diktor kimi işə qəbul olunmağım.

- Deməli, o vaxtdan iki cəbhədə «vuruşmağa» başladınız.

- Bəli, tükənməz enerjim vardı, dağı dağ üstə qoymağa qadir idim. Yorulmaq nə olduğunu bilmirdim. Həm idmanla məşğul olmaq, həm diktor fəaliyyəti, üstəlik də, evdə 2 qız uşağının qayğısını çəkmək. Bütün bunların hamısına vaxt tapırdım.

Züleyxa Hacıyeva radiodakı uzun və ardıcıl fəaliyyətinə görə, 1979-cu ildə əməkdar artist adına layiq görülüb.

Züleyxa xanım peşəkar diktor olmuşdur. Oxuyacağı uzun mətni, yaxud məruzəni bir dəfə gözdən keçirən kimi onu dərhal səhvsiz oxuyub başa çatdırırdı. O, Bakı şəhərinin ictimai həyatında da fəallıq göstərmiş, bir sıra vəzifələrin öhdəsindən bacarıqla gəlmişdir. Belə ki bir müddət Bakı şəhər Bədən Tərbiyəsi və İdman Komitəsində kadrlar üzrə baş inspektor, 1952-1954-cü illərdə yenə həmin Komitədə sədr müavini kimi məsul bir vəzifəni şərəflə yerinə yetirmiş, dəfələrlə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə mükafatlandırılmışdır. 1971-ci ildə XIII çağırış rayon sovetinin deputatı, 2000-ci ildə «əsrin ən qabaqcıl idmançısı» adına layiq görülmüş, II və III Azərbaycan Respublikası Qadınlar qurultayına nümayəndə seçilmişdir.

Azərbaycan Televiziya və Radio Komitəsində təqaüd yaşına çatmış əməkdaşları işdən azad edirlər. Züleyxa xanımı da həmçinin. Bundan bir müddət sonra hansı tədbirdəsə Züleyxa xanım nakam şair Mikayıl Müşfiqin məşhur «Yenə o bağ olaydı» şeirini böyük bir ilhamla ifa edərkən verilişi Teleradio Komitəsinin o vaxtkı sədri Nizami Xudiyev izləyir və Züleyxa xanımın çıxışından təsirlənir, onun hələ komitəyə lazım olduğunu başa düşüb, öz işinin ustası olan Z.Hacıyevanı əvvəlki vəzifəsinə qaytarır.

Züleyxa xanım ömrünün ahıl çağında olsa da hələ potensialları tükənməyib. Belə ki səsi öz yerində qalıb, canı suludur, dərin zəkaya, iti məntiqə malikdir. Yaxşı olar ki, Azərbaycan Radiosunda gənc diktorların hazırlanmasında Züleyxa xanımın hamiçilik köməyindən istifadə olunsun. Söhbət zamanı Züleyxa xanımın özü də buna razı olduğunu bildirdi. Axı Züleyxa xanımın ünvanına müxtəlif xarici ölkələrdən çoxlu sayda məktublar daxil olur. Məktub sahibləri etiraf edirlər ki, biz sizdən Azərbaycan dilini, Azərbaycanın mədəniyyətini öyrənirik.

Müsahibimə müxtəlif qəzet və jurnallar, çoxlu məqalə və şeirlər həsr edir, çoxsahəli fəaliyyətini göstərirlər. Doğrudan da iki sahədə misilsiz nailiyyətlər qazanan

Züleyxa Hacıyeva hər cür tərif və hörmətə layiqdir. Bizim hər birimiz belə qadınlarla fəxr etməli, onları bugünkü nəslə tanıtmalıyıq.

Dekabr 2010/ «Zəriflik» jurnalı

İFA ETDİYİNİZ NƏĞMƏLƏRƏ ŞƏKƏR, BAL QATIRSINIZ, BALOĞLAN MÜƏLLİM?

İSTEDADLI MÜĞƏNNİ, ƏMƏKDAR ARTİST BALOĞLAN ƏŞRƏFOVA

AÇIQ MƏKTUB

Hörmətli Baloğlan müəllim! Bilmirəm şərəflə daşıdığmız adı sizə kim verib, amma o şəxsin uzaq görən fəhminə heyranam mən. Siz həyatda bu adı sənətinizlə həm məcazi, həm də müstəqim mənada layiqincə doğrultmusunuz. Belə ki sizi canından artıq

sevdiyi Şükufə ana üçün, doğma el-oba, xalq, millətdən ötrü Bal oğlansınız. İfa etdiyiniz nəğmələrə şirinlik, bal qatdığınıza görə bu ad sizə necə də yaraşır! Sizin özünüzə, sənətinlzə olan dərin hörmət və rəğbətə görə, tərcümeyı-halınıza kifayət qədər bələdəm. Yaradıcılığınızı, repertuarınıza daxil etdiyiniz hər bir yeni mahnınızı bir-bir izləyir, təzə nəğmələrinizi boyük bir intizarla gozləyir, televiziya kanallarında çıxışlarınıza nəfəs dərmədən qulaq kəsilirəm.

Bədəlanda bir oğlan uşağı dünyaya gəldi

Bilirəm ki, mənalı ömrünüzün 58-ci baharını yaşayırsınız. Qızılı payızda barlı-bərəkətli, toy düyünlərin şıdırğı çağında, gənclərin səbirsizliklə gözlədikləri payız fəslində - oktyabrın 8-də Masallıda doğulmusunuz. Talış dağlarının ətəklərinə sığındığı axar-baxarlı Bədəlan kəndində. Necə deyərlər, adımza kəsilən yeddi qurbandan sonra ailənizə - el-obaya dünya boyda sevinc bəxş etmisiniz. Atanız Xanoğlan müəllim gözaydınlığına gələnlərə 7 gün, 7 gecə qonaqlıq verib, plov qazanları dolub-boşalıb, qapınız bir növ ziyarətgaha çevrilib. Üstünüzdə yarpaq kimi əsiblər. İstəyiblər yel əssin - sizə

dəyməsin, yəni yanınızdan yel ötməsin. Ona görə də adınızı Baloğlan qoyublar. Çünki siz ailənin şirin və yeganə uşağı idiniz. Siz də gündə bir buğda boyu böyümüsünüz. Amma tərbiyənizlə elə beşikdəcə ciddi məşqul olublar. Ataların "Körpəni-bələkdə, gəlini-pərdədə" misalına əməl ediblər. Bu da müsbət nəticəsini verib. Evin, ocağın yeganə övladı olmusunuz. Əziz-xələf böyümüsünüz. Amma atanız sizi hərtərəfli: gözüaçıq, bacarıqlı, diribaş, bir sözlə, nümunəvi uşaq kimi görmək istəyib. Sizin üçün evdə hər cür şərait yaradılıb. Uşaqlıqdan sizdə olan fitri istedadınızı, dərin uşaq təxəyyülünüzü, müşahidə qabiliyyətinizi görən valideynləriniz Yaradana dua ediblər. Musiqiyə olan dərin marağınız hər şeyə üstün gəlib. Bunu görən Xanoğlan müəllim sizə qarmon alıb. Meylinizi bu musiqi alətinə vermisiniz. Elə bu məqamdan da sizin sonrakı geniş sənət yolunuza cığır açılıb. Aylar illərə calandıqca qarmona daha sıx bağlanıbsınız. Təhsillə paralel musiqi ilə də müntəzəm məşğul olmusunuz. Oxuduğunuz məktəbin şagird və müəllim kollektivi istedadınızın canlı şahidi olub, hər çıxışınızı alqışlarla qarşılayıblar. Üstəlik, Tanrıdan ərməğan olan səsiniz sizi uğurlu gələcəyə aparıb. İstedadınız doğulduğunuz Bədəlan kəndinin hüdudlarına sığmayıb. Sorağınız Masallı rayonunda həyata keçirilən müxtəlif tədbirlərdən gəlib. Beləliklə, rayonda düzənlənən

bütün tədbirlər sizin bilavasitə fəal iştirakınızla sona yetib. Masallılılar sizin simanızda gənc bir istedadın hər çıxışını alqışlarla qarşılayıb və gələcək sənət uğurlarınıza inanıblar.

Ölkə paytaxti istedadlı bir gənci qəbul etdi

Bəli, uzaqgörən yerlilərinizsəhv etməmişdilər, Baloğlan müəllim! Sizin sonrakı uğurlarınız, daha doğrusu, Masallıda atdığınız ilk inamlı addımlarınız da bunu təsdiqlədi. Və sübut etdi ki, sənət aləminə yeni bir istedad gəlib - öz səsi, öz nəfəsi, öz dəst-xəttilə başqalarından fərqli cəhətdən seçilən bir istedad.

Ölkə paytaxtı Bakı şəhəri sizi yaradıcılığınız üçün xas olan bu keyfiyyətlərlə qarşıladı, paytaxt tamaşaçıları televiziya ekranlarında həmin amillərə görə ifanızı bəyəndi. Müxtəlif dövlət tədbirlərinə, el şənliklərinə sıx-sıx dəvət olundunuz. Və tamaşaçılar həmişə "Oxuyur Baloğlan Əşrəfov" sözlərini səbirsizliklə izləməyə başladılar. Məlumdur ki, müğənniliyə uğur gətirən əsas amillər zəngin və maraqlı repertuar seçimi, yəni tamaşaçıları razı salan yeni və retro mahnıları, səhnə

mədəniyyəti, canlı ifadır. Sizin xoşbəxtliyiniz ondadır ki, bu saydığım amillər bütövtükdə sizin yaradıcılığınızda öz əksini tapıb. Siz səliqə-sahmanlı müğənnisiniz, hər mahnını repertuarınıza daxil etmirsiniz. Mahnının mətni üzərində xeyli işləyirsiniz, yəni yalnız sığallı sözlərdən, ürəyə yatan, dərin məna və məzmun kəsb edən mətinlərdən yaranmış mahnıları qəbul edirsiniz. Bayağı, şit, yersiz pafos toplusundan yaranmış mahnıları yaxın buraxmırsınız. Düz də edirsiniz. Bir də axı siz ali savadlı filoloqsunuz. 6 ildən artıq doğma rayonunuzda müəllim işləmisiniz, yəni söz sərrafı, söz xiridarısınız. Sözün vəznini- ölçü-biçimini məna çalarlarını, məzmun yükünü dəfələrlə yoxlayan sənətkarsınız. Axı siz dilimizin saflığı, təmizliyi uğrunda daim mübarizə aparmısınız. Bu cəhətdən çox sənətkara nümunəsiniz. Üstəlik də şair təblisiniz. Özünüzü şair hesab etməsəniz də, qələminizdən çox şeir nümunələri çıxıb. Ona görə də ifa etdiyiniz nəğmələrin mətnindəki sözləri elə nizamla qəlibə düzüb, tamaşaçıya aydın və səlis çatdırırsız ki, sizi dinləyənin qəlbinə yol tapırsınız. Nə yaxşı ki "Şəhriyar" adlı ansanbl yaradıb, əsasən gənc və istedadlı musiqiçiləri ora cəlb etmisiniz. Düz 21 ildir ki, bədii rəhbəri olduğunuz "Şəhriyar" respublikamızı qarış-qarış gəzir, soydaşlarımıza mənəvi zövq verir. Orası da fərəhlidir ki, ilkin olaraq siz, məhz siz otaylı-butaylı Azərbaycanın

böyük şairi Məhəmməd Hüseyn Şəhriyara, onun yaradıcılığına hörmət əlaməti olaraq hələ o illərdə - sovet imperiyasının Domokl qılıncının başımız üzərində tüğyan etdiyi illərdə Şəhriyarın adını ölkəmizdə əbədiləşdirdiniz. Bundan cəsarətlənən başqa qurumlar da sonradan məşhur «Heydər baba» poemasının müəllifinin şərəfinə mədəniyyət sarayı və başqa obyektlərin adı verildi.

Orası da yadımdadır ki, bir vaxtlar bəzi nadanlar irad tuturdular ki, guya sizin oxuduğunuz mahnılarda, "Şəhriyar" ansablının ifa etdiyi melodiyalarda fars ladları, fars nəfəsi var. Hələ onu demirəm ki sizə ara müğənnisi damğası vurub ekrana çıxmanızı yasaq edirdilər. Belə ki sizin aylarla ekranda görünmənizə qadağa qoyurdular. Nə yaxşı ki sənətə olan tükənməz məhəbbətiniz sizi sındırmadı, nikbin ruhunuzu qıra bilmədi. Beləliklə, sizin uzaqgörənliyiniz bəhrəsini verdi. Allahın varlıqı gec-tez köməyinizə gəldi, haqq yerini tutdu, yəni haqq nazildi, amma üzülmədi. Böyük bir ilhamla ifa etdiyiniz "İtən eşqim" mahnınız sovet rejiminin saxta pafosuna düz gəlmədiyi üçiin (güya "itən eşqim" kəlməsi sovet rejiminə yad idi) qarşınıza sipər çəkir, sizi incidir, tamaşaçılarınızdan təcrid etməyə cəhd göstərirdilər. Amma siz də üsullu hərəkət etmək qərarına gəldiniz. Belə ki rejimə uyğun gələn mahnıların cərgəsinə qəlbinizin

səsinə, ruhunuza cavab verən öz mahnılarınızı qoşmaqla vəziyyətdən çıxa bildiniz.

Baloğlan müəllim, aramızda kifayət qədər yaş fərqi var. Mən 70-i haqlamaqdayam. Özüm musiqiçi, müğənni olmasam da (düzdür, cavanlığımda tar dınqıldatmışam), musiqi mənim həyatımdır. Ümumiyyətlə, ədəbiyyat və incəsənətə bağlıyam. Klassik musiqiçilərimizin, müğənnilərimizin heç olmasa bir mahnısı yadımdadır. Düzdür, bəzən yaddaşım üstün gəlir - məni aldadır. Amma Bülbülün "Sənsiz"i, Rəşid Behbudovun "Ana"sı, Xan əminin "Şuşanın dağları"nı, Şovkət xanımın "Dərələr"ini, Sara Qədimovanmı "Bulaqda qaldı"sını, Rübabə Muradovanın "Qara gilə"sini, Tükəzban xanımın "Sənin vüqarın mənəm"ini, Fatma Mehrəliyevanın "Kəsmə şikəstə"sini, Rəsmiyyə Sadıqovanın "Simayi Şəms"ini, Məmmədəli Əliyevin kor ərəbin mahnısını, İslam Rzayevin "Zərif gülüşlüm"ünü, Zeynəb Xanlarovanın "Qal, sənə qurban"ını, Nəzakət Məmmədovanın "Heç küsməyin yeridirmi"sini, Əlibaba Məmmədovun "Ürək deyir yaşa hələ"sini, Gülağa Məmmədovun "Ana Kür"ünü, Anatollu Qəniyevin "Badamlı"sını, Elmira Rəhimova ilə Yaşar Səfərovun "Həyat, söylə, sən kiminsən?" duetini, Oqtay Ağayevin "Gəl qaytar eşqimi"ni, Yalçın Rzazadənin "Bakı, sabahın xeyir"ini, Flora Kərimovanın "Sənin gülüşlərin"!, Zaur Rzayevin

"Cavanlığım"ını, Məmmədbağır Bağırzadənin "Azərbaycan oğluyam"ını, Nisə Qasımovanın "Gözləyəcəyəm"ini, Azərinin "Çırpınırdın, Qara dəniz"ini... yaddaşıma əbədi həkk etmişəm. Sizin isə repertuarınıza daxil etdiyiniz bütün mahnılar ürəyimcədir. Ancaq etiraf edim ki, "Ay uçan quşlar" mahnınızı məhz sizin ifanızda bütün gün ərzində dinləməkdən bezmərəm. Həmin mahnıya siz öz mötəbər möhürünüzü əbədi vurmusunuz. Ümumiyyətlə, sizin repertuarınızdakı mahnılar yalnız sizin ifanız üçündür. Başqa ifaçılar onların öhdəsindən gələ bilməz.

Ustadına kəc baxanın...

Siz xoşbəxt sənətkarsınız. Ona görə ki tamaşaçı heç vaxt sizdən narazı qalmayıb. Həmişə səhnəni tamaşaçıların gurultulu alqışları altında tərk etmisiniz. Mən sizi daim axtarışda olan, yenilik eşqi ilə alışıb-yanan, novator, improvizator sənətkar kimi sevir və təqdir edirəm. Hər mahnıya yeni can, yeni qan, yeni ovqat verən bir yenilikçi sənətkarı necə sevməmək olar?

Siz ziyalı ailəsinə mənsub olduğunuz, özünüz də əsl ziyalı sənətkar kimi uzun illər sənət meydanında öncül sənətkar kimi fəaliyyət göstərdiyinizə görə, vaxtilə sənət yolunda püxtələşmənizdə sizə mənəvi dayaq olan, sənət sirlərini öyrədən ustadlarınız qarşısında həmişə səcdə edir, onların himayəsini dönə-dönə yada salırsınız. Bu yolda ən böyük müəlliminiz korifey sənətkarımız, Azərbaycan mədəniyyətinin yüksəlişində öz zəhmət payı olan mərhum xanəndə və müğənni, xalq artistimiz İslam Rzayevdir. Ruhu şad olsun İslam müəllimin, müqəddəs ruhu sizə duaçı olsun, Baloğlan müəllim! Siz onun sənətkar şinelindən çıxmısınız. Yəni onun sənət səhəngindən (bəlkə də sənət dəryasından ifadəsi daha dürüst olar!) su içmisiniz. Mənim müşahidələrimə görə, İslam müəllimin yetişdirmələri arasında ən çox sizin uğurlarınızdan qürur hissi keçirir, sevinc və fərəhi köksünə sığmırdı. Verdiyiniz hər bir solo konsertinizə mütləq və həvəslə gəlir, konsert salonunun ön sırasında qərar tutur, hər çıxışınızdan sonra sizi sürəkli alqışlara qərq edirdi. Bax, budur müəllimin, ustadın, öz davamçısına qayğısı, mənəvi dayaq və dəstəyi, qəlb genişliyi, başlıcası isə çəkdiyi zəhmətin bəhrəsi. Bağban yetişdirib ərsəyə gətirdiyi meyvənin dadından ləzzət aldığı kimi, sənətkar da yetirməsinin uğurunun canlı şahidi olanda, özünü dünyanın bəxtəvəri hesab edir, qəlbinə yeni təpər gəlir, ömrü uzanır. Elə siz də sağ olun

ki, ustadınızın üzərinizdə çəkdiyi qayğı və zəhmətini hər yerdə yada salıb, əməyini yüksək dəyərləndirirsiniz.

Çünki siz «ustadına kəc baxanın gözlərinə qan damar» atalar sözünün hikmətini yaxşı dərk edirsiniz. Bax, buna deyərəm əsl ziyalılıq, halallıqla yaşayıb ömür sürmək, qədrini bilmək, ustada hörmət və ehtiram!

Səhnə mədəniyyəti

Tamaşaçı qarşısına çıxan hər bir kəs - istər müəllim olsun, istər aktyor, müğənni, xanəndə və aşıq - ilk öncə tamaşaçıya hörmət əlaməti olaraq səhnəyə, yaxud ekran qarşısına çıxarkən, geyiminə, davranışına diqqət yetirməlidir, buna səhnə mədəniyyəti deyirlər. Vaxtilə Şövkət Ələkbərova, Sara Qədimova, Rəşid Behbudov, Rübabə Muradova necə də yüksək zövqlə, eyni zamanda abır-həyalı formada sevimli tamaşaçıları qarşısına çıxardılar. Bu gün də Zeynəb Xanlarova, Könül Xasıyeva, Nəzakət Teymurova, Aygün Bayramova, Gülüstan Əliyeva kimi müğənniləri tamaşaçılar həm də səhnə mədəniyyətinə görə sevir və alqışlayırlar. Baloğlan müəllim, siz də səhnəyə çıxan, özünü müğənni adlandıran

hər bir kəsin birinci növbədə səhnə mədəniyyətinə, geyiminə fikir verməsi barədə dəfələrlə öz fikirinizi bildirmiş, bəzi yoldan keçən təsadüfi şəxslərin də istədiyi forma və qiyafədə səhnəyə çıxdığını dilə gətirir, belə biabırçı hallardan bərk narahatlığınızı ifadə edirsiniz. Bunu nəzərə alaraq söyləməliyəm ki, sizin yüksək zövqlə geyinib səhnəyə çıxmaq mədəniyyətiniz də başqa müğənnilərə nümunə olmalıdır. Görünür siz bu müsbət keyfiyyəti ustadınız İslam Rzayevdən əxz etmisiniz. Axı o rəhmətlik də şıq geyinib, göz oxşayan formada tamaşaçı qarşısına və ya mavi ekrana çıxardı. Bir sözlə, səhnəyə yol tapan səhnə adamı nümunəvi, hər babətdən yaraşqlı və göz oxşayan olmalıdır. Çünki tamaşaçının gözü tərəzidir, o hər şeyi ani olaraq ölçüb-biçir və öz haqlı qərarını verir. Bu cəhətdən postsovet məkanının bir şeyi yaxşı idi ki, ekrana çıxan aktyor və ya müğənni başdan ayağa senzuradan keçirilir, o cümlədən xoşa gəlməyən formada ekrana çıxmaq istəyən müğənninin üst-başı qaydaya salınandan sonra ekrana buraxılırdı. Təəssüf ki, indi bu məsələ unudulub, hər şeyi müğəninin öz zövqünə buraxıblar ki, bu da mədəniyyətsizliyə rəvac verir.

Siz Allahın sevimli bəndəsisiniz, Baloğlan müəllim!

Baloğlan müəllim! Siz Ulu Tanrının ən xoşbəxt və sevimli bəndəsisiniz.

Görünür Allah sizi xoş çağında xəlq edib. Xəlq edib ki, insanlara öz sənətinizlə xoş ovqat bəxş edəsiniz, onların ruhunu oxşayasınız, mənəvi zövq verəsiniz. Elə uğurlarınız da sizə bəxş olunan bu xoşbəxtlikdən yaranır, sizi daim müşayiət edir. Yolunuzda yaşıl işıq yandırır. Elə ilk uğurunuz evinizdən, ailənizdən başlanır. Xoşbəxt ailə başçısısınız. Allahın sevimli bəndəsi olduğunuz üçün hər şeyi sizə ürəyinizcə verib. 4 övlad payı bəxş edib sizə - 2 oğlan, 2 qız! İstəyib ki, Şükufə ananın nəvə cəhətdən gözü doysun və xudanın dərgahına yüz min dəfə şükür eləsin! Necə ki edir də. İndi özünüz də babasınız. Məncə, müğənnilər arasında ən gənc baba olmaq sizin qismətinizə düşüb. Bu da sizin xoşbəxtliyinizə dəlalət edir.

Bir də sizə ona görə Allahın sevimli bəndəsi deyirəm ki, siz ikinci dəfə dünyaya gəldiniz, həyata qayıtdınız və Yaradana min şükür ki ikinci ömrünüzü yaşayır və ikinci nəfəslə yaradıcılığınızı davam etdirirsiniz. Siz bu müqəddəs ana torpağı, onun üzərində qərar tutmuş insanları, bu milləti, bu xalqı canınızdan artıq sevirsiniz. Hamımızdan uca olan Tanrını isə hamıdan və hər şeydən

üstün sevirsiniz. Göründüyü kimi, o sizi siz onu sevdiyinizdən artıq bir məhəbbətlə sevirmiş. Çünki Allah-Təala insanlara buyurur ki, siz mənə bir addım yaxın gəlin, mən sizə iki addım yaxınlaşaram. Ona görə də siz həyatmızın ən kritiq məqamlarınızda, ölümlə mübarizə apardığınız bir zamanda, ulu Tanrı cənab Əzraili sizdən uzaqlaşdırdı - olum, ya ölüm dilemmasını olum üzərində saxladı. Allahın izni ilə xeyirxah insanlar, o cümlədən cənnəti çoxdan özü üçün təmin etmiş Mübariz qardaşımız heçdən-yoxdan peyda oldu, sizə maddi və mənəvi dayaq durdu. Oz təyyarəsində sizi qardaş Türkiyəyə çatdırdı, donor tapıldı və üzərinizdə uğurlu əməliyyat aparıldı. Sizi və sənətinizi sevənlər, bütün Azərbaycan xalqı həmin həyəcanlı günləri böyük üzüntü içərisində keçirdi. Televiziya kanalları, o cümlədən ANS şirkəti sizin səhhətiniz barədə məlumatlar yayımlayırdı. İlk dəfə üzərinizdə aparılan uğurlu əməliyyat barədə də xoş xəbəri bu kanal yaydı. Bütün xalq şok vəziyyətdən xilas oldu. Yuxarıda hər şeyə qadir olan vahid Allah, yerdə isə xeyirxah insanlar və həkimlər sizə yeni bir ömür bəxş etdilər.

Bəli, yeni bir möcüzə baş verdi. XXI qloballaşma əsrinin möcüzəsi! Allah sizi kimə bağışladı - ömrünüzün yarımçıq kəsilməsinə rəva bilmədi, Baloğlan müəllim?! Mənə elə gəlir ki, ilk növbədə, sizin kimi yeganə

övladından doymayan və doya bilməyən, analar anası Şükufə anaya, həmin günlərdə Allahın dərgahında duraraq ətəyindən yapışıb, göz yaşları içərisində onun varlığına və hikmətinə etdiyi fasiləsiz dualarına, ana südünə, övladlarına, şirin-şəkər nəvələrinə. Allah rəva bilmədi ki, onlar boynu bükük yetim qalsınlar! Axı siz ananıza, ailənizə, övladlarınıza, bizim hamımıza, bu qədir bilən xalqa çox lazımsınız. Çünki siz yaradıcılığınızın, sənətinizin ən məhsuldar dövrünü yaşayırsınız. Hələ sizi irəlidə nə qədər uğur gözləyir! Toy-düyünlər, el şənlikləri yolunuzu gözləyir.

İkinci həyat

"Allaha şükürlər edirik ki, əməliyyat nəinki bədən əzalarınıza, heç səsinizə də zərrə qədər xələl gətirməmiş, əksinə, həm bədən üzvlərinizə, həm də səsinizə yenilik, təzəlik, təravət gətirmiş, sizə yeni impuls bəxş etmişdir.

Yeni həyat, yeni yaradıcılıq meydanı! Bəli, əziz Baloğlan müəllim, bu gün sizin qarşınızda yeni yaradıcılıq üfüqləri açılıb. Sizin üzərinizdə aparılan əməliyyatdan sonra Yaşıl Teatr Konsert Kompleksində solo konsert verəcəyiniz barədə xəbəri eşidəndə, doğrusu, narahatçılıq keçirdim Buna hamı kimi, sizin pərəstişkarınız olaraq

mənim də haqqım var idi. Fikirləşirdim ki, xəstəlikdən sonra bu boyda məsuliyyətin altına girmək risk etmək kimi bir şey idi. Hətta şair dostum, sizin yaxşı tanıdığınız Şərafəddin İlkindən bu konsert barədə xəbər də aldım. Dedi ki, hər şey yaxşıdır, Baloğlan müəllim möhtəşəm bir konsert verməyə hazırdır. Məhz bundan sonra nigarançılığıma son qoyuldu. Özüm də konsertin həqiqətən də möhtəşəm keçməsinin şahidi oldum. Doğrudan da əməliyyatdan sonra sizdə yeni bir təbəddülat yaranıb, Baloğlan müəllim. Yeni ovqat, yeni səs, yeni nəfəs, yeni həvəs... Nə gözəl! Bu hamı kimi məni də sevindirir. Əlbəttə, ən çox sevinən Şükufə anadır. Qoy onun gözləri aydın olsun! Oğlunun üzərini alan qara kabus ondan uzaqlaşdı. Yeni həyata başladı ciyərparası. Allah heç anaya oğul dağı qismət eləməsin!

Əziz Baloğlan müəllim! Sizə yeni yaradıcılıq uğurları arzulayıram!

Qoy şəddü-şəkər qatdığınız mahnılarınızın ətri, rayihəsi heç vaxt azalmasın, Baloğlan müəllim. Həmişə beləcə, Bal oğlan qalasınız!

Sağ olun. Sizinlə yeni görüşlərədək!

P.S Baloğlan müəllim! Sizə ünvanladığım bu yazıda bəzi cüzi qeyri-dəqiq məqamlar, faktlar ola bilər. Onlar bilavasitə mənim şəxsi mülahizələrim olduğu üçün qabaqcadan üzr istəyirəm.

2010-cu il.

HƏLƏ DƏ ONUN SƏSİNİN MÖCÜZƏSİNDƏN ÇIXA BİLMİRƏM

OXUDUĞU MAHNILAR İNSANLARI HƏYATA SƏSLƏYİR

Hər bir sənətkar - istər bəstəçi olsun, istər aklyor, yaxud müğənni və xanəndə - çalışdığı sahəyə öz möhürünü vurmaqla tanınır, ürəklərə yol tapır, yaddaşlara həkk olunur, daim xatırlanır. Barəsində söhbət açmaq istədiyim istedadlı müğənni, respublikanın əməkdar artisti, prezident təqaüdçüsü Yaşar Səfərov da belələrindəndir.

Bu sətirlərin müəllifi demək olar ki, onunla həmyaşdır. Müxtəlif bölgələrdə doğulub-boy atsaq da, özümü tanıyandan həmişə Yaşar Səfərovun səsinin-avazının təşnəsi olmuşam. İstər radio dalğalarında, istər mavi ekranda onun şaqraq səsini eşidəndə, həyatda hər şeyi unudaraq, yalnız o səsə qulaq kəsilmiş, o möcüzəli səsin orbitinə düşmüşəm. Y.Səfərov haqqında daha çox məlumat toplamağa çalışmış, hər yeni mahnısını ifa etməsini səbirsizliklə gözləmişəm. Bir sözlə, bu gözəl müğənninin yaradıcılığını daim izləmişəm. Bu vokalçı sənətkar isə zəngin yaradıcılıq bioqrafiyasına malikdir, daha doğrusu, Y.Səfərov Naxçıvan vokal ifaçılıq tarixində, Azərbaycanda və onun hüdudlarından çox-çox uzaqlarda geniş şöhrət tapmış, məlahətli səsi, gözəl ifaçılıq qabiliyyəti, səhnə mədəniyyəti, repertuar seçmə səriştəsilə geniş tamaşaçı rəğbətini qazanmış sənətkardır.

Yaşar Səfərov bir aydan sonra ömrünün 66-ci baharının əlini sıxacaq. O, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan cənnət-məkan Naxçıvanın Şahbuz rayonunun Çayşahbuz kəndində həyata göz açmışdır. Ulu Tanrı bu səmimi və mehriban ailəyə 4 övlad payı - iki oğlan və iki qız vermişdi. Ailənin başıpapaqlısı Abutalıb kişi ömrü boyu mühasib peşəsində çalışmış, ailəni halal zəhmətlə dolandırmışdır. Mühasib olsa da, musiqi, incəsənət vurğunu idi. Onun da gözəl səsi varmış. Lakin sənətinə

əbədi bağlanan Abutalıb kişi oxumaq istedadını üzə çıxarmiayıb.

Yaşar 3 yaşında ikən ailəsi Naxçıvan şəhərinə köçməli olur. İllər bir-bir arxada qalır və gözəl-göyçək, qıvrımsaç, alagöz Yaşarın məktəbə getmək vaxtı çatır. 7 yaşlı Yaşar məktəbli forması, geyib, məhəllələrindəki 5 saylı yeddiillik məktəbin I sinif şagirdi olur. Hələ uşaqlıqdan oğlu Yaşarın səsi və ilk uğurları ilə fəxr edən Abutalıb kişi övladının səsinin cilalanması üçün ona atalıq qayğısını bir belə əsirgəmir.

Yaşar hələ Naxçıvandakı 4 saylı orta məktəbdə oxuyarkən, təhsil ocağının ictimai həyatında fəallıq göstərir, musiqi qabiliyyəti, oxu tərzi, gözəl və məlahətli səsi hamını vəcdə gətirirdi. Bu balaca məktəblinin nadir istedadı məktəbin direktoru işləmiş, qabaqcıl maarif işçisi İdris müəllimin də nəzərini cəlb edir. O, Yaşarı dinlədikdən sonra məsləhət görür ki, şəhərdəki Pioner və məktəblilər evinə gedib Səfər müəllimdən xanəndəliyin sirlərini öyrənsin. Yaşar belə də edir. Burada Y.Məmmədovun rəhbərliyi altında fəaliyyət göstərən "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının aparıcı solistlərindən biri olur. Tezliklə gənc müğənninin səsi-sorağı Muxtar Respublikanın məktəbliləri içərisində sayılıb-seçilir, səsi dinləyiciləri heyran edir. Muxtar

Respublikanın paytaxtında elə bır tədbir olmur ki, Yaşar Səfərov ora dəvət olunmasın. İfa etdiyi "Mən sülhə səs verirəm", "Şirvan", "Barı Naxçıvan", "Dostluq" mahnıları yel qanadlı olub bütün Naxçıvana oymaq-oymaq yayılırdı. Y.Səfərovun ifaçılığında ilk böyük uğuru S.Rəcəblinin, "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı üçün yazdığı "A dostlar" mahnısı qazandırdı. Xatırladaq ki, həmin mahnının lent yazısı bu gün də Azərbaycan radiosunun uşaq fonotekasında saxlanılır.

1954-cü ildə Y.Səfərov Bakıda M.F.Axundov adına Opera və Balet Teatrında keçirilən məktəblilərin yekun konsertində Adil Gərayın "Şirvan" və maestro Niyazinin idarə etdiyi simfonik orkestrin müşayiətilə 500 nəfərlik xorun ifa etdiyi C.Cahangirovun "Partiya" mahnısının solo hissəsini ifa etmək hüququ qazandı. Çıxışı alqışlara səbəb oldu. Laureat adına layiq görülən gənc müğənni o zaman təkcə SSRİ-də deyil, bütün dünyada məşhur olan "Artek" pioner düşərgəsində dincəlməyə göndərilir. Bu, Y.Səfərovun yeniyetməlik dövründə ən unudulmaz və yaddaqalan uğuru idi.

Sonra da Yaşarın Bakı həyatı başlanır və gənc müğənninin qarşısında geniş üfüqlər açılır. İlkin olaraq musiqi təhsilinin qayğısına qalır Yaşar Səfərov. Bu məqsədlə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi

Məktəbinə gəlib çıxır. Lakin yaşı az olduğundan və səsində mutasiya dövrünün başa çatmaması aşkar edildiyindən, Yaşarın sənədlərini onun istədiyi vokal şöbəsinə qəbul etmirlər. Naəlac qalan Yaşar sənədlərini məktəbin xalq çalğı alətləri şöbəsinə (kamança ixtisası üzrə) təqdim edir və uğurla imtahan verib məktəbə qəbul olunur. İxtisas və muğam fənlərindən tanınmış kaman ustası Hafiz Mirzəliyevdən dərs alan Yaşar ifaçılıq qabiliyyətinə görə digər həmkarlarından heç də geri qalmır. I kursu başa vuran Yaşar II kursun əvvəlində fortepianonun müşayiəti ilə "Küçələrə su səpmişəm" xalq mahnısını ifa edərkən birdən qapı açılır, məktəbin direktoru Müthət Əhmədov içəri daxil olur. Yaşarın şaqraq, məlahətli səsi direktoru məftun edir və Yaşarı vokal sinfinə, özü də II kursa qəbul edir. "Sabahdan Firudin Mehdiyevin sinfinə gedərsən" - deyir.

Ömru boyu həsrətində olduğu sevimli peşəsinə gedən yolun qapısı özü taybatay qarşısında açılmışdı Yaşarın. Sevinci yerə-göyə sığmırdı, gözlərinə inanmırdı, əsl möcüzə baş vermişdi. Bəli, möcüzəli səs sahibinin həyatında yeni möcüzə baş vermişdi...

Bu da Firudin müəllim. Yeni tələbəsini mehribanlıqla qarşıladı. Tanrı bu gənc oğlandan heç bir gözəlliyi əsirgəməmişdi. Üstəlik də, əvəzsiz səs. O da Tanrı vergisi

idi. Lirik-tenor səs tembrinə və diapazonuna malik Y.Səfərovun səsləri düzgün tələffüz etməsi Firudin Mehdiyevi çox sevindirmişdi.

Yaşar repertuar seçimində də yenilik aparır. Əgər ilk əvvəl o, Azərbaycan xalq mahnıları və bəstəkarlarının əsərlərini ifa edirdisə, zaman keçdikcə, Yaşar repertuarını Azərbaycan və Qərb bəstəkarlarının klassik operalarından ariyalar və romanslar hesabına zənginləşdirirdi. Belə ki Ü.Hacıbəyovun ("Sevgili canan"), A.Zeynallının ("Balaş"), F.Əmirovun ("Sevil") əşərləri müğənninin repertuarında xüsusi yer tuturdu.

Yaradıcılıq taleyi Y.Səfərovu yeni uğurlara aparırdı. Belə uğurlardan biri də onun 1959-cu ildə Azərbaycan Radio və Televiziya Komitəsinin xor kollektivinə solist olaraq işə qəbul edilməsi idi. Böyük bəstəkar, dirijor və qayğıkeş insan Səid Rüstəmovla müğənninin ilk yaradıcılıq təmasları da elə həmin dövrə təsadüf edir. Elə buradaca qeyd etmək yerinə düşər ki, Səid müəllimin Yaşarın yaradıcılığında və onun sənət aləmində möhkəm addım atmasında müstəsna rolu olub. O vaxt bu müdrik və uzaqgörən insanın Yaşar barədə söylədikləri hələ də müğənninin qulaqlarında səslənir: "Mənim əksər mahnılarımın ilk ifaçıları Şövkət xanım və Gülağa Məmmədov olmuşlar. Sənin səsin çox xoşuma gəlir.

İstəyirəm sən də onların davamçısı olasan". Bu ümidverici sözlər, bəstəkar-sənətkar xeyir-duası gənc müğənninin yaradıcılığına verilən qiymətdən çox, onun üzərinə düşən məsuliyyətdən xəbər verirdi. Bu etimadı doğruldan gənc vokalçı qısa zaman kəsiyində hörmətli muəlliminin "Ağ çiçəklər", "Yollar" "Bənzərsən", "Nə deyim" kimi mahnılarını ilk dəfə səsləndirmiş və lentə yazdırmışdır. Sonra da istedadlı müğənni bəstəkarı məşhur və dillər əzbərinə çevrilmiş "Şeir deyilmi?", "Qurban adına", "Sənindir", "Sevgi mahnısı" "Oxu tar" və s. mahnıları repertuarına daxil etmişdir.

Təməli dahi Üzeyir tərəfindən qoyulmuş Azərbaycan Xalq Calğı Alətləri Orkestri bir çox ünlü sənətkarlarımızın ifaçılıq və yaradıcılıq məktəbinə çevrilmişdir. Bülbül, Rəşid Behbudov, S.Şuşinski X.Şuşinski, S.Qədimova, Ş.ƏIəkbərova, G.Məmmədov, Ə.ƏIiyev T.İsmayılova, Z.Xanlarova və onlarca başqaları çıxış etmişlər. Bu siyahıya Yaşar Səfərovun timsalında yeni bir ad da əlavə olunur.

Orta musiqi təhsili ilə kifayətlənməyən Y.Səfərov o vaxtkı M.ƏIiyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun musiqili komediya aktyorluğu şöbəsinə daxil olur. Həmin illərdə müğənni yaradıcılığının ən məhsuldar çağını yaşayırdı. Sonra da onun Sovet Ordusunda xidməti

illəri başlayır. 3 il keçmiş Leninqrad Hərbi Dairəsinin Mahnı və Rəqs Ansamblında solist kimi fəaliyyət göstərir. Əsgər-müğənni kollektivin tərkibində SSRİ-nin demək olar ki, əksər şəhərlərində, eləcə də xarici ölkələrdə - Kuba, Polşa, Avstriya, Finlandiya və s. şəhərlərdə qastrol səfərlərində olur, adıçəkilən şəhərlərin konsert salonlarında tamaşaçılara Azərbaycan mahnılarından ibarət musiqi çələngi ərməğan edir, bir növ milli musiqimizin təbliğatçısına çevrilir.

1965-ci ildə Bakıya qayıdan Y.Səfərovu istər institutda, istərsə də Dövlət Teleradio Komitəsində mehribanlıqla qarşılayırlar. Yenidən tələbəlik və iş günləri bir-birini əvəz edir. Gərgin zəhmət isə bəhrəsini verir. Bir-birinin ardınca ifa etdiyi mahnılar Yaşar Səfərovu Azərbaycanda dillər əzbəri edir. Bütövlükdə götürsək, indiyə kimi Azərbaycan radio və televiziyanın filmotekasında müğənninin 400-ə qədər lent yazısı saxlanılır. Yaşar Səfərov xoşbəxt sənətkardır ki, Ü.Hacıbəyovdan üzübəri bir neçə Azərbaycan bəstəkar, nəslinin mahnı və romanslarını özünəməxsus ilham və ehtirasla ifa etmişdir. Müğənninin Ramiz Mirişlinin bəstələdiyi və duet şəklində (böyük sənətkar Elmira Rəhimova ilə birlikdə) ifa olunan "Həyat, söylə, sən kiminsən?", "Səadət", "Günəşi gözləyirik", "Ulduzlar", "Xoş səhərlər yaşayır" kimi mahnılar dillər əzbəridir. Bəs

istedadlı müğənninin ifasında C.Cahangirovun "Aylı gecə" və "Süzən qızlar" mahnıları? Ümumiyyətlə, Yaşar müəllim Ramiz Mustafayev və Hacı Xanməmmədovun nakam şairimiz Mikayıl Müşfiqin və Dədə Ələsgərin sözlərinə bəstələdikləri mahnıları özünəməxsus hərarətlə, gənclik eşqilə oxuyub tamaşaçıların ruhunu oxşayır. Həmin ifaları dinlədikcə, Yaşarın səsindəki Batabat dağının vüqarı, Mömünə Xatun məqbərəsinin əzəməti, Naxçıvan bulaqlarının qaynarlığı ürəyinə təpər gətirir, ruhunu oxşayır.

Y.Səfərov gözəl bəstəkar və oranjemançı, Azərbaycan musiqisinin böyük təbliğatçısı, "Dan ulduzu" instrumental ansamblının ilk yaradıcısı və bədii rəhbəri Gülarə Əliyeva ilə yaradıcılıq əlaqələrini, həmin ansamblla çoxsaylı çıxışlarını ömrünün ən gözəl xatirəsi kimi qəlbində qoruyub -saxlayır. İncə ruhlu, xanım-xatın bəstəkar qadının müğənnilərlə işləmək mədəniyyətini həm də unuda bilmir. Bu təvazökar və qayğıkeş qadınla bağlı xoş xatirələri yada saldıqca müğənni də təsirlənir, kövrəlir. Diqqətli dinləyici Yaşar Səfərovun "Dan uldgzu" ilə oxuduğu bir neçə mahnını, o cümlədən "Laçın" xalq mahnısını və "Gülüm, nə yaman gözəlləşmisən"i yaxşı xatırlayır.

Müğənninin xalq artisti Elmira Rəhimova ilə ifa etdiyi mahnı duetləri qeyd etməmək olmaz. Çünki müğənninin vokal yaradıcılığında bu yeni dəst-xəttə Azərbaycanda çox az ifaçı müraciət etmişdi.

Y.Səfərov bu gün də gənclik həvəsilə oxuyur. Müğənninin repertuarında özünəməxsus yer tutan vətənpərvərlik ruhunda yazılrmış mahnılar gənclərimizi Vətənin müdafiəsinə və onu göz bəbəyi kimi qorumağa səsləyir.

Yaşar Səfərov bu gün həm də müəllim, pedaqoq kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində fəaliyyətini davam etdirir. Bu ali təhsil ocağının vokal kafedrasında dərs deyir, kafedranın dosentidir. Bilik və bacarığını, zəngin təcrübəsini gələcək vokalçılara səylə öyrədir, gəncləri həyata hazırlayır, problemləri ilə maraqlanır, imkanı daxilində köməyini onlardan əsirgəmir.

İstedadlı sənətkarın zəngin yaradıçılığı mütəmadi olaraq mətbuat səhifələrində işıqlandırılır. Bu yaxınlarda "Azərnəşr"də çap olunan "Naxçıvan musiqi mədəniyyəti tarixindən vokal ifaçılıq sənəti" kitabında (müəllifi Rafail Kərimovdur) Naxçıvan vokalçılarından biri olan Yaşar Səfərovdan bəhs edən və geniş təhlilli bir material yer

almışdır, müğənni haqqında "Azərbaycantelefilm" Yaradıcılıq Birliyi tərəfindən sənədli film çəkilmişdir.

Sevimli müğənni, əməkdar artist, prezident təqaüdçüsü Yaşar Səfərova bundan sonra da möhkəm cansağlığı, uzun ömür, yaradıcılıq sevincləri arzulayan pərəstişkarı.

YOXLUGUNA INANMIRIQ, FUAD!

Əbədi dostum, professor İbrahim Məmmədovun həyatdan nakam köçmüş sevimli nəvəsi Fuadın xatirəsinə

Dağların qarı mənəm,

Gün dəysə-ərimərəm.

Qəbrimi dərin qazın –

Cavanam-çürümərəm...

Bəli, Fuad bala, sən cavan idin, növcavan idin. 19 yaşın hələ mayın 16-da tamam olacaq. Amma sən artıq həyatda yoxsan. Dünyanı dəyişmisən, bu nahaq, fani dünyadan köç etmisən. Niyə belə etdin-tələsdin, bala?! Kimdən küsdün, kimdən incidin, Fuad? Niyə isti yuvanı-evini, ailəni erkən tərk etdin? Vurğunun, zavalın nə güclü gəldi? Çalma-vurma apardı səni, afla uf arasında, müəmmalı şəkildə gözlərini yumdun bu vəfasız, gəlimli-gedimli, sonucu ölümlü dünyaya. Quş kimi uçdun, yox oldun, qeybə çəkildin. Bu nə gediş idi, bala? Bu nə erkən köç idi etdin, gül bala? Əzrail necə qıydı sənə, ömrün ətirli-güllü bahar çağında həyatına balta çaldı, səni ayırdı bizdən-kirpiyinin üstündə od gəzdirən, səni həyatının mənası bildiyi, adınla-ünvanınla öyünən-qürur hissi keçirən, boy-buxununa, zəkana, nümunəvi davranışına baxıb Allaha şükr edən anandan? Qəlbinə çalın-çarpaz dağ çəkdin, ağlar qoydun onu. 40 gündür Afidə anan qovrulur-qovurğa kimi, qıvrılıb-qıvrılıb yumağa dönüb, çinar qaməti əyilib. 40 gündür nə gecəsi var-nə gündüzü.

Göz yaşları da quruyub artıq. Görünür acı göz yaşları içinə axır, ürəyinin başını

yandırır, tüstüsü təpəsindən çıxır onun. Sinəsinə sənin kimi oğul dağı dəyən ana

bəs necə olmalıdır, oğul?! Bu barədə aşağıdakı bayatı necə də yerində deyilib?!

Əzizim, bala dağı,

Yamandır bala dağı,

Hər dərdə dözmək olar

Dözülməz bala dağı..

Bəs anana rəhmin gəlmədi, Fuad? Axı sən dünyanı onun gözündə görürdün, onu dünyanın ən xoşbəxt qadını, anası etmək arzusu ilə yaşayırdın. Onun alimliyi ilə fəxr edir, hər zaman qulluğunda durmağa hazır idin. Bitib-tükənməyən arzuların qanadında uçurdun. Bəs səni dünyalar qədər sevən professor İbrahim baban? Bu hüznlü günlərdə onun gözlərinə düz baxa bilmirəm, bala! Göz yaşları qurumur babanın. Sənin parlaq gələcəyinə inanır, dərin və işıqlı zəkanla öyünür, cavanlaşırdı. Amma qəfil, nagahan ölümün belini əydi onun, qəddini bükdü babanın, yaman bükdü, dil-dil ötməyə məcbur etdi bu müdrik insanı:

Əzizim, ağlamazdım,

Gülərdim, ağlamazdım,

Bilsəydim vəfan budur –

Sənə bel bağlamazdım.

Onu qınamaq olmaz, Fuad bala! Heç baba ürəyinə nəvə dağı çəkilməsin! Dözülməz dərddir nəvə dağı baba üçün! Səndən danışanda babanın qapqara nəmli gözləri parıldayır, nigaran baxışları məchul bir nöqtəyə dikilir. "Ona öz gözümüz dəydi, qardaş! Qeyri-adi uşaq idi. Allah-Təala ona hər şeyi bəxş etmişdi. Dərin düşüncə qabiliyyəti, uzaqgörənlik, ailəyə, valideynlərə bağlılıq, böyüklərə hörmət, vətənpərvərlik, elmi biliklərə həvəs, ülvi arzularla yaşamaq. Bir şözlə, Fuad özündən çox qabağa getmişdi. Bütün istək və arzularını özü ilə apardı."

Baban düz deyir, Fuad! Sən əsl XXI qloballaşma əsrinin gənci idin. Amalın yalnız təhsil almaq, elm öyrənmək, biliklərə dərindən yiyələnmək, oxuduğun Azərbaycan Dövlət İqtisad Universiteti (II kurs) tələbələrinə nümunə olmaq, sonra da təhsilini xarici

ölkələrin birində (ABŞ) davam etdirib, güclü mütəxəssis kimi ölkəyə fayda vermək, ailənin firavanlığına nail olmaq idi. Sənin qəfil ölüm xəbərini eşidən tələbə həmkarların, ali məktəbin rəhbərliyi şok vəziyyətinə düşmüş, ölümünə, yoxluğuna inana bilməmişlər. Axı inanılası deyildi. Sən sap - sağlam bir tələbə idin. Sabirabadda keçirilən matəm mərasimində 100-ə qədər tələbə dostların iştirak etmiş, məzarın önünə tər qərənfillər düzülmüş, Universitetin rektoru, professor, millət vəkili Şəmsəddin müəllim ailənizə maddi və mənəvi dayaq durmuş, valideynlərinə və babana dərin hüznlə başsağlığı vermişdir. Axı sən özün sağlığında nümunəvi əlaçı tələbə olmağınla bu hörməti qazanmışdın, Fuad!

Sənin iri qara gözlərini, dərin mənalı, məsum, həmişə yol çəkən, intizar baxışlarını, nurlu simanı, ətir iyi saçan gözəl çöhrəni unuda bilmirəm. Bir də vəfatından azca əvvəl sənlə etdiyim telefon söhbətini. Evinizə telefon açdım. Səs gəldi. Dedim:

-Salam, Rəşad (böyük qardaşın).

-Salam, İdris baba, Rəşad deyil...

-Fuad bala, sənsən? Səsini tanımadım, maşallah, əsl kişi olmusan ki!.

- (Gülümsədin)... Necəsiniz İdris baba?

-Yaxşıyam, oğlum. Xoşbəxt ol.

Bəli, Fuad, kişi həddinə girmişdin. Necə də gözəlləşmişdin! Işıqlı çöhrənə baxan bir də baxmaq istəyirdi. Qızların ağlını başından almışdın. Amma sən heç birinə məhəl qoymurdun. Ağır, təmkinli hərəkətinlə yalnız kitablara bağlanmışdın. Hər şeyi ölçülü-biçili, nizamlı görmək istəyirdin. Doğrudan da sən bugünkü gəncliyə əsl nümunə idin, Fuad! Sən nurdan yaranmışdın. Tanrı səni xoş vaxtında xəlq etmiş, sənə ən gözəl insani keyfiyyətləri əta etmişdi. Yaradanın qulu idin sən. Neçə il idi ki əsl müsəlmanlara xas olan tərzdə dəstəmaz alır, namaz qılır, gündə üç dəfə Allahın dərgahında durub, ona səcdə edir, ondan günahlarının bağışlanmasını (bütün günahlardan xali olsan da), ölkədə əmin-amanlığın bərqərar olmasını təvəqqe edir, Allah rizasına oruc tuturdun. Elə Ulu Tanrının ən sevimli bəndəsi olduğuna görə, o, rəva bilməyib ki, sənin kimi müqəddəs bir növcavan bu vəfasız dünyada hər hansı bir qəbahətə yol verib günaha batsın. Ona görə də səni nakam çağında - bəylik otağına girmədən öz müqəddəs dərgahına aparmağı lazım bilib. Onsuz da cənnətməkansan, Fuad, yəni yerin behiştlikdir sənin. Rahat yat! Qoy ruhun valideynlərinə- Afidə anana, Yaşar atana, qardaşın Rəşada, baban İbrahim

müəllimə, onun Yavər qardaşına, yeganə dayın Hikmətə, boynu bükük qalmış xalalarına və əmilərinə duaçı olsun!

Əziz Fuad bala! Yoxluğun kök-köməcli bütün nəslin üçün ağır itkidir. Səni tanıyanlar yoxluğuna inanmır. Elə anan da. Gözü yollarda, qulağı səsdədir onun. Elə bilir indicə dərsdən qayıdıb evə gələcəksən. Sənin yemək payını da çəkib saxlayır. Yoxluğun ana qəlbinə sağalmaz dağ çəkib-ömrü boyu qaysaq bağlamaz bir dağ. Onun yaralı qəlbindən çıxır bu ağılar:

Xırmanda qoydum taya,

Kölgəsi düşdü çaya,

Əzabla oğul böyütdüm,

Zəhmətim getdi zaya!

Başın sağ olsun, Afidə ana, mönnətkeş qadın!

2009-cu il

HƏMKAR SÖZÜ, YAXUD ÇÖRƏYİ DAŞDAN ÇIXANLARDAN BİRİ

Sən demə, ən çətin məsələ yaxşı tanıdığın, hər bir xasiyyətinə özündən artıq bələd olduğun adam haqqında söz demək, söhbət açmaqmış. Özü də həmin adam uzun illər, ömür boyu sənin lə eyni cəbhədə çalışa-külüng vura.

Ona görə çətin məsələdi ki, bilmirsən o yaxşı tanıdığın adamın hansı keyfiyyətini ön plana çəkəsən. Ümumiyyətlə, nədən başlayıb, harada fikirlərinə nöqtə qoyasan. Və səni narahat edən bir də orasıdır ki, görəsən qəlbinə bələd olduğun adama layiq bir söz deyə biləcəksənmi?

Həmin adam köhnə qələm dostum, tanınmış jurnalist, "Qızıl qələm"li yazar Eynulla Umudovdur. "Eşitdim ki, bu günlərdə onun 50 yaşı tamam olub. Doğrusu, buna həm sevindim, həm də təəccübləndim. Niyə? Axı dünənəcən (müsəlmanın "dünən"i bir neçə il deməkdir) hər həftə, bəzən həftədə iki dəfə nəşriyyatda, eləcə də şəhərdə tez-tez görüşdüyüm qaraqaş, qara-göz,

qarasaç, günəşsima, nüfuzedici baxışları olan bu şux qamətli gənc nə vaxt 50 yaşa çatdı? Eh, vaxta nə var ki? Bizimlə hesablaşırmı məgər? Nə tez tarixə çevrilib arxada qaldı o acılı-şirinli, bir az kövrək, bir az qayğılı illər?! Hər dəfə Eyni (mən onu ərkyana belə çağırardım) ilə görüşü səbirsizliklə gözləyərdim.

O zaman hər ikimiz qəzet redaktoru idik. Mən "Məşəl" qəzetinin, o isə "Neft daşları"nın. Həftədə bir dəfə çıxardı qəzetlərimiz, həm də eyni gündə. Səhər tezdən gələrdik indiki "Azərbaycan" nəşriyyatına. Qəzet səhifələnənə qədər bir xeyli söhbət edərdik. Haralardan başlayıb, haralara gedib çıxardıq?! Bilərdim ki, dənizin qoynundan sahilə indicə çıxıb gəlib Eyni. Həftə ərzində suların qoynunda baş verən maraqlı hadisələrdən, tez-tez Xəzərin hirslənib özündən çıxmasından, mavi dalğalarının şahə qalxmasından, həmkarımın dəfələrlə fırtınaya duşməsindən həyəcanla danışdıqca, mən ondan az həyəcan keçirməzdim. Bu vaxt əfsanəvi "Neft daşları"nda çalışanların hünərinə heyran qalardım.

Bəli, həmkarım beləcə, dəfələrlə fırtına ilə üz-üzə gəlmiş, həyatla ölüm qarşısında qalmışdır. Təzəcə sahilə çıxdığından, Eynulladan həmişə dəniz iyi gələrdi. Dəniz küləyi üzünü qarsıdıqca, çox vaxt üz-gözünün,

dodaqlarının dərisi çatlayardı. Həmin "xəstəlik" o vaxtdan onun dodaqlarında "yadigar qalıb".

O vaxtdan çox sular axıb. Eyni də Xəzərə artıq "əlvida" deyib, sahildə "məskən salıb". 50 illik ömrünün az qala yarısını coşğun Xəzərin mavi qoynunda keçirdikdən sonra yenə qəzetçiliklə məşğuldur. Amma bu gün Xəzərdən söz düşəndə, burnunun ucu göynəyir. Yaxın vaxtlarda köhnə iş yerinə səfər etməyi planlaşdırıb. Get, əzizim. Yeni və xoş xatirələrlə qayıt və təəssüratını əvvəlki kimi bizlərlə bölüş. Bilirəm ki, sənin buna mənəvi ehtiyacın var.

Əziz Eynulla müəllim, son illərin çətinlikləri başqa ziyalılar kimi, çörəyi daşdan çıxan biz jurnalistlərin maddi vəziyyətinə də lazımınca "əl gəzdirib". Amma bu barədə söhbət düşəndə, özünü sındırmırsan. Əvvəlki kimi özünü şax tutursan. Fakt isə faktlığında qalır. Amma sən fanatik sənət sahibi olmağınla (elə bizim hamımız) fəxr edirsən. Redaktoru olduğun "And" qəzetinin hər təzə nömrəsini nəzərdən keçirəndə, bir səni görəsən. İlahi, elə bil bir dünya qazancın var!..

Budur sənin kimilərin həyatda qazancı. Sənin də həyatın belədir və sən bütün çalarları ilə bugünkü gün-güzəranınla barışırsan. Bəzən bu yaşayışına (elə sənətinə

də!) tənə edənlərə, yanındam rişxəndlə keçənlərin tikanlı sözlərinə heç məhəl də qoymursan. Yaxşı da edirsən. Vaxtilə əziz sələflərin olan Zərdabi, Mirzə Cəlil, Sabir, Ömər Faiq Nemanzadə kimi cəfakeş jurnalist-yazıçıların qibtəedilməz, lakin ibrətamiz taleləri, gün-güzəranı bu gün biz jurnalistlər üçün də örnəkdir. Ancaq bu yerdə şairin bir təsəlliverici fikir yada düşür: "Qalmaz belə, qalmaz dünya". Bəli, bele qalmaz bu qoca dünya. Bir də axı biz dözümlü xalqıq. Sən isə daha çox dözümlü olmalısan. Axı səni irəlidə gör nələr gözləyir?! Baba olmalısan - 4 övlad atası. Hələ bir dəfə çapmalısan (yeganə oğlun Anar tərəfdən), uç dəfə isə çapılmalısan (üç qız köçürməlisən - xoşbəxt olsunlar!). Ona görə də möhkəm dayanmalısan: bu duruşa tab gətirmək üçün hələ xoş günlərin, müdrik çağların irəlidədir. Gün o gün olsun nəvələrin əlindən tutub eli-obanı oymaq-oymaq gəzəsən. Bir də əsas silahın-səni yaşadan qələmin əlindən düşməsin! Əllərin əsməsin, çörəyi daşdan çıxan dözümlü həmkarım. Beləcə, daha bir 50 yaşayasan!...

2006-cı il

"YOL VERİN - ƏSGƏR GƏLİR"

Hərbi orkestrin ilk qadın solisti

Ömrünü müğənniliyə həsr edən, Azərbaycan musiqisinin yaxın-uzaq məmləkətlərdə təbliği ilə məşğul olan populyar müğənni, xalq artisti Zümrüd Məmmədovanı musiqisevərlərə təqdim etməyə ehtiyac yoxdur. Lakin qeyd etmək lazımdır ki, Zümrüd xanımın müğənni kimi püxtələşib geniş tamaşaçı auditoriyası qazanmasında böyük sənətkar, müğənni və bəstəkar, xalq artisti Əlibaba Məmmədov və onun rəhbərlik etdiyi "Humayun" xalq çalğı alətləri ansamblının müstəsna rolu olmuşdur. Bu ansamblda pərvazlanıb sənət meydanına atılan Z.Məmmədova "Humayun"un tərkibində dünyanın bir çox şəhərlərində qastrol səfərlərində olmuş, repertuar seçmə səriştəsi, səhnə mədəniyyəti, müğənnilik istedadı ilə hər yerdə çoxlu pərəstişkar qazanmışdır.

Xalq və Azərbaycan bəstəkarlannın mahnılarını, muğam və təsniflərimizi Zümrüd xanım özünəməxsus ifadə şaqraq səsilə tamaşaçılara çatdırır.

Günlərin birində bu şux qamətli qadını hərbi geyimdə, Müdafiə Nazirliyinin hərbi orkestrinin müşayiətilə oxuduğunu görəndə, bir qədər təəccüb etdilər. Qadın müğənni hərbi orkestrdə. Bəli, 15 il bundan öncə Zümrüd

Məmmədova xalq artisti Yusif Axundzadənin bədii rəhbəri və dirijoru olduğu Hərbi orkestr kollektivinə solist kimi daxil olur. Təbiidir ki, hərbi qiyafədə. Müğənninin yeni ampluada çıxış etməsi çoxlarına qəribə gəldi, hətta bəziləri ağız da büzdü. Hərbi orkestr hara, qadın hara! Amma Zümrüd xanım eşitdiklərinə "Aslanın erkəyi-dişisi olmaz!" cavabını verdi və həmin orkestrin müşayiətilə bir-birinin ardınca neçə-neçə hərbi-vətənpərvərlik mövzusunda mahnılarla vətənin keşiyində ayıq dayanmış əsgər və zabitlər qarşısında çıxış etdi.

Müğənni söhbət zamanı qeyd etdi ki, mən də bir əsgərəm, Vətənin ağır günlərində hərbi libas geyinərək lazım olan hərbi hissələrdə əsgərlərimizi mübariz olmağa, hər an döyüşə atılmaq əhvali-ruhiyyəsində olmağa səsləyən vətənpərvərlik mahnılarını, marşları oxumağı özümə borc bilir və repertuarıma əsasən belə mahnılar daxil edirəm. Məni həm də muğam və təsniflərin, xalq və bəstəkar mahnılarının ifaçısı kimi tanıyırlar. Ona görə də yeri gələndə, əsgər və zabitlərimizə mənəvi sərvətlərimiz olan muğam və təsniflərimizi, xalq mahnılarını da ərməğan edirəm. Məni və bizim hərbi orkestri bütün hərbi hissələrdə tanıyırlar.

Zümrüd xanım sözünə əlavə edərək deyir: "Hərbi orkestrdə çıxış etməyimdən çox razıyam. Sağ olsun

orkestrin bədii rəhbəri, gözəl musiqiçi Yusif Axundzadəni ki, məndən ilk qadın solist kimi, heç bir qayğı və köməyini əsirgəmir, əlbir yaradıcılıq işimizi uğurla davam etdiririk. 15 il ərzində həm maddi, həm də mənəvi cəhətdən çox şeyə nail olmuşam. Xalq artisti kimi fəxri ad daşıyıram, prezident təqaüdçüsüyəm. Hər dəfə əsgər və zabitlər qarışsına çıxıb hərbi mahnılar ifa edəndən sonra qəlbimdə bir rahatlıq, yüngüllük hiss edirəm, sevinirəm ki, ifa etdiyim, mahnılarla bir müddətə də olsa, onların qəlbini ovundara bilirəm".

Söhbətin sonunda Zümrüd Məmmədova bəyan etdi ki, onun isti ocağı cəbhə bölgələridir, özünü həmişə onların yanında hiss edir. Hər an döyüsə hazırıq. Baş komandanın əmrini gözləyirik. Bir də mənim-hərbi örkestrin tərkibində hərbi libasda mahnı oxumağımı birmənalı qarşılamayanlara deyirəm ki, biz Tomris, Nigar, Həcər kimi qəhrəman anaların qız övladlarıyıq. Düşmənə qarşı mübarizədə heç vaxt ərənlərimizdən geri qalmarıq".

2000-ci il

MILLI QƏHRƏMANLARIMIZ

«Döyüşə getmək istəyirəm…»

Getdi, sözünü də dedi…

Yaşasaydı, aprelin 18-də 38 yaşını qeyd edəcəkdi. Amma yenə qeyd olundu onun ad günü. Ancaq Rasimsiz. Evinə yığışmışdı qohumları, ən yaxın adamları - dost-tanışları, jurnalistlər, Yasamal rayon Veteranlar Şurasının əməkdaşları, bir sözlə, Rasimi tanıyanlar, xatirəsini əziz tutanlar, igidliyi və hünəri, şücaəti və qəhrəmanlığı qarşısında səcdə edənlər.

Beləcə, düz 8 ildir ki,Rasimin doğum gününə yığışanlar ondan söhbət açır, 30 yaşında qırılmış ömrü vərəq-vərəq səhifələnir. Bu qeyrətli Vətən oğlu barədə hamıdan çox şəhid atası, yeganə oğul balasını itirmiş Səxavət müəllim, sinəsinə övlad dağı çəkilmiş möhnətkeş ana hacı Matəb, qəhrəmanın bircə bacısı Sevda xanım və onun həyat yoldaşı daha yanıqlı danışır. Əzizləri Rasimlə bağlı xatirələrini neçə-neçə qalın kitaba sığmayacaq rəşadətindən söhbət açırlar. Sonra da yığışıb, Milli Qəhrəmanın uyuduğu Fəxri Xiyabana - onun ziyarətinə gedirik. Onu dünyalar qədər istəyən bacısı Sevda qardaşını təbrikə gəlib. 38

ədəd al qərənfili Rasimin məzarı üstünə sərir, ona qərənfildən libas geydirir.

Səxavət kişi bir yerdə qərar tuta bilmir: gah oğlunun heykəli yanında durub xəyala dalır, gah başqa şəhidlərə baş çəkir, gah da tənhalığa qapılıb dodaqaltı nəsə danışır: kaş mənə ömründə bircə dəfə kobud çavab verəydi, bir sözümü yerinə yetirməyəydi... Kaş gözü yumulanda, yanında olaydım, kaş bizi bu qədər istəməyəydi... Kaş... Kaş...

Çilovda doğulan Milli Qəhrəman

Rasim Əzizbəyov rayonuna məxsus şəhər tipli Çilov qəsəbəsində ata-babadan neftçi olan Səxavət müəllimin ailəsində həyata göz açıb. Bir qardaş, bir bacı olublar. Rasim uşaqlıqdan hərbi qiyafəsində olmaq həvəsilə yaşayıb. Sonradan Ulu Tanrı da ondan bu sahənin peşəkar əsgəri olmaq üçün heç nəyi əsirgəməyib: ona uca qamət, ciddi nizam-intizam, özünə və başqalarına qarşı tələbkarlıq, vətənpərvərlik kimi lazımi keyfiyyətlər bəxş edib. Odur ki, VIII sinfi bitirəndən sonra C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbə daxil olur. Bu, evdə də rəğbətlə qarşılanır. Oranı müvəffəqiyyətlə başa vuran Rasim təhsilini Bakı Ümumqoşun Komandirlər

Məktəbində davam etdirir. Orada təhsil alır və zabit rütbəsi qazanır, təyinatını isə Almaniyaya verirlər. Beş il orada hərbi qulluq edir. Qəribədir, evin bircə oğlu, o da Almaniyada hərbi xidmətdə. Valideynlər belə arzu edirlər. Sonra isə onlar başa düşdülər ki, yeganə oğul payları olan zabit Rasim İbrahimova vətənimizdə də ehtiyac var. Odur ki, o, Azərbaycana qayıdır. Möhkəm iradəli, polad biləkli, dönməz eloğlumuz respublikanın Hərbi Komissarlığında fəaliyyətini davam etdirir. Sonra da Ağsu Rayon Hərbi Komissarlığında komissarın müavini işləyir. Az vaxtda öz qabiliyyəti, səmimiyyətilə ağsulların dərin hörmətini qazanır. Müharibənin Qarabağ və başqa rayonlarda tüğyan etdiyini görən Rasim İbrahimov qəti sözünü deyir: «Döyüşə getmək istəyirəm!» Odur ki, müharibənin qaynar nöqtəsi olan Füzuli bölgəsinə yollanır. Bundan sonra babası Yəhya kişinin, ata-anasının, bacısı Sevdanın narahat günləri başlanır. Uşaqlıqdan od-alovda bərkiyən Rasim tezliklə Füzulidə könüllülərdən ibarət bir tabora lazım olan silah və döyüş sursatı haradansa özü daşıyıb-gətirir, əsgərlər arasında bölüşdürür. Döyüş qabiliyyətini, polad intizamını, texnikaya dərindən bələd olduğunu nəzərə alıb onu tabor komandiri təyin edirlər. O vaxtdan füzulililər yaxşı bilirlər ki, rayonun taleyi etibarlı əllərə tapşırılıb. Axı zabit öz vəzifəsini bütün incəliklərinə qədər bilirdi. Azərbaycanın bu təpərli zabitinin üstün

cəhətlərindən biri də o idi ki, hirslənmədən, səbir və təmkinlə müsahibini dinləyib lazımi qərar çıxarmağı bacarırdı.

Həmişə qaynar olan, narahat yaşayan Rasim hərbi texnikaya lazımınca bələd olduğu üçün köhnə BTR, tank, top və başqa hərbi texnikanı sökər, döyüşə hazır vəziyyətə salardı. Bütün günü dincəlmədən çalışar, əsgər və serjantları həmişə döyüşə hazır vəziyyətdə saxlayardı. Deyəndə ki, ay komandir, bir az barı dincəlsənə, - cavabı belə olardı: «Vətənin belə ağır günündə dincəlməyə vaxt yoxdur».

Rasimin son döyüşü

…Mayor Rasim İbrahimovun komandirlik etdiyi Füzuli taboru Tuğ kəndi uğrunda döyüşə atılmışdı. Rasimin taborunun irəliləməsi üçün etibarlı atəş dalğası ilə sipər çəkilməli idi. Lakin məlum olur ki, xəyanət törədildiyindən, artilleriya hazırlığı olmadığından, düşmən mövqelərinə bir dəfə də olsun, mərmi, raket zərbəsi endirilmədi. Buna baxmayaraq, Rasimin taboru hücum əmrini yerinə yetirmiş, 2 saat ərzində Tuğ kəndi

yaxınlığındakı "Dırmanabad" adlı yerə kimi beş kilometr irəliləmiş, düşmənin xeyli canlı qüvvəsini məhv etmişdi. Gərgin döyüşdə Rasim ayağından yaralanmasına baxmayaraq, tabora komandirlik etmiş, kəşfiyyatlçılarla birlikdə mühasirəyə düşdüyünü görüb silahını starşinaya verərək onu döyüş meydanından çıxartdırmış, düşmənin əlinə keçməmək üçün özü ilə bir ədəd "F-1" markalı əl qumbarası saxlamış, özünü itirməyərək döyüşçüləri ilə burlikdə kolluğa çəkilərək, ayağındakı gülləni çıxartdırıb, döş cibinə qoymuşdu. Hər tərəfdən düşmənlə əhatə olunmuş igid komandirə: "Özünü partlatma, düşmənə təslim ol, sonra biz səni dəyişərik", - təklifi olunanda, belə cavab verir: - Azərbaycan zabiti heç vaxt düşmənə təslim olmaz.

Bunu deyib Rasim qumbara ilə özünü partladır.

***

Atası Səxavət müəllimin dediklərindən:

Rasim haqqında nə deyim? Hansı xatirəni söyləyim? Elə bil Rasim bir yuxuydu. Gəldi-getdi. Necə böyüdü, necə yaşa doldu, necə iki hərbi məktəb

bitirdi, zabit oldu, necə vuruşdu, necə Milli Qəhrəman oldu – hamısı mənə yuxu kimi görünür.

Amma onunla bağlı bütün xatirələr mənim üçün əzizdir, əvəzsizdir.

****

Anası Matəb xanımın dediklərindən:

- Evdə iki uşaq böyütmüşük. Onlar valideynləri ilə həmişə ehtiramla dolanıblar, arada pərdə olub. **Ataları çox ciddi olduğundan, mənimlə açıq idilər. Rasim istiqanlı, mehriban, əliaçıq oğlan idi. Tikəsini dostları ilə bölərdi. Harada olsaydı, ən geci həftədə bir dəfə zəng vurub halımızı xəbər alardı. Həlak olması mənə iyunun 28-də agah olmuşdu. Ana qəlbidir də. Evdə rahatlıq tapa bilmirdim. Yoldaşım da gedib döyüş bölgəsində onu görə bilməmişdi. Dizlərim qırılmışdı. Sonra da xəbər çıxdı... Nə deyim, Allah bilən yaxşıdır...**

****

Baçısı Sevdanın dediklərindən:

- Məncə, o, məni mən onu sevdiyimdən də çox sevirdi. Mən ondan iki yaş kiçiyəm. Bir növbədə oxuyardıq. VIII sinifdən sonra o, C.Naxçıvanski adına məktəbə daxil oldu. Beləlikiə, yollarımız ayrıldı... Qardaşımın meyitini iyulun 10-da tezdən dayımın maşınında Füzulidən gətirdilər. Maşının siqnalının səsi indi də qulaqlarımda səslənir. İnanmırdım ki, Rasim həlak ola bilər. Elə indi də qardaşımın yoxluğuna inana bilmirəm.

Sevimli bacı, Sevda xanım, Rasim həlak olmayıb, o, əbədilik zirvəsinə ucalıb, ruhu göylərdə pərvaz edir, o ruh sizlərə duaçıdır!

P.S. Aydın Ocağın rəhbərlik etdiyi "XƏZƏR-F" firmasının çəkdiyi Milli Qəhrəman Rasim İbrahimovdan bəhs edən sənədli film aprelin 30-da Az.TV ilə ilk dəfə nümayiş etdirilmişdir. Bu, igid eloğlumuzun əziz xatirəsinə ehtiramın bariz nümunəsidir.

"Gələcək gün" qəzeti,

6.06.2000-ci il

FİKRƏT NƏBİYEV: «BU GÜN DƏ DÖYÜŞƏ GETMƏYƏ HAZIRAM»

Tanışlıq

Çoxdan tanıyırdım onu. Fikrət Nəbiyevi deyirəm mən. Düz 20 il öncə Bakı Elektrik Termik Avadanlığı Zavoduna yenicə gəlmişdi. Gənc kadr kimi. Adına ilk əmək kitabçası da elə bu müəssisədə yazılmışdı. Ali savadıı mütəxəssis-texnoloq olan gənc Fikrət o vaxtkı AzPİ-nin metallurgiya fakültəsinin məzunu idi. Tez-tez redaksiyaya (Mən o zaman Azərelektroterm EİB-də çıxan "Məşəl" adlı qəzetin baş redaktoru idim) gələr, maraqlı yazılarla qəzetdə çıxış edər, təzə yazdığı şeirləri mənə göştərər, məsləhətlər alardı. Bir sozlə, Fikrət "Məşəl"in ən fəal müxbirlərindən idi. Bir faktı da xatırladım. Bir dəfə eşitdim ki, fotomüxbirimiz (milliyətcə yəhudi idi) qəflətən, bizdən xəbərsiz birdəfəlik İsrailə köçüb gedib. Belə bir vəziyyətdə Fikrət əlimizdən tutdu. Fotomüxbir kimi də redaksiyanın karına gəldi. Fikrət Nəbiyev çox çalışqan, bilik və dünya görüşünü zənginləşdirməyə çalışan gənc kimi daim diqqətimi cəlb edirdi. Ucaboy, şux qamətli bu gəncin güclü bilәkləri var idi.

Bir müddət görünmədi bu Fikrət. Öyrəndim ki, hərbi xidmətə çağırılıb, özü də Moskvada qulluq edir. Ancaq onu qınadım ki, nə əcəb mənimlə gəlib görüşməyib? Beləliklə, 1983-85-ci illərdə Moskva şəhərində, hərbi hissədə rota komandirinin siyasi işlər üzrə müavini vəzifəsində çalışıb. Sonra da Rusiya paytaxtında yaşayıb və işləyib. Qazancı da pis olmayıb. Lakin qəriblik ona əl verməyib. Ana məhəbbəti, Vətən həsrəti hər şeyə güc gəlib. Ən başlıcası isə çörəkləri dizinin üstə olan nankor qonşularımızın bizi zorla müharibəyə sürükləmələri, Qarabağ uğrunda gedən qanlı döyüşlər, bir də Xocalı dəhşətləri Fikrət Nəbiyev kimi vətənpərvər bir gənci heç cür rahat qoya bilməzdi.

VƏTƏN ÇAGIRIR...

Bəli, zaman-zaman türk qanına susamış, qızıldan qiymətli torpaqlarımız, yeraltı-yerüstü sərvətlərimiz yuxularına haram qatmış bədnam ermənilər, son bir əsrdə (elə ondan əvvəl də!) dəfələrlə torpaqlarımıza hücum etmiş, qanlı qırğınlar törətmiş, xalqımızın başına olmazın müsibətlər gətirmiş, misli görünməmiş vəhşiliklər törətmişlər. Sonuncu dəfə 1988-ci ildə Qərbi Azərbaycanda yaşayan soydaşlarımızı öz əzəli torpaqlarından vəhşicəsinə qovan ermənilər Qarabağda yaşayan ermənilərə dəstək verərək oradakı soydaşlarımıza

qarşı divan tutmağa başladılar. Beləliklə, Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi yarandı. Növbəti dəfə də qəddarlıq simasını nümayiş etdirən məkrli qonşularımız bir-bir rayonlarımızı işğal etdilər. Qeyrət qalamız olan ulu Şuşa, Laçın, Kəlbəcər... düşmən əlinə keçdi. Sonra da XX əsrin faciəsi, bəşəriyyətə qarşı ən ağır cinayət kimi dünya tarixinə yazılmış Xocalı faciəsi... Bu dəhşətlərdən uzun zaman özünə gəlməyən Fikrət nəhayət, dəli bir nərə çəkir: **«Daha bəsdir! Yetər!** - deyir, - **qaradan o yana rəng yoxdur! Vətənin bu dar günündə kənarda, ondan uzaqlarda qala bilmərəm»...** Və beləcə, o, yad ölkədən Vətənə, onun müdafiəsinə qayıdır. Onu da deyim ki, bu illər ərzində Fikrət kifayət qədər bərkdən-boşdan çıxmış, həyatda bərkimiş, həm fiziki, həm də mənəvi cəhətdən möhkəmlənmiş Fikrət kimi oğullar Qarabağa hava və su kimi lazım idi. Çünki o, özünü qanlı döyüşlərə tam hazırlamışdı. Hərbi texnikaya mükəmməl yiyələnmiş F.Nəbiyev həm də idmanın karate və əlbəyaxa döyüş növlərini mənimsəmiş, onların sirlərinə lazımınca bələd olmuşdur.

MÜHARİBƏNİN YAZILMAMIŞ QANUNLARI VAR

...1993-cü ilin aprel ayı idi. Bir yas mərasimində, daha doğrusu, qəbiristanlıqdan qayıdarkən təsadüfən mənə zillənmiş tanış bir baxışla qarşılaşdım. Gözlərimə inanmadım. Zabit forması geymiş enlikürək, qaynar baxışlı gənc mənə tərəf addımladı. Bu, Fikrət Nəbiyev idi, baş leytenant Fikrət Nəbiyev! Sevincdənmi, bir neçə il ayrılıqdan sonrakı təsadüfi görüşdənmi, bəlkə də keçirdiyim dərin qürur hissindənmi, bilmirəm, gözlərim nəmləndi, kövrəldim. Qucaqldaşıb öpüşdük. Ayaqüstu onun işi-gücü, vəziyyəti, harada olması ilə maraqlandım. Cavabları məni xeyli sevindirdi. Söylədi ki, Ağdam bölgəsində vuruşur, onun xidmət etdiyi batalyon məşhur Qarabağ döyüşçüsü, Milli Ordumuzun cəsur komandiri Şirin Mirzəyevin adını daşıyır. Fikrətlə söhbət edə-edə hiss etdim ki, bu, bir qədər sadəlövh, çox şeyə inanan əvvəlki Fikrət deyil. Ölüm-dirim müharibəsi onu qədərincə dəyişdirib, sözün həqiqi mənasında müdrikiəşdirib, dünya görmüş bir ixtiyara çevirib. O zaman mənə məlum oldu ki, müharibənin öz qanunları var, bəzən yazılmamış sərt qanunları. Sərtlik insanı nəinki bir ildə, hətta bir gündə, lap elə bir saatda da dəyişdirər, əvvəlki şuxluğunu, şən və qayğısız ovqatını "oğurlaya" bilərmiş, elə Fikrət Nəbiyev kimi.

Bu günlərdə köhnə dostum, uzun müharibə yolu keçmiş, Qarabağ uğrunda döyüşlədə böyük mərdlik və sücaət göstərmiş, qayğıkeş komandir, cəsarətli zabit Fikrət Nəbiyevlə "Azərbaycan" nəşriyyatında görüşdük. Məni görməyə gəlmişdi. Doğrudan da, illər öz işini görmüşdü. Fikrət yaşa dolmuşdu. Əvvəlki təravət, şuxluq onu tərk etmişdi. Axı Fikrət ömrünün artıq 48-ci baharına çatmışdı. Mənə avtoqraf yazılmış bir kitab bağışladı. "Siyasi təfəkkür" adlanırdı bu kitab. Müəllifi də Fikrət Nəbiyevin özü idi. Maraqlandım ki, bu nə kitabdır belə? Yoxsa indi də fəlsəfə ilə məşğul olursan? Düz tapmışdım, Fikrət Nəbiyev hazırda elmi fəaliyyətlə məşğuldur. AMEA-da çalışır. Fikrət müəllimin monoqrafiyası, fəlsəfə, politologiya, siyasətşünaslıq, dövlət və hüquq nəzəriyyəsi fəndləri tədris olunan ali məktəb müəllimləri və tələbələri üçün bir tədris vəsaitidir.

Sonra F.Nəbiyev mənə iki kaset verdi. "Buyurun, baxarsınız, - dedi. Sonra fikrinizi deyərsiniz". Hər iki kasetə baxdım. Az.TV-1 lentə alıb. Elə bu yaxınlarda. Sənədli filmlər belə adlanır: "Azərbaycan Silahlı Qüvvələri", "El bir olsa..." Kino-lentlər Fikrət Nəbiyevə, onun döyüş yoluna, göstərdiyi şücaətə həsr olunub.

QARABAĞ DÖYÜŞLƏRİ XATIRLANIR

Qeyd edim ki, Fikrət Nəbiyev düz 6 il - 1991-1996-cı illərdə Azərbaycan Milli Ordusu tərkibində döyüş bölgəsində olmuş, tabor komandirinin müavini, divizyon komandirinin müavini və divizyon komandiri vəzifəsində xidmət göstərmişdir. Döyüş yolu Ağdam və Beyləqandan keçmişdi. Əvvəldən qeyd etdiyim kimi F.Nəbiyev həm də idmanın karate və əlbəyaxa döyüş növünə lazımınca yiyələndiyinə görə, təkcə Ağdam döyüş bölgəsində 2000-dən çox əsgər və zabitin mənəvi və fiziki cəhətdən döyüşə hazırlanmasında fəallıq göstərmişdir. Hər dəfə məşq dövründə döyüşçülərin qol və ayaq zərbələrinin dalğası düşməni lərzəyə salardı. Əsgərlər istənilən anda düşmənlə əlbəyaxa döyüşə girməyə hazır idilər. Məhz onların belə döyüş hazırlığı uzun müddət Ağdamın erməni birləşmərinin zəbt etmələrinə imkan verməmişdir.

İ.İbadoğlunun "Sərkərdə" adlı kitabında ("İşıq", 1995 səh. 131) F.Nəbiyevin öz ifadəsi ilə söylədiyi hadisənin bir yerində belə deyir: "Tam silahlanıb savaş meydanına yollandıq. Düşmən Qaralar və Əliağalılar kəndinə doluşmuşdu. Daxili xidmət qoşunlarının bir qrup əsgəri isə ağciyərlilik edib geri qaçırdı. Tanklar da onların

ardınca. Yaxınlaşıb Şirin Mirzəyevə bu barədə məlumat verdik. Elə bu zaman qoçaq komandir texnikanı geri qaytarmağa səy göstərib, onları ürəkləndirdi: "Qorxmayın, arxanızca gəlirik". Dərhal cinahlara bölünüb irəliləməyə başladıq. Şirin Mirzəyev hamıdan qabaqda, düz düşmən üstünə yeriyirdi. Komandirin şəxsi heyəti ilə köməyə göndərdiyimiz polislərin birliyi nəticəsində elə həmin gün düşmən Əliağalılar kəndindən uzaqlaşdırılıb geri oturduldu. Əfsus ki, Milli Qəhrəmanımız Şirin Mirzəyev bu döyüşdə böyük igidlik göstərdi və şəhidlik zirvəsinə yüksəldi".

FİKRƏT TERRORUN QARŞISINI NECƏ ALDI…

Sənədli filmdə başqa bir mühüm məsələyə də toxunulur. Qeyd olunur ki, döyüş bölgəsində tez-tez təxribatlar və terror halları da özünü göstərirdi. Elə bu təxribat nəticəsində gözəl insan, layiqli tabor komandiri Mustafa Əliyev xüsusi təyinatlı silahlılar tərəfindən tutularaq, bir neçə gün dəmir barmaqlıqlar arasında saxlanılır, ona qarşı fiziki və mənəvi təzyiq həyata keçirilir. Bir gün ayıq komandir Fikrət Nəbiyev görür ki,

xüsusi təyinatlı silahlılar tabor komandirini öldürməyə cəhd göstərirlər. Onlardan biri - UAZ markalı maşının qabağında oturmuş zabit avtomat silahı maşının qapısından çıxararaq M.Əliyevə tuşlayıb. Bunu görən F.Nəbiyev bir göz qırpımında özünü xain təxribatçının üstünə tullayır, təhlükə sovuşur. Beləliklə, cəsur və qoçaq Fikrət Nəbiyev cəldlik göstərərək ölümlə nəticələnə biləcək terror aktının qarşısını almış olur. O vaxtdan Mustafa Əliyev ömrü boyu öz xilaskarına minnətdarlığını bildirir.

Həmin gün Fikrət Nəbiyevlə kapitan rütbəsi ilə ehtiyata çıxmış keçmiş hərbçi ilə söhbətimiz uzun çəkdi. Həmin söhbətdən bəzi məqamları oxucuya təqdim edək.

- Fikrət, artıq 8 ildir ki, döyüş bölgəsindən ayrılmısan. O vaxtdan özünü necə hiss edirsən?

- Nə deyim? Son dərəcə narahatlıq keçirirəm. Səbəbi aydındır. İyirmi faiz torpaqlarımız əsir düşüb. Şuşa, Ağdam, Laçın, Kəlbəcər, Füzuli, Cəbrayıl... qan ağlayır, xilaskarlarını gözləyir. Biz hələ də öz sözümüzü deyə bilmirik. İnanın ki, döyüş bölgələri, vuruşduğum yerlər, döyüşçü dostlarım, ölən və sağ qalanlar hər gecə yuxuma girir. Gecələr yuxum ərşə çəkilir. Ölənlər, Vətən yolunda şəhid olanlar məni qınayırlar ki, torpaqlarımız hələ də

düşmən tapdağı altındadır. Doğru sözümdür, Qarabağ azad olmayınca narahat günlərim məni tərk etməyəcək.

- Bəs anan necə, sənin Qarabağ bölgəsinə döyüşə getməyinə icazə verdimi?

- Axırıncı dəfə anamın yanına gəldim, qarşısında dayanıb dedim: Ana, xeyir-dua ver, mən gedirəm Qarabağa, düşmənlə döyüşə... Anam elə buna bənd imiş kimi: «Get, oğul, elə mən də səndən bunu gözləyirdim», - dedi. O mənimlə görüşdü və ardımca su atdı.

- Qarabağın xilasını nədə görürsən? Sülh yoluna üstünlük verirsən, yoxsa...

- Əlbəttə, heç kim qan tökülməsini istəmir. Biz də sülh yolu ilə Qarabağın qaytarılmasının tərəfdarıyıq. Ancaq görünür ermənilər heç bir laylaya yatmaq istəmirlər. Onda ikinci yola əl atmaq lazım gələcək. Mən keçmiş hərbçi kimi bu gün ordumuzun güclü olduğuna inanıram.

- Səfərbərlik elan edilsə, yenidən döyüşə atılmağa hazırsanmı?

- Doğru sözümdür: bir işarəyə bəndəm. Səfərbərlik elan edilən kimi dərhal cəbhə bölgəsinə yollanıb sözümü deyəcəyəm...

Bəli, bu gün Fikrət Nəbiyev kimi keçmiş zabit və komandirlər, qeyrətli oğullarımız, özünün dediyi kimi bir himə bənddirlər. Onlar bu gün yatmış şirə bənzəyirlər. Lazım gələndə Vətənin müdafiəsinə qalxmağa hər an hazırdırlar.

Vətən sizlərlə fəxr edir, əziz Fikrət!

2007-ci il

TƏK QANADLI QARTAL

O hələ uşaqlıqdan ekranda davalı filmlərə baxanda, keçmiş SSRİ-ni elan olunmamış müharibəyə sürükləyən alman faşistlərinə, dünyanı qan çanağında boğmağa çalışan nasist Adolf Hitlerə, məhrumiyyətlər törətmiş müharibəyə uşaq qəlbində dərin nifrət yağdırardı. Ancaq hardan biləydi ki, vaxt gələcək, elə bizim günlərdə onun candan artıq sevdiyi Azərbaycanı daha qatı bir faşist - qulağımızın dibində, çörəyi dizinin üstündə olan nankor qonşularımız, erməni cəlladları müharibəyə sürükləyəcək, müqəddəs torpaqlarımız yağı tərəfindən murdarlanacaq, neçə-neçə say-seçmə oğullarımızın, nazəndə gözəllərimizin gənc ömrü nakam bitəçək, yarımçıq kəsiləcək. Onun özü də Vətənin dar günündə müsəlləh

əsgərə çevrilib döyüşə atılacaq. Neçə dəfə ölüm adlı kabusla üz-üzə dayanacaq və döyüşdə həlak olmasa da, bir qolunu itirəcək. Sağ qaldığı üçün vicdan əzabı çəkəcək, indiyə kimi də şəhid yoldaşlarının qohumlarının gözünə dik baxa bilməyəcək. Halbuki müharibənin öz qanunları var.

Azər Hüseynov 30 il əvvəl yanvarın 18-də Saatlı rayonunda (o vaxt atası ali məktəb məzunu kimi təyinatla həmin rayonda müəllim işləyirdi) anadan olub. Onun böyüdüyü ailədə həmişə möhkəm nizam-intizam hökm sürüb. Tarıverdi müəllim övladlarını ilkin yaşlarından halal zəhmətə, şərəfli əməyə məhəbbət ruhunda böyüdüb. Ərköyünlük, şıltaqlıq, xudpəsəndlik ruhu bu ailəyə yad olub. Azər də məhz belə ruhda tərbiyə almışdı. Orta məktəbi Qaradağ rayonunun Qızıldaş qəsəbəsində bitirən Azər ali məktəbə daxil olmağa həvəs göstərməmiş, imkan daxilində çoxuşaqlı ailəyə kömək etmək barədə düşünmüş və zəhmət yolunu tutmuşdu. Sonra da çoxdan həsrətində olduğu hərbi xidmətə səfərbər olmuşdu. Beləliklə, iki il Sovet Ordusunda qulluq edir. Özü də Uzaq Şərqdə. Rusların şovinist siyasətinə görə, o vaxt azərbaycanlılar ən sərt iqlim şəraiti olan bölgələrə göndərilərdi. Azər də istisnalıq təşkil etmədi. Primorsk diyarında motoatıcı alayında qulluq etdi və 1988-ci ildə hərbi texnikaya bələd olan bir mütəxəssis kimi Vətənə qayıtdı. Bu, elə bir dövr

idi ki, Azərbaycan barıt çəlləyinə bənzəyirdi. Bədnam qonşularımız əzəli torpaqlarımız olan Qarabağı Ermənistana qatmaq üçün dəridən-qabıqdan çıxırdılar. Azərbaycan milli azadlıq hərəkatı geniş vüsət almışdı. Mitinqlər, nümayişlər ara vermirdi. 0 zaman rabitə tikintisi nazirliyində çalışan Azər də elə ilk gündən mitinqçilərin önündə gedir, cəbhəçi kimi rayonda xalq hərəkatının liderlərindən sayılırdı. 1990-cı il 20 Yanvar faciəsindən bərk sarsılan Azər onu özünün şəxsi faciəsi hesab edirdi. Elə o vaxt iç üzünü gördüyü Xalq Cəbhəsindən uzaqlaşdı və onun liderlərinə olan rəğbəti heçə endi.

1991-çi ildə Qaradağ daş karxanasında fəhlə işləyən Azər respublikamızda ilk Milli Ordu yaradılmasını alqışlayır, özü də Şıx Könüllülər batalyonu yaradır. Batalyona Koroğlu qüdrətli 800-ə yaxın say-seçmə oğullar könüllü yazılır, onlara hərbi təlimlər keçilir. Azər də motoatıcı serjant kimi, texnikaya bələd hərbçi kimi tanınır. Beləliklə, könüllülərdən ibarət bu batalyon Zaur Rzayevin komandiri olduğu briqadaya daxil olur. Azər isə kəşfiyyatçı vzvod komandirinin köməkçisi kimi döyüşə hazır dayanır.

...Bu da cəbhə xətti. Yağı ilə üz-üzə döyüş cəbhəsi. Azərgilin döyüş yolu Kəlbəcərin Ağdaban kəndindən

başlanır. Döyüşçülər kəndi azad edib irəli gedirlər. Bir-birinin ardınca Kərəmli və Çapar kəndləri də düşmən pəncəsindən azad edilir. Sonra Aterk (Həsənriz) kəndi uğrunda ölüm-dirim mübarizəsi gedir. Düşmənin canlı qüvvəsi və döyüş texnikası bizimkilərdən qat-qat çox olduğu üçün Azərgil düşmənə qarşı 3 ay müqavimət göstərirlər. Sonra məlumat alınır ki, Goranboy təhlükə altındadır, xüsusən Todən kəndinə yeni qüvvə yeritmək lazımdır. Çünki Sumqayıtdan səfərbər olmuş polis qüvvəsi düşmənin təzyiqinə dözə bilməmiş, kəndi qoyub arxaya çəkilmişdir. Yerli qüvvə öz mövqeyində möhkəm dayanaraq, düşməni geri oturtmağa müvəffəq oldu. Onun ardınca Erkəc və Mənəşid kəndləri də yağılardan təmizləndi. Bir sözlə, Azərgilin vzvodu ən çətin və təhlükəli döyüş mövqelərində qərar tutur, öz gücünü düşmənə göstərirdi.

1992-ci ilin payızında Ağdərə uğrunda döyüşlər gedirdi. 0 zaman Azər artıq hazırda Milli Qəhrəman adını almış Şahin Tağıyevin başçılıq etdiyi batalyonun tərkibində vuruşurdu. Ağdərənin xüsusi strateji əhəmiyyətə malik olan Dovşanlı və Kiçik Vəng kəndləri hücumla geri alınmışdı. Bu hücumda qurtuluş batalyonu kimi tanınan Şahinin batalyonu düşmənə aman vermirdi. Onun ardınca Sırxavənd də azad edildi. Lakin uğurlu

əməliyyatların bir-birinin ardınca davam etdiyi bir zamanda, xəbər gəlir ki, kəndi tərk etmək lazımdır.

…Yanvarın 18-də Azərin anadan olduğu gün səhər 6 radələrində hücum əmri verilir. Bu, Sırxavənd kəndini geri qaytarmaq barədə əmr idi. Amma düşmən güclənmişdi. Bizimkilər tez-tez ağır itkilər verirdilər. Köməyə tanklar gəlməli idi. Vəziyyət getdikcə gərginləşsə də, tanklar görünmürdü. Həmin gün Sırxavənd kəndi üzərində düşmən bizim iki "Miq-27" markalı təyyarəmizi vurub salmışdı. Fərrux təpəsini qoruyub saxlamaq üçün bizimkilərə tank hava və su kimi lazım idi. Lakin müdafiəçilərin gözü yolda qaldı. Onları sözün əsl mənasında aldatdılar.

Bizimkilər düşmən minamyotlarının yerini dəqiqləşdirmişdilər. Həmin istiqamətə atəş açmaq məqamında düşmən duyuq düşdü. Səs-küy eşidən yağı minamyotları bizimkilərə tərəf tuşladılar. Vzvod da zəncirvarı şəkildə hücuma keçmişdi. Qəflətən 5 mərmi əsgərlərdən azca aralı düşüb yeri-göyü lərzəyə saldı. 6-cısı isə yoğun kövdəli palıda tuş gəlib onu məhv etdi və gəlib əsgərlərin düz ortasında qərar tutdu. Mərminin dalğası Azəri 5-6 metr aralı tulladı, Mehmanı ondan da uzağa aparmışdı. Rza qarın nahiyəsindən yaralandı. Onu təcili şəkildə qospitala çatdırmaq mümkün oldu. Azər bir də

onu hiss etdi ki, sol qolu mərmiyə düşüb, üzülməyib - ancaq sallanıb. Başqa yaralıları, bibisi oğlu Oqtayı, Fikrəti, Rəhmanı plaşnakitkaya qoyub 2-3 km kənara daşıyırlar. Sonra da Ağdərə qospitalına çatdırırlar. Burada Azər bütün gecənin necə keçdiyindən əsla xəbəri olmur. Yalnız ertəsi gün, yanvarın 19-da özünə gəlir, hiss edir ki, sol qolu yoxdur. Az qala başına hava gəlsin. Dünya başına fırlanır. Gözlərinə qaranlıq çökür. Qışqırmaq istəyir - səsi çıxmır. 25 yaşında tək qollu. İndi o, kimə lazımdır? Tək qolla nə edəcək? Onu hansı qız bəyənəcək? Adına əlil Azər deyəcək, araya qoşub onu ələ salacaqlar. Yox, yox, ölmək bundan yaxşı idi. Niyə?...

SON SÖZ ƏVƏZİ: Zaman bütün yaraları sağaldır. Azərin qolu kəsiləndən düz 5 il keçir. İndi 30 yaşı var. Təkqollu qartala bənzədirəm Azəri- həmişə uçalığa çan atan qartala. II dərəcəli əlil olsa da, yaşayır, işləyir, fəaliyyət göstərir. Ailə qurub. Övlad sahibidir. Qaradağ rayonu əlillər cəmiyyəti sədrinin müavinidir. Hər gün özü kimi neçə-neçə əlil bu və ya başqa məsələ ilə bağlı ona müraciət edir. O da imkanı daxilində hamıya gərək olmağa çalışır, əlindən gələni əsirgəmir. Dərk edir ki, əlil olsa da, soydaşlarına hələ

gərəkdir. Evdə yolunu gözləyirlər: ömür-gün yoldaşı, uşaqları...

1998-ci il.

36 AY ERMƏNİ ƏSİRLİYİNDƏ

Ömrünün 19-cü baharında kirpiyilə od götürmüş, cəhənnəm əzabını yaşamış, düşmən əsirliyində olmazın işgəncələrinə məruz qalmış, lakin Ulu Tanrının nəzarəti altında ölümə qalib gəlmiş (hazırda yarımcan vəziyyətdə yaşayır) Fariz Şükürov 1973-cü ildə Beyləqan rayonunun Aşqalar kəndində həyata göz açıb. Orta məktəbi rayonun Xalac kəndində bitirib. Sonra da hərbi xidmətə çağırılıb və Sovet ordusunda - Çelyabinsk vilayətində qulluq etməyə başlayıb.

Lakin cəmi 4 ay hərbi xidmətdən sonra Ermənistan-Azərbaycan qarşıdurması, rus-erməni birləşmələrinin respublikamızı zorla müharibəyə sürükləməsi, müqəddəs torpaqlarımızın bir hissəsinin, işğal edilməsi Farizin damarlarında axan qanı coşdurur, qəlbində intiqam hissini alovlandırır, ona görə də rus ordusunda xidmət göstərməkdən imtina edib Azərbaycana qayıdır, doğma

Beyləqana gəlib, burada yaradılmış özünümüdafiə batalyonuna yazılır. Döyüş texnikasına mükəmməl yiyələnən Fariz BREM markalı maşının əvvəlcə atıcısı, sonra isə sürücüsü kimi xidmət göstərir. Say-seçmə, vətənpərvər oğullarımızla çiyin-çiyinə verib, məkrli düşmənə müqavimət göstərən Fariz döyüşdən-döyüşə mətinləşir, bərkiyirdi.

1992-ci ilin soyuq dekabrında gecəyarı idarə etdiyi hərbi maşınını düçar olduğu qəzadan xilas edən zaman Farizin sağ qolu ilə sağ qıçı sınır. İsti-isti ağrıları hiss etməyən gənc döyüşçü döyüşə atılmaq istəyir, lakin bacarmır. Ona görə də Farizi evlərinə aparırlar. Evdə cüzi müalicə aldıqdan sonra yenidən soyuq səngərə can atır. Kəşfiyyatçı kimi fəaliyyət göstərir, düşmənin döyüş sursatı saxlanılan bir neçə anbarını aşkar edib komandanlığa xəbər verir. Sonra taqım komandiri vəzifəsi ona etibar olunur. Onun başçılıq etdiyi taqım Xocavənd istiqamətində düşmənə sarsıdıcı zərbələr endirir, bir neçə erməni postunu dağıdıb məhv edir.

1993-cü il sentyabrın 13-də Farizin və onun başçılıq etdiyi taqımın döyüş yoluna son qoyulur. Həmin gün qaş qaralanda, ermənilərin tankdan atdıqları mərmi taqımın bir əsgərini sıradan çıxarır. Fariz isə başından və ayağından yaralanır. Elə bu dəm düşmən başının üstünü

alır. Beləliklə, el qeyrətli, Vətən təəssüfkeşli Fariz yağı əlinə keçir. Ən dəhşətli günləri də bundan sonra başlanır.

O, gozünü açanda, özünü qaranlıq bir zirzəmidə görür. Nəhayət öyrənir ki, bura Xocavənd həbsxanasıdır. Həmin gizli zindanda erməni cəlladlari Fariz kimi soydaşlarımızm başına olmazın müsibətlər gətirir, hər gün onları bir neçə saat ölüncəyə qədər döyüb, şil-küt edir, dırnaqlarını çıxarır, sonra da başlarına soyuq su töküb özlərinə qaytarmağa çalışırlar. Daha sonra onu başqa əsirlərlə birlikdə Xankəndi zindanına aparırlar. Burada verilən işgəncələrin dərəcəsi heç bir ölçüyə sığmır. Bütün bunlar barədə Fariz Şükürovun özünü dinləyək:

- 1994-cü ilin qızmar avqust ayında biz əsirləri Xankəndi türməsinə saldılar. Burada erməni qaniçənlərin başımıza gətirdikləri müsibətləri dilə gətirmək mənim üçün çətindir. Erməni cəlladları qırılmış sağ qolumu təzədən qırdılar. Ayaq dırnaqlarımızı zorla çıxardandan sonra ermənilər ufultumuzdan zövq alır, qəhqəhə çəkib gülür, sonra da təhqirə keçir, bizə nalayiq söyüşlər yağdırırdılar. Hər gün beləcə, 3 dəfə yeməkdən qabaq bizə işgəncə verirdilər. Sonra da bir qab su, bir tikə quru çörək verirdilər.

Söhbət zamanı müsahibimdən soruşuram:

- Fariz, əsirlikdə olduğun dəhşətli aylar ərzində səni sarsıdan daha hansı bir hadisəni xatırlayırsan?

Sözünə bir qədər ara verib deyir:

- Əsirlikdə olduğumu 36 ayın hər dəqiqəsi, hər anı öz dəhşətləri, vahimə və əzabları ilə yaddaşıma əbədi həkk olub. Amma bütün gördüklərimin, şahidi olduqlarımın fövqündə dayanan bir hadisə daha müsibətli idi. Şaxtalı dekabr günlərinin biri idi. Aramızda adını unutduğum bir masallılı gənc vardı. Çox cəsarətli, igid oğlan idi. Ermənilərin heç bir təhqirinə dözmür, cavablarını yerindəcə yerirdi. Bunu görən erməni vəhşiləri bir gün onun əl-qolunu bağladılar. Aparıb küçədə asfalt yolun ortasında qoydular. Bu zaman bir maşın gurultusu eşidildi. KamAZ idi. Sürətlə gəlib əli-qolu bağlı əsirin üstündən keçdi. Sonra da onun xurd-xəşil olmuş sümüklərini yandırıb külə döndərdilər ki, izi-tozu qalmasın. Budur erməni xisləti, erməni qəddarlığı...

- Fariz, bəs necə oldu ki, əsirlikdən xilas oldun?

- Erməni cəlladlarının vəhşilikləri Qırmızı Xaç Cəmiyyətinə bəlli idi. Bir gün bu xeyirxah cəmiyyət necə oldusa bizdən xəbər tutdu. Görünür, bu da Ulu Tanrının işidir. O vaxt mənim vəziyyətim çox ağır idi. Xankəndində xəstəxanada yatırdım. Sağalacağıma, sağ

qalacağıma ümidim yox idi. 1995-ci ilin iyununda bizi, 15 nəfər ölümcül yaralı əsiri buraxdılar. Məni birbaşa sərhəd qoşunları xəstəxanasına apardılar. Ciddi müalicə olundum. Bədənimdə və başımda "yuva salmış" qəlpələrin bir hissəsini çıxara bildilər. Amma bədənimdə hələ də qəlpələr qalıb...

Mən Fariz Şükürova Respublika Həkim Ekspertizası və Əlillərin Sosial-Əmək Reabilitasiyası Mərkəzində görüşdüm. Növbəti dəfə müalicə olunmağa gəlmişdi. İkinəfərlik palatada qalırdı. Palata yoldaşı onunla birlikdə 6 ay Xankəndi həbsxanasında olmuş əslən türk olan məşhur döyüşçü, ermənilərin işgəncələrinə dözüb tab gətirən Atilla Yumakdır. Atillanın qəribə taleyi var. O, Xocalı soyqırımını Türkiyədə televiziyada görəndən sonra Azərbaycana gəlib, könüllü surətdə Qarabağ uğrunda döyüşlərdə şücaət göstərən türk oğludur. Atilla uzun müddət ölüm kamerasında yatıb. Lakin məkrli ermənilər bu qeyrətli türk oğlunun iradəsini qıra bilməyiblər.

Əzabkeş qəhrəmanlar-erməni əsirliyində hər an ölümlə üzləşən Fariz və Atilla II qrup əlildirlər. Lakin aldıqları pensiya ömürlük xəstəliyə məruz qalmış müharibə əlillərinə kifayət etmir. Bundan başqa yerlərdə lazımi qayğı və mənəvi dayaq da görmürlər.

Biz mərkəzdə olarkən Farizi möhkəm başağrısı tutmuşdu. Gözlərini açа bilmirdi. Köməyinə gəldilər. Dava-dərman verib əvvəlki halına qaytarmaq istədilər. Lakin mümkün olmadı. Fariz bildirdi ki, görünür bədənimdə və başımda qalmış qəlpələrdir rahatlığımı alan. Bununla belə, hər iki Vətən əsgəri bu gün də lazım gəlsə, düşmənə divan tutmağa, ondan intiqam almağa hazır olduğunu bildirdi. Təki Qarabağ, bütövlükdə işğal olunmuş torpaqlarımız erməni qəsbkarlarından azad edilsin. Bunu uğrunda canlarından keçib şəhidlik zirvəsinə ucaldılmış oğul və qızlarımızın ruhu tələb edir...

ARIF QULIYEVI ARZULARINA KIM QOVUSDURDU?

Azərbaycanın incəsənət aləmində komik aktyor kimi özünü təsdiqləyən, tamaşaçılara komik obrazları ilə gülüş bəxş edən respublikanın xalq artisti Arif Quliyev özünü tanıyandan həmişə xeyirxah adamların dəstəyini hiss etmiş və onlar barədə yeri gələndə ağızdolusu və minnətdarlıqla söhbət açmışdır. Gülüş ustası belə xeyirxahlığı üçüncü il ali məktəbə daxil olarkən - taleyi həll olunacaq həmin vaxtda da öz

üzərində görmüş və həyat yolunu müəyyənləşdirən bu məqamı ekran qarşısında bəyan etmişdir.

Yəqin bəzilərinin A.Quliyevin tərcümeyi-halı barədə kifayət qədər məlumatı yoxdur. Xatırladaq ki, komik aktyor ata qayğısı, ana nəvazişi, ana laylası görməyib, eşitməyib. Heç vaxt onları tanımayıb da. O, Əli Bayramlıda (indiki Şirvan şəhəri) doğulub. Oradakı uşaq evində böyüyüb, tərbiyə alıb, orada sığınacaq tapıb. Təbiidir ki, orta məktəbi də bu şəhərdə başa vurub. Sənət seçmək məqamı gələndə, balaca Arif həmişə, hər yerdə qəti fikrini bildirib: aktyor olmaq! İlləri yola saldıqca, bu istək onu sanki müqəddəs arzusuna yaxınlaşdırırdı. Ona dərs deyən sevimli müəllimlər də, həmyaşıdları olan şagird dost-tanışları da onu məzəli, gülməli, komik aktyor kimi görürdülər. Çünki Arif özünün bu keyfiyyətlərini nəinki oxuduğu məktəb kollektivi, eləcə də şəhərdə təşkil olunmuş müxtəlif tədbirlərdə nümayiş etdirmişdi.

Doğma müəllimlərə, məktəbə əlvida deyib, kamal attestatı alan Arif "Niyyətin hara, mənzilin ora" atalar sözünə sığınaraq Bakıya gəlir, tərəddüd etmədən sənədlərini M.Əliyev adına Teatr İnstitutuna (indiki Mədəniyyət və İncəsənət Universiteti) verir. Lakin ilk oxu daşa dəyir. Qabiliyyət imtahanlarından keçsə də, başqa fənlərdən müvəffəq qiymətlər ala bilmir. Beləliklə, birinci

il istəyinə yetə bilmir, arzusu ürəyində qalır. Amma ruhdan düşmür, nikbinliyini qoruya bilir, qısası, ümidini itirmir. Lakin ikinci il yenə eyni ali məktəbə qəbul imtahanlarına gəlir. Bu dəfə də uğursuzluq! Nəhayət, bu da üçüncü cəhd. Üçqat həyəcan, ürək döyüntüləri. Dost-tanış qınağı gözləri önünə gəlir. Yenə əvvəlki vəziyyət! Qabiliyyət imtahanlarmdan keçir. Amma yazılı imtahandan bu dəfə də müvəffəq qiymət ala bilməyən abituriyentin son ümidi də beləcə puça çıxır. Dünya başına fırlanır. Özünü ən aciz məxluq və tənha hiss edir. Nə etsin, hara getsin, kimə pənah aparsın? Kimi tanıyır ki, bu qərib şəhərdə?! Özünü bir təhər teatrın qonşuluğundakı Molokan bağına çatdırıb oturacaqların birində əyləşir. Bir yandan, yayın nəfəsi təngidən istisi, bir yandan, aclıq və susuzluq, başlıcası isə üçüncü cəhdin uğursuzluğundan yaranan dilxorçuluq. Hər üç hal birləşib yorğunluq və üzünütüyə çevrilir, arabir əsən həzin meh onu dərin xəyaldan yuxu aləminə aparır və Arif şirin yuxu aləmində nə qədər olduğunu bilmir.

Birdən... çiynində yumşaq və isti bir əlin təması onu şirin yuxudan oyadır və hüzurunda iki nəfəri görür. Onlardan birini tanıyır. Gənc, alovlu şair Tofiq Bayram idi. İkinci nurani kişinin nüfuzedici baxışları onun qəlbinə bir an içində işıq saçır. Onlar gəncin mövcud durumu ilə maraqlanırlar. Vəziyyət onlara aydın olur. Arifdən

uzaqlaşıb gedən iki nəfər bir neçə dəqiqədən sonra geri qayıdanda, onu yenə əvvəlki pəjmürdə ovqatda görürlər. Nurani kişi Arifə deyir ki, bu saat qalx get o kafeyə (əli ilə yaxınlıqdakı kafeni göstərir), onun sahibinə tapşırmışam, səni yedizdirib içizdirəcək, elə oradaca gecələyərsən, səhər də 8 tamamda institututa rektorun yanına gedərsən, sonrası ilə işin olmasın!

Bunu deyən nurani kişi və yanındakı şair Tofiq Bayram Ariflə xudafizləşib ona uğurlar arzulayırlar...

Arif əvvəlcə eşitdiklərinə inana bilmir. Ona elə gəlir ki, yuxu görür: "Bu nədir, bu asta-asta, şirin-şirin danışan, aydın baxışlı, nurani kişi kimdir görərsən? Əsl möcüzəyə oxşayır görüb eşitdiklərim". Handan-hana özünə gəlir və taqətsizliyini unudub ayağa qalxır, nurani kişinin nişan verdiyi kafeyə tərəf üz tutur...

Bütün gecəni isə çimir vurmur, səhəri necə deyərlər, diri gözüylə açır. Vaxtın çatmasını səbirsizliklə gözləyir. 8-ə 10 dəqiqə qalmış instituta gəlir. Qapıçı onu içəri buraxmır. Vaxt tamam olanda ali məktəbin rektoru, teatrşünas alim, teatra aid çoxlu kitabın müəllifi Rahib müəllimlə giriş qapısında rastlaşır. Rektor üzünə baxan kimi onu tanıyır.

- Gəl, göygöz oğlan, buyur içəri, dünən hörmətli Mir Cəlal müəllim (Paşayev) sənin barəndə mənimlə telefonla danışıb. Darıxma, institutumuzun tələbəsi olacaqsan!

Beləliklə, Arif Quliyev möcüzə nəticəsində institutun tələbələri ordusu sırasına daxil olur. O gündən bu yaxınlarda Azərbaycan ictimaiyyəti tərəfindən 100 yaşı təntənə ilə qeyd olunan görkəmli ədəbiyyatşünas alim, ömrünün 50 ilini Azərbaycan Dövlət Universitetində qayğıkeş pedaqoq kimi müqəddəs peşəyə həsr etmiş Mir Cəlal Paşayevi həmişə minnətdarlıqla yad edir, vəfatından sonra isə müqəddəs ruhuna dualar oxuyur, ulu Tanrıdan ona rəhmət diləyir.

Arif Quliyev onu da yaxşı bilir ki, Mir Cəlal müəllim ali məktəbdə dərs dediyi illər ərzində neçə-neçə tələbənin əlindən tutmuş, ona təmənnasız atalıq qayğısı göstərmiş, onların elmin çətin yollannda uğurla addımlamalarında köməyini əsirgəməmiş, gənclərin yolunda mayak olmuşdur. Xalq şairi Nəriman Həsənzadə bu dediklərimizə canlı şahiddir. Elə bu sətirlərin müəllifi də ali məktəb illərində ona dərs demiş, nurdan xəlq olmuş bu ali insanın tələbələrinə göstərdiyi atalıq qayğısını mətbuatda gedən yazılarında əks etdirmisdir. Təkcə bu nəcib və xeyirxah insanın bir cəhəti barədə onu demək kifayətdir ki, Mir Cəlal müəllim dərs dediyi tələbələrə 5

və 4-dən aşağı qiymət verməzdi. Əks təqdirdə, onlar möhtac olduqları təqaüddən məhrum olardılar. Əslində, tələbələrin özləri də əziz müəllimlərinin yüksək qiymətinə layiq cavab verirdilər.

Bəli, tanmmış aktyor Arif Quliyev kimi qədirbilən sənətkarlar nəciblik və xeyirxahlıq mücəssəməsi olan Mir Cəlal müəllimi həmişə hörmətlə yad edir, "qəbri nurla dolsun" söyləyirlər.

2009-cu il

93 YAŞLI ELMİ KİTABXANA

SÖHBƏT AZƏRBAYCAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ KİTABXANASINDAN GEDİR

Respublikamızın ən böyük ali təhsil ocaqlarından biri olan Azərbaycan Dövlət Universitetinin (ADU) Elmi kitabxanasının 93 yaşı var, yəni bu elmi mərkəz universitetin özü ilə həmyaşıdır. Belə ki BDU 1919-cu ildə yaradılarkən, onun ilk rektoru, professor V.Y.Razumovskinin təşəbbüsü ilə ali məktəbin

strukturunda önəmli yeri olan kitabxana təşkil olunmuşdur. İlk dəfə onun fondunda cəmi 250 nüsxə ədəbiyyat olub. O vaxtdan uzun illər keçib. Arxada qalan illər ərzində kitabxana da böyüyüb, kitab fondu da xeyli artıb. Müxtəlif illərdə kitabxanaya səriştəli biblioqraflar rəhbərlik edib. Hazırda isə Elmi kitabxananın direktoru Sara İbrahimovadır. Bu gün ömrünün müdrik çağını yaşayan 72 yaşlı Sara xanım 51 ildir ki, BDU-nun Elmi kitabxanasında çalışır. Bütün bilik və bacarığını bilik mənbəyi olan kitabxananın inkişafına, onun müxtəlif kitablarla zənginləşməsinə həsr edib. Axı Sara xanımın özü də bu ali təhsil ocağının yetirməsidir. 1962-1967-ci illərdə BDU-nun (hazırda ADU) şərqşünaslıq fakültəsinin kitabxanaçılıq və biblioqrafiya bölməsində ali təhsil alıb və 1962-ci ildən hazırda rəhbərlik etdiyi elmi kitabxanaya ömürlük bağlanıb. Əvvəlcə bu elm xəzinəsində kitabxanaçı, sonra şöbə müdiri işləyib. Təşkilatçılıq bacarığı və təşəbbüskarlığı, zəngin təcrübə və kollektivlə işləmək səriştəsi nəzərə alınaraq 1984-cü ildən onu Elmi kitabxanaya direktor təyin edirlər.

Sara xanımın uzun illər eyni kollektivdə göstərdiyi qüsursuz fəaliyyəti layiqincə qiymətləndirilib. SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyinin «Əməkdə qazanılmış yüksək uğurlara görə» döş nişanı, «Tərəqqi», Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq

Problemləri üzrə Dövlət Komitəsinin «Səmərəli fəaliyyətə görə» medalları, «Azərbaycan SSR-in Əməkdar Kitabxanaçısı», Azərbaycan Respublikasının «Əməkdar Mədəniyyət İşçisi» kimi fəxri adlar, müxtəlif diplom və fəxri fərmanlar dediklərimi təsdiqləyir. 2 oğula ana, 4 nəvəyə sevimli nənə olan Sara xanım bu gün də gənclik həvəsilə çalışır. Çünki onun zəngin təcrübəsinə, maarifçilik fəaliyyətinə hələ ehtiyac var.

Biz də bu günlərdə ali təhsil ocağında Sara xanımın rəhbərlik etdiyi Elmi kitabxanada olduq, kitabxananın keçdiyi uzun və şərəfli yol barədə söhbət açması üçün direktora bir neçə sualla müraciət etdik.

- Sara xanım, ilk növbədə başçılıq etdiyiniz kollektiv barədə məlumat verərdiniz.

- Elmi kitabxananı 102 əməkdaş birləşdirir. Hamısı da peşəsinin vurğunu, kitabxana işinə lazımınca bələd olanlardır. Belə ki əməkdaşların 85 faizi ali təhsillidir, 7 nəfəri isə fəlsəfə doktorudur. Əməkdaşlarımız tez-tez respublika və beynəlxalq səviyyəli konfrans və simpoziumlarda elmi məqalələrlə, həmçinin respublika mətbuatında və elmi toplularda çıxış edirlər.

Qeyd edim ki, Elmi kitabxana ADU-nun 4 korpusunda yerləşir. Onun 14 şöbəsi, 5 abonenti və 13 oxu zalı oxucuların xidmətindədir.

- Kitabxananın keçdiyi yola gəlin bir də ekskurs edək.

- Məmnuniyyətlə. Azərbaycanın ilk ali məktəbinin birinci rektoru professor V.Y.Razumovski kitabxana fondunun zənginləşdirilməsi üçün çox faydalı iş görmüşdür. Belə ki tələbələri lazımi kitablarla təmin etmək və yeni kitab almaq üçün universitet müəllimlərini dəfələrlə İstanbula, Sankt-Peterburqa ezam etdirib. Beləliklə, kitabxanaya qızıl pula xeyli kitab alınaraq gətirilib və ali məktəbin qızıl fondu yaranıb. Bundan başqa universitetin təşkili üzrə komissiya 1919-cu il iyunun 2-də Bakı Şəhər İdarəsi qarşısında şəhərdəki Mixaylovski (hazırkı Əzizbəyov) kitabxanasının müəyyən şərtlərlə istifadə olunmaq üçün universitetə verilməsi barədə vəsatət qaldırmış və kitabxananın universitetə verilməsi barədə razılıq əldə olunmuşdur. Bu minvalla Sabunçu xəstəxanası kitabxanasının da bu ali məktəbə verilməsi məsələsi həll olunmuşdu. Bütövlükdə 1919-cu ildə həmin dövrün pulu ilə universitet tərəfindən kitabxanaya 120 min manatlıq kitab alınmışdı. 1920-ci ildə kitabxanada fondu 212 nüsxə ədəbiyyatdan ibarət tibb

şöbəsi də təşkil edilmişdir. 1922-ci ildə isə Şərq fakültəsinin dekanı professor R.K.Juzenin təşəbbüsü ilə kitabxanada Şərq şöbəsi yaradılır ki, bu gün də həmin şöbə fəaliyyət göstərir. Həmin şöbədə 30-dan çox əlyazma olub. Onların bir hissəsinin müəllifi dünya şöhrətli şərqşünas alim V.V.Bartold olmuşdur. Fonddakı 3 min nüsxə kitab isə Şərq, rus və Qərbi Avropa dillərində idi. Həmin ildə Xalq Komissarları Soveti 7 min rubl (qızıl pulla) məbləğində vəsait ayırmışdı, həmin vəsaitə 1924-cü ildə İstanbuldan 2000 nüsxədən artıq kitab gətirilmişdir. Həmin illərdə ayrı-ayrı yerli idarə və təşkilatlardan, kitab kollektorundan, ordunun Siyasi İdarəsindən də Universitet kitabxanasına kitablar daxil olurdu. 1922-ci ildə BDU Şurası professorlardan F.N.İlini və P.Y.Rostovtsevi kitab gətirmək üçün Leninqrada ezam etmiş, onlar kitabxana üçün 200 puda yaxın qiymətli elmi ədəbiyyat, o cümlədən Rusiya Elmlər Akademiyasının bütün nəşrlərini təmənnasız əldə etmişlər.

1928-1929-cu illərdə Bakı Fransa Cəmiyyətinin 1000 nüsxəyə yaxın kitabdan ibarət fond universitetin kitabxanasına verilmişdir. Maarif İşçiləri Evi kitabxanasından 2000-ci ildə rus jurnalının komplekti, eləcə də RSFSR-in Kitab Fondunun 10 minlərlə cilddə çap məhsulu universitetin kitabxanasını zənginləşdirmişdir.

1928-1929-cu illərin əvvəllərində hüquq fakültəsinin dekanı A.O.Mişelin təşəbbüsü ilə kitabxanada hüquq ədəbiyyatı şöbəsi yaradılır. O illərdə professorlardan B.Çobanzadə, D.Səfərov, A.M.Levin və başqaları şəxsi kitablarını kitabxanaya hədiyyə etmişlər. Beləliklə, hələ 1922-ci ilin yayında kitabxananın fondunda 8923 adda 1443 nüsxə kitab var idi.

ADU-nun yaradılmasının ilk 10 ilində kitabxana 5 ixtisaslaşmış şöbə ilə – humanitar, tibb, Şərq, hüquq, tələbə qiraətxanası artıq oxuculara xidmət göstərirdi. 1929-cu ildə kitabxananın fondunu 72309 nüsxə kitab təşkil edirdi. Kitabxanaya daxil olan kitablar Şərq, rus və Avropa dillərində idi. Bu kitablar XVI-XIX əsrləri əhatə edir və kitabxananın qızıl fondunu təşkil edir, bu gün də göz bəbəyi kimi qorunub mühafizə olunur.

- Sara xanım, SSRİ-nin süqutu, şübhəsiz ki, kitabxananın fəaliyyətinə də öz təsirini göstərməyə bilməzdi. Söhbət MDB ölkələri ilə əlaqələrin kəsilməsindən gedir. Bu barədə.

- Doğru buyursunuz. İmperiya buxovları parçalandı. SSRİ süquta uğradı. Bütün bunlar bizim fəaliyyətimizə də təsirsiz ötüşmədi. 1999-cu ilə kimi vəziyyət belə idi. Lakin həmin ildə akademik Abel Məhərrəmov ali təhsil

ocağına rektor təyin edildikdən sonra onun səyi, təşkilatçılıq bacarığı, elm və təhsilə himayədarlığı nəticəsində kitabxanaya xüsusi diqqət ayrıldı. MDB ölkələri ilə kəsilmiş əlaqələr rektorun səyi ilə bərpa edildi. Belə ki universitetin profili üzrə elmi jurnallar alınıb kitabxanaya gətirildi. Çap şəklində elmi informasiya mənbəyi olan reteraktiv jurnalların abunə qiymətlərinin həddindən artıq baha olmasına baxmayaraq, Azərbaycanda təkcə universitet kitabxanası həmin jurnalların abunəsini bərpa etdi. Onu da bildirim ki, Elmi kitabxanamız hələ 1971-ci ildən ali və orta ixtisas kitabxanalarının Metodiki Mərkəzi adını daşıyır.

- Sara xanım, kitabxananızın başqa dünya ali məktəblərin kitabxanaları ilə əlaqələrinin vəziyyəti necədir?

- Elmi kitabxanamız dünyanın 12 ölkəsinin 50 universitet kitabxanası və elmi müəssisələri ilə kitab və informasiya mübadiləsi yaratmağa nail olmuş, oxucular üçün 10 elektron məlumat bazasından rahat istifadəni təmin etmişdir.

2012-ci il

Xeyirxah ziyalılarımız

MILLƏTIN XİLASKARI

ÜMUMMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEV HAQQINDA POEMA

XX əsr bəşəriyyətə bir sıra dünya şöhrətli tarixi şəxsiyyətlər bəxş etmişdir. Onlardan biri də əbədi prezidentimiz, ümummilli və əbədiyaşar liderimiz Heydər Əliyevdir. Onu ulu Tanrı çox sevdiyi Azərbaycan xalqına xilaskar övlad kimi göndərmişdi. Xalqın bu müdrik oğlu, bu müqəddəs torpağa bağlı olan, onu canından artıq sevən, azərbaycanlı olması, bu xalqın dilində danışması ilə fəxr edən Heydər Əliyev də mübarizələrlə dolu keşməkeşli həyatını bu xalqın səadəti yolunda şam kimi qətrə-qətrə əritdi, amma onu dünya miqyasında tanıtdı, Azərbaycanı dünyaya inteqrasiya etdi.

Beləcə, 34 il Azərbaycanın beşiyi başında ayıq-sayıq dayandı, "Heydər Əliyev-Xalq, Xalq- Heydər Əliyev" zərb-məsəlinə çevrildi.

Hünəri, şücaəti, əməlləri, şəxsiyyəti qalın-qalın kitablara sığmayan bu fenomenal insan haqqında nə qədər bədii və sənəd əsərləri yazılıb, yazılır və bundan sonra da hələ çox-çox yazılacaq. Çünki Heydər Əliyev yaradıcı adamlara ilham verən elə bir dəryadır ki, yazdıqca həmin dəryanın suyu nəinki azalmır, əksinə, daha da çoxalır. Çünki ulu öndərimiz elmin bütün sahələri üçün bütöv universitet, yaradıcılıq məktəbidir.

Budur, ümummilli liderimizə həsr olunmuş yeni bir əsər qarşımızdadır - görkəmli şair və publisist **ZEYNAL VƏFANIN** "Azərbaycan" nəşriyyatında yenicə işıq üzü görmüş "Millətin xilaskarı» poeması. Bəri başdan qeyd edək ki, səmimi xoş bir ovqatla qələmə alınmış poemanı birbaşa oxuyub axıra çıxdım. Kitabın adından da göründüyü kimi, müəllif əsərdə xalqımızın dahi oğlu, əbədiyaşar liderimiz, bəşəri ideyalar və böyük əməllər sahibi Heydər Əliyevin oddan-alovdan çıxmış, dünyanın nəhəng siyasətçiləri ilə döyüşlərdə öz zəngin həyat təcrübəsi, fəhmi, siyasi yetkinliyi ilə qalib çıxmış mənalı ömür yolunu faktlarla, şirin bir şeir dili ilə təsvir etmişdir. Şair poemanın elə ilk misraları ilə oxucunu cəlb edir:

O, xalqına ən vəfalı oğuldu,

Gülüşüylə qaranlıqlar boğuldu.

Beş addımlıq bir daxmada doğuldu,

Beş qitənin şöhrətinə döndü o.

Görürsünüzmü, bu 4 misralıq şeirdə istedadlı şair ustalıqla Heydər Əliyevin tərcümeyi-halını verə bilir, yəni Zeynal Vəfanın xalqının bu vəfalı oğlunun öz gülüşü ilə qaranlıqları boğa bilmək qabiliyyətini, 5 addımlıq bir daxmada doğulan qəhrəmanın sonradan dünyanın 5 qitəsinin şöhrətini qazanmaqla bütün dünyada tanınmasını lakonik şəkildə təsvir etmişdir. Sonra da şair onun qəlbini türkün inanc yeri olan Kəbə evinə bənzədir, zəka nurunun neçə-neçə ölkəyə işıq saçdığını, kainatda ən işıqlı planet olduğunu qələmə alır. Bakı-Ceyhan kəmərini nur məbədi olan Heydər atanın qolları hesab edən şair onun iş otağının 60 milyon ər ürəklə (bütün azərbaycanlılarla) döyündüyünü bildirir.

Z.Vəfa qəlbi bu xalqla döyünən Heydər Əliyevin başqa mərd xalqları da öz xalqı kimi sevdiyini təsvir edir, onu bir sərkərdə kimi yeni dünya quran dahi bir insana bənzədir, "öz ömründən milyon-milyon ömürlərə sevinc payı göndərən bu bənzərsiz şəxsin ümman qəlbindən söz

açır". Deyir ki, "mərdanəlik və ali fikir yarışında heç kim ona çata bilməzdi, dünyadakı bütün dağlar üst-üstə qalansa belə, yenə də o dahinin zirvəsinə çata bilməzdi". Doğrudan da, Heydər Əliyev əlçatmaz bir zirvə idi. Sonra şair Heydər Əliyevin nəhəng sovet ölkəsində, Moskvada işlədiyi illəri yada salır, onun əsrin nəhəng tikintisi olan Baykal-Amur dəmir yolunda göstərdiyi titanik fəaliyyətindən söhbət açır, bir millətin oğlu olan qəhrəmanının yüz millətin keşiyində dayandığını önə çəkir, sevən qəlbinin millətlər arasında mənəvi körpü olduğundan fəxr duyur.

İllər dəyişir, Qorbaçov dövrü başlayır, Z.Vəfa isə o dövrü belə təsvir edir.

Zaman gəldi... ağ günümüz

qara rənglə naxışlandı.

İmperiyanın baş kürsüsü

Qorbaçov tək bir iblisə bağışlandı.

Həmin iblis Qorbaçov ki, Heydər Əliyev zəhmindən, onun zəkasından, siyasi yetkinliyindən lərzəyə gəlmişdi. Ona görə də müxtəlif bəhanələrlə Əliyevi tutduğu vəzifədən uzaqlaşdırmaq istəyirdi, elə uzaqlaşdırdı da. Bununla belə, imperiyanın bu iblis nökəri xalqımızın mübariz oğlunun iradəsini sındıra bilmədi. O, xalqımız üçün çətin günlərdə - 20 Yanvar faciəsi baş verəndən sonra ilk dəfə olaraq Moskvada Rusiya səfirliyinə gedərək, Azərbaycanın haqq səsini dünyaya bəyan etdi. Qorbaçovun Bakıya qoşun göndərməsi kimi ağlasığmaz hərəkətini pislədi.

Şair Heydər Əliyevin Azərbaycanın çətin vaxtında, məmləkətin ölüm-dirim dilemması qarşısında qaldığı ərəfədə xalqının tələb və təklifi ilə ulu Naxçıvandan Bakıya qayıtmasını təsvir edərək deyir:

... Mizrab altda yanan teldik,

Biz Babəksiz Bəzz qalası,

Koroğlusuz Çənlibeldik...

Misralardakı bədii təsvir vasitələrini görürsünüzmü? Şair ümidsiz xalqı "mizrab altda yanan tel"ə, döyüş meydanında "Koroğlusuz Çənlibel"ə bənzədir.

Daha sonra "millətin xilaskar"ı müəllifi öz qəhrəmanının ikinci dəfə Azərbaycana gəlişini, xilaskar kimi havadar çıxmasını tutarlı misralarla belə təsvir edir:

Qara günlü talelərin,

Ən işıqlı ovqatıydı.

O, göylərin hədiyyəsi,

İlahinin sovqatıydı.

O, əvəzsiz bir məlhəmdi,

Ürəkərin yarasında,

O müqəddəs bir elçiydi,

Yaradanla millətinin arasında.

Dahi öndər fiziki cəhətdən bizimlə deyil. Onun yoxluğu hər yerdə özünü göstərir. Amma ümumilli liderimiz ürəklərdə əbədi məskən salıb, qəlblərdə heykəlləşib. Bu yoxluğu Zeynal Vəfa belə səciyyələndirir.

O, əlçatmaz, o, ünyetməz,

Qalibiyyət qalasıdır.

Millətimin ürəyində,

Millətimin özü kimi

Əbədilik qalasıdır.

Şairin qeyd etdiyi kimi əbədiyaşar liderimiz "Yeni dünya qurub getdi və gedən zaman bir oğul bəxş elədi xalqımıza".

Bir oğul ki,

Oğulların gözüdür o.

Öz ağlıyla, kamalıyla,

Öz müqəddəs amalıyla,

Canlı Heydər atamızın

Özüdür o.

"Millətin xilaskarı" həzin bir nəğmədir, oxuduqca oxumaq istəyirsən. Çünki şirin, sadə bir dillə qələmə alınıb. Misralar çox axıcı və lakonikdir. Şair az sözlə çox mətləblər açır. Bədii təsvir vasitələrindən yerli-yerində məharətlə istifadə edir, bu da poemanı oxunaqlı, ləngərli edir.

Bütövlükdə, "Millətin xilaskarı" əsərini Zeynal müəllimin böyük uğuru sayıram və hesab edirəm ki, poema ümummilli liderimizin əziz xatirəsinə layiqli bir töhfədir.

“Naxçıvan” qəzeti,

17.XII. 2004

Bayatı, ay bayatı,

Gəz bu eli-elatı.

Ömrün bahar çağını yaşayır şairə Xədicə Murad. Elə özü də bahar ətirlidir, bahar təravətlidir. Ulu Yaradan ondan heç nəyi əsirgəməyib - xoş vədəsində xəlq edib onu. Xalq artisti Həmidə Ömərovanın təbirincə desək: «Azərbaycan şairləri sırasında ən gənc və avropasayağı gözəlliyi ilə seçilən Xədicə Murada sadəcə Xədicə Murad yox, Xədicə Gözəl deyirəm».

Tanrı ona hər şeydən öncə, sevgi ilə dolu ilhamlı bir ürək bəxş edib. Bu lirik ovqatlı, quş qanadlı, kövrək könül sahibinin özünəməxsus sehrli-sirli dünyası var. Ağsu rayonunun Kalva kəndində doğulan Xədicə xanımın zəngin yaradıcılığı, uğurları çoxdan sədləri aşıb, əks-səda doğurub. Universitetin filologiya fakültəsini fərqlənmə ilə bitirən gənc Xədicə qısa zaman kəsiyində həmkarları arasında qibtəedici uğurlara imza atıb. Hazırda filologiya elmləri üzrə fəlsəfə doktorudur. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda böyük elmi işçi vəzifəsində fəaliyyət göstərir, eyni zamanda «Azərbaycan»

Universitetində dosentdir. İctimai işlərdə fəallıq göstərən Xədicə Murad həm də «Məhəbbət» Humanist Qadınlar İctimai Birliyinin təsisçisi və sədri kimi tanınır. Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü olan bu işgüzar qadın iki övlad anasıdır.

Dahi Nizami və Füzuli dühası ilə bu iki azman söz xiridarının poeziyasının işığı ilə ədəbiyyat aləminə və elmi yaradıcılıq orbitinə daxil olan Xədicə xanımın indiyə kimi 6 kitabı oxucuların ixtiyarına verilib. Haqqında söhbət gedəcək sayca 7-ci kitabı isə bu yaxınlarda «Qanun» nəşriyyatında işıq üzü görüb və dərhal da poeziya həvəskarlarının, eləcə də tanınmış söz adamlarının diqqətini cəlb edib. Yeni nəşr "Dupduru bulaq kimi bayatılar" adlanır.

Bayatı. Xalq poeziyasının bir qolu olan şeirin bu növü tükənməz xəzinədir. Hər biri 4 misralıq bir bənd bayatıda dərin duyğu və fikir, hiss və həyəcan, yüksək əhvali-ruhiyyə cəmləşir və bitmiş bir əsər təsiri bağışlayır, özü də əsas fikir sondakı iki misrada yekunlaşır. Məsələn:

Əzizim bəxti yarım,

Bəxtimin təxti yarım.

Üzündə göz izi var,

Sənə kim baxdı, yarım?!

Göründüyü kimi son iki misrada mətləb açılır. Zaman-zaman bayatı janrına müxtəlif şairlər müraciət edib. Sarı aşıq isə bu sahədə öndə gedir. Onun bir bayatısını misal çəkək:

Əzizinəm Salyana,

Salı götür sal yana,

Necəsən bir ah çəkim,

Kür alışa, sal yana?!

Bəlkə də elə buna görədir ki, şairə Xədicə bu zəngin xəzinəyə baş vuraraq, özünün həyat yolu, sevgi və istəyi, ağrı və acıları adlandırdığı bayatılardan ibarət poeziya çələngi toplayıb, araya-ərsəyə gətirmişdir.

«Dupduru bulaq kimi bayatılar»ı şairə 4 bölümə ayırmışdır: «Vətən, torpaq, Qarabağ haqqında bayatılar», «Bəxt, tale bayatıları», «Ana sevgisindən doğan bayatılar» və «İnsan adlarına ithaf olunmuş bayatılar». Birinci bölük bayatılarda dərin və məzmun, vətənpərvərlik hissləri, elə-obaya bağlılıq, yurd həsrəti, qürbət və qəribçilik duyğuları əsas yer tutur.

Xədicə Muradın Şuşa harayı, Laçın yanğısı, Xocalı dəhşəti ilə qələmə aldığı bayatıları ürək yandırıb yaxır, qəlb alovlandırır, oxucu (xüsusən o yerlərdən perik düşən soydaşlarımız) özünü yenidən o dəhşətli hadisələrdə hiss edir, o məşum faciələrin qurbanları göz önündə canlanır. Bununla belə, şairə nikbin ovqatdadır, ona görə xalqımızı da dözümə, nikbinliyə səfərbər edir, bu ovqatda olan bayatılara təsəlliverici, ibrətamiz ovqat qatır.

Alıqdı Xocalım hey!

Xankəndim, Xocalım hey! ,

Bu dərdə dözəmmirəm,

Yaş töküm, qocalım, hey!

Xədicə xanımın Şuşadan ayrı düşmüş bülbülü tərənnüm edən bir bayatısına diqqət kəsilək:

Qürbətdə qalan gülüm,

Həsrətdən solan gülüm,

Şuşadan ayrı düşdü,

Od-alov saçan gülüm.

Yerlə-yeksan olmuş Xocslının bu gün yağı əlində qalması haqqında bayatı da ürək dağlayır:

Xocalıdan ad qaldı,

Dillərdə imdad qaldı,

Fələk, gözlərin çıxsın

Torpağımda yad qaldı.

Qeyrət qalamız olan, «Qafqazın konservatoriyası» adlandırılan, musiqiçilər beşiyi Şuşanın işğal altında qalmasından haray qoparan şairənin bir bayatısını necə ürəkağrısı ilə dinləməyəsən?

Gözəl Vətən Şuşa, hey!

Hamı getdi huşa, hey!

Qara buludlar gəlir

Qılıncım, gəl cuşa, hey!

Bənddəki tükürpədən, cihada səsləyən haray vətənpərvər qızın mübarizə əzmindən xəbər verir.

Kitaba daxil edilmiş bir sevgi bayatısını nəzərdən keçirək:

Əzizim, dodaq gözəl,

Dil gözəl, dodaq gözəl,

Busə ver çıxım gedim,

Odlansın dodaq, gözəl!

Bu bayatıdakı təbiilik, ülvilik, vurğunluq şairin iç dünyasının axıb misralara süzülüb və söz sahibinin zəngin mənəviyyatından xəbər verir.

Azərbaycanın say-seçmə söz ustadlarından akademiklər Bəkir Nəbiyev və Teymur Bünyadovun, filologiya elmləri doktorları Məhərrəm Qasımlı və AMEA-nın müxbir üzvü Teymur Kərimlinin Xədicə Muradın «Dupduru bulaq kimi bayatılar» kitabı haqqında yüksək fikir söyləmələri, onun sehrli-sirli dünyasının zənginliyindən söhbət açmaları əsərin dəyərinə verilən yüksək qiymətdir. Belə bir mənəvi saflığa səsləyən bayatılardan ibarət sanballı kitabı ilə oxucuların görüşünə gələn Xədicə xanımın hər iki sahədə böyük uğurları irəlidədir.

2010-cu il

AZIB GƏLMİŞƏM DÜNYAYA…

Gənc şair Qurban Cəbrayılın "Gənclik" nəşriyyatında yenicə işıq üzü görmüş şeirlər kitabı belə adlanır. Dövrü mətbuatda çoxdan jurnalist-publisist kimi tanınsa da, "Azıb gəlmişəm dünyaya" şair olaraq onun oxucularla ilk görüşüdür. Kitaba Q.Cəbrayılın acılı-şirinli uşaqlıq illərindən indiyə kimi qələmə aldığı müxtəlif ovqatlı şeirlərindən nümunələr və poeziya yollarına cığır salmağa başladığı çağlarda söz xiridarlarından aldığı xeyir-dualar cəmlənib.

Qurban Cəbrayıl 33 il əvvəl dünyanın ən gözəl guşələrindən biri olan Zaqatalanın Muğanlı kəndində doğulub. Çayların zümzüməsi ilə yuxuya gedən, meşələrin pıçıltısı, bülbüllərin cəh-cəhi ilə yuxudan ayılan balaca Qurbanın kiçik qəlbində ana təbiətə məhəbbət hissi erkən yaşlarından baş qaldırıb. Bu bakirə, mübhəm hisslər çox keçmədən onu sehrli şeir dünyasına, poeziya aləminə səsləyib. Həmin hissləri şeir dilinə çevirmək üçün. Q.Cəbrayılın saf, təmiz, bakirə hiss və duyğuları bahar ətirli şeir nümunələrinə çevrilib. O, erkən yaşlarından məhz özünə məxsus şeir boxçasından çələng verməyə başlayıb. Doğma yerlərə məhəbbət, ömürlük qəlbə hakim kəsilən gənclik duyğuları, təbiətə vurğunluq onun ilhamına qida verib, poeziya dünyasında sözün qüdrətinə tapınıb, ondan maya tutub, poetik hisslər yaradıcılıq yoluna işıq salıb.

Qurbanın şeirlərindəki təbiilik, sadəlik, ən başlıcası isə özünəməxsusluq elə o vaxt diqqət çəkib. Belə ki 15 yaşında ikən "Zaqatala" qəzetinin məsul katibi Zemfira Nəsibova gənc Qurbanın yaradıcılığındakı ümidverən poetik qığılcımları aşkar edib, ona mənəvi dayaq durub, barəsində ürəkaçan sözlər söyləyib. Bu isə gənc şairə qol-qanad verib, özünə inamını artırıb. 16 yaşında isə (1987-ci ildə) şair Vaqif Bəhmənli "İşıqlı duyğular" adı altında gənc qələm dostuna öz xeyir-duasını verib, həm də şeirlərini dərc etdirib. Bütün bunlar işıqlı duyğulu gənc şairin məsuliyyətini daha da artırıb. Onu poeziya aləmində təzə söz deməyə səfərbər edib.

Qurban Cəbrayıl həm də jurnalist peşəsini seçib. 1997-ci ildə BDU-nun jurnalistika fakültəsinin məzunu olub. Bundan sonra həm şeirləri, həm də publisistik məqalələri ilə dövrü mətbuatda çıxış edib. Və bu gün də "Nəbz" qəzetinin baş redaktorudur.

Təcrübə göstərir ki, jurnalist şinelindən çıxan qələm əhlinin - şair və yazıçının əsərləri daha çox sığallı, yatımlı, ölçülü-biçili olur. Bunu Qurban Cəbrayılın əlimizdə olan şeirlər toplusu da təsdiqləyir.

Belə ki "Azıb gəlmişəm dünyaya" kitabındakı şeirlər şair qəlbinin səmimiliyindən, saf və incə duyğulardan,

bakirəlikdən su içmişdir. Şair nədən yazır-yazsın, nədən danışır-danışsın - istər kol dibində mürgü döyən, günəşə boylanan boynubükük bənövşədən, istər nakam, uğursuz məhəbbətdən, istər axırı, sonu olmayan tale yollarından, istərsə də ana nisgilindən - səmimiliyi, təbiiliyi ilə yadda qalır. Buna görə də kitabı, necə deyərlər nəfəs dərmədən birbaşa oxuyub axıra çıxırsan. Şairin bir uğuru da ondandır ki, o, mövzu qıtlığı çəkmir. Bu da onun zəngin dünya görüşündən, hadisələri öz yaradıcılıq rakursundan müşahidə edib qələmə almaq şəristəsindən xəbər verir. Kitabı vərəqlədikcə, qeyd etdiyimiz mövzu müxtəlifliyi səni müşayiət edir. Şairin təbirincə desək, mələk donunda olan dünyaya, həyata vurğunluq, sevgi və məhəbbət yolunda hər əzaba dözüb tab gətirmək bacarığı, səni pənah tapan imkansızlara dayaq durmağa həmişə hazır olmaq, vətənə sonsuz məhəbbət hissi, dünyanı, ölkəmizi qoruyub, ölümü öldürən, el təəssübü çəkən qeyrətli oğullarımızın hünəri qarşısında səcdəyə gəlməsi, yaxşı, xeyirxah adamları ömrü boyu ehtiramla yad etmək borcu- kitabdakı şeirlər bax, bu notlar üzərində yazılmışdır.

Qurban Cəbrayıl həyata baharda göz açıb, şeirləri də bahar ətirlidir: qısa və lakonikdir, sadə və ürəyəyatımlıdır. Az sözlə çox mətləb açmağı bacarır. Bu, onun lirik şeirlərinə daha çox xasdır. Bu cəhətdən "Payız toyları"

şeiri diqqəti çəkir. Baxın, 3 bəndlik şeirdə şair rəssam olub, payız toylarının rəsmini necə məharətlə çəkmişdir?!

Baxtına, gül-çiçək ələ bahardan,

Özünə xoşbəxtlik gələ bahardan.

Baxışlar yol çəkər, hələ bahardan

Ürəkdə bəslənər payız toyları.

Yaranar ürəyin mübhəm sözündən,

Könüllər qığılcım alar gözündən.

Nəm çəkib qız verən ana gözündən,

Çəhlənər, sislənər payız toyları.

Ay Qurban, o gizli qəmi kim salıb?

Harayla bəxtini gör harda qalıb?

Sevdiyin qızları əlindən alıb,

Yenəmi səslənər payız toyları?

"Azıb gəlmişəm dünyaya" məcmuəsi xırda kəm-kəsirləri, yerində olmayan söz və ifadələri nəzərə almasaq, şairin ilk uğuru adlandırmaq lazımdır. Kitaba görkəmli şair və publisist Sabir Rüstəmxanlının ön söz vasitəsilə Qurbana xeyir-dua verməsi də dediyimi təsdiqləyir. Fikrimi Sabir müəllimin ön sözdəki son cümləsi ilə bitirmək istəyirəm:

- Qoy bu balaca kitabın ömrü böyük olsun!

2000-ci il

CANDAN ƏZİZ VƏTƏNDİR

Məmmədağa Ağarzaoğlu (Orucəliyev) ömrünün müdrik çağını yaşayır. Tanınmış qələm əhlidir. Oxucular yazıçı-pubiisist, istedadlı jurnalist kimi onun özünəməxsus dəst-xəttinə yaxşı bələddir. Abşeronun qədim Qobu kəndində doğulan Məmmədağa müəllim təkcə doğma kəndində deyil, bütöv Abşeronda

ağsaqqal kimi də dərin hörmət sahibidir. Uzun illər "Abşeron "qəzeti ilə əməkdaşlığı onun hörmət və izzətinin artmasına vüsət vermişdir. Yazıçının qələmindən çıxan müxtəlif məzmunlu jurnalist yazıları təkcə "Abşeron " qəzeti ilə məhdudlaşmır, respublikada nəşr olunan çoxlu sayda qəzet və jurnalların səhifələrində özünə yer tapır. Onu da önə çəkmək lazımdır ki, Məmmədağa müəllimin yaradıcılıq ilhamının mənbəyi də əsasən dünyanın ən gözəl guşəsi adlandırdığı Qobu və Abşeronun ətraf qəsəbələri, bu özünəməxsus yaşayış məskənlərinin tarixi keçmişi, buralarda yaşayan, torpağa bağlı insanların məşğuliyyəti, xarakter xüsusiyyətləri, adət-ənənələri, igid, ər oğullarının Abşeronun hünər tarixinə yazdıqları qəhrəmanlıq nümunələridir. Onu bu yerlərin səlahiyyətli nümayəndəsi, salnaməçisi adlandırmaq olar. İndiyə qədər Məmmədağa müəllimin adıçəkilən mövzuları əhatə edən xeyli kitabı işıq üzü görmüş və həmyerlilərinin rəğbətini qazanmışdır.

Öz qanı ilə müqəddəs Vətən sevgisini əbədiyyət salnaməsinə əbədilik həkk edən qeyrətli oğullar sırasında qobulu igidlərin də adı hörmətlə çəkilir. Zorla sürükləndiyimiz Qarabağ döyüşlərində və 20 Yanvar hadisələrində qobulu oğullar da şəhid olmuş və bu

müqəddəs zirvəyə layiq görülmüşlər. Qobu qəsəbəsinin özündə və digər yerlərdə 19 qobulu şəhid uyuyur. Şəhidlərin arasında Milli Qəhrəman adına layiq səviyyədə doyüşlərdə iştirak etmiş qobulular da az deyil: Gülverdi Hüseynov, Firuz Novruzov, İqbal Abışov, Zərbəli Zərbəliyev, Emin Əliyev və başqaları Qarabağ döyüşlərində qəhrəmancasına vuruşmuş və şəhidlik zirvəsinə yüksəlmişlər. Qobunun qədirbilən insanları onların hər birini Vətənin qəhrəman oğlu kimi xatırlayır.

M.Ağarzaoğlu növbəti dəfə özünün yeni bir kitabında Qobuda və Abşeronun başqa qəsəbələrində doğulmuş, Qarabağ uğrunda döyüşlərdə həlak olmuş həmyerlilərindən bəhs edir. "Kooperasiya" nəşriyyatında nəşr olunmuş kitab "Candan əziz" adlanır. Müəllif yeni əsərini şəhidlərin müqəddəs ruhuna layiq ovqatla, səliqə, sadə və səlis dillə qələmə almışdir. Kitabın əvvəlində "Şəhidəm, qan rəngli olsun kəfənim" başlığı altında dahi şəxsiyyətlərin, söz xiridarlarının Vətəni qorumağın vacibliyindən, şəhidlik zirvəsinə yüksəlməyin şərafətindən nümunələri, eləcə də Bəxtiyar Vahabzadə, Mədinə Gülgün və Kərbalayı Nazim Mizanın şəhidlərə nəsr olunmuş şeirlərini əsərinə daxil edib. Müəllif haqlı olaraq vurğulayır ki, bizim şəhidləri unutmağa haqqımız yoxdur. Odur ki, şəhidlər haqqında nə qədər deyilsə, yazılsa, barələrində kinofilmlər yaradılsa belə, yenə yetərincə

deyil. Elə buna görə də M.Ağarzaoğlu "Candan əziz" kitabını qələmə alıb. Əsərdə Qarabağ uğrunda döyüşlərdə ömrünün çiçəkli bahar çağında - cəmi 24 yaşında Ağdamda həlak olmuş Amil Qəribovun qısa ömür yolu "Kişi meydandan qaçmaz", Füzuli və Ağcabədi rayonlarında gedən döyüşlərin iştirakçısı olmuş, lakin Füzulinin "Qırmızı bazar" ətrafında gedən ölüm-dirim mübarizəsində itkin düşmüş, amma öldü-qaldısı barədə hələ də dəqiq bir məlumat olmayan Novruz Məcidov barədə ("Valideynlərinə bayram sevinci gətirmişdİ"), 26 yaşında 1994-cü il yanvarın 12-də Murovdağ ətrafında gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək şəhid övladlarımızın sırasına düşən Xanbala İsmayılovdan bəhs edən ("Yeddi oğul istərəm") yazıları həyəcansız oxumaq olmur.

Ölkəmizdə erməni təcavüzü başlayanda yaradılan könüllü batalyonlardan biri də "Abşeron" batalyonu idi. Nəbi Hacıağayev də 1993-cü ildə həmin hissəyə qoşulanlardan biri olur. Sonra da Qarabağ döyüşlərində fəal iştirak edir. Füzuli bölgəsində hünər göstərir. Dəfələrlə ölümlə üzləşir. Lakin ağır döyüşlərin birində sinəsinə tuşlanan düşmən gülləsi Nəbini əbədi susdurur. Vətən yolunda canını tapşıranda Nəbinin 25 yaşı hələ tamam olmamışdı. "Ata adı övlad üçün fərəhdir" adlı bu

yazı hazırda Qobu qəbiristanlığında uyuyan şəhid Nəbi haqqında elegiyadır.

Kitaba daxil edilmiş "Onu ürəklərdə axtarın" yazısında müəllif 20 yaşında Füzuli bölgəsində döyüş əmrini yerinə yetirərkən həmin rayonun Alxanlı kəndində digər yoldaşları ilə birgə minalanmış sahəyə düşərək həlak olmuş Sahil qəsəbə sakini Daşqın Bəkirovun qısa, lakin bugünkü gəncliyə nümunə olan vətənpərvər bir həmyerlimizin ömür yoluna güzgü tutulur. Daşqının döyüş yolu isə Füzulinin Qacar, Yuxarı Veysəlli, Seyidəhmədli, Üçtəpə, Əhmədbəyli, Qaraxanbəyli və başqa yaşayış məntəqələrindən keçmişdir. Daşqın qısa zaman kəsiyində döyüş bölgəsində misilsiz hünər göstərmişdir. O, bölük komandiri baş leytenant Yunus Məmmədovun yaralandığını görüb, özünü tez ona yetirmiş, komandirə tibbi yardım göstərməklə bərabər, onu döyüş bölgəsindən təhlükəsiz yerə aparmışdır. Onun başqa bir hünəri Aşağı Əbürrəhmanlı kəndi uğrunda döyüşlərdə olmuşdur. O, düşmənin neçə-neçə canlı qüvvəsini məhv etmiş, böyük çaplı pulemyotunu sıradan çıxarmışdır. Başqa bir epizod. Aşağı Əbürrəhmanlı kəndində gedən qeyri-bərabər döyüşdə əsgərlərimiz mühasirəyə düşür. Bu zaman özünü itirməyən Daşqın məharətini göstərir: O, qumbaraatanla düşmənin bir

zirehli texnikasını sıradan çıxararaq əsgərlərimizi mühasirədən qurtarır.

Qorxmaz və vətənpərvər Daşqının məzarı Lökbatandakı Şəhidlər Xiyabanındadır.

"Tahirin əbədi rolu". Kitabda özünə yer almış bu yazı belə adlanır. Həmin oçerk aşağıdakı bayatı ilə (ümumiyyətlə, yazıçı hər bir yazısına bir bayatı ilə başlayır) təqdim edir:

Əzizim, namərd əli,

Heç tutma namərd əli.

Mərd olan tikər, qurar,

Ev yıxar namərd əli.

Həmin oçerkdə yalnız aktyorluq üçün doğulmuş, hələ 5 yaşında Akademik Milli Dram Teatrı səhnəsində tamaşaçılar qarşısına çıxmış (rejissor M.Məmmədovun quruluş verdiyi Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" pyesində xəstə uşaq rolunda) balaca Tahir əməkdar artist, həmin sənət məbədində çalışan Firuz

Xudaverdiyevin ailəsində doğulmuşdu. O, böyük istedad idi. Sənət eşqi ilə çırpınan Tahirin kiçik qəlbində ilahi bir sevgi var idi. Teatrda onu sevir, sənətə məhəbbətini alqışlayır, böyük aktyor olacağına əmin idilər. Çünki Tahir yalnız səhnə üçün doğulmuşdu, səhnə ilə nəfəs alırdı. Teatr səhnəsində bir-birindən fərqli neçə-neçə uşaq obrazı yaratmış, tamaşaçı sevinci qazanmışdı. Ümumiyyətlə, Tanrı ona hərtərəfli istedad bəxş etmişdi. Bir neçə musiqi alətində çalmağı bacaran Tahir həm ustadlı fotoqraf, həm də zərgər dəqiqliyi ilə işləyən inşaatçı idi. İlahi, bir kiçik qəlbə nə qədər sevgi sığarmış?! Amma onlardan ən güclüsü Vətən sevgisi, Vətən məhəbbəti idi. Bu sevgi, bu tükənməz məhəbbət isə birdən-birə yaranmamışdı. Damla-damla hopmuşdu Tahirin canına, qanına. Hələ Krımda əsgəri xidməti başa vuranda ona orada qalıb işləməyi, firavan yaşamağı vəd etsələr də, Vətən məhəbbəti hər şeyə güc gəldi və nə yaxşı ki Tahir geri qayıtdı. Bu elə bir vaxt idi ki, Azərbaycanda, Qarabağda müharibə gedirdi. 1992-ci il idi. Milli ordu yaranırdı. Tahir də həmin orduya könüllü yazılır. Beləliklə, onun Vətənin müdafiəsinə qoşulduğu tarix 1992-ci il sentyabr ayının 22-dən başlanır. Ağdam cəbhəsində döyüşlərdə iştirak edir. Sonrakı döyüş yolu Sırxəvənd, Çaldıran, Drambon yaşayış məntəqələrindən keçir. Dəfələrtə ölümün bir addımlığında olur. Ağır

döyüşlərin birində mühasirəyə düşdüklərini, hərbi sursatın tükəndiyini görən Tahirgil özlərini ölülüyə vuraraq meyitlərin arasında uzanırlar. Erməni vəhşiləri meyitlərə yaxınlaşaraq onları bir-bir təpikiəyib üstlərindən keçirlər. Həmin təpik zərbələrinə Tahir və döyüs dostları da dözüb cınqırlarını belə çıxarmırlar. Qaş qaraldığından, bir şey başa düşməyən ermənilər meyitlərin hamısını ölmüş bilib oradan uzaqlaşırlar. Ertəsi gün köməyə gələn əsgərlərimiz Tahirgili mühasirədən çıxarmağa müvəffəq olurlar.

Cəsur Vətən oğlu Tahirin döyüş yolu 1994-cü il aprelin 15-də Aşağı Veysəllidə başa çatır, ömür yoluna burada son qoyulur. Həmin gün Tahir yaralanmış silahdaşı Akifi xitas etmək istəyərkən ayağı altında partlayan düşmən mərmisindən yaralanıb yerə çökür. Lakin bir an özündə güc toplaylb dikəlmək istəyir. Elə bu an yağı gülləsinə tuş gəlir. Köksünə sancılan güllə onu al qana boyayır və Tahirin həyatı beləcə yarımçıq kəsilir. Tahir Xudaverdiyev 28 yaşına bir ay qalmış hər şeydən əziz və müqəddəs bildiyi Vətən yolunda canını qurban verir.

Tahir qalsaydı, 38 yaşı olardı. Tanınmış aktyor müxtəlif səpkili rollar ifa edərdi. Amma sonuncu əbədi obrazı şəhid rolu oldu və bu rola *öz* ömrünü fəda etdi. Səhnə onun döyüş meydanı oldu. Belə bir rolu ifa etmək

hamıya nəsib olmur. Yalnız Vətən aşiqləri belə bir rolu oynaya bilər. Elə Tahir kimi Vətən aşiqləri.

Məmmədağa Ağarzaoğlunun "Candan əziz" kitabı onun Vətən uğrunda həlak olmuş, bahar çiçəkləri kimi tər və növcavan gənclərimizin müqəddəs ruhuna layiqli töhfəsidir.

2008-ci il, "Qarabağa aparan yol" qəzeti

***

GÖZLƏRİMDƏN YAĞIŞ YAGIR, GƏL YUYUN...

Həsənoğludan üzübəri müdrik və qədirbilən Azərbaycan xalqının mayasının şeirlə, musiqi ilə yoğrulduğu zaman-zaman təsdiq olunmuşdur. Hər biri 4 misralıq bayatılarımızda, şirin-şəkər laylalarımızda, xalq mahnılarımızda dərin məna yükü, yüksək ülvi məhəbbət, bakirəlik, övlad sevgisi, Vətən və yurdsevərlik duyğuları üstünlük təşkil edir. Elə bunun nəticəsidir ki, qısqanclıq və paxıllıq hissi ilə alışıb-yanan nankor və bədnam qonşularımız hikmət dolu xalq mahnılarımızı, musiqi

alətlərimizi, hətta milli yeməklərimizi belə mənimsəmək üçün dəridən-qabıqdan çıxırlar. Amma dünya xali deyil, şəri-şeytan, quru böhtan və iftira ilə nəfəs alan ermənilərin paxırı açılır, hər şey öz sahibinin adı ilə tanınmağa başlayır.

Bəli, Azərbaycan istedadlar ölkəsidir. Bu ölkə dərin zəkalar, müdriklər məmləkəti kimi zaman-zaman mütəxəssislərin diqqətini cəlb edir. Bu xalqa şair xalq da deyirlər. Burada bir həqiqət var.Hansı xalqda Nizami, Nəsimi, Füzuli, Xəqani, Vidadi, Zakir,Vaqif, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk kimi bəşəri şairlər var, hansı xalqın XII əsrdə Məhsəti kimi dünyaya öz rübailəri ilə səs salan qadın şairi olub? Bəli, Azərbaycan xalqı şair xalqdır. Amma bu xalqın şair övladı olmaq böyük məsuliyyət tələb edir. Çünki gərək yuxarıda adlarını sadaladığım klassik şairlərə, həmin o söz xiridarlarına layiq sözlərdən yoğrulmuş seir nümunələri yarada biləsən ki, onların müqəddəs ruhları inciməsin. Əfsus ki, həmişə belə olmur. Xüsusən də bugünkü durumda. Necə deyərlər, papağı kimə atırsan "şair"ə dəyir. Yenicə çapdan çıxmış belə hər hansı bir “şair”in kitabını ələ almağa peşman olursan. Hələ bir kitaba yazılmış annotasiyada "bu, şairin işıq üzü görmüş 5-ci, yaxud 10-cu kitabıdır" sözləri adamı şok

vəziyyətinə salır. Belə ovqatdan sonra başqa yeni seir kitabına yaxın durmağa qorxursan.

Növbəti dəfə lap bu yaxınlarda başqa bir seir kitabına tuş gəldim. Əvvəlcə götürüb baxmağa cürət etmədim. Di gəl ki sərlövhə diqqətimi çəkdi:" Gözlərinə de ki. . ." Müəllifinə nəzər yetirdim: Şərafəddin İlkin. Tanış imza idi. 140 səhifəlik şeirlər toplusu. "Gözlərinə de ki. . ."dən hələ də mətbəə qoxusu gəlirdi. Kitab "Ziya" KPM -də işıq üzü görmüşdü. Kitabdakı şeirləri müəllif "Bu yollar hardasa çaşdırar məni", "Quş olub o taya (Cənubi Azərbaycanı nəzərdə tutur müəllif) uçmağım gəlir", "Ana kimi yar olmaz", "Qəlbimin sakinləri", "Sənin gözlərinə baxa bilmirəm" və "Canım məhəbbət" kimi bölümlərə ayırmışdır. Göründüyü kimi, Şərafəddin İlkin yaradıcılığı üçün mövzu genişliyi, mövzu rəngarəngliyi xarakterikdir. Bu da onun zəngin müşahidə qabiliyyətindən, doğma yurda, elə -obaya, Vətənə bağlılığından, övlad sevgisindən, anaya sonsuz məhəbbətdən, Yer üzünün əşrəfi olan insanlara qəlbində pak və ülvi hisslərlə yoğrulmuş isti münasibətdən irəli gəlir. Bu gün Azərbaycan xalqının ən ağrılı yeri Qarabağın düşmən əsirliyində qalmasıdır. Buna rəğmən kitabdakı ilk şeir də elə "Qarabağ dağı" adlanır. Bu dağı şeir misralarında əridən söz sərrafı üstəlik, Təbriz göynərtisini də əlavə edir

və şeirin bir bəndində fələyə üz tutan şair fikrini belə izhar edir:

Göz yaşım güclüdür yağan yağışdan,

Dərd verib qəlbimin yağını çəkdin.

Təbriz göynərtisi sağalmamışdan,

Qəlbimə Qarabağ dağını çəkdin.

Bənddəki misralardan göründüyü kimi, dərdli şair göz yaşının yağışdan güclü olduğunu, Təbriz göynərtisi bitməmiş Qarabağ dağına tuş gəlməsini bədii ifadə vasitələri ilə ustalıqla təsvir etmişdir. Ümumiyyətlə, Ş.İlkin öz yaradıcılığında idiomatik ifadələrdən, deyimlərdən, bənzətmələrdən məharətlə istifadə etməyi bacarır ki, bu da onun şeirlərinin tutumunu, bədii gücünü, xislətini artırır.

Kitabdakı şeirləri nəzərdən keçirdikcə bu qənaətə gəldim ki, şair lakonik, həcmcə qısa şeirlərində daha çox uğur qazanır. Məna və məzmunca tutumlu söz və ifadələr işlədir, az sözlə əhatəli mətləbləri seir misralarına

hopdura, ürəyəyatan deyimlər ifadə edə bilir. Bu fikirlər şairin ən çox qoşmalarında özünü nümayiş etdirir. Üçdəndlik "Qalmayıb" qoşması söyədiklərimin bariz nümunəsidir:

Nə deyib yanıma gəlmisən yenə?~

Sənə deyiləsi sözüm qalmayıb.

Gedirsən, yaxşı yol, uğurlar sənə,

Ardınca baxacaq dözüm qalmayıb.

Yazıqsan, bu qədər minnət götürmə,

Könlüm gül istəyir, qanqal bitirmə,

Baxıban arxamca köks də ötürmə.

Yeriyən cismimdir, özüm qalmayıb.

Şah ola bilərmi de, tacsız-taxtsız,

Gül də tez solacaq açılsa vaxtsız,

Yanıma od üçün gəlmə, a baxtsız,

Ocağım qalmayıb, közüm qalmayıb.

"Bilmirəm", "Sinəmdəki dağa bax", "Sevgi yaman ucuzlaşıb", "Dodağında ötərdim", "Dəyişilmiş ünvan" başlıqlı lirik ovqatlı şeirlərdə də şair bədii söz çalarlarından yerli-yerində, bol-bol istifadə etməklə istədiyinə nail olur:

Nəsimi babam tək soyun dərimi,

Salmayın elimin dilindən məni;

Hər yerdən pozmuşam adını sənin,

Təkcə ürəyimdən silə bilmirəm;

Qızlar gəlin köçəndə

Yadıma sən düşürsən;

Neyləyim, sənə görə qara rənginə

Peyvənd eləmişəm öz taleyimi;

Bəlkə həqiqəti özün deyəsən:

Hara gedim sənsizliyin əlindən?

kimi qoşa misralardakı sərrast ifadələr, lirik "mən"in alovlu duyğuları, misraları qanadlandıran deyimlər şairin istedadının gücündən, təbinin coşqunluğundan xəbər yerir.

Lirik şair kimi Ş.İlkinin sözlərinə kifayət qədər mahnılar bəstələnib. Elə kitaba daxil edilmiş "Canım məhəbbət" adlı bölümdə də müxtərif bəstəkarların onun şeirlərinə bəstələdikləri "Səni itirməkdən yaman qorxuram", "Gətirdi sellər Sarani", "Sən hamıdan qəşəngsən", "Yavaş yeri", "Mənə niyə baxırsan", "Qəlbim səndən dönən deyil" və s. kimi mahnılar musiqisevərlərə yaxşı tanışdır.

Şeirlərinə müqəddəs insani və ülvi hisslər hopmuş şair Şərafəddin İlkini işıq üzü görmüş "Gözlərinə de ki..." adlı

sanballı kitabı münasibətilə ürəkdən təbrik edir, yeni yaradıcılıq uğurları diləyir, "lirik ovqatın heç vaxt tükənməsin" - deyirəm.

5.07.2010-cu il

SAİR KÖNLÜNÜN SARI SİMİ DİLƏ GƏLƏNDƏ…

Bugünkü kitab nəşri bolluğunda (qəzet-jurnal bolluğundan danışmağa dəyməz) oxucunu əsil poeziya nümunələri ilə təəccübləndirmək (sevindirmək) çox da asan deyil. Çünki senzuranın ləğv olunduğu bir zamanda özünü yazıçı, şair sayan cızmaqaraçılar pullarına güvənərək söz-sənət meydanında at oynadır, bir-birinin ardınca müxtəlif nəşriyyat və mətbəələrdə (belə çapxanalarsa kifayət qədərdir, maşallah) kitablarını çap etdirib gözə dürtür, qürrələnir, sonra da Yazıçılar Birliyinə ayaq açırlar ki, onları üzvlüyə qəbul etsinlər.

Bununla belə, necə deyərlər, dünya xali deyil, yəni Azərbaycan ədəbiyyatı təkcə belə cızmaqaraçıların yaradıcılığından ibarət deyil. Poeziyamız bu gün də sürətlə inkişaf edir. Yeni və orta nəsil şairləri poeziyamızın inkişaf sürətinə öz töhfələrini verirlər. Elə bu günlərdə gənc jurnalist həmkarım Vaqif Alıoğlu mənə 100 səhifəlik bir şeir kitabçası təqdim etdi və xahiş etdi ki, oxuyub fikrimi söyləyim. Əl boyda kitabçanı alıb maraqla vərəqlədim. Doğrusu, kitab ilk şeirlərdən nəzərimi cəlb etdi. "Könlümün sarı simi" adlanan seirlər toplusunun müəllifi Mina Rəşiddir. Müəllif yaxşı hal kimi kitabın ilk səhifəsində özü barədə məlumat verir. Məlum olur ki, ömrünün 32-ci baharını yaşayan kitab müəllifi hazırda düşmən əsirliyində olan Ağdamın Qiyaslı kəndində doğulub. Həyatda yol göstərəni olmayıb. Yalnız öz qabiliyyəti, səyi və bacarığı sayəsində ədəbi aləmə daxil olub. BDU-nun məzunudur. AJB-nin üzvüdür.

Bu məlumatların hamısı bir yanadır, amma bəri başdan qeyd edim ki, kitab müəllifi AJB üzvü olmağa layiqdir. Cünki, o, əsil şairdir. Kitabı oxuduqdan sonra bu qənaətə gəldim. Doğrudan da, Azərbaycan poeziyasına Mina Rəşid timsalında istedadlı bir şair gəlib. Söz mülkündən yaradıcılıqla istifadə edərək əsil poeziya nümunələri yaradan bir şair, öz yaradıcılıq dəst-xətti, lirik duyğulara, fəlsəfi düşüncəyə, mövzu əlvanlığına,

müraciətetmə qabiliyyətinə, kifayət qədər həyat təcrübəsinə (yaşının az olmasına baxmayaraq) malik bir söz xiridarıdır.

Mina xanım kitabın ön sözündə deyir ki, ən böyük dostu, sirdaşı Ulu

Tanrıdır. Elə Ulu Tanrı da bu milləti, onun Mina kimi qövmünü sevir. Çünki ona belə bir şairlik istedadı verib Ulu Tanrı. Cünki bu, şair Mina xanıma bəxş olunan ilahi vergisidir. Və onun bu ilahi vergisinə zəhmət payı, ciddi yaradıcılıq axtarışları də əlavə olunmaqla şairin tamlaşmış bütöv poeziya nümunələri yaranıb.

Mina Rəşid poeziyası üçün lakoniklik, sadəlik, sözün qüdrət və çəkisindən bacarıqla və yerində bəhrələnib, az sözlə çox və böyük mətləbləri açmaq bacarığı xasdır. Ümumiyyətlə, şairin şeirlərində dərin məna yükü guclüdür, deyim tərzi, sözlərin düzümü zərgər dəqiqliyi səviyyəsindədir. Onun üçün külək, günəş, işıq, hava, su, ağac müraciət vasitələridir, onlara müraciət edərək fikir və duyğularını şeirlərinin canına, qanına hopdurur, dərin məzmunlu poeziya nümunələrini yaradır. Küləyin əsməsini görün şair poeziyanın oynaq dililə bədli təsvir vasitəsilə necə mənalandırır:

Sınıq-salxaq pəncərəmi

Bir də vur, soyusun ürəyin.

Mənə neylərsən, a külək –

Sənsiz də əsir ürəyim.

...Sabah ürəyin yumşalar,

Sığal çəkərsən telimə.

Get, xəbər eylə fələyə,

Bir insaf gəlsin könlünə.

Şairin incə və həzin, kövrək və iniltili lirik şeirləri yaradıcılıq qayəsinin əsas hissəsini təşkil edir. Baxışlar, gözlər haqqında kıfayət qədər lirik şeirlər oxumuşuq. Lakin şair Mina xanım 2 bəndlik "Baxışlar"ı görün nəyə bənzədir?

Tanrının alqışıydı,

Bəndənin saf baxışıydı.

Bir təbəssüm yağışıydı

Baxışların.

Həzin bir nəğmə kimiydi,

Könlümün xoşbəxt dəmıydi.

Saçlarımda dən-dən idi

Baxışların.

Baxışları Tanrının algışına, həzin bir nəğməyə, könlünün xoşbəxt dəminə, təbəssüm yağışına, saçlarına dən-dən qonmasına bənzədən lirik şair elə bil musiqi ilə baxışlara həzin bir layla çalır, kövrək bir layla!

İnsanları mərhəmətə, bir-birinin dərdinə şərik olmağa səsləyən bu söz adamı dünyanın axırını gör bir nədə görür:

Harda ki dərdini duyan olmadı,

Dünyanın axırı elə oradı -

qənaətinə gəlir.

Bütün qarabağlılar kimi, hər bir Azərbaycan vətəndaşı kimi Qarabağ boyda dərd şairin qəlbində asılı qalıb, bütün rahatlığını alıb. Bunu kitabdakı "Ağlama, Qumru xala", "Ürəyi talan ana", "Körpələrin xətrinə , "Köçkün uşağına", “Qarabağ harayı", "Bu qara şəhərdə" kimi şeirlərdə aydın oxumaq olur. "Qarabağ harayı" şeirini şair aşağıdakı - son haraylı misralarla bitirir:

İndicə söküb atın, sındırın

Bayağı reklam lövhələrini.

Asın başımız üstündən

"Qarabağ bizimdir!" şüarını.

Mina Rəşid novator şairdir, bədii təsvir vasitələrindən, idiomatik ifadələrdən bacarıqla istifadə edir, şeirin siqlətini gücləndirir. Kitabı oxuduqca, addımbaşı xatırladığım ifadələrə, deyimlərə, bədii təsvir vasitələrinə rast gəlirik. Onlardan bəzilərini qeyd etmək yerinə düşər:

gözündə qəlbim bitər, söz didərgin düşər, dərdimiz od rəngində, zaman yüyürüb keçir, buludlar evimin göylərindəcə, bu boyda aləm qəbir evimdən dardır, uşaq gözündən qarıyır, qara daş kimi tale, ömür günlərimi biçər, zülmət şalına bürünür, qəlbimin sökülmüş ilmələri, təbəssümün içində qarıyır, üzümdə bükülür, ümidlər xarala düşdü, köksümə xal salmışam, bulud könlüm dolub-dolub daşacaq, bu sevda dar ağacı, ürəyim asılacaq və s...

Çoxdan idi ki, belə ürəyəyatan, qəlbi riqqətə gətirən, gah sənə xoş ovqat bəxş edən, aurana həzinlik, təskinlik verən, gah da həyatda hər addımbaşı təsadüf etdiyin nankorlara, insafsızlara qarşı mübarizəyə səsləyən şeirlər oxumurdum. Hələ uzun zaman şairin "Könlümün sarı simi"nin xoş təsiri altında olacağam. Könlün qəm görməsin, Mina xanım! Yeni şeir kitablarını gözləmək ümidilə.

ÜZEYİRŞUNASLIGA YENİ HƏDİYYƏ

Milli operamızın, operettamızın, simfonik, xor, kamera və vokal musiqimizin banisi sayılan Üzeyir

Hacıbəyov milli kinomuzun da yaradıcılarından biri olmuşdur. Təsadüfi deyil ki, XX əsrin əvvəllərində Azərbaycanda film yaratmaq istəyən rejissorların müraciət etdikləri ilk əsərlərdən biri məhz "Arşın mal alan" idi. 1913-cü ildə Üzeyir bəy tərəfindən operetta kimi yazılan "Arşın mal alan" 1916-cı ildə ilk dəfə kinoya qədəm qoydu. Lakin operetta müəllifi filmi bəyənmədi. Çünki filmdə şit, bəsit, sönük pafosa geniş yer verilmişdi. Halbuki əsrarəngiz musiqiyə, dolğun mənalı librettoya, incə yumorla zəngin olan "Arşın mal alan"ı ekranda layiqincə təcəssüm etdirmək olardı. Ona görə də «Arşın mal alan» heç vaxt kinematoqrafçıların diqqətindən kənarda qala bilməzdi. Doğrudan da sonradan bu əsərin həm Azərbaycanda, həm də Amerikada qəribə və maraqlı kino taleyi olmuşdur. Bütün bu və ya başqa aktlar barədə kinoşünas Aydın Kazımzadənin yenicə çapdan çıxmış «Üzeyir Hacıbəyov və kino" kitabında ətraflı bəhs olunur. Kitabı vərəqlədikcə gözümüzün önündə ömrünü, istedad və biliyini doğma xalqına həsr etmiş müdrik və zəhmətkeş bir insanın nurlu obrazı canlanır.

Xatırladaq ki, "Arşın mal alan" üç dəfə müxtəlif illərdə Azərbaycanda, bir dəfə isə Amerikada (1937-ci ildə ermənilər tərəfindən) ekranlaşdırılıb. Təbiidir ki, bütün yaradıcı heyət ermənilərdən ibarət olduğundan, filmin alternativ adını da "Xırdavatçı sevgili" qoymuşlar.

"Arşın mal alan"ı ikinci dəfə Azərbaycanda 1945-ci ildə rejissor Rza Təhmasib rus rejissoru Leşşenko ilə birgə çəkib. Film Stalin mükafatına (sonradan Dövlət mükafatı adlanıb) da layiq görülmüşdür. Əsas rolları görkəmli sənət adamları Rəşid Behbudov (Əsgər), Leyla Bədirbəyli (Gülçöhrə), Ələkbər Hüseynzadə (Soltan bəy), İsmayıl Əfəndiyev (Süleyman), Lütfəli Abdullayev (Vəli), Münəvvər Kələntərli (Cahan xala), Fatma Mehrəliyeva (Telli), Rəhilə Mustafayeva (Asya) ifa etmişlər.

Üçüncü dəfə isə "Arşın mal alan" 1965-ci ildə Ü.Hacıbəyovun anadan olmasının 80 illiyi münasibətilə rejissor Tofiq Tağızadə tərəfindən ekranlaşdırılmışdır. Bu dəfə film üçün tamam başqa bir kollektiv (Həsən Məmmədov - Əsgər, Leyla Şıxlinskaya-Gülçöhrə, Ağadadaş Qurbanov- Soltan bəy, Nəcibə Məlikova - Cahan xala, Murad Yegizarov - Süleyman, Xuraman Hacıyeva-Asya, Tələt Rəhmanov - Vəli, Səfura İbrahimova -Telli, Möhsün Sənani - Qoçu Əsgər və b.) seçilmişdi.

Müəllif sonra Ü.Hacıbəyovun ekran həyatı verilmiş "O olmasın, bu olsun" bədii filmindən geniş bəhs edir, hər iki lentin böyük uğurundan söhbət açır. Belə ki, kinoşünas göstərir ki, "Arşın mal alan" filminin rus və Azərbaycan variantlarının büdcəsi o vaxtkı qiymətlərlə 5807000 rubl

təşkil etmişdi. Filmin ekranlara buraxılmasından iki il ərzində 5 milyard rubl qazanc əldə edilmişdir. Təkcə 1945-ci ilin son aylarında «Arşın mal alan»a 16,27 milyon tamaşaçı baxmışdır.

Üzeyir Hacıbəyovun mənalı, şərəfli həyatı və yaradıcılığı daim sənət adamları üçün tükənməz ilham mənbəyi olmuşdur. Müxtəlif illərdə bədii və sənədli kinomuzda bu böyük şəxsiyyət barədə filmlər yaradılmışdır. Bu barədə kitab müəllifi "Üzeyir ömrü kino lentlərdə" adlı başlıqda ətraflı məlumat verir.

Məlum olduğu kimi, həm "Arşın mal alan", həm də "O olmasın, bu olsun" filmlərinin yaradıcıları bu gün aramızda yoxdur. Lakin müəllif böyük uzaqgörənlik nümayiş etdirərək onlardan vaxtilə aldığı müsahibələri, filmlərin yaranma tarixi ilə bağlı söhbətləri, topladığı müxtəlif sənədləri, arxiv materiallarını da kitaba daxil etmişdir.

A.Kazımzadə uzun illər kino sahəsində çalışdığı üçün Azərbaycan kinosunun tarixini çox yaxşı bilir. Necə deyərlər, kinomuzun bu canlı ensiklopediyasının Azərbaycan filmfondunun qorunub saxlanılmasında da misilsiz xidmətləri var. Təkcə bir faktı xatırladaq ki, A.Kazımzadə kitaba daxil edilən materialların

toplanmasına 65 illik ömrünün 40 ilindən çoxunu sərf edib. Zəhmətkeş kinoşünas bu gün də əzmlə, yorulmadan çalışır, Azərbaycan kinosu tarixinin qaranlıq səhifələrini üzə çıxarır.

"Üzeyir Hacıbəyov və kino" kitabı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə çap olunub. Kitab xalqına və torpağına bağlı olan misilsiz sənətkar Üzeyir Hacıbəyovun 120 illik yubileyinə layiqli hədiyyədir.

BİLİK ÇIRAĞI YANDIRANLARDAN BİRİ

ESMİRA MƏHƏRRƏMOVA: "MÜƏLLİM GƏRƏK ŞAGİRDLƏRİN QƏLBİNDƏ YAŞASIN"

«Başqalarının qayğısını çəkə-çəkə ömrü başa vuranlar ən gözəl, ən xoşbəxt insanlardır»

V.F.Suxomlinski.

Adama elə gəlir ki, çox yaxşı tanıdığın bir adam haqqında söz demək, söhbət açmaq asandan asanddır. Çünki tanıdığın o şəxs barədə guya hər şeyi bilirsən. Amma əsində bu, belə deyil. İşin çətinliyi də elə bundadır. Bilmirsən necə başlayasan, yaxşı tanıdığın o şəxsin hansı keyfiyyətlərini önə çəkəsən, bir sözlə, elə yazasan ki, yazdığın adama, onun bütün fəaliyyətinə layiq olsun.

Mən də eyni hissləri keçirdim. Yaxşı tanıdığım bir xanım müəllim haqqında onun yubileyi ilə əlaqədar sevimli qəzeti üçün material hazırlamaqdan əvvəl bir xeyli götür-qoy etdim. Ömür yolunu göz önündə canlandırdım. Esmira Məhərrəmovanı deyirəm. Yarıməsrlik ömrünün yarısını müqəddəs peşə sandığı müəllimliyə həsr etmiş bir sənət fədaisi barədə oxuculara məlumat verməkdir məqsədim.

Esmira Hüseyn qızı Məhərrəmova 50 il qabaq aprelin 5-də Bakıda anadan olub. Sakit, sadə, səmimi bir ailədə. Esmira ailənin ilkisi olub. Ayağı sayalı olan bu qız ardınca 3 qardaş, 2 bacı gətirib: Elxan, Elmira, Elbəy, Elçin və Natəvan. Ailənin başıpapaqlısı Hüseyn kişi hər uşaq dünyaya gələndə, qəlbi köksünə sığmayıb. Bircə duası bu olub ki, Allah ruzusunu yetirsin. Necə ki, Allah yetirib də. 12 yaşından oruc tutub, namaz qılan anası Şükufə xanım özü ali savad ala bilməsə də, 6 övladını göz bəbəyi kimi

böyüdüb, onların təhsil almalarına çalışıb, təlim-tərbiyəsi ilə ciddi məşğul olub. Uşaqlar da fərasətli çıxıblar. Hamısı ali təhsil alıb. Elbəy hətta Moskvada oxuyub, ali tətisillə vətənə qayıdıb.

Esmira Məhərrəmova Yasamal rayonundakı N.Tusi adına 173 saylı riyaziyyat təmayüllü orta məktəbdə oxuyub. Hələ aşağı siniflərdə riyaziyyat fənninə könül verib və bu dəqiq elm sonradan onun həyatının mənasına çevrilib. Məktəbin istedadlı riyaziyyat müəllimi İbrahim Bünyatov bu sahədə biliyini təhsil ocağının gənc riyaziyyatçılarının, necə deyərlər, beyninə köçürüb. Esmira da onların arasında olub. Eyni sinifdə oxuyan 20 şagirdin hamısı İbrahim müəllimin diqqət mərkəzində olub. Fənninin fədaisi olan riyaziyyat müəlliminin zəhməti öz bəhrəsini verib. 1971-ci ildə həmin məktəbin 20 nəfərdən ibarət eyni sinif şagirdlərindən 18 nəfəri müxtəlif ali məktəblərə qəbul olunub. Esmira Məhərrəmova isə BDU-nun riyaziyyat fakültəsinin tələbəsi adını qazanıb. Özü də bu ali məktəbə eksperiment yolu ilə qəbul olunub. O vaxt 2 imtahanın - əsas ixtisas fənni sayılan riyaziyyatın yazılı və şifahisindən 5 qiymət alanlar, qalan imtahanlardan azad olunaraq tələbə adını qazanırdı. Riyaziyyatın yazılı imtahanından əla qiymət alan abituriyent Esmiradan şifahi imtahan qəbul edən BDU-nun riyaziyyat üzrə tanınmış müəllimi, professor

Arif Babayev qızın cavablarından çox razı qalır və ona əla qiymət yazır, tələbə adı qazanması münasibətilə ilkin təbrik edir. İlk arzusu çiçək açan tələbə ali məktəbdə də Arif müəllim kimi pedaqoqlardan dərs alır, riyaziyyat və başqa fənlərə ciddi maraq göstərir, gecə-gündüz oxuyur, kitablardan ayrılmır. Beləcə, unudulmaz tələbəlik illəri arxada qalır və həyat Esmiranı öz qoynuna alır. Əsil mübarizə də bundan sonra başlayır.

Ali məktəb məzunu gənc riyaziyyat müəllimini təyinatla Saatlı rayonuna göndərirlər. Esmira da məmuniyyətlə razılıq verir. Beləliklə, həyat onu fəaliyyət göstərməyə, ürəkdən sevib-seçdiyi riyaziyyat fənnini gənc nəslə öyrətməyə məhz Saatlı rayonunda başlayır. Sevinirdi Esmira müəllim. Arzusuna çatmışdı. Müəllim çağırılırdı adı. İlk dərs gününü, ilk dəfə sinfə girdiyini yaxşı xatırlayır. İlk həyəcanı bu gün də yadındadır. Amma gənc müəllim tez özünü əla alır və uşaqların diqqətini özünə cəlb edə bilir.

Bir il rayonda işləyən Esmira müəllim ailə qurması ilə əlaqədər Bakıya qayıdır, Yasamal rayonundakı 199 saylı orta məktəbdə işə düzəlir. Burada gənc riyaziyyat müəlliminin qarşısında geniş üfüqlər açılır. Böyük həvəs və enerji ilə fəaliyyətə başlayır. Yeni kollektiv-müəllim və şagirdlər arasında qısa vaxtda dərin hörmət qazanır.

Fənnini uşaqlara sevdirməyi bacarır. Çox ciddi və tələbkar, eyni zamanda mehriban və qayğıkeş olan müəllim həm də bu təhsil ocağında məktəbdənkənar və sinifdənxaric işlər üzrə direktor müavini vəzifəsini icra edir. Məktəbdə yaranmış nizam-intizam, təlim-tərbiyə işləri, dərsmənimsəmənin yüksək səviyyəyə qalxması, təhsil ocağının uğurları Yasamal rayonundakı başqa təhsil ocaqlarına nümunə göstərilir. Bu müvəffəqiyyətdə Esmira müəllimin də zəhmət payı vardı.

Beləcə, ömrünün ən gözəl 6 ilini bu məktəb kollektivi arasında keçirir. Günlərin birində isə (bu tarix 1 aprel 1984-cü ilə təsadüf edir) Esmira Məhərrəmova mənzil alması ilə əlaqədar olaraq məktəblə vidaşmalı olur. Əlbəttə, bu, həm onun, həm də məktəb kollektivi üçün gözlənilməz idi. Amma nə edəsən ki, hər zamanın öz hökmü var. Esmira müəllim həmin ayrılıq gününü indi də kövrək notlarla yad edir. O gün məktəbdə pedaqoji şura çağırıldı. Məktəbin direktoru, tanınmış pedaqoq Rəfiqə Babayeva qəm-kədər içində təxminən aşağıdakıları söylədi: "Bu gün Esmira müəllim bizim kollektivi tərk edir (bunu deyib kövrəlir də...) Biz 6 il bir yerdə işlədik. Elə bil bu müddət 60 ilə bərabər oldu. Esmira müəllim öz yüksək intellekti, möhkəm nizam-intizamı, ciddiliyi, gözəl insanı keyfiyyətləri ilə kollektivi valeh etdi.Mən əminəm ki, harada işləməsindən asılı olmayaraq, Esmira müəllim

uğur qazanacaq. Gəlin arzu edək ki, o, təzə mənzildə rahatlıq tapsın. Qoşa balası o mənzildə xoşbəxt böyüsün... (bunu deyib yenə kövrəlir)". Beləliklə, E.Məhərrəmova Xətai rayonuna köçür və rayondakı 204 saylı orta məktəbdə köçürülmə yolu ilə pedaqoji fəaliyyəti davam etdirir.

O vaxtdan 20 il ötür. Bu illər ərzində məktəbdə çox şey dəyişib. Belə ki təhsil ocağı xeyli genişlənib, şagird və müəllimlərin sayı çoxalıb. Təkcə Esmira müəllim məktəbə sadiq qalaraq bütün səy, bilik və bacarığını, təşkilatçılıq qabiliyyətini doğma məktəbə, sevimli şagirdlərinə sərf edib. Axı o həm də məktəbdə ibtidai sinifiər üzrə direktor müavinidir. Riyaziyyat fənnini tədris etməklə yanaşı, bilik və nizam-intizamın bünövrəsinin qoyulduğu ibtidai siniflərə böyük diqqət yetirir. Bu təhsil ocağında isə 28 ibtidai sinif var ki, həmin siniflərdə 600-ə qədər şagird təhsilə cəlb olunub. Ümumiyyətlə, 204 saylı məktəb 2000-nə qədər şagirdə öz qoynunda yer verib, onların təlim-tərbiyəsi ilə 200 müəllim məşğul olur. Təhsil ocağında təkcə 15 riyaziyyat müəllimi fəaliyyət göstərir. Esmira Məhərrəmova isə zəngin təcrübəsi, bilik və bacarığı, dərsmənimsəmə qabiliyyətilə təkcə çalışdığı orta məktəbdə deyil, Xətai rayon Təhsil Şöbəsində də tanınır, təcrübəsi geniş yayılır. Məhz Esmira müəllimin təşəbbüsü

ilə ilk dəfə 204 saylı məktəb riyaziyyat təmaüllü təhsil ocağına çevrilib.

Hər il orta məktəbdən pərvazlanıb həyatın qoynuna atılan neçə-neçə gənc dəqiq elmlərə daha maraq göstərir. Təkcə keçən il Esmira müəllimin sinif rəhbəri olduğu XI "a" sinifindəki 26 məzundan 20-si ali orta məktəblərə qəbul olunmuşdur. Ali kateqoriyalı bu riyaziyyat müəllimi zəngin təcrübəsini, metodunu müxtəlif mətbu orqanlarında, eləcə də "Azərbaycan müəllimi" qəzetində mütəmadi olaraq şərh edir.

"Qabusnama"də belə bir kəlam var: "Bütün sənətlər içərisində ən gözəl sənət danışmağı bacarmaqdır". Bu cəhətdən Esmira müəllimə uğur qazandıran onun səlis və aydın nitqi, səbir və təmkinliyidir. Elə bu keyfiyyətlərinə görə, şagirdlərinə istədiyini çatdıra bilir. Ümumiyyətlə, öz istədiyinə nail olur. O həm də çox təpərli, zabitəli qadındır, xanım-xatun anadır.

Yubiley ərəfəsində Esmira müəllimlə görüşüb bir neçə sualla yubilyara müraciət etdim:

- Esmira müəliim, nə üçün məhz müəllim olmağı qərara aldınız, bu, öz arzunuz idi, yoxsa ailədən gəlirdi?

— Əvvəla, mən uşaqlıqdan müəllimliyin müqəddəs peşə olduğunu yaxşı bilirdim. Amma orta məktəbdə riyaziyyat müəllimimiz İbrahim Bünyatov (ruhu şad olsun!) məhz müəllim olacağıma, necə deyərlər, qəti fərman verdi. Ailəmə gəldikdə isə rəhmətlik atam ticarət sahəsində çalışıb, anam isə evdar qadın kimi biz 6 uşağın tərbiyəsi ilə məşğul olub. Bizim üstümüzdə kirpiyində od götürüb.

- Bu peşənin çətinliyi və məsuliyyəti şizi usandırmayıb ki? Yenidən peşə seçəsi olsaydınız, təkrarən bu peşə üzərində dayanardınızmı?

- Əsil peşə sahibi ona deyərəm ki, seçdiyi peşənin çətinliyindən qorxub usanmasın, qəvvas olub dənizin dərinliklərinə baş vursun. Məhz belə olan şəraitdə əsil sənətkar, peşə sahibi yetişə bilər. Bu yerdə Şeyx Nizaminin:

Kamil bir palançı olsa da insan,

Yaxşıdır yalançı papaqçılıqdan

- kəlamı yada düşdü. Başqa bir söz sərrafı isə "Pis sənət yoxdur, pis sənətkar var" - sözlərini bu yerdə deyib. Hər bir kəs öz sənətinə hörmət bəsləməli, onu sevməlidir.

- Övladlarınızdan sənətinizin davamçısı varmı?

- İki övladım var. Qızım Aytəkin sənətimi davam etdirir. Pedaqoji Universitetin məzunudur. Hazırda eyni məktəbdə dərs deyirik. Oğlum Şahin isə İnşaat Mühəndisləri İnstitutunu bitirib.

- Dərsi necə qurursunuz?

- Hər müəllimin öz dərskeçmə üsulu var. Mən bilik səviyyəsinə görə uşaqları qruplaşdırıram, bu üsulla riyaziyyat fənnini onlara mənimsətməyə çalışıram.

- Məktəbdə hörmət etdiyiniz, bilik və bacarığını qiymətləndirdiyiniz həmkarlardan hansının adını qeyd edərdiniz?

- Təhsil ocağımızda gözəl və işgüzar müəllimlər ordusu var ki, bu zəka ordusu uşaqların təlim və tərbiyəsi ilə məşğul olur. Bu orduya bacarığı və təşkilatçılıq qabiliyyəti ilə seçilən ali kateqoriyalı müəllim Ziba Rzayeva başçılıq edir.

Metodbirləşmənin sədri Arifə Ağayeva, yeni tədris metodiarı ilə işləyən müəllimlərdən Sevil Məmmədova, Vəsilə Məmmədova, Elmira Rəhimova, Böyükxanım Fərəcova və bir neçə müəliimin adını çəkə bilərəm.

- Siz həm də ibtidai siniflər üzrə direktor müavini işləyirsiniz. İbtidai sinifiərdə dərs deyən gənc müəllimlər etimadınızı doğruldurmu? Və onlardan kimləri fərqləndirərdiniz?

- Məktəbimizdə 28 ibtidai sinif var ki, həmin siniflərdə 600-ə yaxın sagird təhsil alır. Az vaxt ərzində təcrübəli həmkarlarından öyrənən gənc müəllimlər bu gün artıq püxlələşmiş, kifayət qədər təcrübə qazanmışlar. Onlardan Bilqeyis və Könül İsmayılova bacılarının, Afət Zülfüqarova və Aytən Zeynalovanın adlarını çəkə bilərəm. Fərəhlə qeyd edim ki, bu gənc müəllimlər vaxtilə bu məktəbdə oxumuş, onlara mən dərs demişəm. Bilik və bacarıqlarını sabahımız olan uşaqlardan əsirgəməyən bu müəllimələr daim üzərində çalışırlar. Elə buna görədir ki, rayon ərazisində yaşayan valideynlər öz uşaqlarını məhz adı çəkilən müəllimlərə etibar edir, onlardan razılıqlarını bildirirlər.

- **Keçmiş şagirdlərinizlə əlaqə saxlayırsınızmı?**

- Əlbəttə, müxtəlif illərdə dərs dediyim şagirdlərim müxtəlif sahələrdə çalışsalar da, tez-tez mənə baş çəkir, zəng vurur, vəziyyətimlə maraqlanırlar, bu, mənim üçün ən böyük xoşbəxtlikdir. Görünür, şagirdlərin qəlbində yaşaya bilmişəm.

- Bəs dinə münasibətiniz?

- Dindar ailədə böyümüşəm. Anam məşədi Şükufədir. Dayılarım Hacı Rizvan, Kərbəlayı Ağababa əsil dindar olublar. Mən də bir neçə ildir ki, dinlə təmasdayam. Qurani-Kərimi oxuyuram, oruc tutub, namaz qılıram. İslam dini ən müqəddəs dindir. Adamı saflaşdırır, mənən yüngülləşdirir, insanlara məhəbbəti artırır, qəlbində mərhəmət duyğuları yaradır. Yeganə arzum Həcc ziyarətinə getmək, müqəddəs Kəbəni ziyarət etməkdir.

- Arzunuz çin olsun, Esmira müəllim. Qarşıdan gələn yubileyinizi təbrik edir, sizə müqəddəs peşənizdə daha böyük uğurlar arzulayıram.

1996-cı il

90 yaşlı təhsil ocagı

Söhbət Boradigah qəsəbə orta məktəbindən gedir

Mayın 23-ü, şənbə günü. Masallının axar-baxarlı, talış dağlarının ətəklərinə söykənmiş, dünyanın ən gözəl guşələrindən olan Boradigah qəsəbəsində əsl bayram təntənəsi hökm sürürdü. Ana təbiət də bayrama xoş ovqat qatmışdı. Baharın bir az ilıq, bir az isti nəfəsi qəsəbənin hər tərəfindən boylanan tər qızıl güllərin şehində çimərək, ətrafa xoş rayihə səpələyirdi. Necə deyərlər, gül gülü səsləyirdi, bülbül bülbülü. Təbiət nazlı gəlin kimi min bir dona girmişdi.

Bəli, Boradigahda böyük bir təmtəraq vardı. Qəsəbə sakinləri bu gün erkən oyanmışdılar. Ən çox sevinən qəsəbə məktəbliləri idi. Onlar səhər tezdən zərif əllərilə hazırlaqıları tər çiçək dəstələrini bir azdan təntətəli mərasimə gələn qonaqlara təqdim etmək üçün vaxtın yetişm**əsini səbirsizliklə gözləyirdilər. Vaxta isə lap az qalırdı. Bəs** yaxınlaşan bu **təmtəraq, mərasim nə idi? Hə, elə bizim məqsədimiz də bu girişdən sonra oxuculara həmin mərasim barədə məlumat verməkdi**r.

Bəli, Boradigah qəsəbəsində həmin gün, mayın 23-də, şənbə günü böyük qələbəlik idi. Bayram təntənəsi idi, əsl bayram idi - təhsil bayramı! Boradigah orta məktəbinin 90 illik bayramı! Bu böyük və unudulmaz yubileyə respublikamızın müxtəlif guşələrindən qonaqlar təşrif

buyurmuşdular. Həmin qonaqlar özgələri deyildi. Elə bu təhsil ocağını müxtəlif illərdə bitirərək həyatın qoynuna atılan, qaranquş kimi pərvazlanıb müxtlif peşələrə yiyələnmiş məzunlar idi. Onların arasında tanınmış alim və professorlar, müəllim və tibb işçiləri, məşhur geoloq və tikinti sahəsində çalışan mütəxəssislər və s. peşə sahibləri var idi. Axı 90 il böyük bir müddətdir. Bu illər ərzində orta məktəbi çoxlu sayda məzun bitirmişdir. Bunu faktlar və rəqəmlər də təsdiqləyir. Riyaziyyat elmləri doktoru, professor, şair və publisist Vaqif Nəsir, riyaziyyat elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, Dövlət mükafatı laureatı Bahadur Tağıyev, tibb elmləri doktoru, professor Mireldar Babayev, fizika elmləri namizədi, dosent Faiq Məmmədov, kənd təsərrüfatı elmləri namizədi Əliqulu Abbasov, hüquq elmləri doktoru Alxas Kişiyev, texnika elmləri doktoru İsmayıl Babayev, riyaziyyat elmləri namizədi Gülağa Aslanov və başqaları Boradigah orta məktəbinin yetirmələridir.

Budur, saat 11-dir. Məktəbin həyətində böyük canlanma var. Məzunlar artıq yaşlaşmış, üz-gözlərində qırışlar yuva salmış, bəyaz saçları çöhrələrinə nuranilik gətirmiş insanların 30-40 il, hətta 60 il ayrılıqdan sonra müqəddəs bir təhsil ocağının həyətində görüşməsi əsl möcüzəyə çevrilir. Uşaq kimi dolub-boşalan, kövrəkləşən

məzunların bir-biri ilə necə görüşmələrini, həmin məqamlarda nələr keçirdiklərini gərək gözlərinlə görəsən.

Bu sətirlərin müəllifi də sadalanan məzunlardan idi. 54 il əvvəl məktəbə əlvida demişdi. Bu müddət ərzində vaxtaşırı təhsil aldığı məktəblə əlaqə saxlasa da, çox məzunları görmək üçün burnunun ucu göynəyirdi. Həmin gün gözü ona ən yaxın olan adamı - 54 il görmək həsrətində olan, Boradigah orta məktəbinin ilk Ali təhsilli qadını, hazırda Masallıda baş müəllim işləyən (ingilis dili müəliimi) Adilə Məmmədovanı axtarırdı.

Tanış üzlər, mehriban baxışlar, nigaran simalar, uzaqdan incə qamətli, qarayanız, aydın baxışlı bir qadın görünür. Birdən:

-İdris!

-Adilə!

Qeyri-adi bir görüş!

Arxada qalan illər yamanca işini görüb. Mən artıq 70 yaşlı ahıl bir kişi, o isə yaşa dolmuş, lakin gözlərində, baxışlarında həyat eşqi sönməyən bir nurlu qadın! Sükutlu dəqiqələr. Sonra da əhvalpürsanlıq.

Budur, məktəbin şagirdləri məzunları tər-çiçəklərlə qarşılayırlar. Qonaqlar Boradigah 2 saylı orta məktəbə daxil olur, uzun dəhlizdən keçib vaxtilə əyləşdikləri sinif otaqlarını bir-bir gəzirlər. Acılı-şirinli, kövrək xatirələr, əziz müəllimlər yada düşür. Ədəbiyyat otağına daxil olub, hərə öz əvvəlki partası arxasında oturur. Ədəbiyyat müəllimi, 81 illik ömrünün 60 ilini müəllimliyə həsr etmiş, ötən illərin canlı salnaməçisi əməkdar müəllim Nəriman Hüseynov dərsə başlayır. Ölməz Xalq şairi Səməd Vurğunun yaradıcılığından, dramaturgiyasından söhbət açır, onun "Vaqif" dramını təhlil edir. Məzun Vaqif Nəsirli ədibin "26-lar" poemasından parçalar söyləyir. Nəriman müəllim məzunların suallarını cavablandırır. Müəllim "şagirdlər"in cavablarından razı qalır.

Məzunlar xoş ovqatla 2 saylı orta məktəbi tərk edib, 1 saylı orta məktəbə yollanırlar. Burada onları məktəbin direktoru Azər Mirzəyev qarşılayır. Şagirdlər qonaqlara ətirli gül dəstələri təqdim edirlər. Qonaqlar gül yağışına tutulur. Sonra da məzunlar məktəblə, sinif otaqları ilə tanış olurlar. Buradakı səliqə-sahman, təmizlik qonaqlara xoş ovqat aşılayır.

Saat 12-30-dur. Məzunlar Böyük Vətən müharibəsi və Qarabağ şəhidlərinin şərəfinə ucaldılmış abidələrin önünə gələrək ruhlarına dualar oxuyur və əklil qoyurlar.

Sonra da "Boradigah" şadlıq evində yubiley iştirakçıları ilə görüş keçirilir. Şadlıq evinin foyesində Boradigah məktəblilərinin əl işlərindən ibarət rəsm əsərləri qonaqların zövqünü oxşayır. Qeyd edim ki, görüş çox maraqlı və möhtəşəm keçdi. Zövqlə tərtib edilmiş, rəngarəng proqram tədbir iştirakçılarının ürəyincə oldu. Onlar öz çıxışları zamanı da bunu dilə gətirdilər. Tədbirin aparıcıları Ədalət Əhmədov və XI sinif şagirdi Nigarın istedadını ayrıca qeyd etmək lazımdır. Söz çıxışçılara verildi. El ağsaqqalı, miiəllimlər müəllimi, əməkdar müəllim Nəriman Hüseynov Boradigah orta məktəbinin 90 ildə keçdiyi şərəfli yoldan bəhs etdi. Burada çalışan və bu illər ərzində bir-birini əvəz edən direktorların və əziz müəllimlərin adlarını sadaladı və onları hörmətlə yad etdi. Bu gün respublikada müxtəlif sahələrdə çalışan adlı-sanlı müdavimlərdən söhbət açdı. 1 və 2 saylı Boradigah orta məktəblərinin direktorları Azər Mirzəyev və Əsədulla Əsədov yubilyar məktəbin rayonun ən qocaman və nümunəvi təhsil ocağı olmasını, ümummilli lider Heydər Əliyevin maarifə, təhsilə böyük önəm verdiyini, bu gün ölkə prezidenti çənab İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Millət vəkili Mehriban xanım Əliyevanın bu sahəyə göstərdiyi misilsiz qayğını ayrıca nəzərə çarpdırdılar. Heydər Əliyevin «Təhsil millətin

gələcəyidir" kəlamını dilə gətirdilər. Masallı rayonunun müxtəlif təşkilatlarından da bu mötəbər tədbirdə xeyli adam iştirak edirdi. RİH ictimai təşkilatlar və siyasi partiyalarla iş şöbəsinin böyük məsləhətçisi Nəsir Muxtarlı Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayevin yubilyar məktəbə göndərdiyi təbrik məktubunu oxudu. Təbrikdə Boradigah orta məktəbin illərin sınağından çıxaraq rayonda maarif və mədəniyyətin inkişafında oynadığı müstəsna roldan, təhsil ocağının maarifçilik ənənələrindən, burada təhsilin daim yüksək səviyyədə dayanasından bəhs olunur, 90 yaşlı məktəbə yeni uğurlar arzulanırdı.

Rayon Təhsil şöbəsinin müdiri **Nurəddin Məlikov** yubilyar təhsil ocağının nəinki Masallı rayonunda, eləcə də bütün respublikada tanınmış məktəb olmasını, başqa məktəblərə nümunə göstərilməsini tədbir iştirakçılarının nəzərinə çatdırdı.

Məktəbin məzunlarından **Vaqif Nəsirli, Vaqif Əliyev, Adilə Məmmədova, Ramiz Zeynalov, Cavanşir Əsədov, Mireldar Babayev, Gülağa Aslanov,** məktəbin qocaman müəllimi, qəsəbə Ağsaqqallar Şurasının sədri **Sayad Cəfərov v**ə s. yubilyar təhsil ocağı barədə, burada onlara dərs demiş və bu gün dünyasını dəyişmiş əziz

müəllimlərini yad etdilər, onlara verdikləri bilik və savada görə ruhlarına dualar oxudular.

Bu ərazidən Milli Məclisə deputat seçilmiş tanınmış yazıçı və publisist, "Şöhrət orden"li jurnalist Elmira Axundovanı tədbir iştirakçıları sürəkli alqışlarla qarşıladılar. Çünki bu layiqli millət vəkilinin Boradigah orta məktəbinin əsaslı təmiri və yenidən qurulmasında deputat kimi böyük əməyi olmuşdur. E.Axundova vurğuladı ki, bundan sonra da bu sahədə əməyini və bacarığını əsirgəməyəcəkdir. Sonra millət vəkili məktəbin müəllim və şagird kollektivinə təhsil sahəsində yeni uğurlar arzuladı.

Onu da vurğulayım ki, tədbir boyu məktəbin yetirməsi, istedadlı müğənni, məclislər yaraşığı Firudin Səfərov rəhbərlik etdiyi ansamblın müşayiətilə ürəkləri riqqətə gətirən şən və oynaq, lirik və həzin mahnı çələngi ilə məclis iştirakçılarına mənəvi zövq bəxş etdi.

Yubileyin təşkilat komitəsinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Ələlxüsus məktəbin məzunu, tanınmış ziyalı, ingilis dilini tədris edən müəllim, yüksək zövqə malik kinooperator, hazırda Boradigah qəsəbə bələdiyyəsinin sədri Ədalət Əhmədovun üzərinə böyük yük düşmüşdü. Onunla yanaşı, müəllim Rza Hüseynov da tədbirin

maraqlı və yaddaqalan keçməsində, məzunların cəlb olunmasında səy və bacarığını əsirgəməmişdir.

Tədbir saat 5-ə qədər davam edir. Müdavimlər şən musiqinin sədaları altında dövrə vurub, rəqs edir, yallı gedirlər. Yenə kövrək notlarla görüşüb ayrılırlar.

O gün olsun məktəbin 100 iliyində görüşək! Bəli, müdavimlər ürəkdən gələn bu sözlərlə istəməsələr də ayrılırlar.

P.S. Tədbirdə bu sətirlərin müəllifi də çıxış etdi. Unudulmaz I sinif müəllimlərini - əməkdar müəllim Qayda müəllimi, Salman müəllimi, Mirəli müəllimi, Əbülfəz müəllimi, Sona müəllimi, Fatma və Məryəm Hüseynova bacılarını, Saleh müəllimi hörmətlə yad etdi və "Salam, doğma məktəb!" şeirini oxudu. Həmin şeiri oxuculara təqdim edirəm.

Salam, doğma məktəb, xoş gördük səni.

Yubileyin mübarəkdİr, mübarək!

Nə tez keçib getdi ömürdən illər?!

O gün olsun 100 yaşını qeyd edək!

Bizi pərvaz edib qaranquş kimi,

Yola saldın sən həyatın qoynuna.

Ana nəvazişi biz səndən gördük,

Necə də mən sənə deməyim ana?!

...Göz önünə gəlir məktəb illəri,

Necə müqəddəsdi, necə də əziz?!

Unutmaqmı olar keçən günləri –

Necə də pak idi, necə də təmiz?!

Əziz müəllimləri gəlin yad edək,

Dualar oxuyaq ruhlarına biz.

Bizə öyrətdilər qələm tutmağı

Onlarla bir vurub ürəklərimiz.

O nurlu, müqəddəs, o pak insanlar,

Bizə həm də həyat dərsi verdilər

Hərəsi bir məktəb, qəlbləri bahar.

Bizə nələr öyrətdilər, eh nələr?!

...Quş qanadlı illər qalıb arxada,

Bizi yaşadan da xatirələrdir.

O illəri bir-bir yada salanda,

Yalnlz xatirələr danışır, dinir...

Salam, doğma məktəb, xoş gördük səni.

Yubileyin mübarəkdir, mübarək!

Nə tez keçib getdi ömürdən illər.

O gün olsun 100 yaşını qeyd edək!

2000-ci il

HƏR İKİ YUBİLEYİN MÜBARƏK, YASƏMƏN XANIM!

HörmətIi Yasəmən xanım! Özünün 60, baş redaktoru olduğun «Dövlət və Qanun» qəzetinin 10 illik yubiley tədbirində iştirak etmək üçün mənə verilən dəvətnamədəki xəbər ürəyimdən oldu və məni xeyli sevindirdi. Həmin tarixi səbirsizliklə gözləyirdim. Amma «sən saydığını say, gör fələk nə sayır» - deyib atalar. Səhhətimdə ciddi problemlər yarandı. «Yasəmən xanımın tədbirində iştirak edə bilmədim…» fikri məni rahat buraxmadı.

Həmin tədbirdə iştirak etsəydim, 'aşağıdakı ürək sözlərimi qonaqlara catdırardım:

- Möhtərəm tədbir iştirakçıları! Bəlli olduğu kimi, biz iki tədbiri qeyd etmək üçün bura yığışmışıq. Hamımızın yaxşı tanıdığı Yasəmən Möhübbət qızının anadan olmasının 60, başcılıq etdiyi "Dövlət və Qanun" qəzetinin 10 illik yubileylərini. Bu da təbiidir. Çünki Yasəmən Möhübbət qızı dedikdə, "Dövlət və Qanun" qəzeti yada düşür, "Dövlət və Qanun" qəzeti dedikdə Yasəmən xanım. Düzdür, Yasəmən xanıma 60 yaş vermək olmaz. Onu belə təravətli, cavan saxlayan isə saf və büllur bir qəlbə malik, hər cür həsəd və paxıllıqdan uzaq olmasıdır.

Bugünkü tədbirdə mən iştirak və çıxış etməyə bilməzdim. Çünki 50 illik jurnalist fəaliyyətimin bir qismi redaktor kimi "Dövlət və Qanun" qəzetində keçib, Yasəmən xanımla eyni kollektivdə çalışmışam. Həmin müddəti ömrümün ən yaddaqalan illəri sayıram. Mən Yasəmən xanımdan daim səmimiyyət və qayğı, hörmət və mərhəmət görmüşəm. Doğrudan da onunla ünsiyyətdə olmağın özü də bir xoşbəxtlikdir. Sadə və səmimi, gülərüz və xoşqılıq olan Yasəmən xanımla, sözün həqiqi mənasında dağı-dağı üstə qoymaq olar. Çünki işgüzardır, tədbirlidir, tələbkardır, prinsipialdır Yasəmən Möhübbətqızı. Sözübütöv, xeyirxah, nəcib bir insan olan Yasəmən xanım Azərbaycan qadınlarına şəxsi nümunədir. O, ömrünün ən gözəl və məhsuldar 10 ilini baş redatoru olduğu "Dövlət və Qanun" qəzetinə həsr etmişdir. 10 il ərzində bu mətbu orqan da böyük inkişaf yolu keçmiş, məzmun və ideya cəhətdən oxunaqlı qəzetə çevrilmişdir. "Dövlət və Qanun" öz fəaliyyətini bir neçə istiqamətdə davam etdirir. Bir tərəfdən, Respublika Qadınlar Cəmiyyətinin xətti ilə xoşbəxt XXI əsr qadınlarımızın xarüqələr yaradan bugünkü uğurlarını, nailiyyətlərini, eyni zamanda da üzləşdikləri bəzi problemlərini qəzetin səhifələrində əks etdirir, digər tərəfdən, Azərbaycan veteranlarının keçdiyi mübarizələrlə dolu şərəfli ömür yollarını işıqlandırır, eyni zamanda hüquq qəzeti olaraq

soydaşlarımızın bəzi pozulmuş hüquqları barədə konkret faktlar əsasında qəzetdə operativ və maraqlı materiallar dərc edir. Baş redaktor olaraq Yasəmən Möhübbətqızı qəzetin imkanlarından istifadə edərək, redaksiyaya daxil olmuş şikayətlərə aydınlıq gətirmək üçün neçə-neçə məmur qapısını açır, faktları dəqiqləşdirir və aşkarlığa nail olmaqla insanların pozulmuş hüquqlarını bərpa edir, müqəddəs qanunlarımızı pozanlar barədə qəzetdə tənqidi materialları oxucuların nəzərinə çatdırır. Axı hər faktın arxasında insan taleyi dayanır.

Mən yaxşı bilirəm ki, bu nəcib və xeyirxah qadın Respublika Qadınlar Cəmiyyətinin xəttilə tənha və kimsəsiz, imkansız qadınları arayıb-tapır, qapılarını açır, imkan daxilində onlara maddi və mənəvi dayaq durur, qəlblərində ümid çırağı yandırır. "Əl tutmaq Əlidən qalıb" kəlamına sadiq qalan bu imanlı məşədixanım mərhəmət və köməyini heç kəsdən əsirgəmir - bir əli həmişə verimlidir.

Qəzeti oxunaqlı edən amillərdən biri də materialların qısa və yığcam, konkret və lakonik faktlara əsaslanmasıdır. Cəmi 2-3 müəllifin gücü ilə ayda *2* dəfə oxucuların görüşünə gəlmək çox da asan deyil. Burada əsl qəzetçilik, fəcrübə və səriştə başlıca şərtdir.

Yasəmən xanım sadiq dost, səmimi insan, geniş qəlbli qadın, istedadlı jurnalist, bacarıqlı təşkilatçıdır. Gözəl ana, mehriban nənə olan Yasəmən xanım həm də uşaq kimi kövrək qəlb daşıyır köksü altında. Çünki onun örnür yolu hamar olmayıb. Keşməkeşli, enişli-yoxuşlu həyat bəxş edib tale ona. Mən özüm də iki dəfə onun kövrəlməsinə bais olmuşam. Bir dəfə 2010-cu ildə onun ad günündə Yasəmən xanıma həsr etdiyim şeiri özü oxuyanda, bir dəfə də görkəmli dilçi alim, professor, uzun illər Respublika Qadınlar Cəmiyyətinə rəhbərlik etmiş Zemfira Verdiyevanın qəfil vəfatından sonra onun barəsində "Zəriflik" jurnalında "Ölüm sevinməsin qoy..." yazısını oxuyandan sonra.

Yasəmən xanım barədə çox danışa bilərəm. Amma başqa çıxış edənləri nəzərə alıb sözümü bitirmək istəyirəm. Sonda Yasəmən xanımı hər iki yubiley münasibətilə ürəkdən təbrik edir, əziz bacıma özünün 100, "Dövlət və Qanun" qəzetinin isə 50 illik yubileylərini keçirməsini arzu edirəm və yubilyara həsr etdiyim şeiri oxumaq istəyirəm. Amma Yasəmən xanım, bu dəfə xahiş edirəm kövrəlməyəsən.

Yüz kişiyə tənsən, Yasəmən xanım!

İlləri gülərüz yola salmısan,

İllər keçir... sənsə cavan qalmısan.

Ürəyincə həyatdan kam almısan,

Daim təzə-tərsən, Yasəmən xanım!

İsmət rəmzi söyləyirəm mən sənə,

Hər bir çətinliyə gərmisən sinə,

Bağlanmısan ulusuna-elinə,

İlqarına əhsən, Yasəmən xanım!

Hər yerdə hörmətlə çəkilir adın,

Övladların sənin qolun-qanadın,

Nəvələrin sənin arzu-muradın,

Necə bəxtəvərsən, Yasəmən xanım!

Sənintək qadınlar doğular az-az.

Qeyrətinsə çox qadında tapılmaz,

"Aslanın erkəyi, dişlsi olmaz"

Yüz kişiyə tənsən, Yasəmən xanım!

2012-ci il

AKADEMİYA BAĞINDA AKADEMİK BİABIRÇILIQLAR

Azərbaycan Milli Elmlər Akademiaysı (AMEA) ən yüksək akademik elm ocağı sayılır. Yarandığı gündən bu ali elmi mərkəz dünya elminə elmin müxtəlif sahələrinə dair saysız sayda korifey elm adamları - akademiklər, professorlar, görkəmli mütəxəssislər bəxş etmişdir. Akademiyanın dünya şöhrətli alimləri bu gün də öz elmi kəşflərl, zəngin yaradıcılıqları ilə bəşər tarixinə dəyərli töhfələr ərməğan edirlər.

AMEA-nın qarşısında salınmış park ətrafda yaşayan bakılıların əsl istirahət guşəsinə çevrilmişdir. Buraya dincəlməyə gələn sakinlər skamyalarda oturub rahatlanır,

uşaqlar isə burada onlar üçün yaradılmış yellənçəklərdə əylənirlər. Gündə cəmi 2 saat - saat 18-dən 20-dək işləyən fəvvarə isə (həmin müddəti artırmaq da olar və lazımdır) burada dincələnlərə sərinlik bəxş edir, onların rahatlığına səbəb olur, parkdakı ağacların inkişafına misbət təsir göstərir.

Bütün sadalananlar yaxşıdır, parkda dincələnlərin ürəyindən xəbər verir. Amma bizim məqsədimiz elə bu istirahət guşəsində, elə bu akademiyanın qabağında hər gün şahidi olduğumuz biabırçılıqlar barədə oxuculara məlumat verməkdir, yəni aysberin görünməyən tərəfləri haqqında söhbət açmaqdır.

Necə ki akademiyada iş başa çatır, işçilər ali elm ocağını tərk edir, yəni AMEA-nın qapısı bağlanır, bu böyük və əzəmətli binanın qarşısında tamam başqa bir mənzərə yaranır. İlk növbədə bu ərazi əsl velotrekə və futbol meydançasına çevrilir. Velosipedli yeniyetmələr elə bir "qonka"ya çıxırlar ki, mütəxəssislər belə onlara həsəd apara bilər. Qabaqlarına çıxan yaşlı və uşaqlardan xəbəri olmur "veloqon"şiklərin. O bazar günü velosipedlə vurulub yerə yıxılan qadını güc-bəla ilə özünə gətirdilər, sonra da onu xəstəxanaya çatdırdılar. "Futbolçular" da onlardan geri qalmır. Anasının yanında oturub iştahla dondurma yeyən uşağa futbol topu necə dəyib

dondurmasını yerə saldısa, uşağı uzun müddət kiritmək mümkün olmadı. Yaşlı həmkarları ilə şirin-şirin söhbət edən ahıl bir nurani kişi ona tuşlanıb, axırda qucağında oturan topu götürərək, cibindən çıxardığı bıçaqla deşib, kənara tullayanda, kənarda durub bu mənzərəni həyəcanla seyr edən topun sahibi olan yeniyetmə yalnız təəssüfiə əlini yellədib oradan uzaqlaşdı...

Bu faktlar hələ toya getməlidir. İndi də akademiya bağında gördüyümüz tükürpədən biabırçı hallara keçək. Hər gün axşamüstü, təxminən saat 19 radələrində işdən çıxıb, yolumu akademiyanın yanındakı parkdan salır, hər gün də eyni mənzərələrlə qarşılaşıram. Bakının Dənizkənarı bulvarı - Milli parkı yalan olub akademiya bağının yanında. Belə ki akademiya binasının qabaq-qənşərində səf-səf düzülmüş skamyalarda oturmuş cavan oğlan və qızlar bir-biri ilə bəhsə girirlərmiş kimi, yanlarından keçən uşaqlara, ağsaqqal və ağbirçəklərə əsla məhəl qoymadan bir-birilərinə elə sarmaşırlar ki, qopacaq tufan da, baş verəcək zəlzələ də, hər hansı başqa bir təbii fəlakət də çətin ki onları ayıra bilsin. Başqa bir skamyada qız (əgər ona qız demək caizdirsə) arxası üstə uzanaraq ayaqlarını skamyaya uzatmaqla başını oğlanın dizi üstə qoyaraq xabi-xuba gedib, oğlan isə onu busələrə qərq edir. Başqa bir mənzərədə qız oğlanın qucağında əyləşib, ona sarmaşıb, elə bil üstlərinə bihuştəri səpiblər. Nə qədər bu

vəziyyətdə qaldıqlarını özləri bilər. Bir dəfə yaşlı bir kişi lap qabaq skamyaların birində oturub bir-birinə yapışqan kimi yapışmış bir cütün qabağından keçərkən özünü saxlaya bilməyib dilləndi:

- Ay bala, bu qədər də biabırçılıq olarmı? Heç olmasa bu qədər içəriyə, ağacların arasına keçin. Kişi bunu demişdi ki, oğlan ilan vurmuş kimi yerindən sıçrayıb "kayfına soğan doğrayan" kişinin üstünə şığıdı, nə şığıdı:

- A kişi, yanındakı sənin qızın-zadın deyil ki? Nə azarına qalıb? Qoymazsan dincələk? Yoldan keçənlər işə qarışıb kişini "qızının yanında özünü göstərib" şirə dönmüş oğlanın əlindən almasaydı, xəta baş verə bilərdi...

Kişinin xatırladığı o ağacların altında da biabırçı hərəkətlərin başqa növləri baş verir. Onun da şahidiyəm kı, həmin ağacların altında, kölgəliklərdə iki cüt (iki qız, iki oğlan) yerə palaz salaraq üstündə uzanaraq siqaret tüstülədir, öz biabırçı hərəkətlərini davam etdirirlər.

Ümumiyyətlə, akademiya bağında, buradakı ağacların kölgəsində hələ xatırlatmadığım və xırdalaya bilmədiyim növbənöv xoşagəlməz hallarla, biabırçılıqla hər gün axşam saat 19-dan sonra rastlaşa bilərsiniz. Qəribə burasıdır ki, həmin ərazidə bir nəfər polis işçisi belə gözə dəymir ki, sadaladığım biabırçılıqların qarşısını alsın.

Halbuki postsovet məkanında park və xiyabanlarda, əyləncə yerlərində hər addımda polis nəfərləri növbə çəkir, qayda- qanunları pozanlara, biədəb hərəkətlərə yol verənlərə qarşı mübarizə aparır, onları qanunlara riayət etməyə dəvət edirdilər.

Məni bir məsələ maraqlandırır: Görəsən akademiya rəhbərliyinin heç olmasa bir nəfərinin yolu bir dəfə də olsun saat 19-dan sonra işlədiyi bu elm mərkəzinin bağına və onun ətrafına düşmürmü? Əgər düşürsə, bəs nə üçün qeyd etdiyim xoşagəlməz hallara göz yumur? Bəs rəhbərlik fikirləşmir ki, belə əttökən biabırçılıqlar Milli Elmlər Akademiyasının adına, nüfuzuna xələl gətirir?

2008-ci il

BİR SİNƏDƏ İKİ ÜRƏK DÖYÜNÜR

Sübuta ehtiyac yoxdur ki, əsl sənət əsərində dövrün, zamanın izi qalır və illər ötüb bizdən uzaqlaşdıqca, həmin əsərin oxucusu o əsərin yazılma tarixi şəraiti dərindən duyur və o dövrü yaşayır. Belə əsərlər həmişə yazılıb, bu gün də yazılır, sabah da yazılacaq. Onlardan biri də respublikamızın erməni təcavüzünə məruz qaldığı bir çətin dövrdə döyüşçü, şair Bəhlul Orucoğlunun nəfis şəkildə buraxılmış şeirlər kitabıdır. "Gənclik" nəşriyyatında (1997-ci il) işıq üzu görmüş bu maraqlı kitab "Sənsiz necə yaşayım" adlanır. Bəri başdan qeyd edək ki, əsərdəki şeirlərin əksəriyyətində hazırkı durumda millətimizin ər oğullarının, milli ordumuzun ovqatından, döyüş əzimindən xəbər verir. Kitabdakı ilk şeir bu baxımdan dediklərimizi təsdiq edir:

Qarşımda düşməndir, arxada dəniz,

Olumla ölümün arasında biz.

Bu gün birləşməsə dəmir qeyzimiz,

Heç yandan bir kömək gəzməyək indi,

Bu çür arsızlığa dözməyək indi.

Əlində qələm, çiynində avtomat olan şair-döyüşçü bizi bir nəfər kimi birliyə çağırır və haqlı olaraq nəticə çıxarır ki, əks halda, "olumla ölüm" dilemması qarşısında qala bilərik. Bunu şeir dili ilə xatırladır. Azərbaycan döyüşçüsünün əhvali-ruhiyyəsi bu gün necədir? "Ey Vətən" şeiri həmin suala ətraflı cavab verir:

Yuxarıda Allah, aşağıda sən

Uğurlu olacaq döyüş, sən desən.

Silahı əlimə sən ki vermisən

Düşmən yanıb dönər külə, ey Vətən!

Vətənpərvər döyüşçü-şair görün öz harayı ilə xalqı, hamımızı birliyə, daxili və xarici düşmənlərə qarşı mübarizəyə, Vətən uğrunda, namus-qeyrət uğrunda necə ayağa qalxmağa səsləyir:

Təsir etmədimi belə bir zülüm?

Az qala məhv ola çəmənim-çölüm

Belə yaşamaqdan şərəfdir ölüm

Dağlardır çağıran haray, ay haray!

Müəllifin şeirlərindən belə qənaətə gəlmək olar ki, qəlbində insanlıq hissi, duyğusu olan, insan adını daşıyan hər bir xeyirxah adam həmişə ölüm-dirim gətirən qanlı-qadalı müharibəyə qarşı etiraz səsini ucaltmışdır. Təəssüflər olsun ki, erməni təcavüzkarları müharibəni sakitləşdirmək çağırışlarının nəinki eşitmək istəmir, əksinə, bəd əməllərini daha da artırırlar. Nəticədə müharibənin acı dəhşətləri, tükürpədici izləri bu gün də qalmaqdadır. Dağılmış yaşayış binaları, məktəblər, başqa tikililər, tarixi abidələr dediklərimizə canlı misaldır.

Amma kitab müəllifi nikbindir. Əmindir ki, tezliklə müharibəyə də son qoyulacaq, yurdumuzda əvvəlki əmin-amanlıq bərpa olunacaq, qaçqın-köçkünlərimiz doğma yurd-yuvasına qayıdacaq. Şair arzu edir ki, nəinki Azərbaycanımızda, eləcə də dünyamızda, bütün Yer üzündə həmişə sakitlik hökm sürsün, hamı xoşbəxt yaşasın.

Kitabdakı şeirlərin bir qismi lirik səpgidədir, yəni bu qəbildən şeirlər təmiz, ülvi hisslər, əbədi sevgi duyğuları

üzərində köklənmişdir. Kitabın "Sənsiz necə yaşayım?" adlanması da təsadüfi deyil. Axı doğrudan da sevgisiz, məhəbbətsiz yaşamaq mümkün deyil. Elə bu cəhətdən də kitabdakı "Dərdimə yanana qurban", "Getmə, ceyran", "Ay qız", "Səndən doya bilmirəm" və s. lirik şeirlər maraqla oxunur.

Bu xeyirxah, geniş qəlbli insan qədirbilən dostlarına, həmkarlarına həsr etdiyi şeirlərinə bir az da yumor əlavə edir. Ürəkdən gələn hisslərlə qələmə alınan bu şeirlərə lakoniklik, yığcamlıq hakimdir. Oxucu həmin şeirlərlə tanış olduqca, həyatını ordumuzun qudrətinin artmasına həsr edən əsgər və zabitlərimiz haqqında geniş təsəvvürə malik olurlar.

Müharibənin ölüm qoxuyan dəhşətləri ilə neçə illər ərzində üz-üzə dayanmış, yeri gələndə hərbçi dostu Rasim Kərimovla birgə düşmənə ağır zərblər endirmiş, Vətən yolunda canını belə əsirgəməyən, döyüşlərdə batalyon komandiri kimi əsgərləri öz ardınca aparmağı bacaran bu cəsur komandir köksü altında iki ürək daşıyır. Birini Vətənimizin müdafiəsinə, ölkədə asayişin, hüquqlarımızın qorunmasına həsr edir, o birini Azərbaycan poeziyasını öz dəst-xətti ilə inkişaf etdirməyə. Fərəhlidir ki, bu qeyrətli eloğlumuz hər iki sahədə uğurla addımlayır. Bu işdə ona daha böyük nailiyyətlər arzulayırıq.

Həqiqət aşiqi oldum əzəldən,

İlham aldım çeyranbaxış gözəldən.

Gözəllər yan keçir, salır nəzərdən,

Bəhlul, qoçalıqla gəz yavaş-yavaş.

1997-ci il

RUS AKTYORU QONAĞIMIZDIR

"RAHATLIĞI İŞLƏMƏKDƏ TAPIRAM"

SSRİ xalq artisti, Dövlət mükafatı laureatı Yevgeni Leonovu sənətsevərlərə təqdim etməyə ehtiyac yoxdur. Onun teatr və kinoda yaratdığı rəngarəng obrazlar qalereyası tamaşaçılara yaxşı məlumdur.

Aktyor 30 ildən artıqdır ki, sənət aləminə gəlmişdir. Hal-hazırda o, Moskvadakı Lenin komsomolu adına teatrda fəaliyyət göstərir. Bu yaxınlarda həmin teatrın

truppası Bakıda qastrol səfərində olarkən əməkdaşımız Y.Leonovla görüşmüş və aktyordan müsahibə almışdır. Aşağıda həmin müsahibəni oxuculara təqdim edirik:

- İlk dəfə hansı filmdə çəkildiyinizi xatırlayırsınızmı?

- 1949-cu ildə ilk dəfə çəkildiyim film uğursuz alındığından onun adını çəkmək istəmirəm.

- Bizə məlumdur ki, siz teatrda və kinoda eyni həvəslə çalışırsınız. Onlardan hansına daha çox üstünlük verirsiniz?

- Teatr və kino... hər ikisi qoşa qanadlarımdır. Bu qanadlarla pərvazlanmışam və onlar məni sənətin zirvəsinə çatdırmalıdır. Bununla belə, mən, necə deyərlər, teatrda doğulmuşam, oradan sənət aləminə pərvazlanmışam. Teatr mənim həyatımdır. Kino isə, nə deyim, onsuz keçinə bilmərəm. Kinosuz həyatımda nə isə bir boşluq, natamamlıq hiss edərdim.

- Tamaşaçılar sizi daha çox komik rollarda görmüşlər. Lakin bir silsilə komik rollardan sonra kino tamaşaçılarının ürəyincə olan «Belorusiya vağzalı»nda çiddi xarakterli çilingər Prixodko rolunda çıxış etmisiniz. Bu rol sizi qane edirmi?

- Bəli, bu rol mənim də ürəyimə yatıb, ünvanıma xoş sözlər bəxş etdirib. Bundan sonra da belə sanballı, ciddi rollarda məmnuniyyətlə çəkilərdim.

- Hər bir sənətkarın yaradıcılığında, doğru yol seçməsində, sənətə bağlanmasında hansısa bir şəxsin mühüm rolu olur. Sizin necə, sənətdə pərəstiş etdiyiniz bir adam varmı?

- SSRİ xalq artisti, tanınmış teatr aktyoru Mixail Yanşin. Sənət aləminə qədəm basdığım ilk gündən onun dəyərli məsləhətlərini eşitmiş və onlardan bəhrələnmişəm. Onun "Büdrədin, çalış yıxılmayasan, yıxıldın, dərhal qalx. Bir də özünə inan. Heç vaxt inamı itirmə. Çünki inamsız yaşamaq mümkün deyil" -sözləri həmişə qulaqlarımda səslənir.

- Teatrda əsasən baş rollarda çıxış etməklə yanaşı, bu vaxta kimi irili-xırdalı 70-ə yaxın filmdə çəkilmişsiniz. Buna neçə nail olmuşsunuz?

- Adətən həmişə əsas işdən - teatrdan sonra kamera qarşısına çıxıram, əksər məzuniyyətimi kino çəkilişlərində keçirirəm.

- Xoşbəxtliyə münasibətiniz?

- İnsan bütün ömrü boyu xoşbəxt ola bilməz. Elə xoşbəxt dəqiqələr, anlar var ki, bütün ömrə bərabərdir. Ya da əksinə...

- **Şəxsi həyatınız barədə nə deyərdiniz?**

- Ömür yoldaşım ədəbiyyat müəllimidir. Oğlum tələbədir. Deyəsən, mənim yolumu davam etdirmək istəyir.

- Dincəlməyə vaxt tapırsınızmı?

- Dincəlmək... Düzünü deyim ki, əsil rahatlığı istər teatrda, istərsə də kinoda ürəyimə yatan rol üzərində işləyərkən tapıram.

- Maraqlı söhbət üçün çox sağ olun.

"AKTYOR DAİM ÖZ ÜZƏRİNDƏ ÇALIŞMALIDIR"

Bu yaxınlarda Vaxtanqov adına Moskva Dövlət Akademik Teatrının aktyoru, RSFSR xalq artisti Vyaçeslav Şaleviç sovet kino sənətinin təbliği bürosu xətti ilə günəşli respublikamıza qonaq gəlmişdi. Bu ad kino

həvəskarlarına «Plyuşşixidə qovaq», «Baharın on yeddi anı», «Kapitan qızı», "Cənnət almaları" və «Xokkeyçilər" filmlərindan yaxşı tanışdır.

V.Şaleviç respublikamızda olarkən bir sıra sənaye müəssisələrində, elm ocaqlarında olmuş, öz tamaşaçıları qarşısında yaradıcılıq planlarından söz açmış və onları maraqlandıran suallara cavab vermişdir.

Belə görüşlərdən birində İ.Hacızadə aktyordan qəzetimiz üçün müsahibə almışdır. Onu oxuculara təqdim edirik:

- Necə oldu ki, məhz aktyor sənətini seçdiniz?

- Buna cavab verməkdə bir qədər çətinlik çəkirəm. Məsələ burasındadır ki, mənə qədər bizim nəsildə bu sənətə meyil göstərən olmayıb. Amma biz yaşayan binada Vaxtanqov teatrının bir çox aktyoru yaşayırdı. Uşaqlıqdan onlara isinişdim və tez-tez onlar məni teatr məşqlərinə və ilk tamaşalara aparırdılar. Günü-gündən bu ecazkar sənət aləminə həvəsim artdı. Odur ki, orta məktəbi bitirən kimi sənədlərimi birbaşa teatr məktəbinə verdim.

- Çalışdığınız sənət ocağında hansı aktyorların yaradıcılığın xüsusilə qeyd etmək istərdiniz?

- M.Ulyanov, J.Jakovlev, V.Lanovoy, V.Etuş, J.Borisova sənətkarlıq məharətinə ehtiram və qibtə etdiyim şəxsiyyətlərdir. Onların yaradıcılığı təkcə teatr sənətini deyil, incəsənətin bir çox sahələrini əhatə edir.

- Tamaşaçılar sizi geniş diapazonlu və təcrübəli bir aktyor kimi tanıyırlar. Sizin fikrinizcə aktyor öz sənətkarlıq bacarığını sənətin hansı növündə daha geniş və qabarıq şəkildə nümayiş etdirir - səhnədə, yoxsa, ekranda?

- Kino və televizor böyük texniki imkanlara makikdir. Geniş plan aktyordan qəhrəmanlıq vəziyyətini, üzündəki əzələnin xırda tərpənişini, baxışını incəliklə ekranda canlandırmağı tələb edir. Teatrda isə aktyor tamaşaçı ilə bilavasitə təmasda olur. Bu mənada səhnə aktyor üçün peşəkar ustalığı təkmilləşdirməkdə ən yaxşı məktəbdir. Ümumiyyətlə isə, aktyor daim öz üzərində çalışmalıdır.

- Gələcək yaradıcılıq planlarınız və Bakı görüşləriniz haqqında nə deyərdiniz?

- «Mosfilm»də ikiseriyalı yeni bir filmin çəkilişinə başlanılır. Onun şərti adı «Cənub ildırımı»dır. Filmdə mənə maraqlı bir rol tapşırılıb. Teatrda isə V.Mayakovskinin «Leneteriya BUFF» pyesini səhnəyə

çıxarmaq fikrindəyik. Qaldı ki, respublikamıza və onun paytaxtı gözəl Bakıya səfərimə elə şadam ki…

Doğrusu, bunu sözlə ifadə etməyə çətinlik çəkirəm. Özümü məzəmmət edirəm ki, niyə indiyə kimi bu yerlərdə olmamışam. Sizin xalq çox mehribandır. Burada qarşılaşdığım tamaşaçılar isə sözün tam mənasında sənəti sevir və sənətkarı qiymətləndirməyi bacarırlar.

- Maraqlı söhbətiniz üçün sağ olun.

ÖTƏNLƏRDƏN, KEÇƏNLƏRDƏN

MƏŞƏDİ İBADIN GÜLNAZI İNDİ HARDADIR?

1970-ci ildən sonra 10 ildən çox Azərbaycan kinosu ilə sıx təmasda olmuşam. Yəni həmin müddətdə «Kino yenilikləri» qəzetində redaktor kimi fəaliyyət göstərmiş, kino işçiləri ilə (kinorejissor və kinooperatorlar, montajçılar, kino rəssamları və s.) yaxın olmuş, adıçəkilən qəzetdə onlar barədə kifayət qədər yazılarım işıq üzü görmüşdür. İllər tarixə çevrilib arxada qaldıqca, həmin illərdə və ondan qabaqkı müddətdə Azərbaycan kinosunda öz izini qoymuş aktyorları nastolji hisslərlə yad edir, onların yaratdıqları müxtəlif xarakterli rollar gözlərim önündə canlanır və dərhal məni bir maraq narahat edir: görəsən filan aktyor indi sağdırmı və harada çalışır? Bu

yaxınlarda dahi Üzeyir bəyin komediyası əsasında çəkilişi 1956-cı ildə başa çatmış «O olmasın, bu olsun» («Məşədi İbad») filmini xatırladım və orada özünə yer tutmuş korifey sənətkarlar – Ağasadıq Gəraybəyli, Barat Şəkinskaya, Möhsün Sənani, Mustafa Mərdanov kimi müxtəlif aktyorlar, eləcə də gənc Gülnaz və Sərvər rollarının ifaçıları – Tamara Gözəlova və Arif Mirzəquliyevi xatırladım. Belə qənaətə gəldim ki, artıq onların heç biri həyatda yoxdur. Sən demə, qənaətimdə yanılıram – gözəl-göyçək Gülnaz rolunun ifaçısı Tamara Gözəlova (hazırda Ağamirova) sağ-salamatdır, maşallah, hələ bir işləyir də. 70 yaşlı bu xanım-xatun Tamara xanımın izinə düşdüm. Həmin iz məni hazırkı Milli Kitabxanaya gətirdi. Öyrəndim ki, T.Ağamirova artıq 45 ildir ki, bilik mənbəyi olan bu kitabxananın nəşriyyat şöbəsinin müdiri vəzifəsində çalışır.

Əvvəlcə onun qısa tərcümeyi-halı ilə oxucuları tanış edək.

O, 70 il əvvəl İçəişəhərdə ziyalı ailəsində doğulub. Orta təhsilini 190 nömrəli orta məktəbdə alıb. Uşaqlığı dəhşətli müharibə illərinə tuş gəlir. Yuxarı siniflərdə oxuyarkən həkim olmağı qərarlaşdırır. Odur ki, sənədlərini indiki Tibb Universitetinə verir. Lakin kifayət qədər bal toplaya bilmədiyi üçün arzusu daşa dəyir. Amma ruhdan düşmür, vaxt itirmədən sənədlərini tibb texnikumuna verir və qəbul olur, 1958-ci ildə isə oranı bitirir. Lakin ali təhsil almaq həvəsi gənc Tamaranı

tərk etmir. Ona görə də elə həmin il sonsuz marağı onu indiki Bakı Dövlət Universitetinə gətirir və Tamara BDU-nun Şərşünaslıq fakültəsinin Kitabxanaçılıq şöbəsinə daxil olur. 1965-il ildə bu ali məktəbi müvəffəqiyyətlə bitirən məzun təyinatla M.F.Axundov adına Azərbaycan Respublikas Kitabxanasında (hazırda Azərbaycan Milli Kitabxanası) ilk əmək fəaliyyətinə başlayır və taleyini həmişəlik bu elm ocağına bağlayır.

Mən də Tamara xanımla həmin kitabxanada görüşdüm. İlk sualım belə oldu:

- Tamara xanım, necə oldu ki, «O olmasın, bu olsun» filmində Gülnaz roluna çəkildiniz, o zaman necə yaşınız var idi?

- Bəri başdan söyləyim ki, bu, mənim çəkildiyim ilk və son film oldu. Həmin rola necə çəkilməyimi isə belə xatırlayıram. İndiki kimi soyuq və küləkli bir noyabr günü idi. 8-ci sinifdə ingilis dili dərsi idi. Birdən qapı döyüldü və sinfimizə 3 nəfər daxil oldu. Sonradan bildim ki, Üzeyir Hacıbəylinin « O olmasın, bu olsun» adlı komediyasını ekranlaşdıran görkəmli kinorejissor Hüseyn Seyidzadə, tanınmış operator (sonralar həm də kinorejissor) Əlisəttar Atakişiyev və ikinci operator Mirzə Mustafayevdir. Tənəffüsdə məni məktəb direktorunun otağına çağırdılar.

Oraya daxil olanda gördüm ki, məktəbimizdəki qızların arasından Gülnaz roluna çəkilmək üçün 50-yə yaxn gənc qız seçiblər. Onlardan yalnız məni Gülnaz roluna daha uyğun bilərək filmin sınaq çəkilişlərinə dəvət etdilər. Amma mən buna əsla sevinmirdim. Çünki müharibədən sonrakı çətin illər idi. Həm də cavan qızların ekran qarşısına çıxmalarına yaxşı baxmırdılar. Əsası isə o idi ki, gərək valideynlərimdən icazə alaydım. Ailəmdə də belə bir ümid var idi ki, onsuz da sınaqdan keçməyəcəyəm, ona görə də xətrimə dəyməmək üçün sınaq çəkilişlərində iştirak etməyimə mane olmadılar. Lakin sınaqdan uğurla çıxdım və Gülnaz roluna təsdiq olundum.

- Bəs valideynlərinizin bu məsələyə münasibəti necə oldu?

- Atam mənə hər cür mane olmağa çalışırdı. Elə bilirdi ki, bu çəkilişlər dərslərimə mane olacaq. Lakin filmin yaradıcıları xeyli xahiş-minnətdən sonra atamın «saqqızını oğurlaya bildilər». Beləliklə, filmin çəkilişlərinə başladıq. Görkəmli Xalq artistimiz Fatma Qədri mənimlə və Sərvər rolunun ifaçısı Arif Mirzəquliyevlə xeyli zəhmət çəkdi, bizi rola hazırladı. Nəhayət, film çəkildi və 1956-cı ildə ekranlara vəsiqə qazandı.

- Barat Şəkinskaya, Ağasadıq Gəraybəyli, Əliağa Ağayev kimi sənətkarlarla eyni çəkiliş meydançasında gənc və təcrübəsiz bir qız özünü necə hiss edirdi?

- Əlbəttə ki, ilk vaxtlarda həyəcan və qorxu məni sıxırdı. Xoşbəxtlikdən azman sənət adamlarının hamısı mənə kömək edirdi. Böyük sənət korifeyi Barat xanımın kömək və analıq qayğısını həmişə minnətdarlıqla xatırlayır və müqəddəs ruhu qarşısında baş əyirəm. Rejissor Hüseyn Seyidzadənin aktyorla apardığı yaradıcılıq işini də heç zaman unuda bilmərəm. Onu da qeyd edim ki, «O olmasın, bu olsun» Azərbaycan kino tarixində ilk tammetrajlı rəngli film idi. Bakıda lazımi şərait olmadığından, lentlər indiki Sankt-Peterburqda aşkarlandı.

- Deyəsən, Gülnazın ayağı düşərli olmadı. Daha sizi kinoya dəvət etmədilər?

- Mən belə deməzdim. Məni sonralar da dəfələrlə kino çəkilişlərinə dəvət etdilər. Belə ki görkəmli kinorejissor, müəllim və aktyor Rza Təhmasib məni Dağıstanın xalq şairi Sülyeman Stalskinin 100 illiyi münasibətilə ekranlaşdırdığı filmə dəvət etmişdi. Eləcə də, «Koroğlu» filmində Nigar roluna dəvət almışdım. Lakin hamısından imtina etdim. Hələ onu da əlavə edim ki, orta məktəbi bitirdikdən sonra məni «Azərbaycanfilm» kinostudiyasında təhsilimi davam etdirmək üçün Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna göndərirdilər. Buna da razılıq vermədim.

- Səbəbini bilmək olarmı?

- Nədənsə kinoya bağlana, ürək qızdıra bilmirdim. Görünür ki, bu da utancaq təbiətimdən irəli gəlirdi. Məni daha çox oxumaq, mütaliə etmək cəlb edirdi.

- Bildiyimə görə, sizin adınız həm də ilk televiziya diktoru kimi mədəniyyət tariximizdə qalıb. Bəs niyə bu işi davam etdirmədiniz?

- Filmin çəkilişi başa çatanda mən hələ IX sinifdə oxuyurdum. Bir dəfə ədəbiyyat müəllimimiz, Xalq artisti olan Gültəkin Cabbarlı məni yanına çağrdı və bildirdi ki, məni telestudiyaya dəvət edirlər. Ertəsi gün ora getdim. Müsabiqə otağının qarşısında çoxlu sayda yaraşıqlı qızlar növbə gözləyirdi. Hamı bərbəzəkli, yaraşıqlı libasda, mən isə məktəbli formasında idim. Bu qızları başdan-ayağa süzdüm və geri dönmək istəyəndə, bir kişi qolumdan yapışıb, söylədi ki, hara gedirsən, atrıq sənin namizədliyin təsdiq olunub. Bu, görkəmli televiziya rejissoru Rauf Kazımovski idi. Beləliklə, ilk dəfə 1956-cı il may ayının 1-də Azərbaycan televiziyasının açılışı oldu. İlk dəfə tamaşaçıları azərbaycan dilində mən salamladım. Bütövlükdə, fasilələrlə 3 il televiziya diktoru işlədim, institutda əyani təhsil aldığım üçün işdən çıxmalı oldum. İşdə aldığım əmək haqqı, üstəlik də qonorar, tələbə təqaüdündən xeyli çox olsa da, təhsilimi davam etdirməyə üstünlük verdim.

- Siz həm də ilk dəfə 1958-ci ildə Daşkənddə keçirilən Asiya, Afrika ölkələrinin kino festivalının iştirakçısı olmusunuz. Bəlkə bir qədər o illərə səyahət edəsiniz?

- Festivalda Azərbaycandan 2 film iştirak edirdi:: «Uzaq sahillərdə» və «O olmasın, bu olsun». «Uzaq sahillərdə»dən filmin baş qəhrəmanları Nodar Şaşıqoğlu və Anjelika rolunun ifaçısı Yelikoyeva; «O olmasın, bu olsun»dan isə rejissor Hüseyn Seyidzadə və operator Əlisəttar Atakişiyev daxil idilər. Nümayəndə heyətini qəbl edən o vaxtkı SSRİ mədəniyyət naziri Mixaylov deyib ki, Yelikoyevalar burada çoxdur, sizin ki bu qədər xanımlarınız var, niyə onları gətirməmisiniz? Bu təpkidən sonra Bakıya təcili teleqram vurulur, məni və Barat xanımı Daşkəndə dəvət edirlər. Yay mövsümü olduğundan təyyarəyə bilet almaq müşkül idi. Nə qədər qəribə olsa da, nazirin əmrinə görə, iki general üçün ayrılan yerləri bizə verərək, bizi ayrı-ayrı reyslərlə Daşkəndə «uçurdular».

- Tamara xanım, maraqlı həyat tarixçəniz var. Bütövlükdə, taleyinizdən razısınızmı?

- Bəli, razıyam. Ömür-gün yoldaşım Alp Ağamirov kino və teatr tənqidçisi olub. Mən televiziyada diktor işləyəndə, o baş redaktor vəzifəsində çalışırdı. 1962-ci ildə ailə qurduq. Alp müəllim uzun illər «Kommunist» qəzetində məsul katib

işləyib. Təqaüdə də oradan çıxıb. «Azərbaycanın Əməkdar Mədəniyyət işçisi» adına layiq görülüb. 2000-ci ildə dünyasını dəyişib. Yeganə oğlum da jurnalistdir. Gəlinim isə həkimdir. 2 nəvəm var. Böyük nəvəm Məcidin bu il ali məktb tələbəsi olması mənim üçün həyatda ən sevincli hadisələrdən biridir. Deməli, yaşamağa dəyər.

- Dəyər, Tamara xanım. Nəvələrinizin toyunu görəsiniz!

2010-cu il

Köçkün məktəblərimiz

Təhsil ocağı Bakıda fəaliyyətini davam etdirir

Qarabağın aynası, şah əsəri, «Qafqazın konservatoriyası» adlanan Şuşa şəhəri 8 may 1992-ci ildə respublikanın o vaxtkı rəhbərlərinin, o cümlədən müdafiə naziri Rəhim Qazıyevin səriştəsizliyi ucbatından işğal olundu, bütün qarabağlılar kimi, Şuşa sakinləri də respublikamızın müxtəlif rayonlarına səpələndi. O cümlədən Şuşa rayonu üzrə 24 ümumtəhsil məktəbi və 2 məktəbdənkənar təhsil müəssisəsi Bakı şəhəri və

respublikanın digər şəhər və rayonlarında məskən salmağa məcbur oldu. 9 nömrəli Şuşa tam orta məktəbinin qismətinə isə Bakının Binəqədi rayonu Fatmayı bağlarındakı «Rabitəçi» düşərcəsi düşdü.

Bəli, adıçəkilən qaçqın məktəbi 1992-ci ildən Respublika Rabitə Nazirliyinin tabeçiliyində olan «Rabitəçi» düşərcəsində məskunlaşmış köçkün ailələrin məktəbyaşlı uşaqları üçün təşkil olunmuşdur. Bu təhsil ocağının hansı çətinliklər hesabına yaradılmasını və uşaqların buraya yerləşdirilməsini yalnız həmin hadisələrdə fəal iştirak edənlər yetərincə bilər.

Məktəbə təcrübəli pedaqoq Qədim Abdullayev rəhbərlik edir. Qədim müəllim əslən kəlbəcərlidir. Orta məktəbi Gəncə şəhərində bitirib. Bir müddət Gəncə Alüminium Zavodunda qaynaqçı işləyib, sonra hərbi xidmətdə olub. Qədim Azərbaycan Dövlət Pedaqoji İnstitutunun ümumi texniki fənlər fakültəsini bitirir. Gənc mütəxəssis olaraq təyinatla Şuşa şəhərinə müəllim göndərilir. Bir müddət ixtisası üzrə çalışır, ömrünün firavan və gözəl çağında bəlli Qarabağ hadisəsi qara kabus kimi irəli keçir və onun da həyatına heç vaxt gözləmədiyi qaçqınlıq ömrü yazılır. 1992-2006-cı illərdə Qədim Abdullayev Azərbaycan Müəllimlər İnstitutunda metodist-müəllim kimi fəaliyyət göstərir. 2006-cı ilin oktyabr ayından 9 nömrəli Şuşa tam orta məktəbinə direktor təyin olunur.

Hazırda məktəbdə 150 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 25 pedaqoq məşğul olur. Təhsil ocağında möhkəm nizam-intizam hökm sürür. Məktəbin sahəsi çox da böyük deyil. Burada 11 sinif otağı, müəllimlər otağı yerləşir. Müəllimlər yaxşı bilir ki, dərs dediyi uşaqlar məcburi köçkünlük həyatı yaşayırlar, nəvazişə və qayğıya ciddi ehtiyacları var. Ona görə də müəllimlər şagirdlərindən bu zəruri ehtiyacı əsirgəmirlər, bütün bacarıqlarını onların təlim-tərbiyəsinə, vaxtdan səmərəli istifadə etmələrinə sərf edirlər. Belə müəllimlərdən biri də direktor müavini, dil və ədəbiyyat müəllimi Aygün İsayevadır. 25 ildir ki, şagirdlər arasında olan Aygün müəllimin əsas məqsədi uşaqlara ədəbiyyatımızı öyrətmək, onlara zəngin dilimizi sevdirməkdir. Əslən laçınlı olan, vaxtilə dağlar diyarında uzun illər məktəb direktoru işləmiş biologiya müəllimi Elşad Allahverdiyev, sinif müəllimləri Zeynəb Məmmədova, Ofeliya Babayeva, coğrafiya fənnini tədris edən Ülviyyə Abdullayeva, bədən tərbiyəsi və idman müəllimi Günay Sefixanova, riyaziyyatı uşaqlara sevdirən Arif Sadıqov şagirdlərin və məktəb kollektivinin sevimlisidir.

Fəaliyyət göstərdiyi 19 il ərzində təhsil ocağının 40 məzunu respublikanın müxtəlif ali məktəblərinə qəbul olunmuşdur. Fərəhlidir ki, onların bəziləri ali təhsilli mütəxəssis kimi yenidən doğma məktəbdə yaşlı həmkarları ilə çiyin-çiyinə çalışırlar. Riyaziyyat müəllimi Kəmalə Sadıqova, kitabxanaçı

Gülyanaq Hüseynova və laborant Aynur Axundova buna misaldır.

2009-2010-cu tədris ilində məktəbin 3 məzunu - Həlilə Mahmudova (ADU), Könül Ələsgərova (Azərbaycan Dövlət İqtisad Universiteti) və Kəmalə Ələsgərova (1 nömrəli tibb kolleci) tələbə adına layiq görülmüşdür.

Son illər respublikada təhsil sahəsində aparılan islahatlar Şuşa təhsilindən, o cümlədən, adıçəkilən 9 nömrəli məktəbdən də yan keçməyib. Həyata vəsiqə alan islahatlar Şuşanın ümumtəhsil məktəblərində böyük bir canlanma yaradıb. Bu canlanma 9 nömrəli məktəbin timsalında da aydın görünür. Tədris müəssisəsinin müəllimləri öz peşəkarlıqlarını artırmaq üçün təlim kurslarında iştirak edir, elmi-metodik vəsaitləri mütəmadi olaraq oxuyur, müzakirələrə qoşulur, qabaqcıl müəllimlərlə təcrübə mübadiləsi aparırlar. Çünki müəllim dərk edir ki, o, işini müasir tələblər səviyyəsində qurmalı, şagirdlərlə, valideynlərlə, həmkarları ilə yeni tərzdə qarşılıqlı fəaliyyətdə olmalıdır.

Azərbaycan Respublikası Rabitə və informasiya naziri cənab Əli Abbasovun göstərişi ilə məktəbə 5 ədəd kompüter verilmiş və məktəb internetə qoşulmuşdur. Bu faktın özü qaçqın məktəbi üçün böyük hadisədir. Müəllimlərin elektron dərslikləri internet xidmətindən istifadə edilməsində, açıq dərslərin

izlənməsi və müzakirə olunmasında əvəzedilməz vasitədir. Kurikulumla bağlı Zeynəb Məmmədovanın dərs dediyi III sinifdə rayon səviyyəsində açıq dərs dinlənildi. «Arı ailəsi» mövzusunda düzənlənən bu açıq dərsdə qonşu məktəblərdən qonaqlar, eləcə də rayon təhsil şöbəsi metodkabinetinin müdiri Nəzakət Hacıyeva da iştirak edirdi. İştirakçılar açıq dərsin gedişatını bəyəndilər və digər məktəblərdə də belə açıq dərslərin keçirilməsi tövsiyə olundu. Eyni zamanda Zeynəb müəllimin iş təcrübəsinin və metodikasının başqa məktəblərdə də tətbiq edilməsi qərara alındı.

Qədim müəllim məktəbdə keçirilən müxtəlif tədbirlərdən də həvəslə söhbət açdı:

- Təhsil ocağında tərtib etdiyimiz plana əsasən ilboyu müxtəlif tarixi hadisələrə, ildönümlərə həsr olunmuş tədbirlər keçirilir. «20 Yanvar», «Xocalı soyqırımı», «Şuşanın işğalı», «Novruz bayramı», «Üzeyir Hacıbəyov -125», «Şuşa-260» və s. tədbirlər bir qayda olaraq yüksək səviyyədə keçirilir. «Ana dili»nə həsr olunmuş tədbir barədə də danışmaq olar. Tədbirə geniş şəkildə hazırlıq görülmüşdü. Bura rayon təhsil şöbəsinin baş mütəxəssisi Ceyhun Əliyev də dəvət olunmuşdu. Ali təhsilli kitabxanaçı Mahirə Tağıyeva Azərbaycan dili, onun zəngin çalarlara malik olması, bu dil barədə görkəmli xarici alimlərin, dilçilərin fikirləri açıqlanmış, ulu öndər Heydər Əliyevin Azərbaycan dili barədə söylədikləri nümunə kimi qeyd

olunmuş, şagird və müəllimləri dilimizin keşiyində möhkəm dayanmaları tövsiyə olunmuşdur.

Köçkün məktəbi bəzi çətinliklərə baxmayaraq kifayət qədər uğur qazanır və həmin uğuru artırmağa çalışır. Təhsil müəssisəsi müəllimlərinin isə çətinliyi orasındadır ki, uşaqlar Qarabağı, doğma Şuşanı görməyiblər. Onlar bu tarixi və doğma yurd haqqında uşaqlara nə qədər danışsalar da, torpaq həsrətini onlara unutdura bilmirlər. Amma həm müəllimlər, həm də şagirdlər əmindirlər ki, bu həsrətin sonu olacaq və onlar tezliklə ulu məkana qovuşacaqlar. Hələlik isə 9 nömrəli Şuşa tam orta məktəbi qaçqınlıq dövrünü yaşayır.

2010-cu il

QARABAĞ SEYİDLƏRİ

HALALLIQ, PAKLIQ VƏ XEYİRXAHLIQ RƏMZİ

Müqəddəs əcdadlarının uyuduğu doğma Papravəndin həsrətilə qovrulan Seyid İsmayıl ağa torpaqlarımızın işğaldan azad

olunacağı günü səbirsizliklə gözləyir

Milli Elmlər Akademiyasının qarşısındakı park (sadəcə, Akademiya bağı) bütün fəsillərdə Bakı sakinlərinin sevimli istirahət yeridir. Gün ərzində bu istirahət guşəsi yaşından və cinsindən asılı olmayaraq, qonaq-qaralı, səs-küylü olur. Fidan balaların bir qismi yelləncəkdə yellənir, bir qismi uşaq maşınlarının sükanı arxasında otururaq bağın ətrafında dövrə vurur, gənclər cütləşib oturacaqların güncünə sıxlaşaraq söhbətləşir (bu, başqa söhbətin mövzusudur), nurani, yaşlı ahıllar isə 4-5 nəfər bir oturacaqda yan-yana otururaq ətrafdakı mənzərəni seyr edir, ya da yaddaşlarını qurdalayaraq ötüb-keçənlər barədə bir-birilərinə məlumat verirlər. Bu zaman onların çöhrələrinə gah kədər qığılcımları qonur, gah da sevinc nidaları bərq vurur.

Qəribədir ki, üç-bir, dörd-bir, bəzən də beş-bir eyni oturacaqda əyləşib şirin-şirin söhbət edən, arabir ayaqlarının keyini açmaq üçün bağın ətrafında gəzib-

dolaşan bu müdrik insanları, görünür xasiyyətlərinin, əqidə və məsləklərinin eyniliyi yaxınlaşdırır. Onlar bəzən gündə iki dəfə, bəzən bir dəfə eyni məkanda, eyni nöqtədə görüşürlər. Bu insanlar üçün onların əvvəllər tutduqları vəzifənin heç bir əhəmiyyəti yoxdur. Elə həmişə bir oturacaqda əyləşən 4 əmək veteranı - Xalq yazıçısı, professor, nakam şairimiz Mikayıl Müşfiqin yorulmaz tədqiqatçısı, Azərbaycan mənsur şeirinin banisi Gülhüseyn Hüseynoğlu, ixtisasca riyaziyyat müəllimi, ömrü boyu pedaqoji sahədə calışmış oğuzlu Bəlyar müəllim, ömrünü çətin və məsuliyyətli peşə olan sürücülüyə həsr etmiş, lakin bir dəfə də ciddi qəza törətməmiş, saatlılı şofer Mayıl və Ağdamda böyük bir seyidlər nəslinin davamçısı Seyid Miriş Ağanın oğlu Seyid ismayıl Ağa kimi. Hər birinin fərqli ömür yolu, maraqlı və keşməkeşli həyat tarixçəsi var. Hərəsi bir canlı tarixdir. O da maraqlıdır ki, bu bağ dostlarının bir-birinin həyatının tam dərinlikləri barədə kifayət qədər xəbərləri yoxdur. Yaxınlarda mən də bunun şahidi oldum. "Qarabağa aparan yol" qəzetində "İldırımdan doğulmuşlar" başlıqlı tədqiqat xarakterli yazım dərc olunmuşdu. Məqalə xalq yazıçısı Gülhüseyn Hüseynoğlunun keşməkeşli həyatından, hələ o vaxt BDU-da oxuyarkən "İldırım" adlı siyasi dərnəkdə fəaliyyət göstərdiklərinə görə 8 tələbənin sovet rejiminin sərt

qanununa tuş gələrək 25 il müddətinə Sibirə sürgün edilməsindən, burada min bir əzab-əziyyətlərə, işgənclərə məruz qalmasından, yalnız Stalinin ölümündən sonra cəzasının 7 ilini çəkib bəraət qazanaraq Azərbaycana qayıtmasından, daha sonra ali məktəbdə təhsilini davam etdirməsindən, professor adı qazanmasından və sair faktlardan bəhs edirdi. Həmin materialı Gülhüseyn müəllimin bağ dostları oxuyub, möhkəm təsirlənmişdilər. Sonra mənə bir ağızdan: «Müəllim, çox sağ ol, belə maraqlı yazıya görə. Biz indi Gülhüseyn müəllimin həyatının bütün məqamları ilə ətraflı tanış olduq», - deyə söyləmişdilər…

Seyid İsmayıl ağa hamıdan çox təsirlənmişdi. Ümumiyyətlə, sanki nurdan yaranmış qarabəniz, zil qonur gözləri çöhrəsinə işıq saçan, asta danışan bu şəxs əsl İmam övladı təsiri bağışlayır. İki əsrdən çox bir müddət ərzində Qarabağda məskunlaşmış Seyid Nurəlinin İsmayıl ağa kimi nəvələrinin ulu babaları İmam Cəfər Sadiqdir (ə). Seyid Nurəli Tərtər bölgəsinin Qərravənd elindən olan Gülxanım adlı bir Qarabağ gözəli ilə evlənir və Papravənd kəndində məskən salır. Onun iki övladı - Seyid Miriş və Seyid Suğra dünyaya gəlir. Ötən əsrin əvvəllərində Seyid Nurəli Allahın dərgahına qovuşur.

Seyid Miriş Papravənd camaatının ən halal nəslindən olan Qoşunəli kişinin qızı Əzizə xanımla ailə həyatı qurur. Onların 7 övladı - 3 oğlu və 4 qızı dünyaya gəlir. Böyük övladları Züleyxa və Əlişin ömürləri gənc yaşlarında yarımçıq kəsilir.1956-cı ildə Seyid Miriş, 1990-cı ildə isə həyat yoldaşı Əzizə xanım ömürlərini övladlarına bağışlayıb, həyata "əlvida" deyirlər.

Haqqında söhbət açdığımız Seyid Ismayıl Seyid Mirişin böyük oğludur. Maraqlı həyat tarixçəsi olan Seyid İsmayıl 1 oğul və 3 qıza mehriban ata, 12 nəvəyə sevimli babadır.

Seyid Nurəlinin və Seyid Mirişin vaxtilə ziyarətgaha çevrilmiş məzarları bu gün düşmən tapdağında olan Ağdamın Papravənd kəndindədir.

Həmişə sadə və dəbdəbəsiz güzəran keçirmiş Seyid Nurəli və Seyid Mirişin belə həyat tərzini Seyid İsmayıl da davam etdirir. Vaxtilə Şeyid Miriş qap-qapı gəzərək nəzir yığan seyidləri danlamış, onları belə xoşagəlməz yoldan çəkindirməyə çalışmışdır. Deyərmiş ki, Seyidin payı onun evinə gəlməlidir və peyğəmbər nəslindən olan qapı-qapı gəzib nəzir yığmaz. Bu, seyidlərin nüfuzuna xələl gətirər.

Seyid ismayıl ağa uzun illər kolxoz və sovxozda halal zəhmətlə məşğul olmuş, övladlarını halallıqla böyütmüşdür. Orta ixtisas təhsilli aqronom olan Seyid ismayıl yalnız xeyirxah əməllərlə el-obasının hörmət və məhəbbətini qazanmışdır. Həmişə xalqına ruzi-bərəkət bolluğu arzulayan bu mehriban insan uzun illər Papravənd kəndinin dəyirmanında dəyirmançı işləmiş, əhaliyə bu minvalla hər cür kömək göstərmiş, təknələrdən çörəyin tükənməməsinə çalışmışdır. Onu Qarabağda həm də dəmirçi kimi tanıyırdılar.

Beləiiklə, nankor və bədnam qonşularımız torpaqlarımızı işğal edənə qədər Seyid İsmayılın dəyirmanı işləmişdir. Bütün qarabağlılar kimi bugün Seyid lsmayıl da doğma Papravənddən perik düşmüş, taleyinə köçkünlük yazılmışdır. Azərbaycanın müxtəlif regionlarına səpələnmiş ağdamlıların bir qismi, o cümlədən Seyid İsmayılın ailəsi də Göyçay rayonuna pənah gətirmişdir. O, vəfalı ömür-gün yoldaşı Ənbər xanımla bu çinarlar şəhərində yaşamağa qərar verir. Ümumiyyətlə, onlar yarım əsrdən çox bir yerdə ömür sürmüş, bir-birilərinə arxa-dayaq durmüş, qəmli-şad günlərini bölüşmüşlər. Amma əfsus ki, Ənbər xanım 12 il əvvəl İsmayıl ağanı əbədi tərk etmiş, Ağdam həsrətilə dünyasını dəyişərək, onu yetim qoymuşdur. Həyat yoldaşını itirəndən sonra Seyid İsmayil Göyçayda duruş

tapa bilməyib, bir yandan da köçgünlük həyatı, qaçqınlıq damğası ona çox təsir etmiş, elə bu səbəbdən də bir neçə ildir ki, Bakıda yaşayan oğlu və qızlarının yanına köçməyə məcbur olub.

Elə o vaxtdan da İsmayıl ağa Akademiya bağında tez-tez görünür. Gününün xeyli hissəsini burda tanış olub ünsiyyət bağladığı dost və tanışları ilə keçirir, onlarla həmsöhbət olur, dərdlərini bölüşür, görüb-gördüklərindən danışır, ömür kitablarının maraqlı səhifələrini vərəqləyirlər. Doğru deyirlər ki, bölüşdükcə dərd azalır.

Əsl mömin, imanlı, Allah adamı olan Seyid İsmayıl bu bağdakı dost-tanışları arasında İslam dinini geniş təbliğ edir, bu dinin müqəddəsliyindən söhbət açır, insanın mənən saflaşmasında onun əvəzsiz rolundan bəhs edir. O, Bakıda nəşr olunan "Nəbz", "Haqqın Nuru", "İslam həqiqətləri" və sair qəzetlərin hər nömrəsini alıb, əvvəlcə özü oxuyur, sonra da dostlarına ötürür. Seyid İsmayıl vacib əməllərdən olan namaz qılmağın və oruc tutmağın fəzilətlərindən danışır, gündə 5 dəfə Allahın hüzurunda dayanaraq dualar etməklə Ondan mətləb diləmələrini vacib sayır.

Ağa tez-tez oturacaqda yanaşı əyləşən gənclərlə də ünsiyyətdə olur, onları ədəb-ərkana, böyüklərə hörmət

bəsləməyə, el-obaya, Vətənə sadiq qalmağa, bir də halal zəhmətlə yaşamağa dəvət edir. Axı onun özünü də halallıq, paklıq rəmzi hesab etmək olar. Sözübütöv, əhdə vəfalı, düz əqidəli bu müdrik ağsaqqal uşaq kimi təmiz və kövrəkdir, qəlb sevindirəndir, inam, iman, etibar dağarcığıdır.

Bir haşiyə: Bir ay əvvəl hansısa qəzetdə tez-tez bu bağa gələn tanınmış alim, professor, Tibb Universitetinin müəllimi Namiq Abbasovun anadan olmasının 60 illiyi münasibətilə onun ömür yolu, tibb sahəsindəki fəaliyyəti, qazandığı uğurlardan bəhs edən maraqlı məqalə dərc olunmuşdu. Həmin yazı ilə maraqlanan Ismayıl ağa professordan qəzeti istəyib, deyib ki, oxuyub, sabah çatdıraram (qəzetdən bir nüsxə olduğu üçün). Ertəsi gün qəzeti götürüb bağa gəlir ki, professora qaytarsın. Professor isə nə həmin gün, nə də ondan sonrakı günlər gəlib çıxmır. İsmayıl ağa isə düz iki həftə qəzeti aparıb-gətirir, amma yubilyar görünmür. Axırda bağ dostları onun narahatçılığını görüb deyirlər: "Ay ağa, niyə belə narahatsan? Professor adamdır, bəlkə bir yerə dincəlməyə gedib. Yay aylarıdır".. Ağa cavab verir ki, yox, əzizim, o qəzet məndə əmanətdir. Özü də cəmi bir nüsxədir, mən onu mütləq sahibinə qaytarmalıyam. Əmanətə xəyanət olmaz , - söyləyib atalarımız.

Axır ki ağanın veteran dostlarının ehtimalı düz çıxıb: Professor bir aylıq dİncəlməyə gedibmiş. Qayıdıb gələndə ağa əmanəti - qəzeti ona qaytarıb və qəlb rahatlığı tapıb. Professor ağaya minnətdarlıq edərək şöyləyib: "Çox sağ ol, müqəddəs ağa. Kaş hamı sənin kimi belə etibarlı olaydı. Onda həyat daha da gözəlləşərdi. . ."

Bəli, Seyid İsmayıl ağa əsl paklıq, halallıq rəmzidir.

MOLLA QEYBULLA – MÜASİR MOLLA NƏSRƏDDİNDİR

Atababa İsmayıloğlu bu gün oxuculara daha çox satira və yumor sahəsində məhsuldar yaradıcılığı ilə tanışdır. Onun uzun illər bu janrda yazdığı duzlu-məzəli, güldürən yumor və ləfifələri, öldürücü və düşündürücü satiraları Azərbaycan mətbuatına, radio və televiziya ekranlarına yol tapmış, satira və yumor həvəskarlarının marağına səbəb olmuşdur.

A.İsmayıloğlunun vaxtilə AzTV-nin "Səhər" proqramında göstərilmiş yumoristik səhnəcikləri bu gün də yəqin ki, diqqətli tamaşaçıların yadındadır. Satirik yazıları bir vaxtlar "Kirpi" jurnalında da dərc olunmuşdür.

Bu janrda məhsuldar işləyən Atababa müəllim son zamanlar da müxtəlif mətbu orqanlarında, o cümlədən "Azərbaycan", "Literaturnı Azerbaydjan", "Ulduz" və "Qobustan" jurnallarında, "Ədəbiyyat qəzeti"ndə (özü də bu qəzetin məsul katibi vəzifəsində çalışır), "Tək səbir" və sair qəzetlərdə çıxış edir.

Orası da sevindiricidir ki, həmyerlimizin satirik hekayələri, lətifə və monoloqları Türkiyə və İranda, eləcə də MDB məkanında tanınır və sevilir.

A.İsmayıloğlu bu gün satira, yumor və lətifə janrında yaradıcılığının ən məhsuldar dövrünü yaşayır. Müəllifin bu il "Şirvannəşr"də nəfis şəkildə çapdan çıxmış "Molla Qeybullanın sərgüzəştləri" adlı kitabı da dediklərimizi təsdiqləyir. Kitaba Atababa müəllimin, necə deyərlər, xoruz səsi eşitməyən, bir-birindən maraqlı, duzlu-məzəli lətifələri daxil edilmişdir. Kitabın, daha doğrusu, lətifələrin baş qəhrəmanı Molla Qeybulladır. Bütün lətifələr bilavasitə onunla bağlıdır, yəni məzəli əhvalatlar bir növ onun ətrafında cərəyan edir, daha konkret desək, əhvalat və hadisələr Molla Qeybullanın başına gəlir.

Orası da məlumdur ki, Azərbaycan folklor ədəbiyyatımızda Bəhlul Danəndə, Molla Nəsrəddin kimi xalq içindən çıxmış müdrik, hazırcavab, zəngin

dünyagörüşə malik el ağsaqqalları olmuş, onlarla əlaqədar lətifələr yazılmış və həmin lətifələr uzaq əsrlərdən bizim zəmanəmizə gəlib çatmış, dillər əzbərinə çevrilmişdir.

Elə Molla Qeybulla da bizim müasir, ağıllı Molla Nəsrəddinimizdir. Müəllifin ustalığı ondadır ki, o, Molla Qeybulla obrazını düşünüb tapmış, onu lətifələrinin aparıcı qəhrəmanına çevirmişdir. Molla Qeybulla bu gün də bizim aramızdadır, bu gün də həyatımızın demək olar ki, bütün sahələrində iştirak etməyə vaxt tapır, müxtəlif əqidə və xarakterli adamlarla üzləşir, onlarla həmsöhbət olur, ünsiyyət tapır. Onu sancmaq, adamlar arasında pərt etməyə çalışan kütbeyin, hərdəmxəyal, qarınqulu, çüğul, mənsəbpərəst, rüşvətxor, əliəyri və s. antipodları öz ağıllı, ölçülüb-biçilmiş, düşünülmüş cavabları ilə yerində oturdur, hazırcavablılığı ilə rəğbət qazanır, yadda qalır.

Müəllifin qeyd etdiyi kimi, Molla Qeybulla ilə bağlı lətifələrin əksəriyyəti həyatdan götürülmüş, yəni hər addımda qarşılaşdığımız, başımıza gələn, ətrafımızda cərəyan edən əhvalatlardır. Həmin əhvalatları, mətləbləri müəllif Molla Qeybulla obrazında formalaşdırıb və oxucuların mühakiməsinə verib. Onu da qeyd etmək yerinə düşər ki, kitaba daxil edilən lətifələri kitab hələ çap olunmamışdan əvvəl qocaman ədib Qılman ilkin və mərhum şair-tərcüməçi Vladimir Qafarov da bəyənmişdir.

Bir neçə lətifə şairin tərcüməsində "Bakinski raboçi" qəzetində çap olunmuşdu.

Kitabın redaktoru filologiya elmləri namizədi Xeyrulla Əliyev, rəssamı Ədalətdir.

Oxucuda əyani təsəvvür yaratmaq üçün "Molla Qeybullanın sərgüzəştləri" kitabından qısa bir lətifəni dərc edirik. Lətifə "Gönün qalınlığı" adlanır.

Məclislərin birində Molla Qeybulla. Allah kəlamından, şəriətlə təriqət arasındakı fərqdən, ləyaqətli insanın nəfsinə hakim olmasından söhbət açır. Oturanlardan biri başa düşür ki, Mollanın dediklərinin çoxu ona aiddir. Dədəsini də pula satan bu şəxs araya söz qatmaq üçün önünə qoyulmuş isti çaydan bir qurtum içib, yanında əyləşən kişiyə işarə edərək Mollaya üz tutur:

- Bu kişi çayı üfürüb içir, amma yenə ağzı yanır. Mən isə, bax, eləcə, qaynar içirəm, heç təsir etmir. Belə bilənsənsə, de görək, səbəb nədir?

Molla Qeybulla təmkinini pozmadan:

- Adamın gönünün qalınlığı - deyib əvvəlki söhbətinə qayıdır.

"Molla Qeybullanın sərgüzəştləri" kitabı Atababa İsmayıloğlunun lətifə ustası oldugundan xəbər verir. Oxuculara bugünkü çətin, sıxıntılı, gün-güzəran şəraitində bir aləm gülüş bəxş edəcək bu kitab müəllifinə yeni yaradıcılıq uğurları arzulayıb deyirik:

- Yeni lətifələrinizi gözləyirik, Atababa müəllim!

KAMİL MOLLA MƏRASİMLƏRİN YARAŞIĞIDIR

Uzun illər qatı kommunist rejimi, hökmran Rus imperiyası ən humanist din olan İslam dininə yasaq qoymuşdu. Bu qısqanclığın nəticəsi olaraq, dəhşətli repressiya illərində xalqımızın bütün dərin zəkaları, görkəmli üləmaları, din xadimləri, ruhani və mollaları kütləvi şəkildə gedər-gəlməzə göndərildi. Allahsızlığın hökm sürdüyü o illərdə elə olurdu ki, həyatdan köçənləri haqq dünyasına tapşırmaq üçün ya imperiya xofundan, ya qıtlıq üzündən molla tapmaq müşkülə çevrilərdi. Azərbaycanda elə bölgələr vardı ki, molla olmadığından, dünyaya «əlvida» deyib, həyatdan köç edənləri necə gəldi dəfn edərdilər. Dağ rayonlarında, eləcə də Qarabağın bəzi

bölgələrində demək olar ki, molla yox idi. Məclisi yola vermək üçün gedib cənub zonasından molla gətirərdilər.

Lakin Ulu Tanrı sanki müsəlman bacı və qardaşlarımızın dua və yalvarışlarını eşitdi. Əvvəlki əqidəmiz özümüzə qayıtdı, müqəddəs İslam dininə qovuşduq. Sovetlər dövründə dağıdılmış, yaxud taxıl anbarına çevrilmiş (Ona görə də Allah-Təala həmin rejimin kökünü kəsdi) Allah evləri - məscidlər bərpa olundu, yeniləri tikildi. İndi elə bir rayon yoxdur ki, orda müasir üslubda minarəli məscid inşa edilməsin. Bu gün kənd və qəsəbələrimizdə tikilmiş məscidlərə gələn müsəlman bacı və qardaşlarımız dini ocaqlarda ibadət edir, Allahın dərgahında dayanıb, onun varlığına dualar oxuyurlar.

Fərəhlidir ki, bu gün İslama böyük axın var. Dini mədrəsələr və dini tədris ocaqlarında təhsil alan oğlan və qızlar ruhani kimi yetişir. İslam dininin təbliğatçılarına çevrilirlər. Hazırda yas mərasimini layiqincə idarə edən mollalar çoxdur. Respublikamızın hər yerində belə savadlı şəxslərə rast gəlmək olar. Düzdür, hələ də "qara molla" təxəllüsü daşıyan piyada, yəni savadsız mollalar da az deyil. İslam dinindən bixəbər elə mollalar var ki, yas mərasimində ordan-burdan eşitdiklərinin də qol-qanadını sındıra-sındıra danışır, inandırıcı olmayan fantaziya ilə

dolu vaqiələr söyləməklə, məclis əhlini çaşdırır, çox vaxt da belələrinin savadsızlığı ucbatında yas mərasimlərində dini mövzuda mübahisə yaranır. İfşa olunduğunu görüb, məclisi tərk edən "bozbaş molla"larına çox rast gəlmişik. Nə yaxşı ki indi belə mollalar seyrəlir və aradan çıxır. Onların yerini isə "molla" sözünün mənasını, öz vəzifəsinin məsuliyyətini layiqincə dərk edən savadlı adamlar tutur. Belələrinin idarə etdikləri mərasimlərdə oturmaqdan, sözün əsl mənasında zövq alır, dini biliklərin çoxalır, mənən zənginləşirsən.

Sabirabad rayonunun Məmişlər kəndində yas mərasimini aparan alicənab bir şəxsi mollalara əsl nümunə hesab edirəm. Biz hüzr yerinə Bakıdan getmişdik. Mərhumə, dostumun ömür-gün yoldaşı idi. Mərasimin üçüncü gününü başa vurub, Bakıya qayıtmalı idim. Doğrusu, mollanın məclisi aparmaq səriştəsi, hazırcavablığı, dünyagörüşü, istiqanlılığı şəxsən məni yeddi gün o mərasimdə qalmağa şövqləndirdi. Nə gizlədim, cənub bölgəsində də savadlı, mədəni, sanballı mollalar çoxdur. Amma Məmişlər kəndində təsadüf etdiyim mollanın qabiliyyəti, məclisi yola vermək səriştəsi, ümumi mədəniyyəti məni valeh etdi.

Bəs haqqında ağızdolusu bəhs etdiyim molla kimdir? Harada təhsil alıb?

Məşədi Fəqan Məmmədov Saatlının Mollavaizli kəndində doğulub, ömrünün 38-ci baharını yaşayır. Tanrı ona həm zahiri, həm də daxili, mənəvi gözəllik bəxş edib. Cavan olsa da üz-gözünə Tanrıdan nur ələnib. Aydın, mənalı baxışları qəlbinin paklığından, İslam dininə sonsuz məhəbbətindən, xeyirxah və gözütoxluğundan, insanpərvərliyindən xəbər verir. Uşaqlıqdan Əli aşiqidir. Ömrünün erkən çağlarından damarlarında İslam qanı axır. İlk müəllimi Masallının Musaküçə kəndinin sakini molla Nəzir olub. 13 yaşından Qurani-Kərimə qail olub. İki ildə ilk ruhani atasından çox şey öyrənib. Lakin bildikləri onu qane etməyib. Sonra Cəlilabad və Biləsuvar rayonlarında dini biliyini dərinləşdirib. Az qala 15 il dini təlim keçib. İslam dininə, Qurani-Kərimə baş vurduqca anlayıb ki, daha dərinliklərə baş vurmaq, qəvvas olub dənizin dibindən daha çox dürr götünmək - tükənməz bilik mənbəyi olan İslamı öyrəndikcə-öyrənmək və öyrətmək lazımdır. Həzrət Mühəmməd (s) Peyğəmbərin "Beşikdən qəbir evinəcən elm öyrənmək" kəlamını özünün həyat devizi seçmiş Məşədi Molla Fəqan 38 illik ömrünün böyük bir hissəsini ruhuna qida, zehninə ziya əta edən İslamdan bəhrələnir. Bəhrələndikcə doymur, bildiklərini, öyrəndiklərini isə əhli-müsəlmana öyrədir, "yoruldum" demir.

7 gün ərzində Məşədi Fəqanı çox ağır və ağayana, təmkinli və sanballı, söhbətlərində ölçülü-biçimli gördüm. Molla üçün zəruri olan aydın və təmiz nitqi, ürəyəyatımlı və ləngərti avazı ilə o, məclisə yığışanları sanki ovsunlamışdı. Hamı bir nəfər kimi ona diqqət kəsilmişdi, hamı ondan daha çox öyrənməyə çalışırdı. Molla ona verilən sualları lazımınca və qədərincə cavablandırır, hamını razı salırdı. Məşədi Fəqan məclisdə hansı məsələlərə toxunmurdu? İnsan nə qədər fenomenal biliyə malik olarmış! Söhbət zamanı yeri gələndə loğmana çevrilib, təbabətdən danışır, sağlam olmağın şərtlərini izah edir, İslam tarixçisi kimi, bu dinin ümumbəşəri əhəmiyyətindən, dünyanın tanınmış şəxsiyyətlərinin Peyğəmbərimizə, eləcə də Əli (ə)-a verdikləri qiymətdən ilhamla bəhs edir, İslamda qadın azadlığından geniş söhbət açılmasından, haram və halallıqdan elə maraqla, şövqlə danışır ki, dinləməkdən doymursan. Azərbaycanın dahi mütəfəkkiri Nizami və Füzulinin, Nəsimi və Səməd Vurğunun söz xəzinəsindən nə qədər misallar çəkir, nümunələr göstərirdi! Məscidlərdən söhbət açan Məşədi Fəqan izahat verir ki, Misirdə 1001 məscid var. Cəmiyyətdə, müsəlman aləmində mövçud olan Allah evlərinin növlərini sadalayır, məclis əhlinin qəlbində dini ocaqlara, məbədgahlara məhəbbət alovu yandıra bilir. Məşədi Fəqan: "Hər bir Allah bəndəsinin qürur taxtı

olmalıdır və taxtdan enməməlidir",- deyəndən sonra yaltaqları qamçılayır, pul, mənsəb qazanmaq üçün mənliyini, əqidəsini, qürurunu itirən cahillərə müraciət edir, onları kişi kimi yaşamağa səsləyir.

Doğrusu mən, 63 il ömür sürmüş, az qala 40 il yazı-pozu ilə məşğul olan jurnalist kimi molla Fəqandan çox şey əxz etdim. Məclis günlərində onun bütün söhbətlərinə diqqət kəsildim, özümçün qeydlər apardım, dini kəlamlarla xeyli zənginləşdim.

Bəli, yas mərasimlərinə məhz belə yetkin, təkmil, qabiliyyət və mədəniyyət timsallı mollaları dəvət etmək lazımdır ki, qoy onlar bugünkü ağır şəraitdə, dolanışığını, güzəranını bərpa etmək üçün başqa dini təriqətləri qəbul etmək zorunda qalan soydaşlarımızı, ələlxüsus gənclərimizi səhv addım atmaqdan çəkindirsin, İslam bayrağının həmişə ucada dolandığını sübut etsinlər.

1998-ci il

Mənim bioqrafiyam

Qızılı payızda doğulmuşam. 5 sentyabr 1937-ci ildə. Qız bürcündənəm. Masallı rayonunun Boradigah qəsəbəsindəki orta məktəbin VII sinfini əla qiymətlə bitirərək Bakı Neft Texnikumuna imtahansız qəbul olunmuşam. Bir müddət Sabunçu neft mədənində operator işləmişəm. Sonra da Sovet Ordusunda hərbi xidmətdə olmuşam. Jurnalistikaya olan sonsuz həvəsim məni o vaxtkı S.M.Kirov adına ADU-nun (hazırda BDU) jurnalistika şöbəsinə gətirdi. 1963-1967-ci illərdə həmin şöbədə ali təhsil almışam. Elə o vaxtdan da jurnalist kimi Azərbaycan mətbuatında çalışıram. 50 ilə yaxındır ki, respublikamızda nəşr olunan müxtəlif qəzet və jurnallarda fəaliyyət göstərirəm. Uzun illər «Kino yenilikləri», «İmpuls», «Məşəl», «Yeni era» qəzetlərində baş redaktor, «And», «Gələcək gün», «Naxçıvan», «Faktlar» və s. qəzetlərində, eləcə də «Zəriflik» jurnalında redaktor işləmişəm. Bir neçə qəzetdə müxtəlif mövzularda yazılarla çıxış etmişəm. Çap olunan yazıları mizan tərəziyə qoysan, öz çəkimdən ağır gələr. Hazırda Respublika Təhsil Nazirliyinin orqanı olan «Təhsil» jurnalında şöbə redaktoru vəzifəsini icra edirəm.

Bədii yaradıcılıqla da məşğulam. Çoxlu mənsur şeir, lirik şeirlərim, uşaqlar üçün qələmə aldığım şeir nümunələrim müxtəlif mətbu orqanlarında işıq üzü görüb. «İşıqlı ömür» kitabı (müştərək) tanınmış neftçi alim Nuru Nuriyevin həyat və yaradıcılığına həsr olunub. Hazırda 3 kitabım çapını gözləyir. «Dünyanın bəzəyi insanlar», «Qayıt, əzizim!», «…Ürək deyir yaşa hələ». Bütövlükdə çoxlu sayda tərcümə kitabları da çap mərhələsindədir. Bura tanınmış isveç dramaturqu B.Byörsonun «Redaktor» pyesini aid edə bilərəm. Həmin tərcümə üzərində 6 aydan çox əmək sərf etmişəm.

Hələ ki qələmim işləyir, gözlərim görür. Ürəkdə təpər var. Hələ ki insanlara, dünyaya, həyata, əsası isə, yaşamağa həvəs var, qələmi yerə qoymayacağam. Çünki həyat "şirindir, qardaşım!" 2 övlad atası, 3 nəvə babasıyam.